# HEYDƏR ƏLİYEV
# VƏ
# MİLLİ MENTALİTET
# FƏLSƏFƏSİ

"QİSMƏT"
BAKI 2003



SİQNAL NÜSXƏ

QOŞQAR ƏLİYEV

66.3(5Aze)8+87
Ə-64

# HEYDƏR ƏLİYEV
# və
# MİLLİ MENTALİTET FƏLSƏFƏSİ

316
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

«QİSMƏT»
BAKI –2003

BBK.44.2
Ə-56

Elmi redaktor: *fəlsəfə elmləri doktoru, professor*
R.Ə.Mehdiyev

Rəyçilər: *fəlsəfə elmləri doktoru, professor*
Ş.A.Qasımlı
*fəlsəfə elmləri doktoru, professor*
Ə.M.Tağıyev

Ə-56. **Qoşqar Cəlal oğlu Əliyev**, Heydər Əliyev və milli mentalitet fəlsəfəsi, Bakı, «Qismət», 2003. 248 s.

Fəlsəfə elmləri doktoru **Qoşqar Əliyevin** son illərdə çapdan çıxmış **«Demokratiya və müasirlik»**, Bakı, 1996; **«Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri»**, Bakı, 1997; **«Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi»**, Bakı, 1998; **«Konfliktologiyaya giriş»**, Bakı, 1999, «Müdrükliyin təntənəsi» Bakı, 2002 və s. əsərləri oxuculara tanışdır. Keçid dövrünün aktual fəlsəfi problemlərinə həsr olunmuş bu əsərlərin məntiqi davamı kimi, **«Heydər Əliyev və milli mentalitet fəlsəfəsi»** monoqrafiyası müəllifin oxuculara yeni töfhəsidir. Bu kitabda Heydər Əliyevin sosial fəlsəfəsinin və xalqın mentalitetinin formalaşmasının elmi-metodoloji prinsipləri açıqlanır. Xalqın mentalitetinin qaynaqları, tarixi yaddaş, vətən amalı, azərbaycançılıq ideyası, milli həmrəylik və siyasi mentalitet kimi az tədqiq olunan problemlər şərh olunur. Kitab elmi işçilər, aspirantlar, tələbələr, həmçinin xalqın mentaliteti ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ə-56 4402000000 / M-085-12-2003

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

*Nəşrin sponsoru: «İNTERSUFI» firması*

© «Qismət», 2003

# GİRİŞ

Son illərdə politoloq və filosofların tədqiqatlarında önəmli yer tutan mühüm problemlərdən biri xalqların mentalitetinin öyrənilməsidir. Mənlik şüurunun xarakterik xüsusiyyətlərini araşdıran filosofların yekdil mövqeyinə görə, mentalitet xalqın özünəməxsus yaddaşıdır, özlərinin tarixən təşəkkül tapmış mədəniyyət «nüvəsinə» sadiq qalan milyonlarla insanların istər dinc sülh şəraitində, istərsə də ekstremal fəlakətli anlarda davranışının psixoloji determinantıdır. Vaxtilə A.Qramşi belə bir mülahizə irəli sürürdü ki, xalqın məişətinin mahiyyətində yığcam şəkildə, icmal formada götürülsə, ölkənin keçmiş tarixi, onun ziddiyyətləri, həlli tapılan və tapılmayan problemləri yaşayan milli həyatı yerləşir. Bu, son dərəcə maraqlı və lakonik mülahizədən belə bir nəticəyə gəlmək olar ki, mentalitetdə ölkənin tarixi taleyinin xalqın mədəniyyəti səviyyəsində ifadəsi, milli şüurda, onun sosiomədəni stereotiplə təsbit olunmuş tarixi düşüncəsinin «cövhəri» həkk olunmuşdur. Bu mənada mentalitet milli varlığımızın təcəssümü olan dövlətçiliyimizin, bugünkü özünütəsdiqimizin çox məqamlarını izah edən sosial-tarixi fenomen hesab oluna bilər.

Lakin, bəlkə də, paradoksal haldır ki, hazırda son dərəcədə dəbdə olan, müasir leksikonda özünə möhkəm yer tutmuş mentalitet anlayışının dəqiq elmi tərifini vermək mümkün olmamışdır. Hər halda, bu da maraqlıdır ki, insanların bir-birini anlamasında, xalqların ünsiyyətində bu anlayış çox mühüm idraki əhəmiyyət kəsb edir. Belə ki, «xalqı tanımaq

istəyirsənsə, onun mentalitetini öyrən» deyiminə bu gün ehtiramla yanaşmamaq mümkün deyildir.

Əgər belə demək mümkündürsə, mentalitet milli xarakterdir. Milli xarakter isə birinci növbədə dünyagörüşü əsasında formalaşır. Öz növbəsində dünyagörüşü tarixi yaddaşdan, cəmiyyətin mövcud olduğu zaman və məkanda yaranan ideallardan qaynaqlanır.

Dünyanın bir çox xalqları kimi, azərbaycanlıların da özünəməxsus düşüncə tərzi, mentaliteti vardır. Hər şeydən əvvəl, xalqımızın milli mənlik şüurunun mühüm mental xüsusiyyəti daim azadlığa can atmağı, müstəqilliyin əxlaqi mahiyyətini dərk etməyidir. Azərbaycanlıların tarixi qürur hissi keçirməyə haqqı vardır ki, onlar daim xarici müdaxiləçilərin hücumlarını qətiyyətlə dəf etmiş, özgə torpaqlarına göz tikməmişdir. İkinci bir tərəfdən, milli şüurumuzda yaşamaqda olan tarixi yaddaşımızın mental cəhətlərinin müəyyənləşməsində yadellilərin mədəniyyətimizi dəfələrlə təcavüzə məruz qoyması, ölkəmizin ərazisində süni miqrasiya proseslərinin neqativ təsiri, kənd təsərrüfatını qaldırmaq, ölkədə yeniləşmə proseslərinə impuls vermək adı altında soydaşlarımızın tarixi torpaqlarından bolşevik siyasəti nəticəsində qovulması ağrılı rol oynamışdır. Mentalitetimizin formalaşmasında xalqımızın tarixən mövcud olan ən qədim ənənələrinə islam dininin təsiri mühüm əhəmiyyət kəsb etmişdir. Milli mənlik şüurunun əxlaqi potensialının tənzimlənməsində, mentalitetimizə təsirində bir tarixi amil kimi islam dininin ideoloji rolu danılmazdır. Bu prosesdə, hər halda, yeni dini dəyərlərlə zənginləşmə və saflaşma getmişdir.

Bu da həqiqətdir ki, sarsıntılı böhran illəri mentalitetə həmişə dağıdıcı təsir göstərir, onu sağlam düşüncə məcrasından yayındırır, əxlaqi meyarları məhvərindən qoparır. Cəmiyyətin övqatı E.Dürkgeymin ifadəsilə desək, sosial onomiyaya məruz qalır, yəni cəmiyyət üzvlərinin davranışında destruktiv elementlər, bununla da birliyin parçalanmasına şərait yaradan əxlaqi amil meydana gəlir. Belə təsirə məruz qalan mentalitet bir qayda olaraq totalitar rejimdən liberal-



demokratik quruculuğa keçid dövründə bütün çalarları ilə təzahür edir.

Xalqımız milli müstəqilliyini əldə edəndən sonra Azərbaycan cəmiyyətində demokratikləşmə proseslərinin başlanması, respublika daxilində sabitliyin yaradılması ilə bağlı proseslər, ölkəmizin dünya inteqrasiyasına qoşulması – bütün bu sosial-iqtisadi yeniləşmə və sosiomədəni dəyərlərə marağın artması ilə bağlı proses milli mentalitetimizə xeyli təsir göstərmiş, mənlik şüurumuzda yeniləşməyə meyli daha da stimullaşdırmışdır.

Ölkə Prezidenti Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra cəmiyyətimizin bütün sahələrində – siyasi, iqtisadi və mədəni sferalarda baş verən cahanşümul transformasiya prosesləri Azərbaycan Respublikasının dünya birliyində tanınmasına və özünəlayiq yer tutmasına güclü impuls vermişdir. Təcrübəli dövlət başçısı, geniş diapazonlu təşkilatçı, milli psixologiyamızın mahir bilicisi Heydər Əliyev hələ Naxçıvanda milli inkişaf strategiyasını hazırlayarkən belə bir cəhəti də nəzərə almışdı ki, Azərbaycan gerçəkliyində baş verən sarsıntılı, özünəməxsus konfliktli hallarla müşayiət olunan hadisələrin milli təfəkkürə təsiri ilə bağlı neqativ təhrifedici məqamları aradan qaldırmağın özü bir mürəkkəb sosial-psixoloji proses olacaqdır. Buna görə də mentalitetin təbiətindəki sintez şəklində ehtiva olunmuş müxtəlif xarakterli ideyaların mahiyyətini dərk etməklə, tarixi, ideoloji konteksti bilməklə, konkret siyasi reallıqlarda müasir şüur səviyyəsini öyrənməklə insanların şüurunu pozitiv dəyişikliklərə yönəltmək mümkündür.

Öncə xalqın milli müstəqilliyinin sosial-siyasi və mədəni-əxlaqi mahiyyətini anlamalı, bunun dərkinin vacibliyini şüur fenomeninə çevirməsi lazımdır. Heydər Əliyevin **«müstəqilliyimiz əbədidir»** sosial-fəlsəfi konsepsiyası belə bir ideyanı aşılamağa yönəlib ki, milli mənlik şüurumuzun təbiətini dəyərincə dərk etməklə, tarixi yaddaşımızın qatlarında «vətəndaşlıq qazanmış» mental xüsusiyyətlərin məntiqini dərindən öyrənməklə biz milli mentalitetimizin əsl mahiyyətini

başa düşərik. Məsələnin ikinci dialektik və obyektiv cəhəti budur ki, belə ziddiyyətli və ağrılı proseslərin məcrasında cəmiyyətdə geniş sosiallaşma, diferensasiya prosesləri milli varlığın real vəziyyətini dərk etməyə tələbatı artırır. Belə olduqda, təbii ki, milli inkişafın məntiqi yeni düşüncə tərzinə ehtiyac yaradır, millət dünya birliyində özünü təsdiq etdirməyə çalışır, hər halda, intuitiv də olsa, bunun vacibliyini dərk edir. Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin başlıca qayəsi bundadır ki, millət bunun vasitəsilə öz milli varlığını və sosial-siyasi tələbatlarını dərk edir, sosiomədəni identikliyə can atır. Məhz bu fəlsəfənin müdrik ideyalarının təsiri sayəsində sadaladığımız tələbatlar tədricən milli mənliyin funksional tələblərinə, düşüncə tərzimizin mental elementlərinə çevrilir.

Təcrübəli dövlət başçısının hakimiyyət fəlsəfəsindən bəhs edərkən biz belə bir prinsipdən çıxış etməyi lazım bilmişik ki, xalqın potensialını, cəmiyyətin insan resurslarını səfərbər etmədən və ondan əlverişli şəkildə istifadə etmədən «durğunluq» düşüncəsini «yenidənqurma» təfəkkürünə çevirmək mümkün deyildir. Bu, dərin psixoloji prosesdir və xalqı buna hazırlamaq lazımdır. Burada yersiz sosial eksperimentçiliyə əsla yol verilməməlidir. Heydər Əliyev zəkasının ən böyük xidmətlərindən biri də bu oldu ki, o, böyük quruculuq işlərinə başlamaq üçün ilk növbədə xalqına müstəqilliyin əsl mahiyyətini dərk etdirdi, onun milli dövlətçiliyinə inamını və milli ruhunu qaytardı.

Onun ictimai-fəlsəfi görüşlərinin formalaşdırdığı yeni dünyagörüşü sayəsində Azərbaycan xalqı tarixi yaddaş, vətən amalı, milli həmrəylik kimi milli dəyərlərdə yeni məna çalarları aşkarlaya bildi, ən önəmlisi isə özünün milli həyatını, öz dövlətçiliyini quran əsl Azərbaycan xalqı kimi dərk etdi. Xalq dərk etdi ki, yalnız nüfuzlu milli liderin ətrafında birləşməklə demokratikləşmə proseslərində fəal iştirak edə və yalnız Heydər Əliyev dühasından ruhlanaraq öz milli inkişafının etibarlı təminatını yarada bilər. Azərbaycan xalqı özünün qısa tarixi zaman kəsiyində bir daha əmin oldu ki, «Heydər – xalq» fenomeni onun milli varlığını inkişafa aparan ülvi idealdır.



Müdrik siyasətçi Heydər Əliyevin Azərbaycan xalqının milli mentalitetinin və mənlik şüurunun inkişafı yolları və vasitələri, tarixi, milli və bəşəri dəyərlərin məqsədyönlülüyü və səmərəli mənimsənilməsi haqqında, həmçinin milli mədəniyyətimizin birləşdirici funksiyaları haqqında ideya və fikirləri müasir və gələcək nəsillərin dünyagörüşündə, düşüncə tərzində istiqamətləndirici rol oynayacaqdır.

Heydər Əliyev haqqında təkcə onun həmfikirləri və tərəfdarları deyil, həmçinin opponentləri, o cümlədən barışmaz müxalifətdə olanlar da yazırlar. Bu günə kimi onun fəaliyyətinə həsr olunmuş əsərlərdə siyasi düşüncə aspekti, siyasi əxlaqi problemlər üstünlük təşkil edir. H.Əliyevin fəlsəfi ideyalarına və reallığın inkişafı haqqında onun irəli sürdüyü çoxlu sayda nəzəri-metodoloji konseptual mülahizələr isə hələlik xüsusi fəlsəfi tədqiqatlar obyekti olmamışdır. Onun toxunduğu problemlər içərisində milli mentalitet fəlsəfəsi müasir sosiomədəni, siyasi, etnopsixoloji proseslər məcrasında aktuallıq kəsb etdiyindən filosoflarımızın bu istiqamətdə araşdırmalara diqqəti artırmaları vacibdir.

Ona görə də son dərəcə maraqlı və az tədqiq olunan bu problemin təhlil olunduğu kitabı yazmağa məni ruhlandıran başlıca mənəvi stimul Heydər Əliyevin öz xalqının tərəqqisinə xidmət edən, əsl xalq fəlsəfəsindən irəli gələn mənəvi intellektual ideyalarıdır.

# I FƏSİL

## MİLLİ MENTALİTET SOSİOMƏDƏNİ FENOMENDİR

Hər bir ölkənin tarixi onun xalqının bioqrafiyasıdır. Bəlkə bu səbəbdən qədim mütəfəkkirlər coğrafiyadan çox bioqrafiyanı öyrənmişlər. Deyilənə görə, xalqların, tayfaların xarakterini, psixologiyasını, adət-ənənələrini öyrənmək təcrübəsi antik dövrün mütəfəkkiri Feofrastdan başlayır. Mütəxəssislər hesab edirlər ki, bu cəhdlər heç də əyləncə xarakteri, indiki terminologiya ilə desək, «hobbi» xarakteri daşımamış, şüurlu və məqsədyönlü fəaliyyət sahəsi olmuşdur. Məsələn, Roma imperiya-sında xalqlar və tayfalar barədə toplanmış etnoqrafik, empirik biliklər sistemləşdirilərək «xalqları idarəetmək» sənətində istifadə olunmuşdur. Diplomatiya tarixindən məlum olan fakta görə, Bizans imperatoru Konstantin Baqryanorodnıy «İmperiyanı idarə etmək haqqında» (IX əsr) əsərində xalqların adət və ənənələrini məhz siyasi-elmi məqsəd naminə öyrənmişdir. Məlum olduğu kimi, Bizans imperiyası özünün coğrafi və geosiyasi mövqeyinə görə həmişə çoxlu sayda tayfalar və xalqlarla həmsərhəd olmuşdur. Ona görə də bu dövlət öz siyasətini onunla həmsərhəd olan xalqlarla manipulyasiya etmək üzərində qurmaq məcburiyyətində qalmışdır. Bu isə qonşuların və digər xalqların psixologiyasını öyrənməyi, əgər müasir fəlsəfi-etik terminlə ifadə etsək, «davranış modellərinin» dərk olunmasını tələb edirdi. Əsərdə göstərilir ki, «bizanslılar barbar tayfalar haqqında məlumatları ciddi şəkildə toplayır və yazılı qeydə alırdılar, onların hərbi qüvvələri, ticarət əlaqələri, digər tayfalarla münasibətləri, aralarındakı çəkişmələr, nüfuzlu adamları və onların pulla ələ almaq vasitələri haqqında məlumatlar toplayırdılar. Həmin böyük səylər sayəsində toplanmış məlumatlar əsasında Bizans diplomatiyası qurulurdu». (Bax: История дипломатии. М, 1991 т.1 с.98). Təbii ki, belə bir təcrübədən yalnız Bizans siyasətçiləri və filosofları istifadə etmirdi. Müsəlman Şərqinin görkəmli siyasət nəzəriyyəçisi



Nizamülmülk də özünün «Siyasətnaməsində» dövrünün dövlət başçılarına idarəçilikdə başçılıq etdikləri xalqların və münasibətə girəcəyi tayfaların adətlərini öyrənməyi də tövsiyə edərək yazırdı ki, «ölkə daxilində, uzaqdan-yaxına, böyükdən-kiçiyə qədər heç bir şey onların gözündən qaçmasın (Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk. «Siyasətnamə» Bakı, «Elm», 1987. s.29).

Xalqların ənənəsini, etnik şüurunu və həyat tərzini daha dərindən və daha maraqlı çalarlarda öyrənməyə stimul yaradan qəribə meyarlardan ən zərurisi mentalitetdir. Bəşər elminə «tarixin atası» kimi daxil olmuş Herodot öz səyahətləri zamanı görüşdüyü və müşahidə etdiyi xalqların ənənələri, adətləri, davranışları barədə maraqlı söhbətlər açmış, onların həyat və məişətinin xarakterik xüsusiyyətlərini yaşadıqları təbii mühitlə izah etmiş, təəssüratlarını ellinlərin həyat tərzi ilə müqayisə etməyə cəhd göstərmişdir. O yazırdı: «Misirdəki səma başqa yerlərdən fərqli olduğu kimi, başqa çaylardan fərqli olaraq onların çayı başqa təbii xüsusiyyətlərlə seçildiyi kimi, misirlilərin ənənələri və adətləri də, demək olar ki, hər cəhətcə başqa xalqların ənənə və adətləri ilə əkslik təşkil edirdi». Maraqlıdır ki, Herodot hər bir gördüyü xalqı öz həmvətənləri ilə müqayisə edir. Doğrudur, antik dövrün tarixçisinin əsərində çoxlu maraqlı müşahidələrlə yanaşı, guya əvvəllər mövcud olmuş xalqlar barədə fantastik təsvirlərin də şahidi oluruq. Keçi ayaqlı xalqlar, yaxud ilin altı ayını yatan insanlar barədə rəvayətlərə və söhbətlərə Herodot özü çətin ki, inanırdı. Lakin gördüyü xalqlardakı psixoloji xarakterləri, onların iqlim və landşaftlarını antik dövrün insanları ilə müqayisə etməsi ilə görkəmli tarixçi həm də müşahidə etdiyi psixoloji hallara yunanlıların mentaliteti baxımından yanaşmanın özünəməxsus nümunəsini vermişdir.

Hətta yeni dövrdə də mütəfəkkirlərin çoxu xalqlar arasındakı fərqləri mühit və iqlimlə izah etmişlər. XVIII əsr filosoflarının bir çoxunun fikrincə, Orta Şərqin və Qərbi Avropanın mötədil iqlimi intellektin inkişafına, sivilizasiyanın

tərəqqisinə «insan səylərini boğan tropik sahələrin» iqlimindən daha çox kömək edir.

Coğrafi determinizmin nümayəndəsi Ş.Monteskye hesab edirdi ki, insanlar çox şeylə – iqlim, din, qanunlar, idarəetmə prinsipləri, keçmişin nümunələri, əxlaqi prinsipləri, adətləri ilə idarə olunur, bütün bunlar xalqın ümumi ruhunu təşkil edir. Məhz «xalq ruhu» ideyası xalqların ənənələri və adətlərinin, etnik şüurunun, bütövlükdə etnosların həyat tərzinin, deməli mentalitetinin strukturunun öyrənilməsində müstəsna rol oynayır. Avropa filosoflarının milli xarakter, yaxud xalq probleminə göstərdikləri maraq mentalitetin formalaşma mənbəyi olan ənənə və adətlərin, etnomədəni şüurun, xalqların həyat tərzinin öyrənilməsini təmin edən elmi-metodoloji meyarların və yanaşmaların formalaşmasına aydınlıq gətirir. Məsələn, Herder «xalqın canı» probleminə xüsusi diqqət yetirərək mental xüsusiyyətlərin yaranmasına dili, dini və musiqini də aid etmişdir. O hesab edirdi ki, xalqın adət və ənənələrini, həyat tərzini dərk etmək üçün «xalqın hissi ilə birgə yaşamaq lazımdır ki, heç olmasa onun bir niyyətini duyasan». Başqa sözlə, o, xalqın adət və ənənələrinin, onun həyat tərzinin dərk olunmasında vacib olan mental cəhəti, xalqın sosiomədəni xüsusiyyətini daxilən, xalqa qovuşmaq yolu ilə dərk etmək prinsipini ön plana çəkir.

Hegel yazır ki, ruh özünü reallaşdıran azadlıqdır, onun sonrakı inkişafı zaman və məkanda müxtəlif dövlətləri, xalqları yaradır, xalq ruhu idrakın xüsusi pilləsidir və hər bir xalq özündə onun şüurunun nail olduğu xüsusi pilləni təcəssüm etdirir. Doğrudur, xalqlar bir-birindən fərqlənir, lakin xalqlar təbii mənəviyyat qismində birinci ruhdur. Alman filosofunun bu konsepsiyası çoxlu sayda knyazlıqların vahid dövlətdə birləşməyə başladığı Almaniyada ümumalman mənlik şüurunun xüsusi vüsət aldığı bir dövrdə işlənib hazırlanmışdır. Sonralar alman alimləri M.Latsarusun və H.Şteyntalın 1859-cu ildə nəşr etdirdikləri «Xalqların psixologiyası və dilşünaslıq jurnalı» millətlərin psixologiyası adlanan yeni bilik sahəsinin əsasını qoymuş, başlıca vəzifəsi etnik ümumilliklərin adət və



ənənələrini, etnik şüurunu, həyat tərzini, düşüncəsindəki mental xüsusiyyətlərini öyrənmək olmuşdur.

Jurnal belə bir ideyanı elmi cəhətdən əsaslandırırdı ki, bir xalqın bütün fərdləri oxşar hisslərə, niyyətlərə, arzulara malikdirlər, onların hamısı eyni xalq ruhuna malikdirlər, özlərini bir xalqa mənsub hesab edirlər. Bir xalqa mənsub olanlar eyni zamanda oxşar mənlik şüuruna malikdirlər. Başqa sözlə, xalq ruhu dildə, adət və ənənələrdə, milli davranışlarda, düşüncələrdə təzahür edir. Mentaliteti qiqalandıran, ona sabitlik verən etnomədəni amillər də məhz budur. Bu son, dərəcə mühüm məsələdir.

Bütün dövlətlərin sonrakı inkişaf tarixi də göstərdi ki, «milli xarakterin» və «milli psixologiyanın» elmi tədqiqi bilavasitə siyasi məqsəd daşımışdır. İmperiya ideoloqları imperiya tərkibinə daxil olan, eləcə də növbəti işğalların qurbanı olacaq xalqların, tayfaların milli-etnik psixologiyasını, onların fəlsəfi dünyagörüşünü öyrənməklə, əslində, imperiyanın nəinki idarə olunmasına, habelə onun ömrünün uzadılmasına xidmət etmişlər.

Məsələn, necə ola bilər ki, ingilis, yaxud portəgiz missionerinin təsiri ilə Papuas öz tayfasının kosmos haqqında təsəvvürlərindən ayrılaraq Bibliyanın həqiqətinə inanır, bir neçə illərin təbliğatı sayəsində vaxtilə totem saydığı Aya insan ayağının dəyməsi faktı ilə ruhən barışır? Deməli, insan şüuru artıq bu xüsusiyyətinə görə fəlsəfi dünyagörüşü fenomenidir, yəni fərdin şüurunun dərki zərurət olan varlığa münasibəti mənasında fəlsəfi izah predmetidir. Təcrübədə də, anlayışlarda da insanı fəaliyyətə, hərəkətə sövq edən şüur təcəssüm tapmışdır. İnsan şüursuz (yaxud bitəhəlşüursuz) hərəkət edə, mühitlə təmasa girə, yaşaya bilməz, insanın şüurunun qəbul etdiyi din, etiqad onu hərəkətə gətirən mənəvi qüvvədir. Şüur və hərəkət bir-birini şərtləndirir, çünki yaradıcı şüura nail olmaq əqidəsi insan həyatının mənası, yeganə mövcudluq funksiyasıdır. Transsendent fəlsəfə meditasiya və mistika ilə yanaşı, fəlsəfi etiqadla və şüurun müvafiq səviyyəsi ilə əlaqədardır. Alman filosofu K.Yaspers «Fəlsəfi inam» əsərində

yazır ki, düşünən insanın həyatı fəlsəfəçilikdir, yəni fəlsəfi düşüncələrə dalmaqdır (Карл Ясперс. Смысл и назначение истории. М,1991 с.438). Bu, insanın şüur aləmində yaşaması, dünyanı və özünü şüur imkanları çərçivəsində dərk etməsidir. Məhz bu prosesdə belə bir həqiqət üzə çıxır ki, şüur və onun fenomenləri əbədi sirrdir. Mentalitet nəzəriyyəsini yaradan da varlığın məhz bu ekzistensial mahiyyətidir. Məhz bu səbəbdən də müasir insan həmin sirri dərk etməyə, şüur fenomenlərinin reallaşması ilə bağlı məsələlərə cavab axtarmağa can atır.

Bu baxımdan, mentalitet nəzəriyyəsi tədqiqatçıların nəzərini aşağıdakı aktual problemlərin araşdırılmasına cəlb edir: dünyanın etnik mənzərəsi, onun dəyişilmə mexanizmləri, bu və ya digər mədəniyyətin daşıyıcısının şüurunun dünyada baş verən dəyişikliklərə uyğunlaşması prosesləri, bu işdə fəlsəfi inamın rolu, ətraf aləmin qavranılmasında insanın intellektual-idraki imkanlarının reaksiyası, ətraf aləmlə ünsiyyətdə insana təsir edən dəyər meyarları, şüurda həmin dəyərlərin bir-birini əvəz etməsi mexanizmi, etnomədəni ənənənin çevikliyi və mütəhərrikliyinin hüdudları, bunların mentalitetin formalaşmasında rolu və s.

Bütün xalqlar sosial və mədəni birliklərdir, ona görə də mentalitet nəzəriyyəsi sosioloji və kulturoloji konsepsiyalarla da «əməkdaşlığa» üstünlük verir. İnsan şüurunda və təfəkküründə baş verən proseslər çox zaman etnomədəni proseslərlə sıx əlaqədə öyrənilir. Yuxarıda sadaladığımız funksional prinsiplərdən çıxış etsək, göstərməliyik ki, mentalitet nəzəriyyəsinin xüsusiyyətlərini müəyyən edən mühüm amillər təkcə ümumsosioloji dəyərlər deyil, habelə xalqın milli şüurunun fəaliyyət qanunauyğunluqlarıdır. Bu mənada mentalitet nəzəriyyəsini mədəniyyət ənənələrinin dəyişilməsi və bu prosesin çevik xarakteri haqqında mülahizələri qəbul etməklə yanaşı, həmin mədəni ənənənin modifikasiyası prosesində etnik şüurda baş verən spesifik proseslər də maraqlandırır. Deməli, mentalitet nəzəriyyəsi etnomədəni fenomenlərin öyrənilməsini özünün predmet mövzusu hesab edir.



Beləliklə, haqqında söhbət gedən nəzəriyyə mentalitet nədir, onun elmi-tədqiqat predmeti olmasını hansı müddəalarla əsaslandırmaq olar, bu işdə fəlsəfi təfəkkürün funksiyası nədən ibarətdir? suallarına cavab axtarır. İkinci bir məsələ, mentalitet nəzəriyyəsi digər elmlərin nəzəri modellərinin izahına şamil oluna bilərmi? Belə bir nümunəyə müraciət edək: mentalitet nəzəriyyəsi daha çox sosial etnoqrafik materiallardan istifadə etməklə yanaşı, onları şüur imkanları çərçivəsində sistemləşdirir, ümumiləşdirir və şərh edir. Bu mənada həmin nəzəriyyədə «mentalitet» kateqoriyası etnoqrafik materialları şüur ölçülərində sistemləşdirməkdə konseptual rol oynayır. Deməli, «mentalitet» anlayışı insan varlığının etnomədəni mahiyyətinin dərkində iştirak etdiyindən fəlsəfi məna kəsb edir. Təsadüfi deyildir ki, mentalitet anlayışının tədqiqində relyativizm, absolyutizm və universalizm kimi fəlsəfi-metodoloji üsullardan istifadə olunur.

Lakin bu metodoloji meyarların fəlsəfi mahiyyətini izah etmək məqsədilə biz mühüm əhəmiyyət kəsb edən bir problemə - «mədəniyyət psixoloji anlayış kimi» məsələyə toxunmağı vacib sayırıq. Təcrübə göstərir ki, çoxlu sayda xalqları bir-birindən fərqləndirən əlamətlərin əksiriyyəti real mədəni fərqləri adekvat əks etdirən elementlər təşkil edir. Hər halda, bunu qeyd etmək lazımdır ki, iyirminci əsrin ikinci yarısında psixikanın etnik fərqlərinin əsasında məhz mədəniyyətin durduğunu etiraf edən alimlər də mövcud olmuşdur. Bu sahədə bir çox etno-psixoloji məktəblər mədəni və psixoloji xarakteristikalar arasındakı fərqlərin öyrənilməsini vacib saysalar da, belə yanaşma olduqca geniş yayılmış və müxtəlif aspektlərdə işlənən «mədəniyyət» anlayışını dərk etməyi ön plana çəkir. Fəlsəfi-sosioloji ədəbiyyatda mədəniyyət anlayışının 250-dən artıq definisiyasının qeydə alınmasına baxmayaraq, araşdırdığımız problem baxımından amerika kulturoloqu M.Herskovitsin verdiyi tərif daha əhatəlidir. O hesab edir ki, «mədəniyyət insanların özləri tərəfindən yaradıldığı insan əhatəsinin bir hissəsidir». Bu məcrada götürülsə, mədəniyyət anlamına insanın yaratdığı ən sadə

predmetlər, onun şüurundan yaranmış hər bir fikir aiddir. Başqa sözlə, mədəniyyət təbii olmayandır, yəni insanın yaratdıqlarıdır, o, şüur yaradıcılığının məhsuludur. Mədəniyyətin bu cür başa düşülməsi onun subyektiv insani mahiyyətinin açılmasına daha çox dəlalət edir. Məsələ burasındadır ki, əgər maddi mədəniyyət insanın yaratdığı predmetlərdən ibarətdirsə, deməli, ümumiyyətlə, onu maddi və mənəvi hissələrə bölmək düzgün olmazdı, çünki maddi predmet yaranmazdan əvvəl insanın beynində, hər şeydən əvvəl ideya kimi «qaynayır». Hər bir ideyanın başqalarına əlçatan olması üçün o hansısa materialda obyektivləşməlidir. Məsələn, kitabda, rəsmdə, heykəldə. Polşa sosioloqu Yan Şepanskinin qeyd etdiyi kimi, «insanın yaratdıqları həmişə elə bir aləmdir ki, burada fikir, yaxud yaradıcı təxəyyül təcəssüm tapdıqları materialla qovuşur, bu aləm bölünməzdir (Щепаньский Я. Элементарные понятия социологии. М, «Прогресс», 1969 с.40). Bu bölünməz dünya subyektiv aləmdir. Amerika psixoloqu H.Triandis məhz subyektiv aləmin yaratdığı subyektiv mədəniyyətdən bəhs edir. Onun fikrincə, insanların yaratdığı onların ətrafının bir hissəsidir. Həmin subyektiv mədəniyyət bu və ya digər xalq üçün birləşdirici olan bütün təsəvvürləri, ideyaları və etiqadları əhatə edərək xalqın hər bir davranış və fəaliyyətinə bilavasitə təsir edir. Doğrudur, psixoloqlar mental daşıyıcısının xüsusiyyətlərini öyrənərkən mədəniyyətlərdəki müxtəlifliyin, daha dəqiq desək mədəni müxtəlifliyin psixoloji səbəblərini öyrənməyə üstünlük verirlər. Subyektiv mədəniyyətə gəldikdə, demək olar ki, bu, əslində, öz «qonşularından» seçilmək, orijinal həyat üslubu yaratmaq cəhdi, əslində, özünəməxsus mental keyfiyyətə yiyələnməkdir. Beləliklə, psixoloji kateqoriyalara müraciət edərək deyə bilərik ki, özünə bənzər fərdlərin toplaşdığı qrupla identifikasiyaya ehtiyac eyni zamanda özünü başqa qrupların üzvlərindən fərqləndirmək cəhdidir. Məhz bu məqam tədqiqatımızda mentalitet anlayışına aydınlıq gətirməkdə metodoloji rol oynayacaqdır.



Deyilənlərə aydınlıq gətirmək üçün mentalitetin fəlsəfi dərkində mühüm istiqamətlər olan relyativizm, absolyutizm və universalizm konsepsiyalarına qayıdaq.

Məlum olduğu kimi, fəlsəfi anlayış olmaqla relyativizm idrakın, dünyagörüşü sistemlərinin mədəniyyətin təhlili və şərhinin metodoloji prinsipidir. Bu prinsipin mahiyyəti hadisələrin keyfiyyət qeyri-sabitliyinin, onların müxtəlif şəraitlərdən və vəziyyətlərdən asılılığını mütləqləşdirilməsindən ibarətdir (Современная Западная философия. Словарь. М, 1991 с.263). Dialektik təfəkkürün mühüm məqamı olan bu prinsip daxili ziddiyyəti ilə seçilir. Belə ki, relyativizmə görə, o, eyni vaxtda hər bir elmi nəzəriyyənin, əxlaqi normanın, yaxud mədəni ənənənin dəyişkənliyini və qeyri-təkmilliyini qeyd edir, başqa tərəfdən, bu və ya digər sosial hadisənin özdəyərliliyini təsdiqləyir. Hər bir halda relyativizm mədəniyyətlər arasında fərqin olması ideyasını əsas götürür. Bu baxımdan, amerika sosioloqu R.Benediktin mədəniyyətlərin konfiqurasiyası, yaxud mədəni relyativizm konsepsiyası maraq doğurur. R.Benedikt tədqiqatlarında belə bir fikri əsaslandırmağa çalışır ki, mədəni dəyərlərin məcmusu və şəxsiyyət eyniyyət təşkil edirlər, mədəniyyət cəmiyyətin şəxsiyyətidir. Onun fikrincə, hər bir mədəniyyət fərdin psixikasına uyğun gəlir. Sonralar müəllif bu mövqeyindən çəkilərək belə nəticəyə gəlir ki, fərd, mədəniyyət və cəmiyyət bir-birilə sıx bağlıdır və qarşılıqlı təsirdədirlər. Lakin bununla belə, o, psixoloji, sosial və mədəni komponentləri prinsipcə bir-birindən fərqləndirmir. Buna görə də sonrakı tədqiqatçılar mədəniyyətlə şəxsiyyətin qarşılıqlı təsirinin harada və necə baş verməsini öyrənməyə cəhd göstərmişlər.

Absolyutizm, yaxud mədəni mütləqlik cərəyanının tərəfdarları mədəniyyətlər arasındakı oxşarlıqları mütləqləşdirirlər, başqa sözlə, onlar hər bir spesifikliyi inkar edərək, mədəniyyətlər arasında aydın fərqləri nəzərə almırlar. Məsələn, mentallığı öyrənmək baxımından belə bir maraqlı məqama diqqət yetirək: absolyutistlər hesab edirlər ki, intellekt kimi psixoloji fenomen də bütün mədəniyyətlərdə eynidir.

Burada yalnız kəmiyyət fərqindən söhbət gedə bilər. Daha dəqiq desək, onlar israr edirlər ki, mədəniyyətlər eynidir, lakin qavrayışda qeyri-bərabərdirlər. Bu fəlsəfi cərəyanın qüsuru bundadır ki, burada bütün mədəniyyətlərə ABŞ və Qərbi Avropa gerçəkliyində düşünülüb hazırlanmış, digər xalqların həyat tərzinə uyuşmayan standartlar tədbiq edilir. Bu istiqamətin ziddiyyətini əks etdirən təlim «əks absolyutizm» konsepsiyasıdır. Amerika psixoloqu M.Koulun fikrincə, mədəniyyətlər bərabər və eynidir, fərqlərə gəldikdə isə, deyilməlidir ki, onların mövcudluğu səbəbini, psixoloji hadisələr zəncirində daxili oxşarlığını aşkarlamaq metodikalarının kəsərsiz olmasında axtarmaq lazımdır.

Bunun ifrat forması olan universalizm cərəyanında deyilir ki, psixika kifayət qədər mühüm xarici fərqlərlə vəhdətdədir. Bu konsepsiyanın tərəfdarlarının fikrincə, Yer üzündə hər yerdə insan varlıqlarında baş verən psixoloji proseslər eynidir. Başqa sözlə, mədəniyyət ümumi mövzuda müxtəlif variasiyaları icra edir, mədəniyyətlərin özləri isə bərabər, zahirən müxtəlifdirlər, lakin əsaslarına görə eynidirlər. Bu sahənin tədqiqatçılarını bir məsələ düşündürür: mədəniyyət insanın daxili psixi aləminə nə dərəcədə və hansı vasitələrlə təsir edir? Bu sualın cavabı tapılandan sonra bilmək olar ki, hansı psixoloji anlayışlar həqiqətən universaldır və hər bir mədəniyyətdə insanın davranışının təsvirində onlardan necə istifadə etmək olar. Lakin burada mentalitet fərqləri nəzərə alınmır. Məsələn, belə bir anlayışı götürək. Yaponlarda işlənən «qeyşa» anlayışı avropalıların şüurunda «yüngül əxlaqlı qadın» təsəvvürünü oyadır. Halbuki Yaponlarda «qeyşa» sözü hərfən «sənət adamı» anlamını bildirir. V.V.Ovçinnikov «Sakura budağı» əsərində bu fenomeni izah edərək yazır ki, qeyşa sənət adamıdır, kişiləri əyləndirəndir. Özü də yalnız mahnı oxumaq və rəqs etməklə deyil, həm də təhsilli olmağı ilə seçiləndir. Ona görə də onları yüngül əxlaqlı qadınla eyniləşdirmək düzgün deyildir (В.В.Овчинников. Ветка сакуры. М, 1971 с.146-147). Göründüyü kimi, eyni bir fenomen milli dünyagörüşlərdə və düşüncələrdə müxtəlif etik-psixoloji səviyyədə qavranılır. Ona



görə də problemə aydınlıq gətirmək baxımından fransız antropoloqu Levi-Bryulun «mentalitet» konsepsiyasını nəzərdən keçirməyi məqsədəuyğun sayırıq.

Qeyd edək ki, o, əsərlərində təfəkkür anlayışını, yəni idrak fəaliyyəti prosesini deyil, məhz müasir tədqiqatçılarda emosional xarakter kəsb edən mentallığı, sosial təsəvvürlərin məcmusu mənasını verən fenomeni tədqiq edir. Fransız fəlsəfi antropologiya elminin görkəmli nümayəndəsi mentallıq problemini tədqiq edərkən E.Dürkgeymin «kollektiv təsəvvürlər» konsepsiyasından bəhrələnmişdir. Filosof E.Dürkgeymin təlimində bu anlayış bütün cəmiyyət üzvləri üçün bir insanın varlığından asılı olmayan ümumi etiqadlar və hisslər sistemi kimi təqdim edilir. Levi-Bryulun qeyd etdiyi kimi, kollektiv təsəvvürlər nəsillərdən nəsillərə ötürülərək «özlərini şəxsiyyətə zorla qəbul etdirirlər, yəni bunun üçün düşünmək məhsulu deyil, etiqad aləminə çevrilir (Леви-Брюль Л. Сверхестественное в первобытном мышлении. М, Педагогика-Пресс, 1994. с.20.). Lakin o, E.Dürkgeymin konsepsiyasını axıra kimi qəbul etmir və yaradıcılığının sonrakı dövründə böyük həcmdə empirik materialı - etnoloqların, sosioloqların, səyyahların, missionerlərin və s. qeydlərini dərindən təhlil edərək sırf fərdi idrakı təsəvvürlərlə «primitiv xalqların» kollektiv təsəvvürləri arasında fərqləri aşkar etməyə çalışmışdır. Onun fikrincə, «primitiv xalqlarda» kollektiv təsəvvürlər digər emosional, yaxud iradi xarakterli elementlərlə qarışıq, nüfuz edilmiş formadadır (Yenə orada. s.28.). İbtidai insan mövcud halında təkcə obyektin obrazına malik olmur və onu reallıq kimi qəbul edir, habelə həmin obyektə ümidlə baxır, yaxud ondan nədənsə qorxur. Bu, kollektiv təsəvvürlərin birinci xüsusiyyətidir. Belə təsəvvürlərin ikinci xüsusiyyəti, fransız aliminə görə, məntiqi ziddiyyətləri həssas anlamaqdır. Və buna görə elmi idrak və təfəkkür bu cür ziddiyyətləri dərk etməyə çalışır. Onun fikrincə, ibtidai insanların yuxuda gördükləri gerçəklikdəki reallıq kimidir. Onlar predmetlərlə onun təsviri arasında, insanla onun adi kölgəsi

316
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

arasında nəinki fərq görmür, əksinə, onun kölgəsinin taptalanmasını insanın özünə qəsd kimi qəbul edir.

Bu mövqedən çıxış edən Levi-Bryül kollektiv təsəvvürlərin üçüncü xüsusiyyətini onların obyektiv təcrübəyə nüfuz etməməsində görür. Belə ki, təcrübə ibtidai insanın təsəvvürlərini onun gözündə sarsıda bilmir, ona nə isə öyrədə bilmir. İlk baxışda bu xüsusiyyətləri neqativ, «vəhşilərdə» məntiqi təfəkkürün olmaması kimi qiymətləndirmək olar. Lakin fransız alimi bu xüsusiyyətləri mədəni relyativizm mövqeyindən şərh edərək yeni anlayış-pramantiqi təfəkkür, yaxud pramantiqi mentallıq anlamını işlədir. Onun fikrincə, bu termin heç də nəsə məntiqə zidd bir şey deyildir. O, konsepsiyasına aydınlıq gətirərək göstərir ki, bu anlayış yalnız kollektiv təsəvvürləri özündə ehtiva edir. Tədqiqatçı hesab edir ki, praktik həyatda «primitiv» insan kollektiv təsəvvürlərdən asılı olmayaraq düşünüb hərəkət edərkən tamamilə məntiqi hərəkət edir. Belə ki, o, qəflətən yağışa düşərkən özünə daldanacaq axtarır, yaxud vəhşi heyvanla rastlaşanda qaçır. Ona görə də pramantiqi mentallıq heç də o demək deyildir ki, o, insana gerçəklikdə hərəkət etməyə mane olur. Fransız aliminin fikrincə, kollektiv təsəvvürlərin öz qanunları vardır. Bunların içərisində ən aparıcısı mənsubluq qanunudur. Qanunun mahiyyətini izah edərkən o, hər şeydən əvvəl, kollektiv təsəvvürlərin fərdi emosiyalarla yükləyən emosionallıq gücündən bəhs edir, «primitiv» insanın qəlbindən qorxu, ümid, dini dəhşət, «ümumi başlanğıca» həvəsi və tələbatı bir-birinə qarışmışdır. Bu, onun öz qrupuna mənsub olmaq tələbatıdır, müasir terminlə ifadə etsək, sosial identiklik tələbatıdır. Ümumiyyətlə, belə nəticəyə gəlmək olar ki, fransız antropoloqunun təlimində başlıca məsələ mistik aspektə üstünlük vermək deyildir. O, pramantiq anlayışında əslində ibtidai insanın mentalitetini əks etdirir.

Bu «primitiv» mentalitetin xüsusiyyəti bundadır ki, primitiv mədəniyyətlərdə müəyyən hallarda insanlar mümkün olanla mümkün olmayan, obyektivliklə mistika arasında fərq qoya bilmirlər. Başqa sözlə, primitiv insanlarda ətraf aləmi dərk

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI



etməyə tələbat yoxdur, onların yeganə cəhdi həmin aləmlə sıx vəhdətdə yaşamaqdır.

Fransız antropoloqunun fikrincə, tarixi inkişaf kollektiv təsəvvürlərin getdikcə daha çox fərdi təsəvvürlərə yaxınlaşmasıdır. Levi-Bryulun ifadəsi ilə desək, «intellektual idraki element onların düşüncəsində daha çox yer tutmağa başlayır» (Yenə orada. s.361). Mentallığın şüurda formalaşması prosesi göstərir ki, təfəkkürün mistikanın mənsubluğundan azad olması insanın öz qrup düşüncəsindən ayrılması, yəni şəxsiyyət identikliyinin inkişafıdır. Özünüdərk etməklə insanda yaşadığı dünyanı başa düşmək, bu aləmdə yaşantılarını izah etmək ehtiyacı yaranır. Əgər məntiqi dinamikaya söykənsək, hesab etmək olardı ki, insan təfəkkürünün inkişafı mənsubluq qanununa əsaslanan kollektiv təsəvvürləri aradan çıxarmalı idi. Lakin şahidi olduğumuz sosial qruplar üçün ümumi olan təsəvvürlər bu gün də aradan qaldırılmamışdır. Empirik təcrübə də sübut edir ki, ətraf aləmin elmi dərki bu aləmlə bilavasitə ünsiyyətdə olmaq ehtiyacını əvəz edə bilmir. Öz sosial qrupu ilə yanaşı, emosional mahiyyətli identiklik hissi də yaşamaqdadır. Məhz bu obyektiv prosesi, yəni hər bir mədəniyyətdə, hər bir insanda həm fərdi, həm də kollektiv təsəvvürlərin mövcudluğunu Levi-Bryul özünün sonrakı əsərlərində də etiraf etmişdir. O, «onların» və «bizlərin» təfəkkürü arasında fərqi göstərmiş, bunu keyfiyyət fərqləri kimi təsnif etmişdir.

Beləliklə, biz elmi təfəkkürlə kollektiv təsəvvürlərin bir-birinə qarşı durmasının şahidi oluruq. Əgər pramantiqi mentallığı elmi təfəkkürlə deyil, müasir insanın sosial qavraması ilə müqayisə etsək, aydın görünər ki, müxtəlif tarixi dövrlərdəki sosial təsəvvürlər arasında fərqlərə nisbətən oxşarlıqlar daha çoxdur.

Əgər müasir sosial psixologiya elminin anlayışlar sisteminə müraciət etsək, görərik ki, «sosial qavrama» termini daha çox metafora mahiyyəti daşıyır, belə ki, bu anlayış özündə təkcə sosial obyektlərin qavranılmasını deyil, həm də təfəkkür elementlərini, intensiv emosional rəngarəngliyi də

ehtiva edir. Bu problem tədqiqatçı N.Andreyevanın «Sosial psixologiya» əsərində ətraflı araşdırılır (Bax: Н.Андреева. Социальная психология. М.1997). Primitiv insanlarla müasir insanların mentallığını təşkil edən təsəvvürlərin oxşarlığı da bu cəhətlə izah olunur. Eksperimental psixologiya da sübut edir ki, bəşəriyyətin külli miqdarda elmi biliklər toplamasına baxmayaraq, mentalitetin nüvəsini təşkil edən sosial təsəvvürlər olduqca subyektiv məzmun daşıyır. Məsələnin kökü bundadır ki, sosial təsəvvürlərdə ehtiva olunmuş xürafat, stereotiplər, xülya baxışları insanlara dünyanı adekvat qavramağa mane olur. Maraqlıdır ki, bizim dövrdə də bir çox təsəvvürlər mistik məzmundan xilas ola bilməmişdir. Dini təsəvvürlərin mövcudluğu dediyimizə əyani sübutdur.

Təbii ki, müasir insan diferensasiya metodundan daha çox istifadə edir, yəni aləmi təbii və qeyri-təbii varlıqlara, təbiətə və mədəniyyətə bölür. Təbii ki, ibtidai mentalitetin tarixi təbiətini düzgün dərk etmək baxımından fransız antropoloqu K.Levi-Strossun belə bir mülahizəsi maraqlıdır. Onun əqidəsincə, təfəkkürün qeyri-şüuri strukturları da universal xarakter daşıyır. O israr edir ki, bir sosial adətin əsasında duran qeyri-şüuri strukturu aşkar etməklə biz digər adətlərin prinsiplərinin şərhini verə və təsnif edə bilərik. «Qeyri-şüuri» anlayışının məhz öz tədqiqatlarında daşıdığı məna və metodoloji yükü aydınlaşdırmaq üçün fransız alimi belə bir analogiyaya müraciət edir: mədə yeməyi, qidanı necə həzm edirsə, qeyri-şüuri də psixoloji fenomeni həzm edərək emosiyaları, təsəvvürləri, xatirələri strukturlaşdırır, onlara müəyyən bir forma verir. Bəs qeyri-şüuri strukturların forması necədir? K.Levi-Strossa görə, bu strukturların əsasında «binar müxalifətlər» (yaxud ikili qarşıdurma, qarşılaşdırma) durur.

Qeyd edək ki, mentalitetin başa düşülməsində mühüm metodoloji funksiya daşıyan iki qütbülük prinsipinin əhəmiyyətini bir çox tədqiqatçılar da göstərirlər. Haqlı olaraq belə bir mülahizə əsaslandırılır ki, hələ ibtidai insan onu əhatə edən ətrafı ikili kateqoriyalarda nizamlamağa çalışmışdı. Məsələn, həyat-ölüm, səma-yer, günəş-ay, gecə-gündüz, od-



su, kişi-qadın, sağ-sol, işıq-qaranlıq, xoşbəxtlik-bədbəxtlik, kiçik-böyük. Özü də primitiv insan bu ikili kateqoriyaları onların əksliyi baxımından mütləqləşdirmişdir. Tədqiqatçı V.B.İordanskinin mülahizəsinə görə, insan təfəkküründə bu əzəli dualizmin mahiyyəti bundadır ki, arxaik insan dünyanın daxili konfliktliyini çox həssaslıqla duyurdu, çünki ondan ötrü günəşin aya qarşı durması nurun qaranlığa, qayda və harmoniyanın nizamsızlığa və xaosa, insan birgəyaşayışı mədəniyyətinin vəhşi təbiətin barbarlığına qarşı durması kimi aydın bir şey olmuşdur.

Hər halda, mentaliteti tarixən formalaşmış fenomen hesab edən tədqiqatçıların böyük əksəriyyəti ikiqütblü prinsipi daha vacib metodoloji yanaşma sayır, insanların məntiqi düşüncəsinə və davranışına məhz «binar müxalifət»in (ikili qarşıdurma) daha çox təsir göstərdiyini etiraf edirlər. Dünyanın dərki üçün vacib olan kateqoriyalar sistemində bu ikili qarşıdurma prinsipini əsas götürən K.Levi-Stross belə bir fikri əsaslandırmağa çalışır ki, bu baxımdan elmi təfəkkürlə mifoloji şüur arasında keyfiyyət fərqi yoxdur, çünki hər iki halda eyni məntiq işləyir. Ona görə də fransız antropoloqunun fikrincə, tərəqqi təfəkkürdə deyil, insanı əhatə edən aləmdə baş vermişdir, bəşəriyyət uzun tarixi müddət ərzində yeni-yeni hadisələrlə üzləşmiş, nəsillərin yaddaşında mental xüsusiyyətlər formalaşdırmışdır.

Lakin bu mülahizələri ilə yanaşı, K.Levi-Stross elmi və metodoloji təfəkkür arasındakı fərqləri görməyə bilmir. O, bu fərqləri təhlildə görür, yəni o hesab edir ki, mif həmişə hissi keyfiyyətə, elmi idrak isə şeylərin abstrakt xüsusiyyətlərinə, xassələrinə istiqamətlənir.

Klod Levi-Stross mifoloji təfəkkür haqqında çox maraqlı fikir söyləyir: mifoloji təfəkkürü anlayışları ilə qavrama obrazları arasında «yarı yolda» olan işarələr adlandırır. Onun fikrincə, işarələrlə anlayışlar arasında prinsipial fərq vardır, və bunu o, xalqın qabiliyyəti ilə yaradıldığı şeylərlə əsaslandırır. Belə ki, onun əqidəsincə, insan əlinin zəhmətinin məhsulu olan hər şey onun mahiyyət qüvvələridir. Levi-Strosa görə, insanlar lap

əvvəllər təbiətin daha mühüm obyektləri üçün kateqoriyalar işləyib hazırlamış, sonralar yaratdıqları anlayışları yeni-yeni obyektlərə keçirərək təbii və sosial universumları mütəşəkkil bütövlük şəklində təqdim etmişlər. Bu vahid aləmdə işığın tərəfləri kosmik ilahi cismin hissələrinə, relyefin xüsusiyyətləri isə mərasimin fazalarına uyğun gələ bilərdi. Ətraf hadisələrini totemlərə görə təsnifləşdirmək, «biz - onlar»a bölmək ibtidai cəmiyyətin psixologiyasının dünyaya münasibəti idi.

Beləliklə, bu qənaətə gəlmək olar ki, mentalitetin formalaşmasında hələ ibtidai cəmiyyətdə təbiət hadisələrini ikili kateqoriyalarda təsnifləşdirmək mühüm rol oynamışdır. Başqa sözlə, həm ibtidai, həm də müasir cəmiyyətdə təfəkkür məntiqə söykənmişdir. Əgər mifoloji təfəkkürdə təsnifat predmetlərin hissi qavranılan xassələri səviyyəsində həyata keçirilirsə, əldə edilmiş biliklər işarələr əsasında qurulursa, elmi bilik abstrakt keyfiyyətlərə söykənir və biliklər anlayışlarda təcəssümünü tapır.

Digər tərəfdən, müəyyən mənada K.Levi-Strosun konsepsiyası ilə razılaşmasaq da bunu etiraf etmək lazımdır ki, onun bəşəriyyətin psixi vahidliyi haqqında fikirləri, müxtəlif mədəniyyətlərdə universal ideya axtarması mühüm humanitar dəyərdir. Ən önəmlisi budur ki, ibtidai təfəkkürdə kerçəkliyə mifoloji-emosional münasibət «primitiv» insanların sosial təsəvvürlərindən asılı olmayaraq artıq fəlsəfi mədəni problem kimi qoyulmuşdur.

Bəlkə də, «zamanda insanlar haqqında elm» (M.Blok) olan tarixin öyrənilməsinin açarını, şəxsiyyətin mental strukturunun öyrənilməsinin bazis əsaslarını konkret tarixi dövrdə axtarmaq lazımdır. Elə buna görə də təsadüfi deyildir ki, müasir dövrün tarixçiləri və filosofları 60-cı illərdən başlayaraq orta əsr və yeni dövrün insanlarının mentalitetini intensiv öyrənməyə başlamışlar. Fransız tarix fəlsəfəsinin görkəmli nümayəndələri, müasir tarixşünaslığın metodologiyasının inkişafında əvəzsiz xidmətləri olmuş Lüsyen Fevr və Mark Blok erkən və klassik orta əsrləri və intibah dövrünü öyrənərkən mentalitet terminindən mühüm metodoloji priyom kimi istifadə etmişlər.



Onların tədqiqatları sayəsində mentalitet anlayışı daha mürəkkəb və inkişaf etmiş cəmiyyətlərin öyrənilməsində istifadə olunmuş, zaman keçdikcə müxtəlif elm sahələrinin anlayışlar aparatında önəmli yer tutmuşdur.

Fəlsəfi ədəbiyyatda haqlı olaraq belə bir fikir əsaslandırılır ki, bütün təbiətşünaslar, istər iqtisadçılar, tarixçilər, istərsə də sosial hərəkatları öyrənən mütəxəssislər, etnoqraflar insanları şüurun, təfəkkürün mental xüsusiyyətləri ilə məşğul olmalıdırlar (Bax: Гуревич А.Я. Историческая наука и историческая антропология «Вопросы философии» 1998, №1).

Fransız tarixşünası L.Fevr «Tarix və psixologiya» əsərində göstərir ki, mental funksiyaları öyrənən psixologiya elmi həmçinin bəşəriyyətin tarixi hadisələrinin tədqiqində də mühüm rol oynamalıdır. Onun fikrincə, «psixologiyanın və sosiologiyanın məlumatları ilə silahlanmış tarix» keçmişin çərçivəsində şəxsiyyətlə kollektivin qarşılıqlı münasibətini müəyyənləşdirməyə çalışır (Л.Февр. Бои за историю. М, «Наука» 1991, с.97-108). «XVI əsrdə inamsızlıq problemi: Rablenin dini» (1942) əsərində L.Fevr əsas diqqətini heç də Rablenin romanının məziyyətləri və onun baxışları üzərində cəmləşdirmir. Burada fransız aliminin nəzərini cəlb edən əsas problem keçmişin mənəvi həyatının öyrənilməsinə yanaşma məsələsidir. Əsər filosof və tarixçiləri bu gün də düşündürən metodoloji yanaşmanın orijinallığı ilə seçilir. Məsələ burasındadır ki, L.Fevrə qədərki tədqiqatçılar, eləcə də onun müasirləri qədim dövrün, orta əsrlər tarixinin hadisələrindən yeni dövrün hadisələrini öyrənən metodologiya tətbiq etmiş, keçmişin lider və şəxsiyyətlərinə «müasirlik qiyafəsi» geyindirmiş, bununla da keçmişin tarixini düzgün qiymətləndirməmiş, çox zaman da saxtalaşdırmışlar. Özünün ifadəsi ilə desək, bu qəbildən olan tarixçilər II Ramzesi, Sezarı, Böyük Karlı, II Filippi və XIV Lüdoviki «1938-ci ilin Dyunonu, yaxud Dyuranı» kimi təsvir edirlər (Yenə orada. A.Ə.Qureviç. Uroki Lğösğenə Fevra. S.507). O, belə metodu elmi xurafat adlandırır və tədqiqatçıları obyektiv araşdırmalar aparmaq naminə dövrün dünyagörüşü və şüur problemlərini

öyrənməyə, mövcud tarixi hadisələri və faktları məhz konkret şərait dünyabaxışı mövqeyindən tədqiq etməyə çağırır. Söhbət görkəmli şəxsiyyətlərdən gedirsə, bu zaman onların gerçəkliyə münasibətini formalaşdıran amilləri dərindən dərk etmək lazımdır. Konkret tarixi şəraitin ideyalarının meydana gəlməsinin intellektual və sosial ilkin şərtlərini hərtərəfli öyrənmək, başqa sözlə, şəxsiyyətin və sosial zərurətin nisbəti, tarixi qəhrəmanının bu və ya digər ideyasının hansı şəraitdə və necə meydana gəlməsini araşdırmaq tələb olunur. O, bunu «tarixin kapital problemi» adlandırır. Deməli, başlıca məsələ şəxsiyyətin cəmiyyətdə rolunun və dünyagörüşünün obyektiv işıqlandırılması, onun cəmiyyətin inkişafına verdiyi töhfəni olduğu kimi, yəni dövrün tələbləri baxımından araşdırmaqdır. Öz həmvətəni M.Blok kimi L.Fevr də belə bir mühüm nəticəyə gəlir: fəlsəfi dünyagörüşə dərindən yiyələnmiş tarixçi həmin tarixi dövrə mənsub olan insanların şüuruna xas intellektual dəyərləri, şüurlu vərdişlərini, dünyanı qavrama vasitələrini aşkar etməlidir. Məsələ bundadır ki, mövcud dövrün adamları (o cümlədən görkəmli şəxsiyyətləri) həmin şüur fenomenlərini olduğu kimi, heç bir təngidə məruz qoymadan tədqiq edirlər. Belə yanaşıldıqda insanların sosial davranışı ilə sıx bağlı olan şüurun ən dərin qatlarına nüfuz etmək olur, insanların öz iradəsindən asılı olmayaraq onların fikir və düşüncələrini «eşitməyə» imkan yaranır (Bax: Гуревич А.Я. Марк Блок и «Апология истории, или Ремесло историка. М.1996. с.205).

Mark Blokun fikrincə, bu cür yanaşma dövrün lüğətini, eləcə də insanların simvolik hərəkətlərini, onların davranışını diqqətlə öyrənməyə imkan yaradır. Tarixçi «insana mənsub olan, insandan asılı olan hər şeyi, insanın fəaliyyətini, zövqlərini, mövcud vasitələrinin hamısını diqqət dairəsinə cəlb etməlidir. Fevrin fikri ilə desək, «dövrün mənəvi universumu» tarixçini daha çox düşündürməlidir. Başqa sözlə, tarix haqqında aprior fikirlər söyləmək dövrün psixologiyasını nəzərə almamaq, dövrün cahanşümul hadisələrini təhrif etmək deməkdir. Deyilənlərdən belə nəticəyə gəlmək mümkündür ki,



L.Fevr özünün Fransua Rablenin görüşləri ilə bağlı əsərində əslində mentallıq problemlərini işləyib hazırlamış, zamanın mədəniyyəti ilə şərtlənən insan şüurunun dünyanı qavramaq və mənimsəmək imkanları barədə mülahizələrini şərh etmişdir. Önəmli məsələ həm də budur ki, hər bir dövrün insanı keçmişin dəyərlərini nəinki mənimsəyir, habelə həmin dəyərlər onun yaradıcılığında, bütün tarixi praktikasında hiss edilmədən dəyişir. Məhz hiss edilmədən, çünki mentalitet dünyanı görüm vasitəsi olmaqla heç də ideologiya ilə eyniyyət təşkil etmir. Düşünülmüş fikirlər sistemi olan mentalitet fəlsəfi, elmi, yaxud estetik sistemlər deyil, əksinə, ictimai şüurun elə bir səviyyəsidir ki, burada fikir emosiyalardan, şüurun latent vərdişlərindən və priyomlardan ayrılmır, insanlar özləri də hiss etmədən, mahiyyətinə varmadan, məntiqi əsaslandırılmasına nüfuz etmədən bunlardan istifadə edirlər. Buna görə də sosial psixologiya sahəsinə mənsub olan mentalitet dəqiq, ziddiyyətsiz formula olunmur. Bu o deməkdir ki, tarixçi mentaliteti aşkar etmək üçün insanların bilavasitə miras qoyub getdikləri bəyanatlara, mətnlərə və digər abidələrə inanmağa tələsməməlidir, o, əksinə, həmin insanların şüurunun ən gizli qatlarına nüfuz etməlidir. Belə halda profesional fəlsəfi metodologiyaya dərindən yiyələnmiş tarixçi görə biləcək ki, həmin bəyannamələr, mətnlər çox zaman öz müəlliflərinin əleyhinə gedir.

Bir daha xatırladaq ki, M.Bloka, eləcə də L.Fevrə etnoloq Levi-Bryulun «İbtidai təfəkkür» (1922) əsəri şəksiz təsir göstərmişdir. Hər iki nəzəriyyəçi L.Bryulun düşüncə və mülahizələrini tam bölüşdürməsələr də, hər halda, qeyd olunmalıdır ki, bir mühüm anlayış kimi, «mentalitet» terminini tarix elminə M.Blok və L.Fevr gətirmişlər. Bu termini birmənalı şəkildə təsnif etmək, dəqiq tərifini vermək çox çətindir. Fransız tarixçiləri bunu «fikir yönümü», «övqat», «kollektiv təsəvvürlər», «ağıl tərzi» və s. kimi tərcümə edirlər. Hər halda, «dünya görümü» anlamı həmin terminin mənasını daha aydın açır. Mentalitet anlamı sübut edir ki, hər bir cəmiyyətdə fərdi şüuru strukturlaşdıran spesifik şərtlər mövcuddur.

Mədəniyyət, ənənə, dil, həyat tərzi və dini etiqadlar, bir növ, elə bir etnomədəni müstəvidir ki, mentalitet bunun çərçivəsində formalaşır. Şəxsiyyətin yaşadığı dövr onun dünyagörüşündə silinməz iz buraxaraq onda müəyyən psixi reaksiyalar və davranış formaları kəsb etdirir və bu mənəvi xüsusiyyətlər ictimai qrupların və kütlənin kollektiv şüurunda, eləcə də görkəmli şəxsiyyətlərin fərdi şüurunda mental xüsusiyyətlər kimi üzə çıxır. Çünki eyni cəmiyyətdə yaşayanlara mədəniyyət ümumi əqli düşüncə qaydaları verir və bunların mənimsənilmə səviyyəsi bu və ya digər fərdin dərk etmək qabiliyyətindən, onun ictimai şüurunun idraki imkanlarından asılıdır. Doğrudur, tarixçi müasir psixoloq və etnoqrafdan fərqli olaraq keçmişin şəxsiyyətləri, hadisələri ilə bilavasitə təmasda ola bilmir, necə deyərlər, «səhra şəraitində» onların psixi həyatını müşahidə edə bilmir. O, bunların yalnız simptomlarını keçmişdən qalmış abidələrdə axtarmalı olur. Keçmişin hər bir abidəsində insanların mənəvi strukturunun bu və ya digər tərəfləri həkk olunmuşdur. Sadəcə olaraq, buna yollar axtarıb tapmaq lazımdır, çünki düzgün metodologiyaya yiyələnməklə hər bir tarixi faktda o dövrün ictimai şüurunun sirlərini açmaq mümkündür. Tarixə, onun faktlarına aydın fəlsəfi sual vermək lazımdır: tarixi şüur nədir? Tarixi şəxsiyyət, onun dünyagörüşü, düşüncə tərzi, şüurunun mental xüsusiyyətləri nədən xəbər verə bilər? Tarixin psixologiyası mövcuddurmu?

Bütün bunlar deməyə əsas verir ki, mentalitet və onun formalaşması ilə bağlı məsələlərin fəlsəfi problem kimi tədqiq olunmağa haqqı vardır. Göründüyü kimi, mədəniyyət cəmiyyətə əqli, düşüncə tərzini müəyyən edən intellektual problemlər təqdim edir, lakin bunlardan istifadə isə sosium üzvlərinin bacarıq və imkanlarından asılıdır. Ən geniş mənada götürsək, mədəniyyət xalqın milli varlığının amilidir. Və bu amil hər bir xalqın nəinki mentalitetini müəyyənləşdirir, habelə onun total tarixinin mahiyyətinə, bütün psixi reallıqlarına nüfuz edir. Başqa sözlə, bununla xalqın, millətin mentalitetində təmərküzləşən mədəni aləmin fenomeni formalaşır. Məhz belə



mentaliteti dərk etmək üçün dövrün mədəni dəyərlərini istehsal edən sosial institutların fəaliyyətini, ideya və əqidələrin formalaşdırdığı tarixi-psixoloji şəraiti öyrənmək lazımdır. Yuxarıda qeyd etdiyimiz «total tarix», yaxud da «total mədəniyyət» deyərkən, söhbət bəşər tarixindən, ya da dünya mədəniyyətindən getmir. Bu, lokal tarix, yaxud da lokal mədəniyyət ola bilər. Qısa bir tarixi kəsim, yaxud konkret bir regionda formalaşmış mədəniyyət də total xarakter kəsb edə bilər.

Daha dəqiq desək, bu, müəyyən məkan və zamanda insanların həyat fəaliyyətinin tarixçiyə və filosofa əlçatan olan bütün tərəflərini imkan daxilində, müxtəlif müstəvilərdə müşahidə olunub başa düşülməsi prosesidir. İkinci bir tərəfdən, «total» dərk etmək insanların həyatını siyasi, təsərrüfat, dini sahələrə, yaxud hansısa məxsusi tarixi dövrə bölmək prinsipindən imtina edir. Belə bir yanaşmadan məqsəd əhatəli tarixi mənzərənin, onun bir çox səviyyələrində yaradan tədqiqat üsuludur. Məsələn, adını çəkdiyimiz L.Fevr hesab edir ki, sosial tarix, cəmiyyətin tərkibinin, onu təşkil edən siniflərinin, təbəqə və qruplarının, münasibətlərinin təhlili mühüm əhəmiyyət kəsb etmir, başlıcası tarixi-fəlsəfi idrak obyekti insanların tarixidir. Çünki məhz psixikaya, fikirlərə, hisslərə malik insanlar tarixi inkişafın hərəkətverici qüvvələridir.

Beləliklə, yuxarıdakılara əsasən demək olar ki, mentalitet anlayışının meydana gəlməsi tarixi-mədəni məkanda və dəyişən zamanda insanın təbiətini, müxtəlif cəmiyyətlərin mənəvi həyatının və onunla bağlı ənənəvi fəaliyyətini öyrənməklə bağlı olmuşdur (Лесная Л.В. Менталитет и ментальные основания общественнной жизни. «Соц-гуман. Знания» 2001, №1. с.135). Təbii ki, bu tərif əhatəli deyildir. Mentalitetin sosial-fəlsəfi mahiyyətini, düşüncə tərzini dərk etmək üçün ictimai həyatın mühüm cəhətlərini daha dərindən öyrənmək lazım gəlir. Məsələn, sosioloq A.Burdye hesab edir ki, mentalitetdə sosial qrupun özü haqqında təsəvvürləri cəmlənmişdir (Бурдье П. Социология политики. М.1993. с.271, 326). Tədqiqatçı A.Zinovyevin fikrincə, şəxsiyyət materialının

xarakteri bu və ya digər insan birliyində müəyyən cəmiyyət tipinin təşəkkülünə və onun qanunauyğunluqlarına təsir göstərir (Зиновьев А. Запад. Феномен западнизма. М, 1995. с.4,6).

Bu konseptual yanaşmalar mentalitetin fəlsəfi baxımdan öyrənilməsini bir daha aktuallaşdırır. Bizcə, mentalitet fəlsəfəsinin aşağıdakı aspektlərdə öyrənilməsi daha məqsədəuyğundur: ilkin mərhələ olaraq cəmiyyət üzvləri və təbəqələrinin əməyə, mülkiyyətə, var-dövlətə və yoxsulluğa münasibəti, sosial bütövlüyün obrazı və bu işdə hüququn və adətin təbiətini, hüququn sosial tənzimləmə funksiyasını öyrənmək, fərdin dünya mənzərəsinin strukturunda yerini dərk etməkdir.

Çalışmaq lazımdır ki, adi şüur səviyyəsində tarixi proseslərin öyrənilməsi, tarixi yaddaşın dərkinə kömək etsin, həmin idraki prosesdə mental cəhətlər fərqləndirilsin. Mədəniyyətin müxtəlif səviyyələrinin, onların konfliktlik dərəcələrinin qarşılıqlı təsirini öyrənmək, biliklərin əldə edilməsinə daha yaxın olan rəsmi intellektual elita, xalq, folklor mədəniyyəti ilə nisbəti dərindən araşdırılsın. Cəmiyyətin «yuxarı» və «aşağı» təbəqələrinə, təhsillilərə mənsub dini formaları, «kitab adamlarının» psixologiyası ilə şifahi sözün hakim olduğu şəraitdə yaşayanların psixologiyasını, eləcə də informasiyanın müvafiq olaraq həmin psixoloji təbəqələr tərəfindən «həzm olunmasının» mexanizmlərini öyrənmək müasir etnososiologiyanın aktual problemlərindəndir. Bunu da qeyd edək ki, kollektivlərin həyatını ritmləşdirən bayramların və təqvim mərasim və adətlərin tarixi, mentalitet subyekti olan insan tərəfindən milli, tayfa, dövlət identikliyinin dərki, bu amilin dövlət tərəfindən istifadə olunması kimi problemlər etnososioloqlarımız tərəfindən, demək olar ki, tədqiq edilməmişdir.

Deyilənlər bir daha göstərir ki, mentalitetin öyrənilməsini (bütün fəlsəfi-tarixi, mədəni-etnik səviyyələrdə) aktual sayan tədqiqatçılar insan və onun maddi həyatının və



mədəni ənənənin, dünyanı qavrama səviyyəsi ilə səbəblənən davranışının tədqiq olunması kimi qəbul edirlər.

Bundan əlavə, mentalitetin müasir fəlsəfi tədqiqi eyni zamanda mədəni-tarixi antropologiya, yaxud antropologiyaya yönəlmiş tarix elmlərinin elmi anlayışları aparatından da bəhrələnməli, xalqların tarixi həyatının sosial, mədəni-dini və təbii, bioloji aspektlərinin vəhdətdə öyrənilməsini ön plana çəkməlidir. Bir sözlə, mentalitetin fəlsəfi problemlərinin tədqiqi konkret sosial birliyin insanlarının həyat tərzini və təfəkkürünü öyrənmək olmaqla, eyni zamanda ictimai sistemin ayrılmaz komponenti kimi çıxış etməlidir. Mentalitet böyük şəxsiyyətlərin fərdi yaradıcılıqlarının məcmusu ilə məhdudlaşmır, çünki insanların mənəvi həyatının nüvəsində cəmləşmiş sosial-fəlsəfi fenomen olmaqla o, adətlərin, əxlaqi sərvətlərin, dini etiqadların, şüurun vərdişlərinin, dünyanı qavrama vasitələri, habelə insanın bütün yaratdıqlarında ehtiva olunmuş dünyanın mənzərəsi sayəsində formalaşmışdır. Sadaladığımız sosial komponentlərin cəmiyyətin fəaliyyət mexanizmlərinin açılmasında müstəsna rolunu qeyd etsək, bu sahədə şüur və təfəkkür fenomeni olan mentalitetin özünəməxsus töhvəsini başa düşmək çətin deyildir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, mentalitet əsasən orijinal təfəkkür üsulunu, ağıl tərzini, hətta sosial-psixoloji ovqatı bildirmək üçün işlədilir. Belə olduqda bu anlayış həyatı dəyərlərin, ənənə, etnik şüur məziyyətlərini qiymətləndirmə meyarlarının daşıyıcısı olan etnosun və şəxsiyyətin təfəkkür qabiliyyətinin və intellektinin səviyyəsini əks etdirir. Psixoloji baxımdan paradoksal səslənsə də, bu gün də dünyanın etnik mənzərəsində sanki heç bir sirli hadisənin qalmadığı, fövqəlbəşəri inamlara yer qalmadığı bir şəraitdə, bəzən bir sıra xalqlar başqa xalqlar barədə söylənilən cəfəngiyatlara asanlıqla inanır və özü haqqında bu qəbildən eşitdiklərini olduqca ağrılı qəbul edir. Elə bu səbəbdən də hansısa buşmenlər, yaxud eskimoslar haqqında deyil, elə qonşu xalqlar barəsində adi kütləvi şüur səviyyəsində

qavranılan bəzi biliklər müvafiq stereotiplərə çevrilir. Tədqiqatçı A.S.Axiyezer haqlı olaraq yazır ki, kütləvi şüurun bu yanılması, bir növ, totemizmi xatırladır, belə ki, özünü müəyyən totemlə eyniləşdirən subyekt başqa totemin daşıyıcısını özündən kənarlaşdırmağa çalışır. İnsan öz totemini təkrar istehsal etməyə səy göstərir, başqa totemin varlığına düşmənçilik nümayiş etdirir. Ona görə də milli ənənə problemini öyrənərkən belə bir metodoloji prinsip nəzərə alınmalıdır ki, müəyyən bir spesifik mədəniyyət nümunəsini dərindən və hərtərəfli tədqiq etmədən çox zaman mentalitet anlayışının tərifində yanlış elmi nəticələrə gətirib çıxmaq olur. Ümumiyyətlə, hər bir ənənənin formalaşması prosesi müəyyən sosiomədəni qanun vasitəsilə baş verdiyindən bir şey inkar edilməzdir: etnik zəmində yanlış təsəvvürlərin dərin tarixi kökləri keçmişin ağır yükü kimi insanların ənənəsində, psixologiyasında şüurun mentalitetinin formalaşmasına özünəməxsus şəkildə təsir göstərmişdir. Bu elə bir spesifik hadisədir ki, praktik olaraq həmişə insanların etnik çoxcəhətliliyinin təkamülünü müşa-yiət etmişdir. Bu zəmində meydana çıxan etnik konfliktlər, etnopsixoloji yanılmalar sonralar ifrat millətçiliyin oyanmasına səbəb olmuşdur. Şovinizm öz yerini milli dirçəliş ideyasına vermiş, millətçilik isə «etnik özünəməxsusluq» formasını almışdır. Keçmişin bu mentallıq xüsusiyyətinin yükü indi də milli ənənəsinin məzmununa, etnik şüurun strukturlarına, bütövlükdə etnosların həyat tərzinə sirayət etmişdir. Beləliklə, dialektik vəhdətdə olan ənənə, etnik şüur və həyat tərzi fenomenlərinin sosial-fəlsəfi mahiyyətini, əhatəli dərk etmək mentalitet anlayışının spesifik cəhətlərini öyrənmək də problemin aktual aspektlərindən biridir. Başqa sözlə, tarixi xronologiyadan asılı olmayaraq bütün dövrlərdə mentalitetin formalaşmasında sosiomədəni dəyərlər müstəsna rol oynamışlar.

Məsələn, alman filosofu M.Veber nəinki cəmiyyəti, insanların səyləri və zəkası ilə yaradılmış məhsulların məcmusu, habelə, ayrıca fərdi də mədəni varlıq adlandırır. Hələ fransız ensiklopedistləri hesab edirdilər ki, sosiomədəni



dəyərlər tərəqqi faktoru olmaqla həm də xalqların «zəka» başlanğıclarında təkamül yolu ilə inkişafını bildirir. Doğrudur, həmin anlayış bu gün də qüvvəsini saxlasa da, hər halda, etnosların, xüsusilə mentalitetin öyrənilməsi üçün kifayət etmir. Burada söhbət sosiomədəni dəyərlərin etnoloji anlamından gedir. Əksinə, qeyd etdiyimiz kimi, mentalitetin özündən metodoloji prinsip kimi istifadə daha aktual əhəmiyyət kəsb edir. Etnoşüur konfliktlərini məhz bu cəhd üzə çıxarır.

Məlum olduğu kimi, XX əsrin 60-cı illərinədək Qərb cəmiyyətşünaslığında belə bir fikir üstünlük təşkil etmişdir ki, tarazlıq vəziyyəti cəmiyyətin normal durumu olmalıdır. Ona görə də konfliktə disfunksiya kimi yanaşılmışdır. Bu mövqeyin qeyri-elmliyini amerika sosioloqu A.P. Roys ilk dəfə özünün «Etnik identiklik» (1963) əsərində göstərərək yazır ki, konflikt əzəli bir fenomen olmaqla bütün sosial qarşılıqlı münasibətlər üçün normal haldır. Lakin bu sahədə L.Kozerin «funksional konflikt» konsepsiyasında daha ciddi addım atılmışdır. Belə ki, onun maraqlı tədqiqatları əsasında belə bir ideya əsaslandırılır ki, konflikt bir çox hallarda normal, geniş yayılmış pozitiv hadisədir. Onun fikrincə, konflikt heç də destruktiv amil olmayıb, əslində, sosial inkişafa, hətta qrupların sosial birliyinə impuls verən fenomendir. L.Kozerin fikrincə, sistemin daxilində əlaqələrin yaradılması üçün zəruri olan konflikt həm də bu və ya digər cəmiyyətin identikliyinin və bunun sərhədlərini saxlamaq mentalitetin təbiəti ilə bağlı konfliktləri araşdırmaq işinə xidmət edir. Amerika sosioloqunun konsepsiyasının bu başlıca qayəsindən belə nəticəyə gəlmək olar ki, etnosun bütövlük kimi strukturlaşması prosesi etnosdaxili konflikt vasitəsilə baş verir. Bu, həm də o deməkdir ki, mentalitetin strukturlaşması üçün müstəsna əhəmiyyət kəsb edən sosiomədəni dəyərlərin modifikasiyası etnosdaxili konfliktlə sıx bağlıdır. Lakin etnik proseslərdə üzə çıxan sosial konfliktlər, mahiyyət etibarilə öz çevikliyi ilə mövcud ziddiyyətlərin aradan qaldırılmasına səbəb olur.

Bu ideya ilə sıx bağlı konsepsiyanı amerika sosioloqu L.Pay işləmişdir. O hesab edir ki, hər şeydən əvvəl,

modernizasiya prosesində hansı dəyərlərin nisbətən asan dəyişməsini, hansının axıra kimi xalqların sosiomədəni irsində dəyişməz qaldığını aşkar etmək lazım gəlir. Cəmiyyətin inkişaf təkamülü elədir ki, dəyişikliklər öncə istehsal texnologiyasında baş verir. Sonradan yaranmış texnoloji reallıqlar labüd olaraq müxtəlif şəxslərin və qrupların hərəkət və fəaliyyət motivlərində müvafiq dəyişiklikləri meydana gətirir. Həmin prosesdə şəxsiyyətin düşüncə tərzində təfəkkürünün mental qatlarında dərin kök salmış dəyərlərdə və məqsədlərdə dəyişiliklər baş verir. Əslində, sosiollaşma prosesini keçirən fərdin bütün davranış modelləri yeni dəyişiliklərə məruz qalır. Belə ki, milli-etnik şüurun və həyat tərzinin bütün davranış modellərində baş verən transformasiya fərdin mənlik şüurunda mental xüsusiyyətlər yaranmağa başlayır. Lakin, ümumiyyətlə, mövcud mədəniyyət qaldıqca onun daşıyıcılarının imkanlarını, xarakterini, hətta onların öz aralarında kommunikasiya qabiliyyətini müəyyən edən bitəhəlşüur sxemləri də mövcud olur. Bu, həm də kollektiv fəaliyyətin genişlənməsinə rəvac verir. Təbii ki, belə bir fəaliyyət modeli sosiallaşma prosesində tezliklə mənimsənilə bilməz. Belə sxemi L.Pay «assosiasiya hissi» adlandırır. Amerika sosioloqu qeyd edir ki, söhbət heç də sadə korporasiya hissindən və gərginliyi yumşaltmaq istəyindən və şəxsiyyətlərarası münasibətlərdə harmoniya axtarmaqdan getmir. Biz çiçəklənməyə yönəlmiş səmərəli mütəşəkkil həyat yaratmağı mümkün edən daha dərin hissi nəzərdə tuturuq. O öz müşahidələrinə söykənərək belə bir fikri əsaslandırmağa çalışır ki, bir-birinə münasibətdə gizli, yaxud açıq konflikt vəziyyətində olan müxtəlif də-yərləri rəhbər tutan qrupların razılaşdırılmış fəaliyyəti qanunauyğun haldır. Deməli, belə bir hərəkət modeli etnosların yaşarlığını zəruri edir. Hər iki sosioloqun sosiomədəni davranış modellərinin mahiyyəti bundadır ki, bu və ya digər vəziyyətlərdə hərəkətlər mental xüsusiyyətlərin iştirakı ilə həyata keçirilir. Bu o deməkdir ki, birincisi, həmin hərəkət müxtəlif xarici şəraitlərdə müxtəlif zahiri ifadə ala bilər, hətta adi baxışda bir-birinə bənzəməsə də, həmişə eyni daxili struktura malik ifadə ala



bilər, ikincisi, həmin hərəkət heç bir sabit dəyəri əsaslandırmaq iqtidarına malik deyildir. Əlbəttə, bunun necə və hansı mexanizmlə həyata keçirilməsindən asılı olmayaraq, yalnız bunu demək mümkündür ki, həmin proseslərdə obyekt kimi mövcud konfliktlər etnik şüurun, ənənənin və həyat tərzinin mental xüsusiyyətlərinin formalaşmasında əngəl deyil, əksinə, bu amilin rolu obyektiv olaraq zərurətə çevrilir.

Yeri gəlmişkən, sosial subyekt olan insana və bioloji fərdə müxtəlif yaddaş formaları xasdır: məsələn, genetik, fərdi əldə edilmiş, ani, «az və ya çox», həmçinin uzun müddətli, sabit. Bioloji mənada genetik yaddaş həyat boyu inkişaf etməsə də, geniş yayılır ki, bu da onun təzahür formalarına uyğun gəlir. Fərdi əldə edilmiş yaddaş genetik yaddaşa insanın ətraf mühitə, daha doğrusu, sosial mühitə uyğunlaşması ilə bağlı «düzəlişləri» əlavə edir. Bunu artıq etnososial uyğunlaşma kimi qiymətləndirmək olar. Ani yaddaş adlandırdığımız fenomen ilə bir qayda olaraq yaddaşın verbal formaları ilə bağlı olmayan qısa müddətli emosional təəssüratlar şəraitində fəaliyyət göstərir və reallaşır. Sosial qrupun mental xüsusiyyətləri belə anda emosional formada təzahür edir. Etnosun nəyi qəbul edib etməməsi məhz sosiomədəni mühitdə formalaşmış yaddaşda həkk olunmuş biliklər məcmusu və konkret sosial şəraitdə təkamül edən mədəni ənənə ilə bağlıdır.

Bütövlükdə ənənə qismində müəyyən mədəniyyət nümunələri, institutlar, normalar, dəyərlər, ideyalar, adətlər, mərasimlər, üslublar və s. çıxış edir. Müasir sosial-fəlsəfi ədəbiyyatda qəbul olunmuş mövqeyə görə, ümumi şəkildə ənənə nəsildən nəslə ötürülən və müəyyən cəmiyyətlərdə və sosial qruplarda uzun müddət ərzində təkrar istehsal olunan sosial mədəni irs kimi təqdim edilir.

Ənənə sözü humanitar elmlərlə bağlı tədqiqatlarda çox işlədilsə də, onun sosial psixologiya baxımından dərki bu terminin mürəkkəb xarakterə malik olduğunu bir daha aşkar edir. Vaxtilə fransız teatr xadimi Lui Juve ənənə haqqında belə yazmışdır: «Bu sözə tərif vermək olmur. Onun uzun müddət mövcudluğu məhz onun aydın olmaması ilə izah olunur. Fərdi

mənada isə bu söz heç nəyi bildirmir». Bu fikir bir qədər pafosla deyilsə də, bunda müəyyən həqiqəti görməmək mümkün deyildir. Həqiqətən də, bizim bu kateqoriya barədə təsəvvürlərimiz nəzəri şüur səviyyəsindən daha çox, sağlam düşüncə baxışından səslənir.

Lakin tarixi təcrübə göstərir ki, xalqların milli psixologiyasında, mentalitetinin dəyişməsində mühüm rol oynayan dərin sosial-iqtisadi və mənəvi-mədəni dəyişikliklər milli-mədəni ənənənin formalaşmasına təsir göstərir və elm məhz bu dəyişikliklərin mexanizmini dərindən öyrənməlidir. Sosiomədəni prinsipi nəzərə alaraq biz ənənə anlayışını özündə sosial stereotipləşmənin mümkün formalarını birləşdirən irsi fenomen kimi nəzərdən keçirməyə üstünlük veririk.

Lakin bununla əlaqədar biz bir məsələni də nəzərdən keçirməliyik. Qeyd etməliyik ki, keçmiş İttifaqın bir çox tədqiqatçıları «mədəniyyətlə» «ənənəni», demək olar ki, sinonim anlayışlar kimi nəzərdən keçirmişlər. Halbuki mədəniyyətin özü müstəqil bir fenomendir, ənənə isə onun formalaşma, ötürülməsi və fəaliyyət mexanizmidir. Sadə şəkildə desək, ənənə bu günlə keçmişin əlaqələri sistemidir. Müəyyən sosiomədəni seçim, təcrübənin stereotipləşməsi və stereotiplərin ötürülməsi, sonra isə onların yenidən təkrar istehsalı prosesi, eləcə də düşüncədə mentallıq xüsusiyyətləri məhz ənənənin sayəsində baş verir. Ona görə də mədəniyyət deyərkən bəşəriyyət üçün, yaxud hər hansı sosial qrupdan (millətdən tayfaya qədər, yaxud lokal qrup) ötrü əhəmiyyət kəsb edən fenomen, ənənə şəklində toplanan təcrübə, yəni insan fəaliyyətinin müəyyən stereotiplərini, həmin fəaliyyətin təzahür və nəticələri barədə təsəvvürlər sistemini başa düşürük. İkinci bir tərəfdən, ənənə kollektiv sosial yaddaşdır. Lakin «yaddaş» anlayışı ənənəni sosial hadisə kimi tam izah etmək iqtidarında deyil, ona görə ki, burada ənənə üçün vacib şərt olan təkrar istehsal amili kənarda qalır, ilk plana mühafizə edib saxlamaq funksiyası çəkilir. Məlum olduğu kimi, təkrar istehsalsız ənənə mövcud olmur. «Yaddaş» terminində bir növ



«passivlik» çaları var, ənənə isə fəallığa üstünlük verir, uzun müddət, dəfələrlə ötürmə və təkraretmə potensialına malikdir.

Başqa bir cəhəti də nəzərə alaq. Cəmiyyətin həyat tərzi onun ictimai şüuru, mədəni dəyərlərsiz mümkün olmadığı kimi, insan birliklərini də ənənəsiz təsəvvür etmək qeyri-mümkündür. Müxtəlif tipli cəmiyyətlər bir-birlərindən heç də hansınınsa arxaikliyinə, yaxud müasirliyinə görə deyil, əksinə, ənənələrinin xarakterinə, onların təzələnmə templərinə və yayılma kanallarına, ötürülmə mexanizmlərinə, cəmiyyətin sabitliyinə, yaxud staqnasiya vəziyyətinə görə fərqlənirlər.

Bununla bağlı olaraq, ənənənin cəmiyyətdəki sosiomədəni strukturlarla əlaqəsi, qarşılıqlı təsir nisbəti mentalitet fenomeninin öyrənilməsində mühüm elmi əhəmiyyət kəsb edir. Daha dəqiq desək, biz ənənənin mədəniyyətdə, onun bütün spesifik sahələrindəki rolunu əsas aspekt kimi götürürük. Sistemli yanaşma nəzəri cəhətdən irsi ötürülmənin iki mexanizminə söykənir. Biri ekstravert mexanizmidir, yəni ətraf mühitə yönəlmişdir. İkincisi isə instravert mexanizmdir, yeni sistemin özünün quruluşuna istiqamətlənmişdir. Cəmiyyət nə qədər mürəkkəbdirsə, onun həyat fəaliyyətində tərkib hissələri olan kiçik sistemlərin hərəkətlərinin özünütəşkili, özünütənzimləməsi və əlaqələndirilməsi, daxili sistemlərin uzaqlaşması bir o qədər böyük yer tutur və bu cür təcrübənin saxlanması sistemin bütövlüyünü və identikliyini təmin edir.

Deməli, ənənəyə onun daxili funksiyaları baxımından yanaşmağa dəyər. Belə bir baxış onda bir sıra spesifik xüsusiyyətləri üzə çıxarır. Daha önəmlisi budur ki, burada ənənənin ən mühüm keyfiyyəti üzə çıxır: sosial münasibətlərlə sosiomədəni varlığın vəhdəti prinsipi ənənənin təkrar istehsal fəaliyyətinin vacib həyati imperativi kimi çıxış edir.

Əgər ənənənin fəaliyyətini atomar səviyyədə təsəvvür etsək, onu eyni təkrarlanan mətnlərin ötürülməsi kimi təsvir etmək mümkündür. Lakin mətnin ötürülməsi o zaman əhəmiyyət kəsb edir ki, o, informasiyanın artmasına yardımcı olsun, növ, qrup, kollektiv bu prosesi müşahidə və dərk edə bilsin. Stereotip məlumatlar təkrarlanarsa, burada yeni

informasiyadan söhbət gedə bilməz. Belə halda təkrar məlumatların informativ dəyəri sıfra bərabər olur və buna görə də bu cür fəaliyyətin heç bir mənası yoxdur.

Bunu nəzərə alaraq biz problemə aydınlıq gətirmək üçün sosiomədəni sistemlərin tədqiqatçı B.M.Bernşteynin təklif etdiyi sxemə əsasən informasiya əlamətinə görə təsnif etmək istərdik. Birinci sinifə entropiyanın əvəzini ödəmək üçün kifayət etməyən kəmiyyətdə informasiya əldə edən kollektivləri aid edirik. İkinci sinifə yalnız entropiyanı «söndürmək» üçün yetərincə informasiya əldə edən kollektivlər məxsusdur. Belə olduqda sosiomədəni sistemlər yaşamaq üçün real potensiala malik olur və bu yolda mühüm addım atmış olurlar, böhrandan çıxırlar. Cəmiyyətin belə tarazlığına görə onu ənənəvi cəmiyyət adlandırırlar. Bu durğunluq, kanonik cəmiyyət qeyri-müəyyən qədər çox sürə bilər, necə deyərlər, burada ənənə öz funksional işini görür. Tarixən və məntiqi olaraq belə cəmiyyətin mütəhhərrikliyi az olur. Və nəhayət, üçüncü sinifə xas olan sosiomədəni sistemlərdə dinamik yönümlü mədəniyyət üstünlük təşkil edir, burada fəaliyyət göstərən güclü informasiya getdikcə entropiya itgilərini azaldır, lakin ənənə öz əsas funksiyasını – komponentlər funksiyasını yerinə yetirməkdə davam edir.

Burada maraqlı bir nəticəyə gəlmək olur. Əgər ənənədə təsbit olunmuş və onun özü vasitəsilə ötürülən informasiya məcmusu sosiomədəni tənzimləməni qoruyub təkrar istehsal edirsə, deməli, ənənə özü də eynilə bu cür tənzimlənməlidir. Təcrübədən fərqli olaraq ənənə seçilmiş, tənzimlənmiş, strukturca mütəşəkkil təcrübəni mühafizə edib saxlayır.

Ənənəyə cəlb olunmuş informasiya kütləsi elə bir konfiqurasiyaya, elə bir daxili quruluşa malik olur ki, o, birbaşa, yaxud dolayısı ilə sosial təşkilin ən mühüm aspektlərini iki qat artırır.

Vacib deyildir ki, sistemin özünün saxlanmasına yönəlmiş ənənəvi informasiya hökmən həqiqi olmalıdır. Dünya və öz dəyərləri haqqında yanlış, yaxud təhrif olunmuş təsəvvürlərdən yaranmış ənənəvi informasiya özünün introvert funksiyasını



qənaətbəxş dərəcədə həyata keçirə bilər. Görünür, aydın, bəlli olan empirik məlumatlara və elementar məqsədyönlü, uyğunlaşdırıcı hərəkətlərə zidd olan ənənəvi şüurda və davranışda stereotiplərin dərin kök salmasının və yaşamasının səbəbini də burada axtarmaq lazımdır. Bunlar mentalitetin formalaşmasının mühüm zəminidir. Təcrübənin bəzi hissəsi kortəbii olaraq unudulur, yaxud sosial yaddaşdan bilərəkdən sıxışdırılır, bir qayda olaraq, daha çox hissəsi, necə deyərlər, «bu saat və burada» aktual olmadığından, arxivlərdə fond kimi qalır, lakin bu potensial lazım gəldiyi vaxt «aktuallaşdırılır». Dəyişməkdə olan ənənə isə hər hansı bir iri innovasiya meydana çıxarkən bu fonddan lazımi təcrübə götürür və buna söykənərək yeni qayda yaradır. Bununla əlaqədar kanonun rolu barədə: funksional olaraq kanon ənənəni qoruyub mühafizə edən və möhkəmlədən «qurğudur». Əgər ənənə sosial təşkilin, davranışın və təfəkkürün stereotiplərinin qorunmasını, bərpasını və təkrar istehsalını təmin edirsə, kanon ənənəni, bir növ, ikiqat artıraraq onun özünün sabitliyini və təkrar istehsalını təmin edir. Bunun bariz nümunəsini orta əsrlərin sosiomədəni mühitində görmək olar. Tarixdən məlum olduğu kimi, Avropada xristianlıqdan kənarda alternativ (özü də rəqabətə tap gətirən) davranış modelləri, xristianlığın daxilində-bidətçilik və nəhayət, şəxsiyyət başlanğıcın rolunun artmasının, özündə dezinteqrasiya imkanlarını daşıyan insan şüurunun mövcudluğunun şahidi oluruq. Eləcə də Şərq aləmində islam dininin kanonları bütün müsəlmanların davranışını və həyat tərzini tənzimləmişdir. Kanonla analogiya üzrə hər bir modifikasiya özü bir ənənəyə çevrilərək əsas ənənəni möhkəmləndirmək və mühafizə etmək məqsədini güdmüşdür.

Deyilənlər ənənəyə aksioloji yanaşma məsələsinə də diqqəti artırmağı tələb edir. Məsələ burasındadır ki, ənənə əgər fəlsəfi müstəvidə araşdırılırsa, ənənədə «yaxşı nədir, pis nədir?», «nəyi inkişaf etdirməli və nədən imtina edilməli?» kimi suallara düzgün yanaşmaq önəmli əhəmiyyət kəsb edir. Ənənəyə aksioloji, yəni qiymətləndirici yanaşma tədqiqatçını

hər bir müşahidə olunan mentalitet təzahürlərinə subyektiv, fəaliyyətli, fəal münasibət bildirməyə kökləyir. Təbii ki, belə münasibət diferensiyalı olmalıdır. Burada tədqiqatçını «ənənəni parçalamaq» psixologiyası qorxutmamalı, əksinə, o, ənənənin bu gün mentaliteti təhriflərlə yükləyən ünsürlərini cəsarətlə tənqid etməlidir. Belə bir cəsarətli addım sosial mahiyyət kəsb edir. Əgər biz öz həyat tərzimizi yaxşılığa doğru dəyişmək istəyiriksə, mentaliteti «artıq yükdən» təmizləməyə daha çox fikir verməliyik, informasiya axını dövründə meydana çıxan faydalı innovasiyaları öyrənməli, düşüncəmizi daha da saflaşdırmalıyıq.

Hazırda Birləşmiş Ştatlarda mentalitet problemləri ilə məşğul olan müəlliflər geri qalmış xalqların ənənəsini, mentalitetini öyrənir, onların tezliklə müasir tərəqqiyə nail olması üçün maraqlı tövsiyələr işləyib hazırlayırlar. Bu fakt ona dəlalət edir ki, xalqların identifikasiyaya meylinin artdığı, müstəqil dövlətlərin suverenliyinin əldə edildiyi bir şəraitdə filosof və sosioloqlarımız, psixoloq və politoloqlarımız səylərini birləşdirərək cəmiyyətimizin məhz sosial sarsıntılar keçirdiyi mərhələdə kompleks şəkildə milli psixologiya, milli mentalitet problemlərini dərindən tədqiq etməlidirlər.

Bu tədqiqatçı niyyətimizə sadiq qalaraq, biz milli mentalitetin daşıyıcısı olan etnik şüurun bir sıra etnomədəni problemlərini tədqiq etməyi tövsiyə edərdik. Çünki bu, məlum həqiqətdir ki, millətin maddi şəraitinin dəyişməsilə milli keçmişin dəyərlərinə olan tələbat prosesində ictimai şüurun, sosial psixologiyanın real gerçəklikdən geri qalması etnik şüura və onunla bağlı milli mentalitetə təsirini göstərmiş olur. Etnik şüur öz növbəsində mürəkkəb təbiətə malik olduğundan, bizcə, ilkin formalaşdırıcı sosiomədəni şərtlərin təhlili zamanı müəyyən metodoloji müddəalardan istifadə olduqca vacibdir. Etnik mənlik şüurunun, xalqın həyat tərzinin, eləcə də milli mentalitet sisteminin öyrənilməsi baxımından subyektiv mədəniyyət anlayışını qısaca da olsa nəzərdən keçirmək mühüm metodoloji əhəmiyyət kəsb edir.



Öncə refleksiya anlayışının sosiomədəni mahiyyətinə toxunaq. Mədəniyyət kateqoriyasının mühüm məzmun çalarlarından biri istənilən yaradıcılığın refleksiyası kimi qiymətləndirilir. Refleksiya ən ümumi şəkildə insanın, onun təfəkkürü və fəaliyyətinin müəyyən xarakteristikası, daim özünü özfəaliyyət və təfəkkürünün predmeti etmək qabiliyyəti, daha geniş və dərin zəmində öz inkişafını ifadə etmək bacarığıdır. Onun mühüm təzahürü insanın öz münasibətlərini, mədəniyyətini, onun məişətində və şüurunda baş verən dəyişiklikləri idarə etmək bacarığı, özünün komfort vəziyyətini daha da yaxşılaşdırmaq üçün qərar qəbul etmək qabiliyyətidir, bütövlükdə özünü dərk etmək formasıdır. Bu, həmçinin insanın öz subyektiv mədəniyyətini yaratmaq və təkrar istehsal etmək mənasında sosiomədəni keyfiyyətdir, etnik şüurun və həyat tərzinin insani məzmun kəsbetmə mexanizmidir.

Deyilənlərlə yanaşı, etnos anlayışı xüsusilə araşdırılmalıdır. Adi şüur səviyyəsində etnos anlayışına tərif vermək o qədər də çətin deyildir. Lakin etnoloqlar arasında etnos problemi ətrafında elmi diskussiya bu gün də davam etməkdədir. Hazırda etnos tarixən meydana gəlmiş tayfa, xalq, millət və digər qruplar gismində təmsil olunan sosial qrupların xüsusi növü kimi təsnif edilir. Tanınmış etnoloq L.N.Qumilyov etnosu sosial deyil, coğrafi, təbii hadisə kimi nəzərdən keçirərək yazır ki, etnos özünü digər kollektivlərə qarşı qoyan bu və ya digər insan kollektividir. Bu kollektiv öz daxili strukturlar və orjinal davranış stereotipinə malikdir. Bu tərifdən göründüyü kimi, etnosun başlıca əlamətləri psixoloji xarakteristikalardan - mənlik şüurdan (yaxud identiklikdən), davranış stereotipdən, başqa sözlə, qrupla fərd və fərdlər arasında münasibətlərdən ibarətdir.

Qeyd edək ki, sosial psixologiyada etnos anlayışı hər şeydən əvvəl hər bir insan üçün mühüm olan funksiyaları uğurla yerinə yetirən psixoloji ümumilik mənasında əhəmiyyət kəsb edir. Belə ki, bu ümumi birlik insanın ətraf mühitində yönümünü müəyyən etməli, birliyin nizamlanması üçün informasiya verməli, ümumi həyat dəyərləri ilə təmin etməli, insanların təkcə sosial ovqatını deyil, həm də fiziki əhval-ruhiyyəsini qorumalıdır. İnsan həmişə çalışır ki, özünü «biz»in

bir hissəsi kimi hiss etsin, belə bir mənsubluq etnosa da xassdır. Beləliklə, identiklik etnopsixoloji kateqoriya olub fərdin digər insan qruplarına nümunə, yaxud idealla özünü emosional eyniləşdirməsi prosesi və nəticəsini əks etdirir. Etnik identifikasiyaya gəldikdə isə, bu bəzən etnosentrizm mövqeyinə yuvarlanmaqda az rol oynamır. Etnosentrizm elə bir baxışlar sistemidir ki, burada başqa xalqların həyatı, onların adət və ənənələri öz etnik birliyinin ənənəvi dəyərləri prizmasından qiymətləndirilir, etnik identifikasiyanın əsasında duran «biz-onlar» qarşıdurması təbii hal sayılır. Bu kontekstdə etnosentrizm milli ideologiya və mentalitetlə sıx bağlı olur, bütünlükdə etnik şüurda dərin iz buraxır. Elmə 1906-cı ildə U.Samner tərəfindən gətirilən etnosentrizm anlayışı fərd, yaxud sosial qrupun öz etnikliyini hər şeyin mərkəzində görmək və başqalarını öz meyarları çərçivəsində başa düşmək mənasında işlədilmişdir. Başqa bir geniş yayılmış konsepsiyaya görə, etnosentrizm insanlara verilmiş həyat hadisələrini etnik qrupun öz ənənə və dəyərləri vasitəsilə qavramaq və qiymətləndirmək keyfiyyəti kimi dəyərləndirilir.

Xalqların milli xarakterinin, etnik şüurunun, həyat tərzinin öyrənilməsində etnik stereotiplərin, yəni etnik qrupların bəsit obrazının tədqiqi mühüm yer tutmuşdur. Və bu sahədə ilk ciddi empirik tədqiqat 1933-cü ildə Birləşmiş Ştatlarda etnoloqlar D.Kats və K.Breyli tərəfindən aparılmışdır. Onlar stereotiplərin emosional-qiymətləndirmə, sabitlik kimi xüsusiyyətlərini ön plana çəkmişlər.

Bəzi tədqiqatçılar stereotiplərdə yalan və qeyri-dəqiqlik xüsusiyyətlərinin mövcudluğunu qeyd etsələr də, reallığın əlamətlərinin olmasını da əsaslandırmışlar. Məsələn, amerika psixoloqu O.Klaynberq hesab edir ki, stereotip sırf kənar hadisə olmayıb, əksinə, özündə «həqiqət toxumunu» ehtiva edir. Alimlərin bir qismi göstərir ki, stereotiplərdəki obyektivlik xüsusiyyətlərinin olması stereotip subyektinin düşüncəsindən xeyli asılıdır.

Ümumiyyətlə, stereotiplərin mövcudluğunu etnomədəni inkişafın nəticələri kimi qiymətləndirmək olar. Lakin cəmiyyətin dərin sarsıntılar keçirdiyi mərhələdə sosiumda patoloji hadisələr baş verir, şəxsiyyətin sosial institutlardan



uzaqlaşması, yaxud onlara inamının itirilməsi nəticəsində özgələşmə ovqatı yaranır, cəmiyyət bütövlükdə sanki yuxarıda qeyd etdiyimiz sosiomədəni qanunauyğunluğa riayət etmək qabiliyyətini itirir. Kütlə böhrana qərq olur, insanlar mədəni mühitlərini pozitiv yeniliklərlə saflaşdırmaq bacarığını itirmiş olurlar. Hər şeydən əvvəl, cəmiyyətin daxili konfliktləri qütbləşmə yaradaraq sosiomun inteqrasiya qabiliyətini pozur, xalqın adət etdiyi həyat tərzini diskomfor vəziyyətə salır. Daha dramatik mahiyyət kəsb edən hal budur ki, təşəkkül tapmış stereotiplər sistemi dağılmağa başlayır. Cəmiyyətin sosial strukturlarının fəaliyyətində ahəngdarlığın pozulması stress və qorxu əhval-ruhiyyəsi yaradır, qarşısı alınmaz emosionallığa meydan açılır, düşmən obrazının yaradılması üçün geniş zəmin yaranır. Ən dəhşətlisi budur ki, insanlar adət elədikləri stereotiplərdən əl çəkmək istəmir, onları bərpa etməyə cəhd götərir və bu, istər-istəməz köhnə, arxaik düşüncə və hərəkət formalarına qayıtmaqla müşayiət olunur ki, bu da sosiomədəni mühitdə zorakılıq vasitələrində istifadə üçün geniş psixoloji və emosinal şərait yaradır. Və belə bir şəraitdə etnik şüurun hansı neqativ təsirlərə məruz qalmasını təsəvvür etmək çətin deyildir.

Etnomədəni tədqiqatlar belə bir meyli görməyə imkan verir ki, ictimai həyat təzələndikcə etnik mənlik şüurunun strukturunda və milli mentalitetdə dinamik dəyişikliklər baş verir, klassik mədəni irsin dərkinə maraq artır, mənəvi mədəniyyət sahəsində digər xalqlarla etno-siyasi əlaqələri genişlənməyə başlayır. Sosial-siyasi və təbii-landşaft amillərinin təsirilə formalaşan etnik ümumiliklər yeni etnomədni münasibətlər səviyyəsində özlərini təsdiq etməyə meyl göstərirlər. Bununla belə, bu obyektiv qanunauyğun proses özününkülərin və özgələrinin xüsusiyyətlərini, müxtəlif cəhətlərini fərqləndirmək əsasında baş verir, çünki hər bir insan və xalq etnik şüur subyektidir. Tanınmış alim S.L.Rubinşteyn hələ 40-cı illərdə yazırdı: «Mənlik şüurundan, «mən»dən şüur yaranmır, əksinə, milli mənlik şüuru şəxsiyyətin şüurunun inkişafı gedişində meydana gəlir, şüur getdikcə real olaraq müstəqil subyektə çevrilir». Sosial şüurun aktiv formalarından biri olan etnik şüur millətlərarası əlaqələr

prosesində xarakterlərin, obrazların və digər xüsusiyyətlərin qarşıdurması əsasında formalaşır.

Belə etnomədəni ünsiyyətin xarakterik cəhətlərindən biri bu prosesdə fərdi stereotiplərin yaranmasıdır. Onların pozitiv mahiyyəti bundadır ki, özünüdərk edən xalq özünü və öz maraqlarını, tələbatlarını və istəklərini üstün, şəksiz, qanunauyğun, təbii görməyə və anlatmağa meylli olur. Etnik stereotiplər isə, əksinə, digər millətləri əsasən neqativ qiymətləndirməyə səy göstərir. Belə vəziyyət milli özünüdərk prosesində, milli dəyərlərin qarşıdurması zamanı, daha doğrusu, öz milli məziyyətlərini şişirtmək prosesində meydana çıxır.

Etnik şüurun xarakterik xüsusiyyəti onda emosional rövnəq olan stereotiplərin olmasıdır. Bununla bağlı bir daha qeyd edək ki, etnomədəni situasiyalarda digər xalqlarla müqayisədə öz millətini hamıdan üstün tutmaq, onu ən qabaqcıl və mütərəqqi xalq kimi təqdim etmək kimi keyfiyyətlər daha ifrat bir amili-etnosentrizmi meydana gətirir. Bu isə bəzi hallarda öz millətinin dəyərlərini pozitiv qiymətləndirməyə, başqalarının mədəni irsini isə neqativ tənqidinə gətirib çıxarır. Real təcrübə sübut edir ki, etnik stereotipin və etnosentrizmin səbəbi, əsasən, geri qalmış xalqların bəşəri dəyərlərdən özgələşməsi, özünütəcrid kimi bədnam psixologiyanın təsirinə düşməsidir. Özünütəcrid həyat tərzini seçmiş etnosa elə gəlir ki, onun həyat fəaliyyətini heç bir şeylə müqayisə etmək olmaz, onun sosiomədəni dəyərləri hamısından təkmil və sivilizasiyalıdır. Etnik şüuru bu mənada xalqın bütün həyat fəaliyyəti formalarını əks etdirən, özündə sintez edən onun həyat tərzindən ayırmaq qeyri-mümkündür. Həyat tərzi deyərkən müasir fəlsəfi ədəbiyyatda sosial subyektlərin həyat fəaliyyətinin tipik formaları, vasitələri və mexanizmlərinin məcmusu başa düşülür. Bu termin XX əsrin 60-cı illərində meydana gəlsə də, 70-ci-80-cı illərin əvvəllərindən tədqiqatlarda başlıca mövzu olmuş və 80-ci ilin ortalarından elmi dövrüyyədən çıxmışdır. Sonralar sosialist həyat tərzi termini dəbə düşdükdə sırf ideoloji məna kəsb etmiş, əsl fəlsəfi ontoloji statusunu itirmişdir.



Bugünkü keçid dövrü reallıqları göstərir ki, xalqın həyat tərzinin etnologiyasını düzgün öyrənməkdə mühüm metodoloji addım bundan ibarət olmalıdır: həyat tərzinin əsl məzmununu dərk etmək üçün cəmiyyətdən fərdə doğru deyil, fərddən cəmiyyətə doğru hərəkət etmək lazımdır. Yalnız belə olduqda biz insanların qarşılıqlı münasibətlərini yaradan və onların ətraf mühitlə ünsiyyətini gündəlik fəaliyyət səviyyəsində aşkar edən mexanizmləri öyrənə bilərik. Bu, həmçinin sosiumun yaşarlığını təmin edən makrostrukturların, makrosəviyyələrin real vəziyyətini aşkarlamağa imkan verər.

İnsanı daha çox maraqlandıran sosial həyat tərzidir. Çünki onun həyat fəaliyyətinin konkret formaları məhz həyat situasiyasında cərəyan etməklə konkret məzmun kəsb edir. «Həyat situasiyası» yeni təcrübənin toplandığı sosiomədəni mühitin dəyər-normativ potensialı hesabına zənginləşdiyi bir sferadır. Məhz belə bir şəraitdə fərdlər həyati tələbatlara və məqsədlərə nail olmaq naminə fəal prosesə daxil olurlar. Buna görə də «həyat situasiya»sını iki aspektdə nəzərdən keçirmək lazım gəlir: bunlardan birincisi, həyat fəaliyyətinin sabitliyini təmin edən qarşılıqlı prosseslərin, ikincisi, həyat fəaliyyətinin dinamik prosseslərinin məcmusudur. Belə ki, həmin prosseslər həyat fəaliyyətinin inkişafına kömək edir, yaxud mövcud vəziyyətin yenisi ilə əvəz olunmasına səy göstərir. Deyilənlərə aydınlıq gətirmək üçün qeyd edək ki, birinci halda «situasiyanı» bütöv sistem kimi saxlamaq üçün lazım olan amillər və şərtlər tədqiq olunur, yəni onun strukturu pozulmur. İkinci halda isə strukturun elementlərinin potensial, yaxud aktual olaraq ciddi şəkildə dəyişməsi üçün vacib olan amillər və şərtlər aşkar edilir ki, bunlar da situasiyanın əvəz olunmasını şərtləndirir. Beləliklə, fərdlərin həyat tərzi nəinki sosial situasiyanın tərkib hissəsi olur, habelə ətraf mühitdə yaranan hər bir situasiyanın strukturlaşmasında yaxından iştirak edir. Bu isə çox mühüm sosial-mədəni amildir, çünki fərdin həyat tərzi cəmiyyətin müxtəlif fəaliyyət sferalarında baş verən dəyişikliklərin mexanizmlərini anlamaqda kömək etməklə yanaşı, bütövlükdə sosiumun həyat keyfiyyəti barədə konkret biliklərin əldə edilməsinə yardım göstərir.

Biz problemi çox geniş aspektdə araşdırmaq məqsədini qarşımıza qoymamışıq, yalnız tövsiyələrimizi verməklə kifayətlənirik. Cəmiyyətin mövcud ovqatı və xalqın həyat tərzi ilə bağlı problemlər tədqiqatçılarımızın bu gün xüsusilə diqqət mərkəzində durmalıdır. Xalqımızın milli inkişafı üçün ağır keçən keçid dövrü reallıqlarının fəlsəfi dərkinin nə qədər aktuallıq kəsb etməsini ölkə Prezidenti Heydər Əliyevin dərin məzmunlu çıxışlarında qaldırılan sosial-siyasi və milli-mədəni problemlərin xarakteri özünü xüsusilə göstərir. Böyük siyasətçi və mədəniyyətimizin hamisi Heydər Əliyevin çıxış və nitqlərində qaldırılan problem və məsələlərə kompleks yanaşması həmçinin etno-mədəni problemlərin fəlsəfi metodologiya baxımından öyrənilməsini də aktuallaşdırır.

Bu baxımdan hazırda postsovet məkanında sosial və etnik identikliyin transformasiyaya uğraması problemi etnopsixoloqları və filosofları dərindən düşündürür.

Deyilənlərdən belə nəticəyə gəlmək olur: etnik şüurun normal fəaliyyətini təmin etmək və həyat tərzinin pozitiv məzmun kəsb etməsi üçün birincisi, nəzərə alınmalıdır ki, seçimin müəyyən edilməsində və dəyişən sosial reallıqlarda öz identifikasiyasının dərindən başa düşülməsində məhz şəxsi identiklik (bir sabit amil kimi) aparıcı və istiqamətləndirici şərtdir; ikincisi, başlıca və ən əsas sosial şərtlərin (etnik, vətəndaş və s.) transformasiyası şəraitində şəxsiyyət həmişə elə qrupla özünü eyniləşdirir ki, burada o özünü müəyyənləşdirmə problemini həll etsin, yəni bu identifikasiya adekvat dəyişən reallıqlarda ona «Mən kiməm?» sualına cavab tapmaqda yardımçı olsun. Bu sualın cavabı ona öz həyat fəaliyyəti üzərində nəzarət etməyə kömək edər və deməli, dəyişən dünyada insanın uyğunlaşmasına imkan verər. Bu isə son dərəcə mürəkkəb etnopsixoloji proses olduğundan fərd heç də həmişə buna arzu etdiyi şəkildə nail olmur, daha doğrusu, o, həyatın təqdim etdiyi cazibədar dəyərlərin hamısını mənimsəyə bilmir. Şəxsiyyətin həyat tərzini, onun sosial davranışlarını, sosiomədəni mühitini mürəkkəbləşdirən də məhz bu amillərdir.

Sosiomədəni praktikanın təkamülü və inkişafı prosesi hər bir millətin sosial yaddaşında kök salmış neqativ stereotiplərin



aradan qaldırılması və xalqın milli mənlik şüurunda sağlam mental xüsusiyyətlərin formalaşması cəmiyyətin sosial təbəqələrinin ümumi səyi və bacarığı ilə yanaşı, xalqın potensial ener-jisini dövrün qlobal siyasi-mədəni problemlərinin dərkinə və milli ideya naminə birləşdirməyə, cəmiyyətin sosial problemlərinin həllinə səfərbər etməyə qadir ümummilli liderin əzmkar fəaliyyətindən asılıdır. Bu faktorun önəmliyini və aktuallığını biz tədqiqatımızın başlıca məqsədi seçmişik.

## II FƏSİL.

## HEYDƏR ƏLİYEVİN «MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR» KONSEPSİYASI XALQIN MENTALİTETİNİN FƏLSƏFİ QAYNAĞIDIR

**«Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm».** Bu gün üstündən on il keçməsinə baxmayaraq, dünya şöhrətli siyasətçi, görkəmli dövlət başçısı, ölkə Prezidenti Heydər Əliyevin qəlbindən xalqa məhəbbət hissi ilə süzülən bu sətirləri həyəcansız, eyni zamanda qürur hissi keçirmədən oxumaq mümkün deyil. Həyəcansız oxumaq mümkün deyil ona görə deyirəm ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, fəqət əsl milli dəyər mahiyyətini bu gün dərk etdiyi müstəqillik anlamında cəmiyyətimizin qarşılaşdığı məşəqqətli, faciəli səhnələr, ağrılı günlər öz izini qoymuşdur, qürur hissi duyursan ona görə ki, bu sehirli anlamın sosial məzmununda Heydər Əliyevin başçılığı altında milli varlığımızın son on ildəki taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və qabiliyyəti, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensialı təcəssümünü tapmışdır.

Həqiqətən də, «soyuq müharibə», «qorxunun tarazlığı», «nüvə qışı» kimi metaforik ifadələrin qlobal siyasi mentalitetdən hələ tam psixoloji mənada sıxışdırılmadığı bir şəraitdə Azərbaycan Respublikasının dünya inteqrasiya proseslərinə **«müstəqilliyimiz əbədidir»** idealı ilə çıxması Heydər Əliyevin dərin siyasi zəkasının, onun sağlam düşüncə fəlsəfəsinin şəksiz xidmətidir. Mübaliğəsiz demək olar ki, vaxtilə Fransa prezidenti F.Mitteranın Avropa konfederasiyası, ABŞ prezidenti C.Buşun (ata) bütöv demokratik Avropa, Almaniyanın xarici işlər naziri Q.Qenşerin Avropada yeni dünya nizamı haqqında deyilmiş konseptual mülahizələri bu gün Avropa qitəsi reallıqları üçün necə əhəmiyyət kəsb edirsə, görkəmli milli lider Heydər Əliyevin o dövrdə irəli sürdüyü **«Müstəqilliyimiz əbədidir»** ideyası siyasi məzmununa görə türk dünyası ölkələrinin birliyi üçün də bir o qədər əhəmiyyət kəsb edir. Məhz bu amil ölkə Prezidentinin vaxtında irəli sürdüyü **«Müstəqilliyimiz əbədidir»** milli həyat fəlsəfəsinin formalaşmasını və meydana gəlməsini zəruri edən müqəddəm siyasi tarixi və sosiomədəni şərtlər barədə mülahizə söyləməyə əsas verir.

Heydər Əliyevin nəzəri düşüncəsi bu konsepsiyanı ərsəyə gətirərkən, daha dəqiq desək, bütün mənəvi varlığı ilə yaşayarkən dünya birliyi görünməz möcüzənin şahidi olmuşdu: son nəfəsinə qədər öz hərbi qüdrəti ilə dünyanın «düşmən kapitalist» hissəsini lərzəyə salan, yer üzündə «məzlum proletariatın» dayağı və müdafiəçisi olan, alman faşizminin onurğasını sındıran, kontinental imperiya adlanan fövqəldövlətin sıradan çıxması onun düşmənlərini də, dostlarını da heyrətə salmışdı. Çünki miqyasına görə bu, regional hadisə deyil, planetin bütün geosiyasətini, milyonların siyasi düşüncə tərzini kökündən dəyişən parçalanma idi. Bu səbəbdən də dünya proseslərinin neqativ sosial sarsıntılar istiqamətində cərəyan etməsinə yol verməmək üçün keçmiş kontinental imperiyanın ayrı-ayrı regionlarında sabitliyin təmin olunması planetar təfəkkürün qayğı predmetinə, sosiomədəni zərurətə çevrilmişdi.



Təbii ki, Heydər Əliyevin konsepsiyasının formalaşmasında xarici amillərlə yanaşı, daxili səbəblər – onun doğma vətəni Azərbaycanda baş verən ziddiyyətli, qeyri-müəyyən xarakterli, dağılan imperiyada milliyyətindən, irqindən asılı olmayaraq məskunlaşmış bütün insanların «kimdir müqəssir?», «nə etməli?» suallarına əməli cavabların axtarılmasını labüd edən proseslər xüsusi rol oynamışdır.

Qeyd edək ki, yuxarıda xatırlatdığımız suallara, sadəcə, metafora kimi yanaşmaq düzgün olmazdı. Bu suallar mentaliteti totalitar sovet rejimində formalaşmış xalqların milli həyatının məruz qaldığı mənəvi eroziyanın, mənlik şüurunun aşınmasının fəlsəfi refleksiyasını əks etdirirdi, parçalanma nəticəsində hökm sürən sosiomədəni tənəzzül və böhranın əsl mahiyyətini fəlsəfi idrak səviyyəsində öyrənilməsinə dəvət etdi. Belə bir sosiomədəni, ruhi böhrana azərbaycan xalqı da məruz qalmışdı. Lakin xalqımızın mentalitetinin mövcud vəziyyəti və milli şüurunun dərin qatlarında kök salmış stereotiplərin təbiəti keçmiş sovet məkanında meydana çıxan taleyüklü dilemma qarşısında qalmışdı: ölkəni bu fəlakətdən kim xilas edəcəkdir? Ölkənin sağlam düşüncəli ziyalıları dərk edirdilər ki, yeni təfəkkür elementlərinin hələ formalaşmadığı bir şəraitdə belə bir şəxs həm keçmiş sovet idarəçiliyinin incəliklərini dərindən bilən, həm də cəmiyyətin gələcək inkişaf perspektivlərini müəyyənləşdirməyə qadir lider ola bilər.

Sovet rejiminin struktur böhranının səbəblərini analitik siyasətçi kimi dərindən hiss edən Heydər Əliyev görürdü ki, hələ 1989-cu ildən başlayaraq yenidənqurmanın əsas problemlərinin həllinin uğursuzluğa düçar olması nəticəsində Sovet İttifaqı uçurum qarşısında idi. Partnomenklaturanın idarə etdiyi aparat getdikcə hakimiyyət və məsuliyyəti itirərək dövlət strukturlarına keçirdi. Yeni orqanlar təşkilatlanma vəzifələrini həll etməyə cəhd göstərirdilər. Vahid və yeniliklərlə ayaqlaşan idarəçilik konsepsiyasının olmaması və rəhbərliyin açıq aşkar zəifliyi və acizliyi ucbatından yenidənqurmanın Moskva təşəbbüskarları tarixi məqamı ötürmüş, mərkəzin yeni orqanları isə səriştəli qərar qəbul etmək bacarığını itirmişdilər. Əlbəttə,

hələ də idarəçilik sükanını əldən vermək istəməyən köhnə apparat işçilərinin özünə onsuz da çətin yol tapan yeniliklərə kor-təbii müqavimət göstərməsini də nəzərdən qaçırmaq olmazdı.

Mərkəzlə respublikalar arasında yeni münasibətləri tənzimləyəcək, həmçinin sosial-iqtisadi dəyişiklikləri uğurla həyata keçirilə biləcək konstitusiya və qanunvericilik islahatları anlaşılmaz dərəcədə yubanırdı. İqtisadiyyat və idarəçilik sahəsində siyasət artıq Moskvadan respublikaların və yerli orqanların səlahiyyətinə keçirdi. İttifaq prezidentinin və SSRİ Ali Sovetinin strateji qərarları yerlərdə yerinə yetirilmir, havadan asılı qalırdı. Bu hal ölkədə ictimai durumun normal olmamasından, onun tezliklə xaosa sürüklənəcəyindən xəbər verirdi. İqtisadiyyatın yeniləşməyə qabil olmaması ilə bağlı iflası ölkədə təhlükəli miqyas almışdı. 1990-cı ilin payızından əhalinin təchizatı elə pisləşmişdi ki, bir vaxtlar iqtisadi qüdrəti ilə öyünən dövlət yardım üçün Qərb ölkələrinə müraciət etməli olmuşdu.

«Sosializmi yeniləşdirmək» kimi utopik nəzəriyyəçiliyə qapılan, «yeni təfəkkürün» təntənəsindən dəm vursa da, əslində, səriştəsiz, «idarə etdiyi» siyasi sistemin mentalitetinin əsirliyində olan M.Qarbaçovun hikkəli və müştəbeh çıxışları mərkəzi dövlətçiliyin dağılmasını daha da sürətləndirirdi. Baltik dövlətlərinin mustəqillik haqqında bəyanatlar qəbul etməsindən sonra isə mərkəzlə respublikalar arasında Moskvanın qanunvericilik siyasətinin işləməməsi sovet məkanında konfliktləri daha da kəskinləşdirmişdi. Baltik xalqlarının müstəqillik səylərinin qarşısını zor gücünə almaq cəhdləri mərkəzin yenidənqurmanın uğurla həyata keçirmək iqtidarında olmadığını bir daha üzə çıxardı. Təcrübəli siyasətçi Heydər Əliyev yaranmış vəziyyəti analitik təhlil edərək başa düşürdü ki, kontinental imperiyanın iflası daha geniş miqyas, qlobal xarakter alacaq, Qərblə Şərq arasında ənənəvi konfliktin aradan götürülməsi, bununla da yeni dünya nizamının yaranması ilə nəticələnəcəkdir. Sonralar müdrik və uzaqgörən, partiyada keçdiyi yolu sağlam düşüncə baxımından təhlil



etmiş müdrik siyasətçi Heydər Əliyev Kommunist Partiyası sıralarından çıxmaq haqqında ərizəsində yazırdı ki, xalqa sərt və açıq şəkildə demək lazımdır ki, ölkəmizdə kommunist eksperimenti, sosialist seçimi özünü doğrultmadı, güc sayəsində yaranmış və qorunan respublikalar ittifaqı tükənmişdir.

Hələ Naxçıvanda olarkən bu əqidəsinə sadiq qalmış, söylədiyi bu proqnozu ilə hətta Qərb intellektuallarının da layiqli və obyektiv nüfuzunu qazanmışdı.

Doğrudur, ola bilsin ki, bədxahların belə fikrinə gəlmirdi ki, siyasi karyerasını ləyaqətlə başa vurub doğma Naxçıvanda sadə bir otaqda, özü də qədirbilən xalqın qeyrətli oğullarının, ziyalılarının ziyarətgahına çevrilən bir mənzildə yaşayan İttifaq əhəmiyyətli təqaüdçü, partiya lideri Heydər Əliyev xalqı haqqında düşünür, ölkənin taleyi sarıdan hədsiz narahatçılıq keçirirdi. Böyük siyasətdə öz sözünü demiş, təşkilatçılıq qabiliyyəti ilə keçmiş İttifaq liderlərini belə heyran etmiş azərbaycanlı Heydər Əliyev vətənində baş verən faciəli və qanlı hadisələri ürək ağrısı ilə izləyir, səriştəsiz «liderlərin» və fərsiz siyasətçilərin xalqın başına açdığı oyunlara qəlbən acıyırdı. Xalq mənliyini itirməyə başlayırdı, onun mentalitetinin mənəvi dəyərləri olan şərəf və ləyaqəti tapdalanır, sağlam düşüncəsi iflic vəziyyətinə düşürdü. Xalqın mənəviyyatına təmamilə zidd və yabançı həyat tərzi keçirənlərin hakimiyyətdə «meydan sulamaları» böyük həyat təcrübəsi keçmiş, tutduğu vəzifələrdə xalqa ləyaqətlə xidmət etmək nümunəsi göstərmiş bir siyasətçi qurub yaratdığı Azərbaycanın belə rəzil vəziyyətə düşməsini mənən qəbul edə bilmir, gördüklərindən dəhşətə gələrək nadan rəhbərlərin mənəviyyatsızlığa sürüklənməsini ürəkdən pisləyirdi. O, xalqının mənəviyyatının sadə bir həqiqətini bir daha təkrar etməli olmuşdu, **«həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü seçir».** Başqa sözlə, millətin başında şərəfsizlər durursa, buna xalq mənəviyyatı nə etsin.

Unutmayaq ki, səriştəsizliyin özü şərəfsizliyə meydan açan ən ziyanlı sosial-mənəvi keyfiyyətdir. Azərbaycan

cəmiyyətində ictimai şüur, xalqın milli mənlik düşüncəsi elə bir vəziyyətə düşmüşdü ki, psixoanalitiklər baş verən hadisələri «insan psixikasının zəifləməsi və ictimai şüurun qeyri-yetkinliyinin» təzahürü prizmasından qiymətləndirir, bunu kütləvi siyasətləşmə ilə izah etməyə çalışırdılar. Burada müəyyən həqiqət vardır, lakin cəmiyyətdə siyasi maariflənmənin və siyasi mədəniyyətin rolunu azaltmaq da düzgün olmazdı. Söhbət ondan getməlidir ki, - və bunu təcrübəli dövlət başçısı Heydər Əliyev çox gözəl sezirdi – əgər kütləvi şüur mənasız, heç bir mənəvi ölçülərə sığmayan yanlış millətçilik hissilə «zənginləşərsə», onda cəmiyyətdə mütləq əxlaqi etinasızlıq, sosial biganəlik mühiti yarana bilər. Təcrübəli dövlət başçısı Heydər Əliyev diplomatiyanın belə bir ümdə prinsipinin vacibliyini həmişə qeyd etmişdir ki, daxildə aparılan nadan və səriştəsiz siyasət ölkənin xarici siyasətində də özünü göstərir, onun nəinki dünya birliyinə daxil olmasına mane olur, daha çox, məsələn, Azərbaycanın nümunəsində götürsək, onun bütün xarici siyəsət səylərinə, hətta başına gələn faciələrə laqeyd münasibət yaradır. Belə bir təcridliyin xalqın tarixi şüuruna, onun milli identifikasiyasına vurduğu mənəvi ziyanı başa düşmək çətin deyildir. Daxildə isə bu, xalqın etimad hissini öldürmək, onun dövlətçiliyinə olan inamını şərəfsizcəsinə istismar etmək deməkdir.

Bəzən mətbuat səhifələrində «kadrlar hər şeyi həll edirmi?» məsələsinin qoyuluşu ilə rastlaşırıq. Ümumiyyətlə, kadr siyasətinə fəlsəfi baxımdan yanaşılsa, deyilməlidir ki, dövlətçilik üçün son dərəcə önəmli olan kadrlar məsələsi cəmiyyətin güclü sosial resurslarından olan insan amili, insan potensialı məsələsidir. Dövlət strukturlarında layiqli yer tutmaq üçün, bir qayda olaraq, kadrlar müəyyən həyat təcrübəsi, idarəçilikdə hazırlıq mərhələsi keçməli, təkcə peşəkarlıq deyil, lazımi siyasi və mənəvi parametrlərə uyğun gəlməli, hər şeydən əvvəl, idarə etdiyi cəmiyyətin psixologiyasını bilməlidirlər. Təsadüfi deyildir ki, Heydər Əliyev hələ Naxçıvanda olarkən cəbhəçilərin «fəaliyyətində» məhz əyalətçilik psixologiyasını pisləyir, xalqımızın dövlətçilik



ənənələrinə zidd, mənəviyyatı ilə bir yerə sığmayan əyintiliklərə yol verməsini xüsusi vurğulayırdı. Cəbhəçi liderlərin siyasi fəaliyyətsizliyinin «məhsulu» olan məsuliyyətsiz bəyanatlarının onsuz da beynəlxalq birlikdə hələ diplomatik dil tapa bilməyən Azərbaycanın imicinə vurduğu ziyanın nəticələrinin aqibətini Naxçıvan Ali Məclisinin sədri ürək ağrısı ilə dərk edirdi. Xalqımızın milli mentalitetinin yeni dəyərlərlə zənginləşməsinə mane olan cəhətlərdən biri cəmiyyətin «ümumi sovet ideologiyasının» istər idarəçilikdə, istərsə də real həyatda hələ də hökm sürməsi idi. Dünyada baş verən yeniliklərə həssaslıqla reaksiya verən Heydər Əliyev hələ hakimiyyətə ikinci gəlişindən əvvəl haqlı olaraq xəbərdarlıq edirdi: **«Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir».** Bu iradda çox ciddi məqam vardır. Söhbət sırf yeni idarəçilik prinsiplərinə yiyələnə bilməməkdən, təsərrüfatın köhnə idarə üsulu ilə aparılmasından (ümumiyyətlə, təsərrüfat idarəçiliyindən danışmaq lazım gəlmir) getmir. Məsələ bundadır ki, bolşevizm psixologiyasının hələ də yaşaması bütövlükdə xalqımızın şüurunda yeni mental keyfiyyətlərin formalaşmasına mənfi təsir göstərirdi. Məsələn, cəbhəçilər öz kadr siyasətində dünyagörüşünə varmadan insanları məsul vəzifələrə, xüsusilə prezident seçkilərində özlərinə xas sədaqət meyarlarına uyğun gələn, AXC-nin seçki qərargahının göstərişlərini sözsüz yerinə yetirən, heç olmasa, ixtişaşlar zamanı hökumət binasına daş atanları seçirdilər. Bu cür «korkoranə demokratiya» kütlələrdə şəffaf mentalitet formalaşdıra bilərdimi? Elə bu səbəbdən də az savadlı adamlara, dövlətçiliyin nə olduğunu bilməyən «kadrlara» iqtisadi, sosial, mədəni problemlərin həlli tapşırılırdı. Nəticəsi də bu oldu ki, «millətin bu seçmə kadrları» öz dağıdıcı əməllərinin nəinki qarşısını almaq iqtidarında olmadılar, əksinə, bu gün də öz əməllərinə görə məsuliyyətdən qaçmaqda davam edirlər. Bir sözlə, qısa bir müddətdə xalqa da aydın oldu ki, dünyagörüşləri yeniçilik parametrlərinə uyğun gəlməyən

cəbhəçi kadrlar, xalqın taleyüklü problemləri bir yana qalsın, elementar idarəçilik məsələlərinin həllindən uzaqdırlar. O dövrün qəzetlərindən birində yazılırdı ki, «az əmək sərf edib cəmiyyətdən daha çox qoparmaq kimi bədnam bir psixologiya indi bundan daha iyrənc bir prinsiplə əvəz olunub – milli sərvəti amansızcasına talan edib varlanmaq». Xalqın mənəviyyatına və milli şüuruna, onun həyat tərzinə bundan artıq zərbə vurmaq olarmı? Bu idi cəbhəçi rəhbərliyin ən yığcam sosial portreti.

Odur ki, böyük siyasətdə «səriştəli siyasətçi və nəcib insan» imicini çoxdan qazanmış Heydər Əliyev o illərdə siyasətə qayıtmaq istəyində olmasa da, respublikanın ictimai həyatında ağlasığmaz ədalətsizliklər onun vicdanını həddindən artıq narahat edirdi. Odur ki, real vəziyyəti bir daha dərindən və hərtərəfli təhlil edən, **«artıq belə yaşamaq olmaz»** əqidəsinə sadiq qalan Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev qəlbi xalqın taleyi üçün narahat olan ziyalıların bir qrupunun – müstəqillik tarixinə «91»-lər kimi daxil olmuş ziyalıların müraciətini cavabsız qoymadı. Bir də ki, dünyagörüşü **«mənim gücüm, ilhamım mənim xalqımdır»** fəlsəfəsindən mayalanmış xalqının qeyrətli oğlu Heydər Əliyev şəxsiyyəti ölkənin başına gələn həm siyasi-iqtisadi, həm də mənəvi müsibətlərə qətiyyən biganə qala bilməzdi. Onun bu seçimi çox siyasətçilərə müyəssər olmayan mənəviyyat seçimidir, milli reallıqları fəlsəfi idrak səviyyəsində düzgün və analitik qiymətləndirməyin bariz nümunəsidir.

Onun respublika ziyalılarının müraciətinə cavabı Heydər Əliyev şəxsiyyətinin əqidə manifestidir, böyük siyasətçinin tarixi zərurəti dərk edərək milli reallıqları düzgün qiymətləndirməyin nəzəri-metodoloji timsalıdır, milli inkişafın proqram əsəridir. «Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir». Heydər Əliyev daha sonra yazır: **«Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o**



**zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur».** Budur, Heydər Əliyevin dövlətçilik zəkasının, analitik düşüncəsinin fəlsəfi ruhu! Təkcə bu kəlam milli mentalitetin yeni təfəkkür məcrasında inkişafı üçün universal fəlsəfi metodologiyadır!

«91»-lərə «Cavabda» qoyulan məsələlərin məzmununa dərindən nüfuz etdikcə bir daha aydın olur ki, milli inkişafın perespektivlərini müəyyənləşdirmək üçün yüksək zəka sahibinin, xalqının kiçik və böyük dərdlərini, onun zəngin ənənəsini, düşüncə tərzini tarixi zərurət ölçülərində bilməsi son dərəcə gərəkli keyfiyyətdir. Böyük siyasətçi real vəziyyəti qiymətləndirərkən bu əqidədə olmuşdur ki, ölkədə dərin böhran və düşüncələrdə fəlakətli uçurum yaradan xalqla rəhbərlik arasında qarşılıqlı anlaşmanın olmaması səbəbindən meydana çıxan sosial konfliktlərdədir.

Odur ki, Heydər Əliyev **«müstəqilliyimiz əbədidir»** konsepsiyasını işləyib hazırlayarkən öncə onun struktur elementi olan «sosial sabitlik» prinsipinə üstünlük vermişdir. Hakimiyyətə ikinci qayıdışı zamanı xalqın düşüncəsini başlıca problem ətrafında - «həyatımızın çətinliyinin əsas səbəbi respublikamızın müharibə şəraitində olmasıdır» məsələsi ətrafında cəmləşdirməsi göstərirdi ki, ölkədə real sabitlik olmasa, xalqın zəkasını və enerjisini milli inkişaf problemlərinin həllinə səfərbər etmək mümkün deyildir. **«Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün çox iş görülməlidir. Bundan ötrü isə Azərbaycanın daxilində ictimai-siyasi sabitlik, bütün qüvvələrin, bütün təbəqələrin, bütün vətəndaşların milli birliyi, həmrəyliyi lazımdır».** Heydər Əliyevin bu kəlamı onun sosial sabitlik strategiyasının həyata keçirilməsində, Azərbaycanı zəiflədən amillərin mütləq aradan qaldırmasında mühüm səfərbəredici əhəmiyyət kəsb etmiş, hazırda da müdrik siyasətin təzahürü olaraq əhəmiyyətini saxlamaqdadır.

Tarixi təcrübə göstərir ki, sərvətləri çapılıb-talanmış, cəmiyyəti parçalanmış ölkənin rühdan düşmüş, mentaliteti

eqoizmə yoluxmuş vətəndaşların sosial enerjisini böyük quruculuq işlərinə cəlb etmək naminə xüsusilə vətəndaş müharibəsi həddində olan xalq üçün başlıca ictimai şərt olan sabitliyin təmin olunmasında səfərbəredici ideya, ideologiya mühüm şərtdir. Özünün ikinci qayıdışı ilə Azərbaycanın ən yeni tarixində yeni səhifə açan Heydər Əliyev yazıçı A.Proxanova verdiyi müsahibədə cəmiyyəti birləşdirəcək ideya haqqında çox müdrikcəsinə demişdir: **«Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə!»**. Bu **«müstəqilliyimiz əbədidir»** konsepsiyasının başlıca fəlsəfi aparıcı ideyasıdır. Yalnız həyatımızın bu fəlsəfi qayəsinə xidmət etməklə müharibəyə son qoymaq, işğal olunmuş torpaqları geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, doğma yerlərindən didərgin düşmüş, qaçqın olmuş Azərbaycan vətəndaşlarını öz yurdlarına qaytarmaq, bir sözlə, milli inkişafın təmin olunması üçün bu ilkin şərtləri həyata keçirmək mümkündür. Beləliklə, təcrübəli siyasətçi üçün ən təxirəsalınmaz vəzifə ölkədə sosial-siyasi sabitliyi təmin etmək idi.

Qeyd edək ki, Qərb siyasi nəzəriyyələrində və praktikasında sabitlik məsələsinin son dərəcə aktual olması Heydər Əliyevə çox yaxşı bəllidir. Dövlət başçılarının və liderlərin siyasətində mühüm yer tutan sabitlik fenomeni siyasi rejimləri, hətta beynəlxalq münasibətlər sistemini xarakterizə edən amildir. Bunsuz insan cəmiyyətində vətəndaş əmin-amanlığını, hakimiyyətin legitimliyini və səmərəli fəaliyyətini təmin etmək mümkün deyildir, çünki o, bütövlükdə siyasi dəyər kimi insanların davranışına, dünyagörüşünə, mədəniyyətinə, onların inkişafına böyük təsir göstərir. Ölkə Prezidenti sabitliyin məhz keçid dövründə misilsiz dəyərini xüsusilə göstərir, çünki birincisi, ümumiyyətlə, ictimai münasibətlərin tənzimlənməsi təkcə onların fəaliyyətinin deyil, habelə cəmiyyətin mütərəqqi inkişafının mütləq şərtidir. Bu tənzimlənmə ölkənin sosial institutlarının, hər cür istehsal üsulunun inkişafı və möhkəmləndirilməsi formasıdır. Heydər Əliyev zəngin dövlətçilik təcrübəsindən bilir ki, cəmiyyətdə qayda-qanun



lazımi səviyyədə olmayanda siyasətə təsadüfi ünsürlər daxil olur. Hakimiyyətin siyasi davranışı real məqsədlərə xidmət etmir, vətəndaşların hüquqlarını qorumaq mümkün olmur, dövlətin nüfuzu azalır ki, bu da cəmiyyətdə ümüdsizliyi, gərginliyi artırır. İkincisi, dünya təcrübəsi də göstərir ki, həmişə cəmiyyətdə siyasi mədəniyyət və siyasi sistem sabitliyin təminatına yardımçı olduqda iqtisadi, mədəni və s. inkişaf problemlərin və konfliktlərin həlli üçün əlverişli şərait yaranır. Əks halda isə, insanların şüurunda siyasi rejimə etinasızlıq yaranır, ənənəvi və bəşəri dəyərlər nüfuzdan düşür, cəmiyyətin sağlam qüvvələrinin sosial səfərbərliyi yolunda çətinliklər və maneələr meydana çıxır. Müdrük dövlət başçısı özünün liderlik fəaliyyətində sabitliyi ön plana çəkərkən belə bir məqamı da nəzərə alır ki, bu amil istər daxili, istərsə də xarici siyasətin mahiyyət və təyinatını müəyyənləşdirən müqəddəm şərtlərdən biridir. Hər bir halda sabitliyə söykənən siyasətin təşkiledici funksiyası cəmiyyət həyatında universal əhəmiyyət kəsb edir, heç olmasa ona görə ki, müstəqillik və azadlıq kimi siyasi dəyərlərin sosiumda bərqərar olması məhz sabitliyin təminatına istiqamətlənmiş siyasət sayəsində mümkündür. Təsadüfi deyildir ki, Heydər Əliyev ölkə rəhbərliyinə dəvət olunduqdan sonra Milli Məclisdəki ilk proqram çıxışında qeyd etmişdir: **«Azərbaycan Respublikasının vətəndaşları sülh və əmin-amanlıq şəraitində yaşayıb öz dövlətini özü istədiyi kimi qurmalıdır. Ona görə də bu məsələ əsas məsələlərdən biridir. Bundan sonra da bu məsələlər Milli Məclisin diqqət mərkəzində olmalıdır. Sizi bu barədə tam əmin edirəm»**.

Heydər Əliyevin əsərlərini, çıxışlarını oxuyarkən bir daha əmin olursan ki, ölkə başçısı fikir və mülahizələrində görkəmli nəzəriyyəçi metodoloq təsiri bağışlayır. Doğrudur, o, fəlsəfi metodologiyaya dair xüsusi əsər yazmamışdır. Lakin onun istedadının bu çalarını duymaq çətin deyildir. Məsələn, o, müstəqilliyin ən böyük bəhrəsi olan azadlığı əslində ənənəvi fəlsəfi baxımdan yalnız dərk olunmuş zərurət mənasında deyil,

habelə onu dərk olunmuş imkan kimi nəzərdən keçirir. Həqiqətən də, azadlığın təminatı üçün ilk növbəti adekvat sosial şərait və imkanlar gərəkdir. Gerçəkliyin dialektikasından çıxış etsək, azadlıq şəxsiyyətin yaradıcı potensialını həyata keçirmək üçün sosial-mənəvi imkandır. Digər tərəfdən, tarixin qanunları da yalnız zərurət formasında deyil, daha çox imkan formasında reallaşır və buna görə də insanların məsuliyyət və vicdan hissi tarixi imkanlar çərçivəsindəki fəaliyyətlə şərtlənir.

Heydər Əliyev mütləq azadlığı qəbul etmir, onun əqidəsincə, azadlıq özbaşınalıq deyil, müəyyən cəmiyyətdə hamı tərəfindən qəbul edilmiş sosial-əxlaqi normalar çərçivəsində həyata keçirilməlidir, demokratiya heç də hərc-mərclik, mənəviyyata qarşı hər cür istənilən zidd hərəkətə yol vermək deyildir. Bu mülahizələrin sabitliyin siyasi dəyər kimi dərkində önəmli əhəmiyyəti şəksizdir.

Bizə elə gəlir ki, ölkə prezidentinin idarəçilik fəlsəfəsinin başlıca qayəsi milli etimad psixologiyasının mahiyyətini geniş kütlələrə aşılamaqdır. Xalqının milli düşüncə tərzini və mentalitetini ruhən duyan Heydər Əliyev belə bir həqiqətə söykənir ki, hazırda kütlədə sosial etimad prinsipinə artan inam bu günki sosiomədəni reallıqlarımızı dərk etmək baxımından mühüm əhəmiyyət kəsb edir, çünki sovet dövrünün son islahatçıları ölkənin, xalqın ikinci təbiəti olan yeni iqtisadi davranışın obrazını yarada bilməmiş, sovet dövrünün ideoloji stereotiplərini, onların təfəkkürünün mental xüsusiyyətlərini nəzərə almamışlar. Ona görə bugün xalqın psixologiyasına və mentalitetinə biganə qalmaq və onun etimadının psixoloji əhəmiyyətini qiymətləndirməmək hakimiyyətin imicinə ziyanlı təsir göstərir. İkinci bir tərəfdən, islahatların arzu edilən istiqamətdə getməməsi, korrupsiyanın geniş miqyas alması xalqı bir daha növbəti möcüzənin gələcəyi naminə aldatmaq, sosial miraja söykənən mentalitet formalaşdırmaq deməkdir.

Müstəqillik təkcə mücərrəd azadlığa nail olmaq deyildir, o, hər şeydən əvvəl, vətəndaşın öz məsuliyyət məkanını dərinləşdirib genişləndirmək, xalqın və cəmiyyətin, tarixən



təşəkkül tapmış mədəniyyətin, sosial münasibətlərin məhdudluğunu aradan qaldırmaq, refleksiya yolu ilə yaradıcı potensialı artırmaqdır. Xalqın və onun intellektuallarının yaradacı potensialı insan azadlığının mahiyyətinə uyğun gələn əsas sosial təşkilat formalarını – dövləti və idarəçiliyi formalaşdırmalıdır. Əgər azadlıq lokal fəaliyyət məkanının dar hüdudlarından kənara çıxmaq istəyirsə, özünü mütləqləşdirməməli, həqiqətin yeganə substansiyası kimi təqdim etməməlidir. O, insanın mövcudluq forması kimi həyatda ədalət, yanılma, tənqid, plüralizm kimi fenomenlərlə hesablaşmalı, bunlarla substansional nisbəti gözləməklə həyatda qadirliyini sübut etməlidir. Çünki azadlığı totemləşdirmək, onun qayəsini bütləşdirmək, əslində, sərbəst yaradıcılığa imkan verən sosiomədəni mühiti dağıtmaq deməkdir. Azadlıq sivilizasiyalı bəşəriyyətin nailiyyəti kimi tarixi, sosiomədəni kateqoriyadır, çünki insan bunu yaşadığı cəmiyyətdə fəal yaradıcılığı sayəsində tarixən qazanmışdır, yəni azadlıq şüurun mental xüsusiyyəti kimi tədricən təkamül etmişdir.

Sosiomədəni tənəzzül şəraitində, yəni bu və ya digər fəaliyyət formalarının inkişafı üçün tərəqqiyə ehtiyac duyulduğu zaman ölçülərində, müəyyən ictimai qruplarda neqativ münasibət doğurur, bu isə azadlığın yolunda buxova çevrilir. Azadlığın inkişafını təmin edən başlıca stimullaşdırıcı mexanizmləri - dialoqa can atmaq, cəmiyyəti mənəvi diskomfort vəziyyətdən qurtarmaq, müdrik söz və kəlamla, ənənəvi və bəşəri dəyərləri inkişaf etdirməklə yenilikləri ustalıqla həyata keçirmək olar. Azadlıq cəmiyyət üzvlərinin rifahını yaxşılaşdırmaq məqsədilə müxtəlif alternativlər müqabilində gərəkli olanı seçmək imkanı və bununla da həyat və fəaliyyətin rəvan məcrada tənzim etməyin vacib mexanizmidir. Onun imkanlarını genişləndirmək, şəxsiyyətin sosial-siyasi qabiliyyətlərini hərtərəfli açmaq üçün şərait yaratmaq deməkdir.

Yenidənqurmanın psixoloji parametrlərinə nəzər salaq. Keçmiş islahatlar dövrundə (bu, vaxtilə Rusiyanın tərkibində

olmuş Azərbaycan gerçəkliyinə də şamil olunurdu – müəll.) bütün neqativ nəticələrdən bəhs edərkən insanları sadəlövhcəsinə inandırmağa çalışırdılar ki, real planların həllinə guya şər qüvvələr mane olur. Bu bir növ insan iradəsinin istər müsbət keyfiyyətlərini, istərsə də mənfi xüsusiyyətlərini nəzərə almadan hər bir uğursuzluğu şər qüvvələrlə, «şeytan əməli» ilə izah etmək cəhdi idi. Görünür, psixoloji çaşqınlıq şəraitində şər qüvvələri fetişləşdirmək zamanın ruhuna cavab vermirdi. Artıq postsovet cəmiyyətinin liderləri uğursuzluğa başqa, həmin cəmiyyətə xas olmayan təfəkkür mövqeyindən cavab axtarırlardı. Tarixi geriliyin, sosial ətalətin real səbəblərini dərk edən siyasi elitanın mütərəqqi cinahı artıq etiraf edirdi ki, biz hələ yenidənqurma siyasətinin məqsədlərini həyata keçirmək üçün səmərəli mexanizm yarada bilməmişik. Deməli, tarixi təbəddülat ictimai şüur və keçmişin rəsmi ideologiyaları baxımından o deməkdir ki, siyasi elita artıq bütün pozitiv və neqativ nəticələrin məsuliyyətini «özündə», «bizdə» axtarmağa başlayırdı. Beləliklə, köhnə mentalitetlə yeni təfəkkür arasında köklu uçurum meydana çıxır, cəmiyyətin yeni demokratik dəyərlər əsasında inkişafını təmin etmək üçün insanlarda əxlaqi dönüş yaranmağa başlayır. Fikir azadlığına, müxtəlif cürə düşünməyə, çoxpartiyalılığa, bir sözlə, plüralizmə meydan açılırdı. Liberal idealın ikinci qayıdışı baş verir, məsələn, Azərbaycanda 1920-ci il çevrilişindən sonra yeni ideal bəşəri dəyərlərə, ölkənin mənəvi irsinə söykənərək dərin kök salmış yadlaşmanın ləğvinə, humanist prinsiplərin təsdiqinə üstünlük verilirdi. Sosiomədəni baxımdan yanaşılsa, yenilik idealını öz istehsal, idarəçilik, mənəvi funksiyalarından özgələşmiş insanların özlərinə qayıtması, cəmiyyətin təbii sağlam düşüncəsinə qovuşması, insanilik simasını itirmiş sosial münasibətlərdən imtina etməsi cəhdi kimi izah etmək olar. Bu, insan düşüncəsinin, yaradıcı impulsun mübtəla olduğu psixi xəstəlikdən sağalmaq yolunda sosial dəyişikliklərə can atmaq cəhdi idi.

Yeni transformasiya proseslərinin sərt məntiqi ilə Azərbaycanın üzləşəcəyi perspektivləri analitik təhlil edən



Heydər Əli-yev zəkası ölkə əhalisinə açıqca bildirirdi ki, xalıqın içindən hakimiyyətə gələn təsadüfi ünsürlər, vəzifə hərisləri əxlaqi tənəzzülü, dövlətçiliyin düçar olduğu rəzil vəziyyəti, cinayət dünyasının insanlara, sadə vətəndaşlara qarşı çevrildiyini dərk etmirlər. Onlar başa düşmürdülər ki, əxlaqi şüur və vicdan normalarına məhəl qoymayanlar bu rəzalət üçün məsuliyyəti daşımaq iqtidarında deyillər. Bunun üçün, ilk növbədə, yəni yeni azad cəmiyyət idealını həyata keçirmək məqsədilə bütün sosial sistemin mübtəla olduğu dərin böhranın mahiyyətini, daha doğrusu, obyektiv və subyektiv səbəblərini, insanların şüurunun dərin qatlarına milli fəlakətin pozucu təsirinin miqyasını dərk etmək lazım idi. Dərk edilməli idi ki, təşəkkül tapmaqda olan azadlıq mühitindən cılız subyektiv niyyətləri deyil, bəşəri dəyərləri ilk plana çəkmək, əvvəlki təcrübəyə tənqidi yanaşmaq, köhnə ideoloji stereotiplərdən ağıl və zəka qabiliyyəti, yeniliyi duymaq hissi ilə əl çəkmək lazımdır.

Yenidənqurmanın bir çox məqsədlərinin həyata keçib keçməməsindən asılı olmayaraq, bir məsələ başa düşülməli idi ki, tarixin bu mərhələsi keçmiş İttifaqın bütün xalqları üçün, o cümlədən azərbaycanlılar üçün zəruri sosiomədəni əxlaqi dönüşdür. Və azad cəmiyyət quruculuğu ilk baxışda bəşəri mahiyyət kəsb etməsinə baxmayaraq, yenidənqurma «memarlarının» yeniliklər qarşısında çaşğınlığı nəticəsində mücərrəd ideala çevrildi. Belə ki, mənəvi fəallıqla sosial münasibətlərdəki müvafiq irəliləyişlərin olmaması arasında kəskin uçurum üzə çıxdı. Disidentlərin (o cümlədən Azərbaycanda) mövqeyini yada salaq: onların təfəkküründə dərin kök salmış mücərrəd ideal, nə qədər səmimi səslənsə də, yalnız sosial-iqtisadi ölçülərdə dərk olunurdu və buna görə də cəmiyyətin sosiomədəni həyatında yeni keyfiyyət yarada bilmədi, başqa sözlə, miras qalmış mədəni dəyərlər sistemindən kənara çıxa bilmədi, kütləvi şüurun yaradıcı potensialını üzə çıxara bilmədi.

Sovet siyasi rejiminin dağılacağını irəlicədən bilən Heydər Əliyev ona görə də həmvətənlərinə izah edir ki, uzun illər

kütləvi şüurda hakim kəsilən totalitar ideologiya artıq öz işini görmüşdür. Ona görə də ölkədə müxtəlif səviyyələrdə üzə çıxan ictimai fəallıqla liberal əxlaqi ideal arasında parçalanma hələ aradan götürülməmişdir. Şüurda baş vermiş parçalanma əsas təzahürünü insanların yaşadığı cəmiyyətin mənəvi-siyasi taleyi üçün məsuliyyət diapazonunun məhdudluğunda göstərirdi. Köhnə ideoloji stereotiplərin daşıyıcıları olan sosial təbəqələr mümkün qədər çalışır ki, ənənəvi strukturları və dəyərləri donuq vəziyyətdə, lokal çərçivədə saxlasın. Ədalət naminə deyilməlidir ki, sovet dövründə rəsmi ideologiyaya xidmət edən sosiologiya elmi əxlaqi idealların liberal tiplərinin mümkün təsnifatını verirsə də, birləşdirici əxlaqi idealın mühüm xüsusiyyətlərini də sezirdi.

Beləliklə, cəmiyyətdə labüd dilemma yaranmışdı: refleksiya, yoxsa deqradasiya? Əgər fəlsəfi dildə desək, refleksiya özünüdərk qabiliyyətidir, subyektin özünü öz obyektinə çevirmək qabiliyyətidir. Lakin sarsıntılar dövründə subyekti bu cür başa düşmək kifayət etmir. Refleksiya subyektin özünü dəyişdirməsi, özünün inkişafına səy göstərmək qabiliyyətidir, özünü təkrar istehsal etmək və praktik tənqidə məruz qoymaq bacarığıdır. Başqa sözlə, refleksiya insanın aramsız olaraq mürəkkəbləşən sosiomədəni şəraitdə, daim özünü təkmilləşdirmə prosesində özünü təkrar istehsal etməsidir, məqsəd və vasitələrini təkmilləşdirə bilməsi, mədəniyyətin və sosial münasibətlərin inkişafına səy göstərməsidir.

Göründüyü kimi, refleksiya insan potensialından istifadə edən yaradıcı prosesdir. Və məhz yaradıcı proses olduğundan subyektlə obyektin xarici qarşılıqlı əlaqəsində iki monoloqun konflikti deyil, əksliklərin bir-birinə aramsız qarşılıqlı nüfuz etməsi, əksliyin subyektin şüurunun və fəaliyyətinin məzmununa çevrilməsi prosesidir. Təbii ki, müxtəlif mədəniyyətlərdə refleksiya prosesi fərqli şəkildə təzahür edir. Ona görə də mədəniyyətləri refleksiyanın səviyyəsinə görə təsnif edirlər. Elə ola bilər ki, tarixən təşəkkül tapmış münasibətlər refleksiyanın fəaliyyətini və səmərəsini



məhdudlaşdırır. Bu isə mədəniyyətin geri qalması və cəmiyyətin dəyərlərinin nüfuzdan düşməsinə gətirib çıxarır. Belə təhlükəyə yol verməmək üçün kütləvi şüurun yaradıcı potensialını mümkün qədər geniş miqyasda üzə çıxarmaq, özünün və cəmiyyətin qarşısında insanların məsuliyyət hissini artırmaq gərəkdir. Cəmiyyət mürəkkəbləşdikcə refleksiya mexanizmləri də mürəkkəb mahiyyət kəsb edir. Ona görə də güclü siyasi refleksiya qabiliyyətinə malik, yəni praktik siyasi reallıqlara peşəkarlıqla nüfuz edən lider ilk növbədə çalışır ki, xalqın yaradıcı potensialının hərtərəfli açılmasına, onun mənəvi elita yetişdirmək qabiliyyətinin üzə çıxmasına sosiomədəni mühit yaratsın. Çünki refleksiyanın təkrar istehsal prosesinin həlli mürəkkəb olan problemlərdən geri qalması, cəmiyyətin təşkil strukturlarının pozulmasına, tarixin millət qarşısında qoyduğu qlobal problemlərin həllinə ciddi maneə yarada bilər.

Belə bir ictimai-idraki prosesə sosial biganəlik bütövlükdə sosiomədəni stereotipləri dəyişməyən, durğun mentalitetə söykənən cəmiyyəti deqradasiyaya sürükləyə bilər.

Heydər Əliyevin **«Müstəqilliyimiz əbədidir»** konsepsiyasının strukturunda tarixi ətalət və onun aradan qaldırılması problemləri özünəlayiq yer tutur. Xalqının tarixini dərindən bilən, onun ənənələrinə ehtiramla yanaşan və həmvətənlərinə daim **«tariximizi, tarixi ənənələrimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə qura bilmərik»** həqiqətini aşılayan ölkə Prezidentinin əsərlərinin ruhuna nüfuz etdikcə bir daha aydın olur ki, tarixi ənənəyə xor baxmaq prinsipi ilə tarixi təcrübənin tənqidi fenomeni eyni şey deyildir. Tarixi təcrübənin tənqidi hər şeydən əvvəl mənlik şüurunun reflektiv fəaliyyətidir. Tarixi təcrübənin tənqidi tarixi ətaləti aradan qaldırmaq yollarının axtarılmasını stimullaşdıran prosesidir. Tarixi şəxsiyyətin və liderin müdrikliyi, bu mühafizəkar hadisəni vaxtında görə bilməsi və bunu aradan qaldırmaq üçün, cəmiyyətin sağlam qüvvələrini vaxtında sosial səfərbərliyə cəlb etməsidir.

Heydər Əliyevin fəlsəfi düşüncələrinin qayəsinə nüfuz etdikcə təəssüf keçirməli olursan ki, tarixi ətalət problemi, onun

sosial mexanizmlərinin təbiəti cəmiyyətşünasların nəzərini hələ də kifayət qədər cəlb etməmişdir. Ən ümumi şəkildə desək, tarixi ətalət şəxsiyyətin, qrupun, cəmiyyətin öz davranış və məqsədlərində özünü vaxtilə mədəniyyətdə doğrultmuş təcrübəyə söykənmək, onu bu günə və gələcəyə şamil etmək, tarixin müəyyən mərhələlərində təkrarlanmış nümunələri rəhbər tutmaqdır. Tarixi ətalət sosial dəyişikliklərdən imtina etməkdir, bəşər tarixinin mühafizəkar cəhəti olmaqla keçmişin bu günə və gələcəyə, insanların gələcəyə yönəlmiş ideallarına təzyiq göstərir, pozitiv fəaliyyətin təşkilinə keçmişin nümunələrinə söykənən bu gün ortaya çıxan problemlərə keçmişdə cavab axtaran neqativ idealın təsiri deməkdir. İctimai şüurun haçalandığı və böhrana düçar olduğu bir şəraitdə tarixi ətaləti duyub aradan qaldırmamaq cəmiyyətin parçalanmasına, fəlakətə gətirib çıxarır. Tarix boyu bir çox ölkələrdə sosialmədəni islahatların baş tutmaması, məhz onların həyata keçirilməsi prosesində bəzi ictimai qüvvələrin tarixi təcrübənin donmuş nümunələrinə söykənməsi, tarixən təşəkkül tapmış, lakin dövrünə görə özünü doğrultmamış təcrübəyə müraciət etməsi olmuşdur. Buna baxmayaraq, tarixi ətalət mühitində haçalanmış mənlik şüuru həm də pozitiv mahiyyət kəsb edir. Belə ki, tarixin sarsıntılı illəri bir çox hallarda cəmiyyəti fəlakətdən qurtara biləcək qüvvələri üzə çıxarır, böhrandan çıxmaq yolları üzərində düşünməyə vadar edir, başqa sözlə, tarixi zərurət kütləvi şüurun və ziyalıların dünyagörüşündən yanılmaları aşkarlayaraq cəmiyyətin sağlam qüvvələri qarşısında böyük məsuliyyət və danılmaz ədalət meyarını rəhbər tutmaq vəzifəsini qoyur, milli mentaliteti psixoloji böhran gərginliyindən qorumağın vacibliyini ön plana çəkir. Cəmiyyətin həyat fəaliyyətini təmin edən sosiomədəni ziddiyyətlərin həllini milli ideya səviyyəsində dərk edir. Cəmiyyətin mütərəqqi, sağlam qüvvələrində fikir azadlığına, qabaqcıl dünyagörüşə malik lider axtarışlarına ehtiyac yaranır. Bizə belə gəlir ki, Heydər Əliyev dühasına zərurət məhz ölkəmizin keçirdiyi tarixi ətaləti, onu ilk növbədə şüurlardan qoparmaq, onu ağılla aradan qaldırmaq ehtiyacından yaranmışdır.



Heydər Əliyevin nəzəri təfəkkürünün gücü bundadır ki, o, dərin sosial biliklərə söykənərək, tarixi təcrübəyə sağlam və obyektiv münasibət nümayiş etdirərək xalqın şüurunu öz keçmişində ən rasional məqamların dərkinə yönəldə bilmişdir. Zəngin dövlətçilik təcrübəsinə malik ümummilli lider yazır: **«Azərbaycan xalqı kommunist rejimində, ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdi».** Ən önəmlisi budur ki, xalqımız sosializmin mənəvi mühitində yaşasa da, «qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşatmışdır». Şübhə etməmək olar ki, bu bəşəri və nəcib hissləri özünün yaddaşında yalnız mentalitetinin saf ünsürlərini qoruya bilən xalq yaşada bilər. Məhz bu səbəbdən ölkə Prezidenti bunu söyləməkdə haqlıdır ki, **«yetmiş il ərzində Azərbaycan xalqı böyük tarixi yol keçmiş, respublikanın iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş, xalqımızın mədəni, təhsil səviyyəsi yüksəlmiş, Azərbaycanın elmi, mədəniyyəti, həyatının bütün sahələri inkişaf etmiş, respublikada böyük iqtisadi, sosial və mədəni-intellektual potensial yaranmışdır».**

Heydər Əliyevin əqidəsincə, Azərbaycan xalqının gücü və qüdrəti bundadır ki, **«siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır».**

Göründüyü kimi, xalqın sağlam mentaliteti, xüsusilə onun tarixi yaddaşında saf mental xüsusiyyətlərin mövcudluğu ona öz azad gələcəyi, müstəqilliyi barədə düşünüb daşınmağa, bu amal uğrunda mübarizəyə aparmağa imkan vermişdir. Heydər Əliyevin fəlsəfi idrak nəzəriyyəsində mühüm məqam tarixi təcrübəyə tənqidi yanaşmaqla tarixi həqiqəti aşkar etmək, bunun müstəqilliyin təmin olunmasında müstəsna əhəmiyyətini göstərməkdir. Çünki Azərbaycan reallıqları bir daha göstərdi ki, geniş diapozonda tarixi təfəkkürə malik lider – Heydər Əliyev nəinki müstəqilliyi möhkəmləndirilməyə, habelə onu kövrək vaxtında qorumağa qadir oldu, gərgin anlarda xalqının mentalitetində tarix boyu yaşamış azadlıq və müstəqillik

keyfiyyətlərinə yeni həyat verərək üzə çıxara bildi. Heydər Əliyev onu da qeyd edir ki, xalq, müstəqilliyinin əbədiliyinə qəlbən inandığı kimi, onu tarixin gərgin və sərt dönüşlərində qorumağı da bacarmalıdır.

Qeyd edək ki, təcrübəli siyasətçi Heydər Əliyev hələ Azərbaycan ziyalılarının müraciətinə cavabında **«Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin təzahürünün böyük təhlükə»** yaratdığını bildirmiş, bunların qarşısının qətiyyətlə alınmasının zəruriliyi barədə respublika ictimaiyyətini xəbərdar etmişdi.

Həqiqətən də, müstəqil dövlətçiliyimizin inkişafının 1993-1995-ci illərində Azərbaycan xalqının dövlət suverenliyi tarixində amansız imtahan illəri oldu. Bu illər hər şeydən əvvəl, azərbaycanlıların milli mənliyi, dünyagörüşü, bütövlükdə dövlətçilik təfəkkürü üçün sınaq dövrü oldu. 1993-cü ilin iyununda tarixi müdriklik göstərən, xalqın təkidilə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycan ziyalılarına cavabında xüsusi qeyd etdiyi aktual milli problemləri həll etməyə başlayan andan qara qüvvələr müxənnət sifətini göstərdi. Xalq düşüncəsi bunu yaxşı bilir: çıxan qan damarda dayanmadığı kimi, çirkin niyyət və əməllər də gec-tez üzə çıxır. Azərbaycan dövlətinin suverenliyini dərk etməyən və qətiyyən idarəçilik təcrübəsi olmayan, daxili siyasətdə xarici düşmənlərin yedəyində gedən bir sıra «si-yasətçilər», siyasi ambisiyaları ilə dövlətçilik quruculuğuna ziyan vurmuşdur. Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrupunun zorakı hakimiyyət çevrilişinə cəhdləri baş tutmadı. Xalqımızın dövlət müstəqilliyinə, qeyrətinə arxadan zərbə vuran bu müxənnət və xain qüvvələrin rüsvayçı hərəkətləri barədə çox yazılmış və yəqin ki, xalqın göz bəbəyi kimi qorumağa hazır olduğu müstəqillikdən söhbət düşərkən yenə də yazılacaq və deyiləcəkdir. Lakin biz bu məsələyə toxunarkən daha çox həmin hadisələrin fonunda ölkə Prezidenti Heydər Əliyevin siyasi müdrikliyindən, onun güclü və həssas psixoloji keyfiyyətlərindən, xalqın yenilməz iradəsinə söykənərək onun



taleyüklü problemlərinin həllində nümayiş etdirdiyi strategiyadan və liderlik bacarığından danışmaq istərdik.

Haqqında söhbət gedən təlatümlü dövr xalqın mənliyi, psixologiyası üçün ona görə sınaq dövrü oldu ki, cəmiyyəti çaşqın vəziyyətə salmış gərgin hadisələrin məcrasında Heydər Əliyevin ümummilli liderlik potensialı bunun müsbət, tarixi məqam baxımından önəmli iradi keyfiyyətləri bir daha parlaq surətdə açıldı. İlahi müdrikliyin millətin öndərinə verdiyi qüdrət və iradə həmişə tarixin sərt dönüşlərində açılır. Bu mənada xalqın yaddaşına hopmuş ağrılı günlər həm ümummilli lider Heydər Əli-yev, həm də onun iradəsinə arxalandığı xalqımız üçün tarixi ibrət dərsi oldu. Ən önəmli cəhət odur ki, millətinin düçar olduğu ağrılı psixoloji anlarda təcrübəli siyasətçi Azərbaycan xalqına müstəqilliyini qorumaq, öz mənliyini və əxlaqını müdafiə etmək dərsi verdi, insanlarımızın şüuruna milli mövcudluğun mahiyyətini dərk etmək düşüncəsini aşıladı.

Siyasətdə, xüsusilə xalqın taleyüklü məsələlərinin həlli dövründə liderin hər bir sözünün sosial mobillik və milli səfərbəredici əxlaqi gücü və psixoloji təsiri müstəsna əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, sirr deyildir ki, siyasətçi səmimiliyi fenomeni kütlənin psixologiyasına çox zaman yol tapa bilmir. Bir çox istedadlı və mübariz siyasətçilər və liderlər xalqlarının psixoloji və mental keyfiyyətlərini düzgün və vaxtında qiymətləndirə bilmədiklərinə görə siyasət səhnəsini tərk etməli olurlar. Xalqımızın tarixi xoşbəxtliyidir ki, onun dövlət müstəqilliyinin və milli varlığının ən ağır günlərində Azərbaycan cəmiyyətinin çoxunun dərk edə bilmədiyi faciə ərəfəsində olması artıq danılmaz həqiqətə çevrildiyi bir vaxtda hakimiyyət sükanına, xalqının mənliyinə və qeyrətinə söykənən, onun mentalitetindəki hələ itməmiş müsbət dəyərləri yuksək qiymətləndirən Heydər Əliyev gəldi. O zamanın faciəli anlarında Heydər Əliyevin xalqa tarixi müraciəti bütün Azərbaycan üçün, **«ümummilli lider və xalq»** həqiqətinin nə olduğunu bir daha açdı. Milli-psixoloji ruhuna və mentalitet dəyərlərinə görə bu çıxış Azərbaycanda sosial psixologiyanın

xüsusi bir predmet sahəsi kimi dərindən öyrənilməyə layiqdir. Müraciətin milli-psixoloji məziyyətlərinə nüfuz edərkən vaxtilə dahi Viktor Hüqonun «Fransızlara müraciəti»ni xatırlatmalı oluruq. Onun müraciətindəki bu məqama diqqət yetirək: «Fransa bir zamanlar Yunanıstanın və Romanın malik olduqları üstünlüklərə malikdir: ona xətər edən təhlükə sivilizasiyanın tənəzzülünü sübut edir». «Doxsan üçüncü il» romanının müəllifi bu sözləri bir qədər yüksək fransız qüruru ilə desə də, hər halda, sezməmək mümkün deyildir ki, fransanı dünyanın böyük sivilizasiyaları cərgəsində görməklə, ölkənin birliyinin təmin olunmasında fransızların milli mənliyinin müstəsna rolunu nəzərə çatdırmaq istəyirdi.

Xalqımızın qeyrətli oğlu bir təcrübəli siyasətçi kimi dərk edirdi ki, bu gün Azərbaycanın müstəqilliyinə edilən qəsd sabah bu zəngin tarixi mədəniyyətə malik ölkənin müasir sivilizasiyadan qoparmaq deməkdir. O, həmvətənlərinin mənlik şüuruna çatdırmaq istəyirdi ki, xalqımızın müstəqilliyinə qəsd etmək türk sivilizasiyasının ayrılmaz və güclü qolu olan Azərbaycanın türk dünyasından ayırması deməkdir, milli birliyini dərk etməkdə olan dünya azərbaycanlılarının, mühacir həyatı, yaşayan həmvətənlərimizin taleyinə qəsd etmək deməkdir.

**«Hörmətli həmvətənlər, əziz bacılar, qardaşlar! Azərbaycan vətəndaşları!»** - Müraciətin bu ilk sözlərinin daxili məntiqində milli səfərbəredici potensial çox güclü surətdə nəzərə çarpır. Ümumiyyətlə, Heydər Əliyevin hər bir çıxışında irəli sürülən ideyalarda milli səfərbərliyə çağırış, ictimai fəallığı ümumi məqsədə istiqamətləndirən qayə çox güclüdür. Həmin çıxışında özünün xalq qarşısında siyasi-mənəvi səmimiliyinə bir daha sadiq qalaraq, xalqının milli xarakterini nəzərə alaraq ölkənin hörmətli adamlarına, partiyalara, ictimai təşkilatlara, bütün Azərbaycan xalqına müraciət edərək bəzi müxənnət qüvvələrin, gərgin şəraitdən istifadə edib dövlətin daxili ictimai siyasətini pozmağa cəhd göstərən fəaliyyətə artıq başladığını elan etmişdir. **«Onların bu hərəkətləri birbaşa Azərbaycan dövlətçiliyinin**



**əleyhinədir»,** ona görə də təxribatçı qüvvələrin fəallaşmasına dəstək verənlər, millətə zidd və yabançı ünsürlər istər-istəməz öz əməlləri üçün günahkar olacaqlar. Ölkə Prezidenti müstəqilliyimiz üçün həmin həlledici məqamda, çox gərgin dəqiqələrdə xalqa qətiyyətlə elan etmişdi ki, düşmənlərimiz Azərbaycanda yarana biləcək cinayət hərəkətləri, məsuliyyətsiz təxribatları, dövlət çevrilişinə cəhdləri, digər qüvvələri bu işə təhrik etdikləri üçün günahkar hesab olunacaqlar. Milli-dövlətçilik mənafelərimiz, min bir əzabla müstəqillik qazanmış xalqımızın saf məfkurəsi, qeyrəti və namusu tələb edir ki, qara qüvvələr öz əməllərindən əl çəksinlər, millətin azadlıq idealına qəsd etməsinlər. Azərbaycan xalqının mentalitetində dərin kök salmış **«ağsaqqal sözünü eşitmək, el müdriklərinin məsləhətini dinləmək»** prinsipini rəhbər tutan ölkə başçısı öz xalqından yadlaşmış qüvvələrə müraciətində bir daha xatırlatdı ki, əgər onlarda müstəqil Azərbaycan dövlətçiliyinə sədaqət hissi varsa, vətəndaşlıq ləyaqəti varsa, xalqın inkişafını üstün tuturlarsa, səhv əməllərindən əl çəkib düz yola gəlsinlər. Odur ki, ölkənin son dərəcə təhlükəli anında Heydər Əliyev yaranmış vəziyyəti düzgün qiymətləndirərək qiyamçılardan bədxah əməllərindən əl çəkməyi tələb etmişdir, çünki ayrı-ayrı düşmən qüvvələr, silahlı dəstələr Bakı şəhərində artıq dövlət çevrilişinə başlamışdılar. Təbii ki, paytaxt sakinləri ölkə başçısının çıxışındakı bu qəti və ciddi məqama biganə qala bilməzdilər. Heydər Əliyev xalqın öz müstəqilliyini qorumaq əzmində olduğunu bilərək müraciətində demişdi: **«Nə qədər gec olsa da, nə qədər çətin olsa da, mən sizi ayağa qalxmağa dəvət edirəm. Əziz bakılılar, əziz Bakı sakinləri! Sizin hamınızı bizim bu gərəkli işimizə qoşulmağa çağırıram».** Bəli, Azərbaycan xalqının mənlik şüuruna, onun sosial-mənəvi sarsıntılara məruz qalmış mentalitetinə belə ülvi ideya aşılanırdı ki, dövlət müstəqilliyinin əbədiliyini təmin etmək naminə hər bir soydaşımız bu gərəkli işi bütün varlığı və zəkası ilə dərk etməli, ölkə Prezidentinin ətrafında şüurlu vətəndaş kimi birləşməlidir.

**«Sizdən kömək gözləyirəm, Sizdən xahiş edirəm ki, Azərbaycan dövlətçiliyinin başının üstünü almış qara buludları dağıtmaq üçün birləşəsiniz, əlbir olasınız»** - Heydər Əliyevin xalqa, onun ağsaqqallarına, ünvanlandığı müraciətdəki bu sözləri həyəcansız oxumaq olmur, xalqın məşəqqətli tarixi taleyinin mahiyyətinə dərindən nüfuz etmiş Prezidentin artıq yaxınlaşmış fəlakət qarşısında tam məsuliyyəti dərk etməsi və xalqa da bu məsuliyyət hissini aşılaması əhalinin düşüncəsində və əməlində ictimai fəallığın artmasına güclü impuls vermişdi. Xalqa aydın və səlist ana dilində, yeri gəldikdə pozitiv emosional ruhda müraciət etmək, onun qəlbinə və şüuruna, düşüncə tərzinə və təfəkkürünə nüfuz etmək kimi son dərəcə önəmli keyfiyyətlər yalnız böyük siyasətçiyə xasdır. Yalnız belə təhlükəli vəziyyətdə Prezidentinə qəlbən bağlı olan hər bir vətəndaş evində-eşiyində, şəhərində, kəndində ayağa qalxaraq müstəqilliyini qoruya bilər, son damla qanına qədər xalqı ilə birlikdə olan Prezidentinə sədaqət nümayiş etdirə bilər.

Azərbaycanlıların mentalitetində qadınlara, xüsusilə ağbirçəklərə hörmət və ehtiramın qədim tarixi vardır. Onlar həmişə «qanı qan ilə yox, su ilə yuyarlar» prinsipinə söykənən adət və ənənələrin əməl olunmasında müdriklik göstərmişlər. Onlar heç zaman ən naqis insanların belə çəkişmələrində, qan tökülməsinə yol verməmişlər. Xalqının əxlaq adətlərinə dərin ehtiram hissilə yanaşan Heydər Əliyev həmişə nəcib və humanist niyyətlərin, mentalitetimizin ölməz dəyərlərinin daşıyıcısı olan qadınlarımızın mənəviyyatını yüksək qiymətləndirmişdir. Millətin balalarının qanını tökməyə hazır şərəfsiz siyasətçilərin hərəkətinin qarşısını almaq üçün hər bir azərbaycanlı qadınının qeyrət və namusuna müraciət edərək söyləyir: **«Mən Azərbaycanın qadınlarına müraciət edirəm. Analar, bacılar cəmiyyətdə sülh yaranması üçün həmişə böyük vasitəçi olmuşlar. Ağbirçək analar həmişə öz övladlarına öyüd-nəsihət verməklə onları düz yola dəvət etmiş, bu yolla getmələrinə çalışmışlar. Hörmətli analar,**



**bacılar, hörmətli gəlinlər, qızlar, mən sizə müraciət edirəm. Öz cəsarətinizlə, qadınlıq qeyrətinizlə bu vəziyyətdən çıxmağa kömək edin»** – ölkə Prezidenti qadınlarımızda, onların milli təfəkküründə, qeyrət və cəsarətində türk əzminin böyüklüyünü, türk ruhunun əbədi yaşarlığının təcəssüm tapdığını xüsusi qürurla qeyd edərək azərbaycanlıların mentalitetindəki bu keyfiyyətləri milli psixologiyamızın ən dəyərli məqamları sayır. O əmindir ki, millətin ana və bacılarının belə saf mentaliteti xalqımızın mənəvi bütövlüyünün parçalanmasına heç zaman imkan verməz. Ulu tariximiz də bunu sübut edir. Türk xalqlarının, bütün Turanın ümumi anası hesab olunan Tomris qan tökməyin əleyhinə olmuş, ən ifrat halda türkün əmin- amanlığını pozan, qan içən hökmdarlarla müharibə etməli olmuşdur. Xalqının mentalitetindəki bu gözəl keyfiyyətlərin daşıyıcısı olan gənclərimiz də Prezidentin səsinə səs verərək ölkənin müstəqilliyini qorumağa qalxdılar, Heydər Əliyevin haqq yolunu tutdular.

Milli şüurun pozitiv keyfiyyətlərini daha da möhkəmləndirmək baxımından maraqlı və önəmli cəhətlərdən biri də budur ki, Heydər Əliyev ölkənin fəlakət qarşısında olmasına baxmayaraq, Azərbaycan dövlətinin qüdrətli olduğuna, özünün də xalqın hakimiyyətinə güvəndiyini xüsusi vurğulayır, onun bütün sülh potensialından istifadə olunmasına inam yaradır. Bununla belə, qeyrətinə ehtiram etdiyi xalqını heç bir təxribata, düşmən hiyləsinə uymamağa, sayıqlığını itirməməyə çağırır. Heydər Əliyevin o ağır günlərdə **«Azərbaycan xalqı qeyrətli xalqdır, mətin xalqdır»** sözlərini bir daha xatırlatması nəinki müstəqil Azərbaycanın vətəndaşlarını mətanətli, dəyanətli, cəsarətli, qəhrəman qeyrətli olmağa dəvət edir, habelə o, xalqın bu keyfiyyətlərini misilsiz milli dəyər kimi qiymətləndirməklə, bütün dünya ictimaiyyətində Azərbaycan xalqının ləyaqətli obrazını yaradır, onun saf mentalitetə malik olduğunu xüsusi vurğulayır. Hadisələr də Heydər Əliyev dühasının qələbəsi, xalqımızın saf və şəffaf mentalitetinin qələbəsi ilə başa çatdı.

Bu gün on ilə yaxındır ki, xalqımız ölkə Prezidentinin müdrik siyasəti və şəxsi mətinliyi sayəsində, dünya sivilizasiyasının aparıcı dövlətlərinin diplomatik məkanında özünəlayiq yer tutmuşdur.

Lakin unutmaq olmaz ki, hələ də torpaqlarımızın iyirmi faizi erməni işğalçılarının əlindədir. Hər gün, hər an biz düşmənlərlə üzləşə bilərik, xalqımızın milli mənlik şüuru bir çox sosial-siyasi deformasiyalara məruz qala bilər, keçid dövrünün özünəməxsus, bəzən də nəticəsini müəyyənləşdirmək mümkün olmayan halları üzə çıxarır. Bu isə vətəndaşların milli mənlik şüurunun, insanlarımızın idrak qabiliyyətinin artırılmasını, varislik prinsipini rəhbər tutmaqla, adət-ənənələrimizdə müsbət keyfiyyətlərin inkişaf etdirilməsini daha da aktual edir.

Belə bir mühüm sosial-əxlaqi cəhətə də xüsusi diqqət verilməlidir: milli varlığın intellekti, onun inkişaf etdirsək. idrak fəlsəfəsinin başlıca ruhudur. Başqa sözlə desək, milli inkişafımızın və deməli, mənlik şüurunun mahiyyətini dərk etmək, mentalitetimizin yeni dəyərlərlə zənginləşdirmək ən mühüm fəlsəfi problemdir. Bu, əslində, aramsız, permanent idraki prosesdir. Əgər millət sivilizasiyalı inkişaf yolunu seçirsə, deməli, milli varlığının əsas parametrləri olan təfəkkürünü və mentalitetini daim yüksək mənəvi-əxlaqi dəyərlər hesabına zənginləşdirməlidir.

Təsadüfi deyildir ki, Heydər Əliyevin **«müstəqilliyimiz əbədidir»** konsepsiyanın strukturunda milli mənlik şüuru və onun inkişafı mühüm yer tutur. Mədəni xalqlar, intellektual irsi zəngin olan millətlər bu məqama daim diqqət yetirmişlər. Dahi Sokratın «Özün özünü dərk et» fəlsəfi çağırışında yalnız əxlaqi saflaşma məqsədi güdülmür, bu, həm də yaradıcı təfəkkürün elə bir mentalitet xüsusiyyətidir ki, düşüncədə insan və dünya vəhdətdə mənalandırılır. İnsanın intellektual qüdrətinə inanan yunan mütəfəkkiri hesab edirdi ki, əgər fəlsəfə insana özünü dərk etməyi öyrətmirsə, deməli, bəşəri borcunu, yeni mənəviyyatlı təfəkkürə malik insan yetişdirmək vəzifəsini yerinə yetirmir, belə olarsa, o, heç fəlsəfə də deyil.



Təcrübəli siyasətçi Heydər Əliyevin özünün yaşadığı və gənc nəslə aşıladığı həyat fəlsəfəsi milli mənlik və milli şərəf hissinin xalqın mentalitetinin əsas qaynaqları səviyyəsində dərk etməyin nümunəsidir. Bu gün milli mənlik şüurunun inkişafında başlıca məqsədlərdən biri Heydər Əliyevin **«Azərbaycan adlı müstəqil dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir»** konseptual ideyasını bütün xalqımızın yeni mentalitetinin formalaşmasının fəlsəfi təməli kimi inkişaf etdirməkdir.

Mentalitetin etnopsixoloji və etnomədəni dəyərlərinin tədqiqi azərbaycanlıların milli mənlik şüurunun inkişafında ümumi meyl özünü göstərir. Bir tərəfdən, cəmiyyətin demokratikləşdirilməsi və Qərbin kütləvi mədəniyyət nümunələrinin geniş yayılması vətəndaşlarımızın təfəkküründə də yeni həyat tərzi ilə bağlı dəyərlərin özünə yer tutmasının, milli mədəniyyətimizə ümumbəşəri dəyərlərin fəal nüfuz etməsinin şahidi oluruq. Bu proses bəşəriyyətin obyektiv inkişafının gedişilə şərtlənən qanunauyğun olmaqla mütərəqqi mahiyyət kəsb edir. Lakin ikinci tərəfdən isə, milli ənənəmizin etnomilli və etnomədəni dəyərlərinin milli mənlik şüuruna təsirinin azalmasının şahidi oluruq ki, bu da müəyyən narahatlıq doğurmaya bilməz. Bir qayda olaraq, müasir elm milli aləmi vahid kosmos kimi nəzərdən keçirir. Bu elə bir aləmdir ki, burada insan və onun tarixən sosial psixologiyasına təsir edən təbii mühit vəhdət təşkil edir. Belə bir təbii-mənəvi mühit xalqın milli xarakterini formalaşdırır, onun şüur imkanlarının praktik fəaliyyətini istiqamətləndirir.

İctimai həyatın intensiv yeniləşməsi milli mənlik şüurunun inkişaf dinamikasının hüdudlarını daha da genişləndirir. Kommunikasiya vasitələrinin intensiv təsiri nəticəsində dünyanın digər xalqları ilə mədəni əlaqələr də intensiv xarakter kəsb etməyə başlayır, müxtəlif etnomədəni dəyərlərin mənimsənilməsi, milli mentalitetin məzmunu yeni mənəvi-əxlaqi dəyərlərlə zənginləşir.

Heydər Əliyevin dünya ölkələri ilə qurduğu diplomatik əlaqələr Azərbaycanın planetin digər ölkələri ilə

yaxınlaşmasına, habelə azərbaycanlıların digər xalqlarla mədəni əlaqələrinin genişlənməsinə, vətəndaşlarımızın etnomədəni dəyərlərinin və milli mənlik şurunun identifikasiyası, fəlsəfi refleksiyası üçün geniş imkanlar açmışdır. Xalqın milli mənlik şüurunun inkişafını milli varlığın özünütəsdiqi üçün vacib şərt hesab edən ölkə Prezidenti əmindir ki, müasir sivilizasiya şəraitində mədəniyyətlərin qarşılıqlı təsiri, mədəni dialoq olmadan heç bir xalq normal inkişaf edə bilməz. Yalnız belə olduqda özünüdərk edən xalq öz milli mənafelərinin, tələbatlarının və arzularının vacibliyini, onların qanunauyğunluğunu və təbiiliyini görə bilər. Məhz bu sosial idrak prosesində fərd və millət özünün psixoloji steriotipləri sisteminə tənqidi yanaşır, yenilik hissi ilə yaşayıb yaratmağa üstünlük verir. Məlumdur ki, steriotip xarakteristikalar xalqların təfəkkür tərzinin, mentalitetinin daha güclü və özünəməxsus cəhətlərini təşkil edir. Buna görə də son illər mentalitetin genezisi və funksiyalarının öyrənilməsində etnopsixologiyanın və etnopedoqoqikanın metodlarından istifadə olunmağa başlanmışdır. Milli münasibətlər, milli varlığın mədəni-tarixi çalarlarının dərki sistemində şəxsiyyətin mentalitet xarakteristikaları baxımdan öyrənilməsində yeni istiqamətdir. Çünki xalqın mentaliteti millətin tarixi haqqında cəmiyyətdə yayılmış ideyalarda, millətin varlığı və düşüncə tərzi barədə təsəvvürlərdə mövcud olur. Hər bir millət canlı bütövlük olduğundan, özünəməxsus sosial-psixoloji fərdiyyət olduğundan onun mentaliteti də məhz özünün fərqli cəhətlərinin təkrarsız nisbəti kimi çıxış edir. Ona görə də Azərbaycan millətinin milli psixologiyasının, onunla birgə yaşayıb yaradan digər xalqların psixoloji düşüncə tərzinin, ictimai həyatın bütün sahələrində cərəyan edən yeniləşmə şəraitində nəzərə alınması Heydər Əliyevin **«müstəqilliyimiz əbədidir»** konsepsiyasının mühüm struktur komponentlərindəndir. Ölkə Prezidenti qətiyyətlə bildirir ki, Azərbaycanda yaşayan hər bir vətəndaş milliyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq demokratik azadlıq və hüquqlara malik olmalıdır. Nəzərə alınmalıdır ki, tarixi-obyektiv proses olan müstəqilliyimizin bərqərar



olunmasını müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin xidməti saymaq olmaz. Onun konsepsiyasına görə, yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqının olduğundan hamı onun tərəqqisinə çalışmalıdır, ona görə də milli dövlət quruculuğu prosesinə əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonrakı illərin təcrübəsi göstərir ki, o, milli siyasətdə bu mühüm sivilizasiyalı dövlətçilik prinsipinə daim riayət etmiş və bu gün də həmin kursu demokratik yollarla həyata keçirməkdədir.

Ən önəmlisi odur ki, milli varlığımızın inkişaf təcəssümü olan dövlətçilik vəzifəsini öz ambisiyalarının əsrliyində olan, ayrı-ayrı siyasi partiyaların, dövlətçilik mədəniyyətindən uzaq qurumların, cılız eqoizm fəlsəfəsinə mübtəla olmuş şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına heç cürə vermək olmaz. Belə halda cəmiyyətin ictimai şüuru, ölkəmizdə tarixən çiyin-çiyinə yaşayan xalqların, ilk növbədə, azərbaycanlıların milli mənliyi və şərəf ləyaqəti mənəvi böhrana məruz qala bilər. Bu gün hər bir azərbaycanlı dövlətimizin başçısının belə bir müddəasını özünə əqidə örnəyi götürməlidir ki, müstəqilliyimizin inkişafına və möhkəmləndirilməsinə mane olan daxili və xarici qüvvələr öz şəxsi mənafelərini həyata keçirməklə nəinki dövlətçiliyimizə, habelə xalqımızın mənəviyyatına və mənlik şüuruna ağır ziyan vurur, onun mentalitetinin zənginləşməsini ləngidi. Unudulmamalıdır ki, bu gün də düşmənlərimiz Azərbaycanı dağıtmaq, parçalamaq, ölkəmizi, müstəqil dövlətimizi məhv etmək niyyətlərindən əl çəkmirlər. Ona görə də bu gün milli varlığımızı, şərəf və ləyaqət düşüncəmizi inkişaf etdirmək, Azərbaycanın əbədi müstəqilliyinə dərin inam hissini bütün dünya birliyinə aşılamaqdır. Bədxah düşüncə sahibləri, intellekt səviyyəsi müasir sivilizasiya tələblərinə cavab verməyən kəslər bilməlidirlər ki, Azərbaycanın müstəqilliyinə xəyanət fikrinə düşmüş daxili və xarici qüvvələr azadlığımızın inkişafını və müstəqilliyimizi möhkəmləndirməkdən sapdıra bilməyəcəklər, bu müqəddəs və ülvi əqidəyə söykənənlərin tarixi sınaqdan şərəflə çıxması üçün cəmiyyətimizin milli birliyi təmin olunmalıdır. Məsələ burasındadır ki, xalqın mentalitetinə mənfi

təsir edən məqamlardan biri millətdə güya milli mənlik və şüur hissinin olmaması, yaxud çox zəif olması barədə yerli-yersiz mülahizələrin də irəli sürülməsidir. Belə mülahizələrin əksinə olaraq, milli inkişaf təcrübəsi göstərir ki, dövlətçiliyin müdafiəsini özünə vətəndaşlıq borcu və milli şərəf sayan xalq ən təhlükəli anlarda təmkin və qürurla onu qorumağa qalxmışdır. Son hadisələr də göstərir ki, ağır taleyi Azərbaycan xalqının daxili mənəviyyatını və sağlam düşüncəsini sarsıda bilməmişdir.

Ümumiyyətlə, böhranlar dövründə ara sözləri kütləvi mentalitetə təsir etsə də, həqiqəti, ictimai rəyi ifadə etmir. Buna baxmayaraq, totalitar cəmiyyətin ideoloji steriotiplərindən tamamilə xilas olmamış, sosializm mentalitetin gündəlik davranışa təsirinə son qoyulmamış bir şəraitdə vətəndaşların xeyli hissəsi yanlış siyasi təsəvvürlərin əsirliyinə qapılmış olur, belə halda şüur qatlarında sanki həqiqi fikir və düşüncələri səsləndirməyə mane olan neqativ elementlər yaranmağa başlayır, mentalitetdə konstruktiv siyasətin dərki yolunda psixoloji əngəlliklər meydana çıxır. Məhz belə sosio-psixoloji şəraitdə zəngin səriştəyə malik olan lider, alman filosofu Fixtenin dediyi kimi, cəmiyyət üzvlərinin şüurunun ən dərin qatlarında yerləşən reallıqlara, hər bir dövrdə, hər bir anda müəyyən sosial qrupların həqiqi və dərin, səmimi istəklərini təşkil edən reallıqlara müraciət edir.

Heydər Əliyevin dövlətçilik və idarəetmə fəlsəfəsinin elmi-nəzəri gücü bundadır ki, o, insanlarımızı daim yaşadığı real vəziyyəti barədə düşünməyə ruhlandırır, milli quruculuq sahəsində bütün sağlam qüvvələrin mənəvi-intellektual potensialından maksimum və yaradıcı istifadə etməyə stimullaşdırır. **«Tarix milli mənliyimizi və quruculuğumuzu yenidən sınağa çəkir»** - ölkə Prezidentinin bu mülahizəsi bütün zamanlar üçün aktuallığını saxlamaqdadır, buna görə də siyasi sayıqlığı və milli şərəf hissini millətin inkişafı naminə daim sarsılmaz iradəmizin keyfiyyətləri kimi təkmilləşdirməli, saflaşdırmalı, milli mentalitetimizin ayrılmaz dəyərləri kimi uca tutmalıyıq. Sevindirici faktdır ki, Heydər Əliyevin **«Əzəmət və qüdrətinə, namus və qeyrətinə arxalandığım və



güvəndiyim Azərbaycan övladları»** ifadəsi bu gün milli təfəkkürümüzün, şərəf və ləyaqətimizin siyasi-mənəvi qaynağına çevrilmişdir.

## III FƏSİL

## TARİXİ YADDAŞ VƏ MENTALİTET PROBLEMİ

Tarix bəzən sönmüş vulkana bənzəyir, həmin vulkanın yaxınlığında yaşayanların sayıqlığını yatırdır, lakin o, canlanıb püskürəndə insanların nə baş verdiyini anlayana qədər canlı nə varsa, hər şeyi məhv edir.

Milli fəlakət də bəzən belə bir həddə çatır. Və bunu dərk edərkən aydın olur ki, o, siyasi-iqtisadi prosesdən çox sosiomədəni hadisədir. Bəşər təcrübəsinin göstərdiyi kimi, fəlakət tarixən təşəkkül tapmış milli-mədəni əlaqələrin dağılmasıdır, mənəvi deqradasiyadır.

Ümumiyyətlə, xalqın dünyagörüşü uzun tarixi təkamül prosesində bir sıra sosial-iqtisadi və siyasi-mədəni amillərin təsiri altında formalaşır. Onun milli psixologiyası, düşüncə tərzi müəyyən konkret tarixi-mədəni mühitdə sosiomədəni keyfiyyətlərə yiyələnir, mənəvi ictimai inkişaf forması olan milli mənlik şüuru tarixi yaradıcılıq subyekti kimi insanın tarixi xüsusiyyətlərini özündə ehtiva edir. Bununla yanaşı, milli mənlik şüuru ictimai və fərdi, sosial-sinfi və milli komponentlərin vəhdəti olmaqla millətlərarası münasibətlərdə müxtəlif cürə obyektivləşir və sosial-tarixi yaddaşda yaşayır, etnomədəni dəyərlərin nəsildən-nəslə ötürülməsini təmin edir.

Sosioloq İ.Vallerstayn «tarixi sistem» anlayışını elmə gətirməklə tarixi yaddaş probleminin öyrənilməsinə təkan vermişdir. Onun təlimində «tarixi sistem» məkan-zaman çərçivəsində elə bir sosial bütövlükdür ki, bu çərçivədə əsas hadisələr məcmusunu müəyyənləşdirən «məntiq» fəaliyyət göstərir. İnsan zəkası da bu məntiqi dərk etməklə son nəticədə

özünü dərk etməyə, özünün tarixdə yerini başa düşməyə çalışır.

Biz yuxarıda belə bir metodoloji məqamı qeyd etmişdik: Heydər Əliyevin **«müstəqilliyimiz əbədidir»** konsepsiyasının nəzəri-praktik məziyyəti bundadır ki, o, diqqəti milli mənlik şüuru ilə özünüdərkin dialektikasına cəlb etməklə milli şüur ilə tarixi idrak məsələlərinin vacibliyini ön plana çəkir. Bu elmi yanaşma nəzərdən keçirdiyimiz fəsildə də öz dəyərini və metodoloji əhəmiyyətini saxlayır.

Özünüdərk, ümumiyyətlə, elə bir milli-psixoloji prosesdir ki, onun sayəsində zəkalı insan dünyaya, dünya isə insana yaxınlaşır, onun dünyalaşması və dünyanın insanlaşması baş verir. Özünüdərk insanla dünya arasında hər cür konfliktin, bunun həlli ilə bağlı anlaşılmazlığın aradan qaldırılması üçün sosial-psixoloji şərait yaradır. Ən başlıcası odur ki, insan özünüdərk prosesində özü haqqında biliklər əldə edir, özü haqqında bilmədiyi biliyi qazanmaq isə insanın hisslərini, duyğularını ülviləşdirir, təfəkkürün zənginləşməsinə, onun mentalitetinin məzmununa yeni keyfiyyət gətirən yollar açır. Bu proses insanın öz ətrafına və özünə münasibəti təcrübəsini müdrikləşdirir, mənəviyyatını və mentalitetini saflaşdırır. Bu isə bütövlükdə düşüncə sahibli fərdlərdən ibarət cəmiyyəti saflaşdırır.

Özünüdərk eyni zamanda özünəqayıtmadır, bu isə insanın özünü, öz mahiyyətini yenidən kəşf etmək və onun özünün həqiqətə qovuşmasıdır. İnsan psixologiyasının sosial təhlili göstərir ki, tarixi prosesin gedişində insan öz diqqətini əsasən onu xarici aləmdə cəlb edənlərə yönəldir, idrak prosesi bu həvəsi daha da stimullaşdırır, düşünən fərdin təfəkküründə önəmli tarixi biliklər canlanır, onun tədricən tarixi mənlik şüuru formalaşmağa başlayır.

Tarixi yaddaşın sosiomədəni ölçülərdə öyrənilməsi Heydər Əliyevin fəlsəfəsində irəli sürülən konseptual problemə – xalqın tarixi-mədəni yaddaşının onun yeni təfəkkürünün inkişafında rolu məsələsinə aydınlıq gətirir. Tanınmış ingilis filosofu R.C.Kollinqvud yazır ki, tarix ideyası hər bir insanın şüurunun



elementi kimi mövcuddur və o, düşünməyin nə olduğunu dərk etdiyi andan bu ideyanı kəşf etməyə çalışır. Başqa sözlə, insan zəkası idraki qabiliyyət kəsb etdikcə o, cəmiyyətdə və dünyada tutduğu yeri və rolu barədə düşünərkən labüd olaraq tarix haqqında da sosiomədəni ölçülərdə mülahizələr söyləməyə meyl edir. Və zaman keçdikcə hər bir konkret dövrün sosiomədəni ilkin şərtləri ilə qarşılıqlı əlaqədə konkret tarixi təfəkkür tipləri, eləcə də düşüncə tərzinin tarixi anlamı prinsipləri formalaşmağa başlayır. Bu o deməkdir ki, insan tarixi varlıqdır və bu onun yalnız sosial təbiətinə deyil, həm də mənəviyyatına aiddir, çünki fərd özünü yalnız tarixin gedişində və tarixin vasitəsilə dərk edir. Ona görə də insanın ətraf aləmə münasibəti tarixi şüur məsələsidir. Hazırkı halda ictimai şüurda zamanın hər üç tarixi parametrlərinin - keçmişin, bu günün və gələcəyin yerləşməsi və eləcə də onlara müvafiq ictimai durumların (real və ideal) tutuşdurmaq qabiliyyətinin meydana gəlməsi geniş mənada tarixi şüurun yaranmasına sübutdur. İctimai şüurun bütün təzahürlərində insanın sosial təbiəti əks olunsa da, bu inikas özünün adekvat əksini tapır. Artıq özünün elementar formalarında tarixi şüur tarixi dünyanın ifadəçisi olub. Deməli, tarixin məna zənginliyini yalnız tarixilik sayəsində dərk etmək mümkündür. Beləliklə, tarixi şüur bütün ziddiyyətli təzahür formalarına baxmayaraq, hər dövrün mədəniyyətinin başlıca dünyagörüşü xarakteristikası kimi çıxış edir. Bu mənada mədəniyyət tarixin məhsulu olmaqla bərabər, zamanda cərəyan edir. Elə bunun sayəsində biz müəyyən dövrlə üzləşməklə həmçinin əmin oluruq ki, formalaşdırıcı element kimi sosial praktika və onun əsasında təşəkkül tapan tarixi təcrübə çıxış edir. Özünün genezisi baxımından tarixi şüur hər bir insan birliyinin mənəvi və əxlaqi mədəniyyətində zaman əlaqələrinin ehtivası olmaqla həmçinin həmin mədəniyyətin daşıyıcılarının tarixi sabitliyinin şərti funksiyasını yerinə yetirir.

Sosiomədəni subyekt olan insanın ən mühüm fərqli cəhətlərindən biri özünün bütün məhsuldar həyat fəaliyyəti sahələrində həm maddi, həm də mənəvi istehsal sferasında

məqsədyönlü şəkildə intellektual dəyərlər toplamasıdır. Bu mənada intellektual fəaliyyət və onun bəhrələri bəşəriyyətin kollektiv sərvətidir. Deməli, insan təbiəti tarixi fəaliyyət subyekti kimi çoxcəhətli qabiliyyətlərin-təşəkkülün, ünsiyyət formalarının inkişafının, hər şeydən əvvəl maddi istehsal prosesinin, yaddaşın inkişafının, kollektiv təcrübənin, fəaliyyətli-nəzəri səylərin məhsuludur. Belə irsi nəsildən nəslə ötürmək heç də sadə proses deyildir, bunun üçün ilk növbədə insanlar tarixi tərbiyə dövrünü keçirməli və əldə etdikləri tarixi biliklərdən bəhrələnərək nəsillərə tarixini sevdirməlidir. Bu, həmçinin göstərir ki, hər bir bilik son nəticədə tarixi bilikdir, birincisi, hər biliyin öz tarixi olduğu kimi, o, eyni zamanda müəyyən tarixi məqamın özünün də daşıyıcısıdır. Deməli, fərdin təcrübəni hansı vasitə ilə əldə etməsi də, onun tarixi yaddaşı qoruyub saxlamaq mexanizmi də tarixin məhsuludur. Bu mənada deyə bilərik ki, tarixi proses insan tərəfindən özünün sosial təbiətini yaratmaq, təfəkkür tərzini, düşüncəsini formalaşdırmaq prosesidir. İnsan varisi olduğu keçmişini fikrən bərpa etməklə, əslində, özünün təşəkkül prosesini bərpa etmiş olur.

Tarixi şüur fenomeninin meydana gəlməsi dünya mədəniyyəti tarixində epoxal əhəmiyyət kəsb edir. Məhz tarixi şüur insana belə bir həqiqəti aşkarlayır ki, fərdin varlığının fəlsəfi mənası, onun yaradıcı şəxsiyyəti kimi mövcudluğu tarixi varislik məcrasında mümkündür, çünki yaşamaq və düşünmək qabiliyyətini insana tarixi təcrübə verir. Tarixi şüur son nəticədə mənəvi və etik dəyərdir, insanın tarixlə bağlılığını şərtləndirən, tarixdən özünü identifikasiya etməsi üçün vacib intellektual vasitədir. Deməli, zəngin tarixi şüura yiyələnmədən milli varlığın tarixi qaynaqlarını dərk etmək, milli təfəkkürün və mentalitetin sosial-əxlaqi mahiyyətini anlamaq qeyri-mümkündür. Sınanmış bəşəri dəyərlərlə zənginləşmiş tarixi şüur, həm də tarixi, əxlaqi meyarlarla qiymətləndirməyin mötəbər mexanizmidir. Burada maraqlı metodoloji məsələ ortaya çıxır: hansı mental xüsusiyyətlərinə görə tarix müxtəlif cürə qiymətləndirilir? Tit Liviy hesab edirdi ki, tarix Roma



comərdlərinin eposudur, Tasitə görə, tarix dəhşətlər dramıdır, Otton Freyzinqen – tarix dünyanın sonunun kandarıdır. Mentalitet baxımından maraqlı yanaşmadır. Elə dövr olmuşdur ki, tarixi «nümunələr əsasında düşünmək fəlsəfəsi» adlandıranlar da olmuşdur. Bəlkə, elə buna görə də bəşər tarixinin müəyyən inkişaf mərhələsində insanlarda tarix fəlsəfəsinə ehtiyac yaranmışdır. Deməli, həm tarixçi, həm də adi düşünən insan tarixi «görməyi və duymağı» bacarmalıdır. Belə bir intellektual qabiliyyət həm tarixi yaddaşın formalaşmasında, həm də onun fəlsəfəsinin dərkində son dərəcə gərəkli mexanizmdir. İngilis filosofu A.Uaytxedin maraqlı bir fikri vardır: insan təcrübəsinin əsasında iki fenomen durur - fakt anlayışı, bizim qavradığımız və dərk etdiyimiz material və məna (əhəmiyyət), bunun vasitəsilə biz faktları differensiasiya edib əlaqələndiririk. Bu hər iki anlayış təkcə metoddan deyil, həm də ümumi dünyagörüşdən, dünyanı görmək qabiliyyətindən asılıdır. Bu, maraqlı təfəkkür yanaşmasıdır. Deməli, hər hansı bir tarixi faktı dərk etmək üçün intellektual təfəkkür, dünyanı başa düşmək üçün yetkin mentalitet xüsusiyyətlərinə malik olmalıdır. Bu belə nəticə çıxarmağa əsas verir ki, tarixi yaddaşın mövcudluğu və dərki üçün formalaşmış yetkin təfəkkürün, şüurun pozitiv mental xüsusiyyətlərlə zənginləşməsi son dərəcə vacibdir. Təbii ki, fenomenlərin dünyagörüşü əsasları bir tarixi dövrdən digərinə keçid prosesində müəyyən obyektiv və subyektiv dəyişiliklərə məruz qalır. Deməli, tarixi təcrübə ilə mentalitetin parametrlərinin nisbəti dəyişkəndir. Bu dəyişkənliyə baxmayaraq, insanlar son nəticədə tarixi təcrübəyə müraciət edirlər, çünki bu fenomendə həm tarixi hadisələrin mahiyyəti, həm də konkret tarixi dövrlərdə yaşayıb yaradan insanların intellekti və mentaliteti ehtiva olunmuşdur. Beləliklə, bütün bəşəri dəyərlərin sosiomədəni mahiyyətini, sosial formalaşma mərhələlərini tarixi təcrübə əsasında öyrənmək lazımdır. Bütün bu deyilənlərdən belə bir mühüm nəticəyə gəlmək olar ki, tarixin də başlıca predmeti insandır, onun intellektinin yaratdıqlarıdır.

Təsadüfi deyildir ki, xalqın zəngin tarixinin daha dərindən, müasir metodologiya baxımından öyrənilməsini mühüm elmi-intellektual vəzifə kimi irəli sürən Heydər Əliyev azərbaycanlıların tarixi yaddaşı probleminin öyrənilməsinə, hər bir vətəndaşın tarixi şüurunun formalaşmasına böyük diqqət yetirir. Çünki o, belə bir düzgün fəlsəfi-metodoloji ideyanı əsas götürür ki, tarixi yaddaş və tarixi şüur dialektik vəhdətdə inkişaf edərək, düşüncə və mentalitetimizi pozitiv məzmunla zənginləşdirir.

Yeri gəlmişkən, belə bir haşiyə çıxmaq istərdik. Qırğız yazıçısı Ç.Aytmatovun «Əsrə bərabər gün» romanında dərin fəlsəfi məna kəsb edən belə bir rəvayət var: dəhşətinə və zülmkarlığına görə misli olmayan bir cərrahiyyə əməliyyatı aparılır. Bu zaman «juenjuan» xalqının adətinə görə, əsirlərin (onları «ideal qullara» - «manqurtlara» çevirmək üçün) üzərində əməliyyat aparırlar. Məqsəd əsirləri «canlı yaddaşdan» məhrum etmək idi, bu, insanı mədəni yaddaşdan, onun öz «Mən»ini dərk etmək qabiliyyətindən, fəlsəfi dildə desək, mənlik şüurundan məhrum etmək idi. Görkəmli qırğız yazıçısı özünün güclü bədii priyomlarla təsvir etdiyi bu epizodla demək istəyir ki, istər ayrıca insan, istərsə də bəşəriyyət üzərində aparılan bu amansız, qeyri-insani əməliyyatdan məqsəd düşünən insanları tarixi yaddaşdan məhrum etmək, daha doğrusu, xalqı xalq edən, mədəniyyəti mədəniyyət, insanı insan edən bəşəri amildən məhrum etmək, insanın tarixi şüurunu məhv etmək, fərdin mövcudluq mənasını, insan mədəniyyətinə məna kəsb etdirən funksiyanı əlindən almaqdır. Yeri gəlmişkən, qeyd edək ki, alman filosofu Maks Veber tarixi şüuru, fərdi insan fəaliyyətlərinin mənası və mahiyyəti adlandırmışdır. Bir daha təkrar edək ki, bu ideya Heydər Əliyevin də sosial fəlsəfəsində qırmızı xətlə keçir. İstər ayrıca bir insanın, istərsə də bütöv bir xalqın tarixi yaddaşı onun mədəni varlığının təcəssümüdür, başqa sözlə, o, sosiomədəni fenomendir.

Ümumiyyətlə, yaddaşın insani spesifikası bundadır ki, insanlar hər şeydən əvvəl mədəniyyətə məxsusdurlar. Başqa



sözlə, insan yaddaşı ilk növbədə sosial-mədəni yaddaşdır. Lakin mədəniyyət özlüyündə özünü dərk edən, fəlsəfi dildə desək, refleksiya edən, bəşəriyyətin inkişafının tarixi olduğundan insanın tarixi inkişafının dərkindən, daim tarixi yaradıcılıq prosesi olduğundan mədəniyyət yaddaşı da yaradıcı, daim təkamüldə olan aramsız prosesdir. Digər tərəfdən, mədəniyyət həmişə tarixi məzmun kəsb etməklə yanaşı, məkan və zamanda tarixin, yəni gələcəyin bu günə, bu günün keçmişə çevrilməsi prosesi olduğundan həm mədəni, həm də tarixi yaddaş dialektik vəhdətdə keçmişi qorumaq, unutqanlıqla şüurlu mübarizədir.

Beləliklə, tarixi yaşantı nəsillərin mədəni varisliyini keçmişin, bugünün və gələcəyin mənlik şüurunun yaddaşından dərk etməkdir, baxmayaraq ki, mənlik şüuru özü də sosial yaddaşdır. Bununla belə, biz tarixi yaşantını şəxsiyyətin şəxsi tarixi düşüncələrindən, mədəni-emosional proseslərindən ayırmırıq, çünki hər bir fərdin yaddaşı bəşəriyyətin tarixi-mədəni mənzərəsinin daşıyıcısıdır, daha doğrusu, şəxsiyyətin fəlsəfi dünyagörüşündə nəsli və fərdi yaddaşların sintezi ehtiva olunmuşdur və bu vəhdət pozularsa, milli-mədəni yaddaşdan söhbət gedə bilməz. Tarixi yaddaş mədəniyyətin yaradıcısı və daşıyıcısı olan insanın mənlik şüurunun güzgüsüdür, bu, şəxsiyyətə mədəniyyətdə «mən özümü unutmamışam, mənliyimi dərk edirəm» deməyə mənəvi əsas verən tarixi məkan-zaman ölçülərində fəaliyyətin inikasıdır, azad şəxsiyyətin «Mən»idir. Bu isə o deməkdir ki, tarixi şüur və tarixi yaddaş zaman-məkan ölçülərində dərk olunmalıdır.

Mədəni irsimizin dərin bilicisi və misilsiz qoruyucusu Heydər Əliyev Türkiyə parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anma mərasimində çıxışında, biz deyərdik, intellektual irsimizin tarixi yaddaş ölçülərində öyrənilməsinin metodologiyası baxımından belə bir ibrətamiz ifadə söyləyir: **«biz müəyyən siyasi, ideoloji səbəblərə görə, düşdüyümüz vəziyyətə görə, Türkiyədən ayrı olduğumuz halda qəlbimiz həmişə bir olub, Füzuli Türkiyədə də, Azərbaycanda da səslənib. Tək Füzuli yox, bizim**

**xalqlarımızın Füzuli kimi böyük sənət adamları, şəxsiyyətləri bizi ayrılığa qoymayıbdır. Yəni bizi daim birləşdirib və bizi ayıran qüvvələrin qarşısını almağa kömək edib».**

Burada Heydər Əliyev zəkasının milli mədəniyyətimizin dühası Füzulinin irsinə məhəbbəti şəksiz olduğundan biz bu aksiomatik həqiqətə deyil, Heydər Əliyevin sosial fəlsəfəsinin ruhundan çıxış edərək başqa bir məsələyə – tarixi yaddaşın «empirik reallıq» olması, yəni keçmişin görə bilmədiklərini özündə ehtiva edən sosiomədəni fenomenə deyil, bu gün də insan təfəkküründə yaşayan, onun mentalitetini nurlandıran, canlı, düşüncəmizdə yaşayan tarixi yaddaş məsələsinə toxunmaq istəyirik. Onun şüurumuzda daim dərk olunan böyük məna kimi aktual mövcudluğu problemi üzərində dayanmaq istəyirik. Fəlsəfi baxımdan yanaşılsa, yaddaşın «mövcudluğun mənası» şüur axını ilə gələn mənaları tənzimləmək, insana dünyanı olduğu kimi açmaqdır.

Bu baxımdan «tarixin yaddaşını» bu gün insanın dünyagörüşünü formalaşdıran, onun düşüncəsində xalq ruhunu daim yaşadan amil kimi öyrənməyin aktuallığı Heydər Əliyev sosial fəlsəfəsinin leytmotividir. O, Füzulinin 500 illik yubileyi ərəfəsində səmimi etiraf etmişdi ki, ölkəmizin ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən çətinliklərlə müşayiət olunacaqdır, lakin bununla yanaşı, o qeyd edir ki, **«həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahənin geri qalmasına yol verməməliyik».** Milli həyatın «böyük mənası» odur ki, xalqın tarixi və mədəniyyətini qoruyub saxlamaq onun azərbaycanlı yaddaşını və dünyagörüşünü hifz etməkdir, onun bugünki həyat tərzini saflaşdırmaq və mənalandırmaqdır. Heydər Əliyev müdrik həyat təcrübəsinə malik olduğu üçündür ki, deyir: **«Xalq gərək daim öz kökünü xatırlatsın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın».**



Böyük zəka sahiblərinin dühasından mayalanmış tarixi yaddaş milli mənlik şüurunun təzahürü kimi vətəndaşda həmçinin real gerçəkliyə söykənən qürur hissi keçirməyə mənəvi əsas verir. Məhz buna görədir ki, Heydər Əliyevin fikrincə, Füzulinin yubileyini keçirmək **«Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini bir daha dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsldə milli iftixar, vətənpərvərlik hissini daha da yüksəldəcəkdir».** Belə bir mədəni tədbirin keçirilməsi dünya ictimaiyyətinə xalqımızın varlığını milli ideal ölçülərində təqdim edir, yəni azərbaycanlıların öz mövcudluq mənasını mədəni yaddaşda axtarmaq ləyaqətini nümayiş etdirir. Ölkə Prezidentinin sözləri ilə desək, **«bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli amildir».** Biz isə, əlavə edərdik ki, bədxah qonşularımızın bizim «düşmən obrazımızı» yaratmağa çalışdıqları bir vaxtda dünya ictimaiyyətinin rəyində bu bədnam cəhdin bütün miskinliyini ifşa etmək üçün lazımdır. Bir də ki, yalnız yaddaşa arxayın olub keçmişi saxlamaq mümkün deyil, daha doğrusu, onun yaddaşda təkrar istehsalını təmin etmədən keçmişin «izini» görmək imkan xaricindədir. Bunun üçün tarixi şüur həqiqətlərini əqidəyə çevirmək üçün sosiomədəni mexanizmlər lazımdır ki, yaddaş sözün əsl mənasında tarixi yaddaş olaraq yaşasın. Biz bu gün cəsarətlə deyə bilərik ki, Heydər Əliyevin təşəbbüsü və müdrik rəhbərliyi ilə keçirilən mədəniyyət tədbirləri tarixi yaddaşımızın tərbiyəvi miqyasının genişləndirilməsində, milli mentalitetimizdə yeni özünüdərk amillərinin kök salmasında müstəsna sosialmədəni mexanizmlər kimi qiymətləndirilməlidir.

Sosial psixologiyada bu gün də mütəxəssislərin diqqətini cəlb edən «gümrah ruh» deyilən bir anlayış var. Bu, «Mən»i şəffaf dərk edən, insana dünyanı «açan» şüurdur. Bu elə bir psixoloji haldır ki, o, mövcud olduğu, yaşayıb yaratdığı mühitdə onunla və onun əhatəsində nə baş verdiyini aydın başa düşür. Belə halda haqlı olaraq deyirlər ki, bu insanın «ağlı sağlamdır, üstündədir, yaddaşı da möhkəmdir». Bu, həqiqətən də, şüurun

normal vəziyyətidir. Başqa sözlə, özünü tanıyan, etdiyi hərəkətlərin məqsədini və məsuliyyətini aydın bilən insan normal şüura malikdir. Deməli, o, hər bir hərəkətini, onun nəticələrini yadında saxlaya bilir, özünə nəzarət etməyi bacarır. Bu sadə həyati nümunədən göründüyü kimi, real gerçəklikdə hər şey insanın yaddaşı ilə bağlıdır. Hər bir hərəkət, yaddaşda həkk olunan hər bir şey əxlaqi mahiyyət kəsb etməlidir. Əbəs yerə deyildir ki, alman filosofu İ.Kant hətta məntiq qanunlarının əxlaqi mahiyyət kəsb etdiyini göstərmişdir. Məsələn, onun fikrincə, «A=A» formulunda ifadəsini tapan eyniyyət qanununu bilavasitə «Mən=Mən»in əxlaq qanunu kimi başa düşmək olar.

Özünü eyniləşdirməni bildirən bu düsturdan hər bir insan üçün vacib olan belə bir etik ideya yaranır: «Özünə sadiq qal!», «Verdiyin hər bir sözə cavabdeh ol!». Ümumiyyətlə, unutma ki, barəndə söz vermiş adam kimi söhbət düşəndə bil ki, «Sən-Sənsən». Belə bir aydın məqsəd və özünüdərk həmişə şüuru gümrah saxlayır. Bir sözlə, «aydın şüur», «möhkəm yaddaş» dərin məna kəsb etməklə yanaşı, tarixi yaddaşı saxlamaq, onu mənəvi təhriflərdən qorumaq, millətin mənlik şüurunu, onun mentalitetini inkişaf etdirən mühüm sosial mexanizmlərdir.

Biz əvvəlki mülahizələrimizdə qeyd etdik ki, mədəni, tarixi yaddaş hər şeydən əvvəl mənlik şüurudur. Buraya biz xalqın bütövlükdə bəşəri mənlik şüuru ilə yanaşı, ayrıca insanın milli mənlik şüurunu da əlavə edirik. Bu münasibətlə Heydər Əliyevin Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqindəki bir məqama diqqət edək. Universitetin 75 illiyinin keçirilməməsindən təəssüfləndiyini bildirən ölkə Prezidenti belə bir ideyanı vurğulamışdır ki, bu elm ocağının 75 illik tarixini ədalətli, düzgün yazmaq üçün indi ən gözəl şərait yaranmışdır. Çünki **«bu, təkcə universitetin tarixi deyil, bu, Azərbaycan xalqının tarixidir, Azərbaycan respublikasının tarixidir, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tarixidir».** Göründüyü kimi, Heydər Əliyev tarixi idrakın milli məzmun prinsipini rəhbər tutaraq xalqının intellektual tarixini onun tarixi yaddaşının mühüm tərkib hissəsi sayır. Lakin deyilənlərlə



yanaşı, görkəmli nəzəriyyəçinin sosial fəlsəfəsinin önəmli məziyyətlərindən biri budur ki, tarixi təhrif edənlər millətin mənlik şüurunun məhək daşı olan tarixi yaddaşa hörmətsizlik edirlər. Onun fikrincə, nəinki bütövlükdə tarixi keçmişi, həmçinin millətin intellektual yaddaşında misilsiz yeri olan universitetin də tarixinin təhrifinə yol vermək olmaz. Başqa sözlə, əgər xalqımızın tarixi yaddaşına hörmət və ehtiram hissini itirməmişiksə, bilməli və dərk etməliyik ki, **«bütün Azərbaycan xalqının, Azərbaycan Respublikasının, o cümlədən onun elminin, təhsilinin XX əsrdəki tarixi böyük hörmət və ehtirama layiq tarixdir. Biz bu tarixin hər səhifəsini, hər vərəqini hörmət və ehtiramla yad etməliyik, bu tarixin qarşısında, Azərbaycan Respublikasının yaradıb, yaşadıb, Azərbaycan elmini, təhsilini bu səviyyəyə gətirən insanların qarşısında baş əyməliyik».**

Göründüyü kimi, Heydər Əliyevin tarixi yaddaş təlimində, şəxsiyyət amili, insan potensialı mühüm struktur elementi kimi çıxış edir. Çünki xalqın yaddaşı və ayrıca fərdin yaddaşı vahid və bölünməz bir reallıqdır, bu mənada onun mənlik şüuru da vahid və bölünməzdir. Bunları əlahiddə götürmək, dialektik əlaqədə dərk etməmək millətin tarixi şüurunun haçalanması, parçalanması deməkdir. Əgər belə demək olarsa, «tarixi şüurun gümrahlığı» bundadır ki, sağlam düşüncəli insanlar aramsız olaraq milli varlıqları və bu varlıqların da öz «mən»ini görərək yeni-yeni mütərəqqi ideyalar fikirləşir, xalqın tarixi yaddaşını qidalandıran yeni-yeni xatirələrin subyektinə çevrilir, milli ruhu hər cür naqisliklərdən qoruya bilirlər. Bir də unudulmamalıdır ki, keçmişin yaddaşı yalnız qəhrəmanlıqlar və qələbələr, görkəmli sərkərdələrin cahanşümul şücaətləri haqqında xatirələrdən ibarət deyil, xalqın tarixi yaddaşı həm də vicdan yaddaşıdır, çünki nə qədər acı olsa da, o, xatirələrində tarixi səhvləri və yanlış hərəkətləri ehtiva edir, tarixin ibrət dərslərinə müdrikcəsinə yanaşır. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz bundadır ki, tariximizə vicdan yaddaşı meyarlarından – obyektiv və qərəzsiz yanaşır, tarixi

həqiqətləri olduğu kimi qəbul edib pozitiv və neqativ məqamları dialektika baxımdan təhlil etməyi xalqın tarixi yaddaşına hörmət və ehtiram əlaməti sayır. Tarixinə xor baxan, ona düşmən çıxan adamlar bilməlidirlər ki, xalqın tarixinə biganə və qərəzli münasibət göstərən hər bir kəs milli inkişafımıza mənəvi-intellektual təkan verən tarixi yaddaşımızı təhqir edirlər. Gəlin, müdrik dövlət başçısının bu mülahizələrinə diqqət yetirək: sovet hakimiyyəti vaxtı bütün tarixçilər ümumi tarixi yazarkən, o cümlədən də universitetin tarixini yazarkən hər bir şeyi marksist-leninçi ideologiya əsasında və bir də o tarix ki, qurulmuşdu, onun əsasında yazmağa çalışırdılar, ona görə də təhriflərə yol verirdilər, amma ...respublikamızda yeni bir dövr yarananda bəziləri hesab etdilər ki, 1920-ci ildən 1992-ci llədək Azərbaycanda nə olmuşdursa, bunlar heç bir şey deyil. Tarix indidən başlayır. Belə münasibət yaramaz! Xalqın hər bir günü tarixdə öz yerini tapmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir – nə cür olur olsun». Elə buna görə də xalqın ruhundan uzaq cəbhəçi siyasətçilərin «Nəriman Nərimanovdan bu günə qədər olan dövr tarix deyildir» kimi nadan mövqeyi təcrübəli dövlət başçısı, xalqın faciəli günlərində onun səsinə səs verən Heydər Əliyevi bir azərbaycanlı və vətəndaş kimi dəhşətə gətirməyə bilməzdi.

Elmi dünyagörüşdən, sağlam düşüncədən uzaq olan, siyasətdə primitiv düşüncə ilə baş girləyən bu nadanlar doğrudanmı başa düşmürlər ki, bu gün xarici ölkələrdə yüksək səviyyədə fəaliyyət göstərən alim və mütəxəssislərimiz məhz «Nərimanovdan bu günə qədər» qapılarını millətin balalarının üzünə açmış Bakı Dövlət Universitetinin, digər universitetlərimizin və elmi-tədqiqat institutlarımızın yetişdirmələridir. Fransız tarixçisi Lüsen Fevr yaxşı deyir: hər bir mədəniyyət elə bir ansambldır ki, onun komponentləri arasında hər cür ziddiyyətlərə baxmayaraq, bir-birilə nisbətdədirlər. Tarixi yaddaş da bu qanunauyğunluğun təcəssümüdür, belə ki, xalqın tarixində baş vermiş hadisələr - bir vəhdətdə, bir nisbətdə olurlar, bunlar hamısı xalqın sosial yaddaşının oxunub dərk olunmalı səhifələridir, hər biri milli



inkişaf üçün ibrətamiz, azərbaycanlıların kollektiv dünyagörüşüdür. Ölkə Prezidenti qətiyyətlə bildirir: **tarixi heç vaxt unutmaq lazım deyildir. Çünki əgər millətin tarixi yoxdursa, o, millət deyildir. Millətin tarixinin bir hissəsini silib atmaq, o biri hissəsini qabartmaq da millətə xəyanətdir.** Tarixi yaddaşın bir önəmli cəhəti də budur ki, bu fenomendə hər bir insanın milli mənlik şüuru ehtiva olunmuşdur, burada sintez şəkildə mədəniyyət və ənənənin, dil, həyat tərzinin və dinin mentalitetin əsasının yaranması əksini tapmışdır. Heydər Əliyevin tarixi görüşlərinin əsasında duran başlıca qayəni, bizcə, belə bir ideya təşkil edir: milli tariximizin başlıca predmeti milli mənlik şüurunun tarixi yaddaş problemidir. Onun fikrincə, milli tarixi gerçəklik insanlarımızın şüurlu fəaliyyətinin, həyata sağlam düşüncə baxımından yanaşmasının məhsuludur. Cəmiyyətimizin üzvlərinin dünyaduyumu və dünyaqavrayışını, onların etiqadları, təfəkkür vərdişləri, düşüncə mentaliteti, xalqın sosial və etik dəyərlərinə, təbiətə münasibətinin xarakteri onların yeni zaman və məkanda, yəni keçid dövründə yaşantılarını müəyyənləşdirən meyarlardır. Bu meyarlar həmçinin xalqımızın əməyə, mülkiyyətə, zənginliyə və yoxsulluğa, hüquq və adətlərinə münasibətini, cəmiyyətdə və sivilizasiyada tutduğu yeri və rolunu istiqamətləndirir. Məhz bu məcrada dərk etmək olar ki, milli mentalitet subyektiv reallıq kimi insanların özləri və öz aləmləri barədə düşüncələrinin və bu düşüncələrin refleksiyası və identifikasiyasıdır, fərdlərin davranışının sosiomədəni amilidir. Ona görə də tarixi yaddaşa xəyanət milli varlığı inkar etməkdir.

Azərbaycan xalqının milli tarixi yaddaşında islam dininin, onun etik-estetik dəyərlərinin rolu misilsizdir. Heç də təsadüfi deyildir ki, xalqının mənəvi xəzinəsindən bəhrələnən Heydər Əliyevin sosial fəlsəfəsində tarixi yaddaş məsələsi dini etiqadların azərbaycanlıların mənəviyyatında oynadığı rol ilə vəhdətdə nəzərdən keçirilir. Həqiqətən, sovet totalitarizminin uzun illər islam dininin etiqad kimi həyata keçirilməsinə qadağa

qoymasına baxmayaraq, xalqımız bu dinin, onun müqəddəs kitabı Qurani-Kərimin əxlaqi dəyərlərini, öyüd və nəsihətlərini öz mentalitetində və mənəviyyatında saxlamış, o dövrün imkanları çərçivəsində hərəkət və davranışında həyata keçirməyə çalışmışdır. Bu mənada yaddaşda yaşayan din insanların kollektiv psixologiyasının öyrənilməsində mühüm rol oynayır.

Sovet İttifaqının süqutundan sonra bir çox müsəlman xalqları kimi Azərbaycan xalqı da müstəqillik əldə etmiş, öz dini etiqadlarını sərbəst şəkildə icra etmək imkanı qazanmışdır. Azərbaycan müsəlman dövlətləri ilə əlaqələri daha da genişləndirmək məqsədilə 1991-ci ildən İslam Konfransı Təşkilatına (İKT) üzv olmuş, onunla çoxtərəfli fəaliyyətini bu gün də yüksək səviyyədə davam etdirməkdədir, çünki İKT-nın başlıca siyasi-humanist vəzifəsi müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmləndirmək, onların rifahını yüksəltmək, əmin-amanlığını təmin etmək, islami ənənələri, mədəni dəyərləri qoruyub inkişaf etdirməkdir. Ölkə Prezidenti Heydər Əliyev 1997-ci ilin dekabrında İKT-nın VIII zirvə görüşündə çıxış edərkən müsəlman ölkələrinin Azərbaycan Respublikası ilə fəal əməkdaşlığının vacibliyini göstərmiş, müasir texnologiyalar əsrində tərəqqi ilə ayaqlaşmağı, yüksək inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmağı tövsiyə etmişdir.

«Belə bir deyim var: şairin poeziyasının ruhunu dərk etmək üçün onun vətənində olmaq lazımdır». Böyük səadətdir ki, islamın bəşəri dəyərini və qiymətini dərk etmək üçün Mədinə şəhərində olmaq gərəkdir. «Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum». Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha islam mənəviyyatının nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim»-müdrik insan ömrünü yaşayan Heydər Əliyevin Mədinə şəhərindəki peyğəmbər məscidinin şərəf kitabına yazdığı bu ürək sözləri xalqımızın mentalitetinin mühüm qayəsini təşkil edən islami dəyərlərə dərin hörmət və ehtiramın parlaq təcəssümüdür. Ölkə Prezidentinin



peyğəmbərin qoyduğu yollla gedən şəxslərin fəaliyyətinə yüksək qiymət verməsi tarixi ənənələri islam dini ilə bağlı olan Azərbaycanın mənəvi imicinə şərəf gətirməklə yanaşı, müstəqilliyi təkamül dövrünü keçirən (söhbət 1994-cü ildən gedir-müəl.) azərbaycanlıların dünyagörüşündə və mənəviyyatında əxlaqi yeniləşmənin əsasını qoymaq demək idi.

Bizcə, tarixi yaddaşın milli inkişaf üçün mühüm əhəmiyyət kəsb etməsi faktına zərrə qədər şübhə gətirməmək şərtilə daha önəmli cəhətlərdən biri kimi bunu qeyd etmək istərdik ki, tarixi yaddaşa malik xalq özünün şəffaf milli mentaliteti ilə digər xalqların da yaddaşında layiqli yer tutmağı bacarmalıdır. Məhz buna görə Azərbaycanı dünya birliyinə tanıtmaqla xalqının qeyrətli oğlu Heydər Əliyev millətinin dünya sivilizasiyasında öz zəngin mədəniyyəti və humanist dünyagörüşü ilə layiqli və şərəfli yer tutmasını sübut etmişdir. Dövlətimizin başçısı Səudiyyə Ərəbistanında haqlı olaraq etiraf etmişdir ki, özünün səfərinə qədər bu islam ölkəsinin Azərbaycanla heç bir rəsmi əlaqəsi olmamışdır. O, Səudiyyə Ərəbistanından vətənə yola düşərkən jurnalistlərlə görüşündəki bəyanatında qeyd etmişdir ki, bu ölkədə Azərbaycan haqqında çox az məlumat var. «Bir çox məlumatlar böyük ölkələrin informasiya orqanlarının mənbələrindən gəlir ki, onların da çoxu qeyri-obyektiv xarakter daşıyır. Ona görə də Səüdiyyə Ərəbistanına gəlmək, burada Azərbaycanı tanıtmaq ölkəmizin həqiqi vəziyyətini təbliğ etmək özü bir nailiyyətdir». Şübhə yoxdur ki, bütün adət-ənənələrinə – istər dövlət, istərsə də dini həyat tərzinə görə islam ölkəsində dövlət başçısının rəsmi və dini mərasimlərdə iştirakı, məzmunlu söhbətləri və bunların yerli mətbuat vasitəsilə geniş kütləyə çatdırılması ərəb xalqının dünyagörüşündə, övqatında xalqımız haqqında, müdrik rəhbəri barədə xeyirxah psixoloji rəy yaratmışdır. Digər tərəfdən, ölkə Prezidentinin islam dünyası ilə xoş məramlı münasibətlər yaratması xalqımızın düşüncəsində uzun illər ölkəmizdə «gizli şərait» qanunları ilə yaşamış islam dininə hörməti artırmaqla yanaşı, xalqın mentalitetində

humanist dəyərlərin nüfuz etməsi üçün impuls olmuş, tarixi yaddaşının saflaşması üçün psixoloji imkan yaratmışdır.

Heydər Əliyevin Bakıda Bibi-Heybət məscidinin tikilməsinə yaxından mənəvi dəstək verməsi, eləcə də bu din ocağının açılışındakı çıxışı göstərirdi ki, islam dininin dəyərlərinə dərin hörmət və ehtiram onun əqidəsində hər cür konyukturadan uzaq bir münasibət olmaqla səmimi dünyagörüşü mövqeyidir. Dövlət başçısının **«islamın müqəddəs abidələrini, həzrət Məhəmməd peyğəmbərin məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm»** sözləri səmimi əqidə sahibinin dinimizə misilsiz ehtiramın təzahürü kimi, heç şübhəsiz ki, azərbaycanlıların mənlik şüurunun və mentalitetinin dərin qatlarında humanist keyfiyyətlərin köklənməsinə psixoloji imkan yaratmışdır.

İspan filosofu Xose Orteqi-i-Qasset hesab edir ki, tarix özünün predmeti kimi daha çox insan varlığının psixoloji qatlarında cərəyan edənləri sevir. O yazır: «Tarixi öyrənərkən biz insan ruhunda baş verən dəyişiklikləri anlamağa çalışırıq». Qərb tarixşünaslığında mədəni-tarixi məktəbin tanınmış nümayəndəsi İppset Ten də belə bir qəti əqidədədir ki, tarix, əslində, psixolojiyanın problemlərindən biridir. Bu mənada Heydər Əliyevin əsərləri ilə tanışlıq bunu deməyə əsas verir ki, metodoloji baxımdan onun sosial fəlsəfəsində cəmiyyətimizi, onun dinamikasını, onun dərkinin prinsiplərini, metodlarını fəlsəfi ölçülərdə öyrənmək, qoyulan problemlərin millətin tarixi yaddaşını başa düşməkdə, eləcə də xalqın yeni mentalitetinin formalaşmasında irəli sürülən psixoloji amillər müstəsna rol oynayır.

Ümumiyyətlə, qeyd edilməlidir ki, Qərb elmşünaslığında elmi nəzəriyyələr, fəlsəfi sistemlər, sənət əsərləri, dini və mədəni təsəvvürlər psixoloji faktlar kimi nəzərdən keçirilir, başqa sözlə, bunlar davranışları, fəaliyyəti, insanın həyatını modelləşdirməyə cəhd göstərən psixoloji sistemin qanunlarına tabe olan psixikanın hadisələri kimi öyrənilir. Bu konseptual yanaşmanın məziyyətlərini azaltmadan demək mümkündür ki, insan yaddaşı və mentaliteti ilə bağlı problemlərin



araşdırılmasında sosial-fəlsəfi sistemlərdə layiqli yerini tutmuş müasir psixologiyanın nailiyyətlərindən istifadə etmək müstəsna əhəmiyyət kəsb edir.

Həqiqətən də, bəşəriyyətin təkamül prosesində müşahidə edilən təzahürlərdən aşkar olunan ümumi cəhətlərdən biri, xalqların mədəniyyətində qohum meyllərdən biri dini praktik fəaliyyətdir. Burada müəyyən mənada, demək olar ki, istər bir xalq, istərsə də xalqlar arasında inteqrasiya funksiyasını oynayan din mədəniyyətlərin məzmununu da müəyyənləşdirir. Bu həm də o deməkdir ki, din istənilən halda şəxsiyyətin və cəmiyyətin həyatının digər sosial faktlarının dərk olunmasında mühüm amil kimi çıxış edə bilər. Başqa sözlə, din düşüncə tərzində müəyyən mental xüsusiyyətlərin formalaşmasında dominant amil kimi də iştirak edə bilər. Doğrudur, bu şüur və düşüncə fenomeni orta əsrlər ideologiyasında daha aparıcı rol oynamışdır. Lakin şahidi olduğumuz dövrdə də dini konfliktlərin baş verməsi, dini qarşıdurma proseslərinə hətta beynəlxalq diplomatik səviyyədə müdaxilə olunması göstərir ki, dinin mental xüsusiyyətləri hələ də xalqların həyatında, müəyyən cəmiyyətlərin ictimai rəyində öz mənəvi yaşarlığını saxlamaqdadır. Bu baxımdan Heydər Əliyevin dünya dinlərinə sosiomədəni amil kimi yanaşması normal psixoloji mühitin, mənəvi əmin-amanlığın təmin olunmasında funksional roluna diqqət yetirməsi onun intellektinin geniş diapozona malik olmasından xəbər verir. Bu maarifçi intellekt ona bütün sosiomədəni təzahürlərə həm vətəndaşlıq, həm də rasional tənqidi nəzəri-metodoloji mövqeyindən yanaşmağa imkan verir.

Türk xalqlarının mədəniyyətinin şifahi ənənələrindən qaynaqlanan «Dədə-Qorqud» adi fərdi yaradıcılığın deyil, kollektiv refleksiyanın təfəkkürdə və yaddaşda həkk olunmuş məhsuludur. Burada ayrıca türkün duyğu və düşüncələri ortaq əxlaqi-estetik ideallar, sosial normalar, ümumi xəlqi dəyərlərlə çulğaşır, ümumtürk məfkurəsini qaynaqlandırır. Qədim mədəni-tarixi abidəmiz özünəməxsus tarixi yaddaş və mental xüsusiyyətlərimiz kimi təqdim olunur və sosial davranışı

tənzimləyən məfkurədə psixoloji sabitlik yaradan, ictimai biliyi qoruyan əxlaqi qüvvət kimi funksional işi görür. Bu eposun fövqəltarixi, bəşəri tipologiyası məhz epos dövründə xəlqiləşərək etno mədəni çalarlar qazanır. Türk ictimai varlığının abidəsi olan bu eposda «boy» həm el, həm də dastan deməkdir. Epos xalqın tarixi yaddaşında gerçək həqiqət kimi qavranıldığından boyların adları da müstəqilləşir, qəhrəmanın adını və hadisənin məzmununu ifadə edir. Dastanın formalaşması prosesi deməyə əsas verir ki, tarixi xatirə və rəvayətlər miflə bərabər, bu eposa daxil olur, mifoloji məkan tədricən öz aşkrallığını itirir və etnik coğrafi məkanı ehtiva etməyə başlayır. Beləliklə, əsatiri təzadlar (mədəniyyət və təbiət, həyat və ölüm, gecə və gündüz) eposda ictimailəşir, «bizimkilər» və «başqaları», nəsil, el, uruğ və yadlar arasında konfliktə çevirir. Dastanın mental dəyərləri aydınlaşır. Miflərimizdən fərqli olaraq eposda xəlqi dəyərlərin, etik-estetik idealın daşıyıcısı olan etik qəhrəmanlar və onları tərənnüm edən ozanlar meydana çıxır. «Dədə-Qorqud» tarixi yaddaşında keçid dövrünün bu sosial-estetik əlamətini yaşadır.

Deməli, türk xalqlarının sosial-mənəvi həyat tərzində keçid dövrünün eposu olan «Dədə-Qorqud» özündə zamanın hadisələrini, oğuz türklərinin tarixi şüurunu ehtiva edir.

«Dədə-Qorqud»da şifahi sözlə kitab təfəkkürü arasında keçidlər, arxaik idealın və mentalitetin, canlı sözün aşınmasını görmək olar. Əsərdə şifahi kanona yad olan fərdi meyllər, incə psixoloji anlar, şəxsi müşahidələr üslubi, gözlənilməzlik izlənir. Əsərdə yeni söz – «tüshəf» meydana çıxır və artıq səmavi kitab, yəni Qurani-Kərim and yerinə çevrilir. Şifahi sözü, ənənəvi əxlaqi inkar edən yazılı söz və yeni əxlaq meydana gəlir. Fəlsəfi təfəkkürdə, deməli, sosial yaddaşda yeni era-yazıya, mütləq normaya əsaslanan mərhələ, kitab dövrü başlayır. Bu müqəddəs kitab özü ilə yeni mənəvi ideallar və ictimai qanunlar, o cümlədən sözə yeni münasibət ozan dövründən fərqli tələblər gətirir. Bununla belə, kitab islam işarətləri ilə nə qədər pərdələnsə də, əski insanları, bir çox məqamda islamdan fərqlənən və islamdan uzaq olan



meyarları gizlədə bilmir. Tarixi proses dəyişir, türkün sosial yaddaşı yeni mental xüsusiyyətlərlə zənginləşir.

Kitab və adətin, yazı və ləfzin belə əksliyi tarixi dövrlərin, mədəniyyətlərin qarşılaşması idi. Bu konfliktin «Dədə-Qorqud» üçün aktuallığı o dövrdəki həyat tərzi, düşüncə üslubu ilə bilavasitə bağlıdır. «Atalar», «dədə-baba» sözünü söyləyənlər ozanda yeni məntiqlə toqquşmuşdu. Ənənəvi icma əxlaqından, təcrübə və təqlidə əsaslanan etik dövrdən, sülalə-nəsil idealından yeni mərhələyə keçid baş verdi. Oğuzların ictimai həyatında bu proseslər islamdan əvvəl də tarixi zərurət və qanunauyğunluq kimi gedirdi, lakin islam bu təbii-tarixi intibaları rəsmən təsdiq etdi. Nəsil kodeksindən, icma əxlaqından, qohumluq-uruğ, soy əlaqələrindən yeni dövrə-ilahi həqiqətə, şəxsi məsuliyyətə, insani seçim dövrünə etnik fərqlərin islam birliyi qarşısında aşılanması mərhələsinə tarixi addım atılırdı. «Dədə-Qorqud»da etik normativliyin və düşüncə müstəqilliyinin, kanon və variativliyin maraqlı təşəbbüsü var. Burada mütləq aləm, ideal zaman, sabit qəhrəmanlar var. Əməl, hərəkət, fəaliyyət üstündür.

Tarixi mənlik məfkurəsini yaşadan müdrik ozanlar əsri sosial-mənəvi sarsıntılara məruz qaldıqdan sonra peşəkar sənətkarlar, nəğməkar, yeni aşıqlar meydana gəlir, türk dünyagörüşündə yeni mental xüsusiyyətlər üzə çıxır. Yazı, hərf, vərəq, qələm, kitab özü xüsusi rəmzə çevrilir, kitab metamorfozası hətta gözəllik meyarına çevrilir. Bədii şüur yeni etik-estetik keyfiyyətlər kəsb edir.

Beləliklə, «Dədə-Qorqud» arxaik məfkurə dövründən, şifahi sözdən, eposdan ədəbiyyata, şaman təfəkküründən islami dünyagörüşə keçidin məhsuludur. Bu əsər klassik eposun, ləyaqət və şərəf daşıyıcıları olan etik qəhrəmanlar və ozanlar dövrünün son kitabıdır. Eyni zamanda «Dədə-Qorqud» yeni şifahi sözün ədəbiyyatlaşdığı yeni dövrün ilk kitabıdır. Bu mənada bu ədəbi prosesi türk mental xüsusiyyətlərinin keçid dövrü hesab etmək olar. Ona görə də əsər yazı dövründə, yeni dövrdə unudulsa da, xalqın tarixi-bədii yaddaşının dərin qatlarında yaşamış, dövrümüzün incisi kimi xalqımızın bədii

təfəkküründə, sivilizasiyamızın mental yaddaşı kimi ömrünü davam etdirməkdədir.

Tam qətiyyətlə demək olar ki, «Dədə-Qorqud»un müstəqil Azərbaycanda yeni ömrünün yaşamasında müstəsna rolu xalqının zəngin mədəniyyətinə bütün mənəvi əqidəsi ilə qayğı göstərən Heydər Əliyev dühası oynadı. Bunun bariz nümunəsi ölkə prezidentinin tarixi əhəmiyyət kəsb edən fərmanı oldu. Heydər Əliyevin 1997-ci il 20 aprel tarixli «Kitabi Dədə-Qorqud» dastanının 1300 illiyi haqqında verdiyi fərmanında bu nadir mədəniyyət nümunəsini yüksək bəşəri ideyalar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olduğunu xüsusi vurğulamışdır. Bu bəşəri dastanın 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında isə «Dədə-Qorqud»un yubileyinin **«indi, müstəqil Azərbaycanın müasir şəraitində çox yüksək səviyyədə keçirməliyik»** deməklə, ümumtürk eposunun bəşər mədəniyyəti tarixində yeni səhifənin ləyaqətlə açılmasını qeyd etmişdir. Özünün qeyd etdiyi kimi, rəsmi sovet ideologiyasının hökmranlığı ucbatından xalqımız «Dədə-Qorqud» eposunu kifayət qədər öz intellektual mədəniyyətinin bir hissəsi kimi dərk etməyib və buna görə də bu dastan Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Prezidentin bu fikri ilə bağlı belə bir haşiyə çıxaq.

1951-ci ildə keçirilən Azərbaycan KP XVII qurultayının hesabat məruzəsində deyilir: «Dədə-Qorqud» kitabı başdan-başa soyğunçuluq və qarət məqsədilə Azərbaycana gələn oğuz köçəri tayfalarının hakim yuxarı təbəqəsini tərifləməyə həsr edilmişdir. Bu kitab tamamilə millətçilik zəhəri ilə doludur». Bizcə, şərhə ehtiyac yoxdur. Hər halda, bunu deməyə əsas var ki, bu həyasızcasına təhrifin ab - havasında erməni ağuşunun üfunətini hiss etmək çətin deyildir. Azərbaycanın o zamanki rəhbərlərinin qarşısını ala bilmədiyi, əksinə, bir çox məqamlarda rəvac verdikləri bu müstəmləkə təfəkkürünün xalqımızın milli mənəviyyatına, tarixi şüuruna vurduğu ziyan erməni daşnaklarının vurduğu zərbədən daha



ağrılıdır. Lakin bu, xalqımızın düşüncəsində «tarixi» dəhşət çox sürmədi.

Məhz buna görə, məmnuniyyət hissi ilə demək olar ki, Heydər Əliyevin ikinci qayıdışı mənlik şüurumuzun zəngin qaynaqlarından biri olan «Dədə-Qorqudu» yenidən xalqımıza qaytardı. Bu, Heydər Əliyev zəkasının təntənəsi, xalqın mənlik şüurunun qayıtması, onun yeni mentalitetinin formalaşmasının astanası oldu (Azərbaycan. 26.05.1999).

Ədalət naminə belə bir faktı da qeyd etmək vacibdir ki, Heydər Əliyevin öz xalqının tarixi qarşısında gördüyü ən böyük xidmətlərdən biri «Dədə-Qorqudun» ilk tədqiqatçısı Əmin Abdinin adını yenidən mədəniyyətimizə qaytarmasıdır. Qəribə olsa da, 1937-ci ildən sonra bir neçə qorqudşünas alim nəsli fəaliyyət göstərmişdir. Amma necə olubsa, onlar bu eposun ilk azərbaycanlı tədqiqatçısının özünü və əsərlərini xatırlamağı unutmuşlar. Odur ki, milli ədəbi idrakımız üçün bu görkəmli tədqiqatçının əsərlərinə müraciətin özü az əhəmiyyətli məsələ deyildir. Bu baxımdan ölkə Prezidentinin haqlı iradını başa düşmək olar. Zəngin tariximizlə, qədim mənşəyimiz və milli mənəvi dəyərlərimizlə ürəkdən fəxr edən ölkə Prezidenti təəssüf hissi ilə bunu da vurğulamalı olmuşdur ki, 70-80-cı illərdə respublikada bir çox tarixi, mədəni tədbirlərin keçirilməsinə baxmayaraq, «Dədə-Qorqud» haqqında heç bir təşəbbüs irəli sürülməmişdi. **«Mən bunu qətiyyətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağasını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq».**

Təbii ki, müdrik siyasətçi yüksək tarixilik duyumuna malik olduğundan belə bir tədbirin keçirilməməsinin obyektiv səbəblərini də aydın başa düşürdü. «Sosializmin rus variantının» ideoloqları, heç şübhəsiz ki, türkçülüyün qatı

düşmənləri olan erməni daşnakları uzun illər xalqımın görkəmli oğullarına «pantürkist», «panturanizm» damğası vurmuş, onları repressiyaya məruz qoymuşlar. Belə bir intellektual itki, şübhəsiz ki, xalqımızın tarixi yaddaşında saf türkçülük ideyalarının formalaşmasına imkan verməmiş və bu, göründüyü kimi, «Dədə-Qorqud» kimi bir eposun haqqında tanınmış alimlərimizin də-yərli yazılarına baxmayaraq, demək olar ki, dünyagörüşü baxımından unudulmasına səbəb olmuşdur. Buna görə də epos xalqımıza tam açılmalı, tarixi şüurda dərindən yaşamalıdır».

Bu baxımdan Heydər Əliyevin yubiley komissiyasının iclasında ümumtürk eposu barədə maraqlı qeydləri bir daha göstərdi ki, ölkə Prezidenti bu tədbirin keçirilməsini xalqın tarixi şüurunun zənginləşməsində bir mərhələ kimi təsəvvür edir. Doğrudur, hər bir tarixi hadisə haqqında elmi kitablardan məlumat almaq olar. O, haqlı olaraq belə bir irad tutur ki, insanların heç də hamısı elmi kitablardan istifadə edə bilmir. Son onilliklərin təcrübəsi onu göstərir ki, geniş kütlə, xalq üçün tarixi hadisələri izah, təbliğ etməkdən ötrü ən gözəl vasitə ədəbi abidələrimiz haqqında filmlərin, səhnə əsərlərinin yaranmasıdır. Prezident Heydər Əliyev belə bir mühüm, çox əhəmiyyətli ideya irəli sürmüşdür ki, dili çətin olan «Dədə-Qorqud» kimi dastanı dərk etmək üçün əsərin yarandığı tarixi dövrü yaxşı öyrənmək gərəkdir. Hər şeydən əvvəl biz tariximizin layiqli statusunu yaratmalı, onu kütləvi şüurun malı etməli, millətin tarixi yaddaşını canlandırmalıyıq. Bu işdə, şübhəsiz ki, professional tarixçilərin üzərinə böyük məsuliyyət düşür. Artıq «Dədə-Qorqud» haqqında yazılanlar, demək olar ki, qədim tariximizi ciddi öyrənməyin ilkin mərhələsidir. Qədim tarixi irsimizə Heydər Əliyev münasibəti və qayğısının ən önəmli cəhəti budur ki, tarixi abidələrimizi millətin milli mənlik şüurunun, onun tarixi yaddaşının ayrılmaz sərvəti hesab edir. O deyir: «Kitabi-Dədə-Qorqud» Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır, onun vətəni, sahibi Azərbaycan xalqıdır, onun sahibi müstəqil Azərbaycan dövlətidir». Bəli, müstəqilliyini möhkəmlədən xalq



öz tarixi yaddaşında Dədə-Qorqud mənəviyyatını, vətən sevgisini yaşatmalıdır. Ölkə Prezidentinin 1997-ci ildə verdiyi fərmanın böyük tarixi əhəmiyyəti də bundadır ki, «Dədə-Qorqud» haqqında layiqli əsərlərin yazılması, xalqımızın tarixini bugünkü və gələcək nəsillərə daha dolğun, düzgün çatdıra bilməsi üçün müstəqilliyimizin imkanlarını göstərməklə yanaşı, xalqımızın tarixi şüurunun inkişafının yeni mühüm mərhələsinin əsasını qoymuşdur. Biz bir müstəqil xalq olmaqla tarixi yaddaşımızı azad insanlar kimi yaşatmalıyıq, çünki Heydər Əliyevin dediyi kimi, **«tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Çünki «Kitabi-Dədə-Qorqud» dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər».** Tariximizi tanıtmaqla biz dünya sivilizasiyasının yüksək milli mənliyə malik olan, milli qürur hissi ilə yaşamağa layiq bir millət kimi özümüzü tanıtmış oluruq. Özümüzü tanıtmaq sivilizasiyalı xalqların düşüncəsindən qeyri-obyektiv səbəblər üzündən, qərəzli düşmən təbliğatı nəticəsində yaranmış neqativ steriotipləri silib atmaq, millətin saf və zəngin tarixi şüura malik olduğunu tarixi yaddaşda bir daha saxlamaq imkanı və vasitəsidir. Bütün bu amilləri özündə təsdiq etdirən xalqımız öz müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək əzmilə yaşadığını dünya ictimaiyyətinə nümayiş etdirməkdədir.

Vətəninin milli sərvətlərini sevən bir dövlət başçısı kimi Heydər Əliyevin ən böyük qayğısının bir təzahürü də budur ki, o, xalqın qədim tarixi, memarlıq abidələrinin qorunmasını və əbədiləşdirilməsini xalqın tarixi yaddaşını yaşatmaq kimi qiymətləndirir. O arzu edir ki, xalqın milli mənlik şüurunun ayrılmaz elementi olan tarixi şüuru daim onun yaratdığı abidələrlə təmasda olsun.

Buna görə cəsarətlə demək olar ki, Prezidentin məlum fərmanı bir çox taleyüklü məsələlərə aydınlıq gətirməklə, qorqudşünaslığın aktual problemlərinin öyrənilməsinə güclü təkan verməklə yanaşı, xalqımızın tarixi şüurunun inkişafında

yeni mühüm mərhələ olmuşdur. Xalqımızın müstəqillik idealını addım-addım həyata keçirdiyi bir vaxtda belə bir fərmanın verilməsi Heydər Əliyev dühasının misilsiz və müdrik addımıdır. Təsəvvür edin, əsrlər boyu Azərbaycan türk, ümumiyyətlə, müsəlman təsirindən uzaqlarda olan Drezden və Vatikan kimi Avropa şəhərlərinin mötəbər elmi-mədəni arxivlərində qorunmuş «Dədə-Qorqud»un mətnində, yəni heç bir kənar təsirə məruz qalmamış oğuznaməmizdə adları çəkilən Azərbaycan toponimlərinin, yer adlarının, coğrafi adların olması məgər xalqın tarixi şüuruna qürur hissi gətirmirmi, onun milli mənliyini ucaltmırmı! Heydər Əliyev məhz buna görə «Dədə-Qorqud»u təkcə ədəbiyyatımızın deyil, xalqımızın tarixi abidəsi olduğunu xüsusi vurğulayır, bu eposun kompleks şəkildə öyrənilməsini tövsiyə edir. Dastanın açılmamış səhifələrinin təhlili çox qaranlıq suallara cavab açıqlayacaq, xalqımızın qədim tarixinin öz yaddaşında daha möhkəm və layiqli yer tutması üçün yeni imkanlar açılacaqdır. Ən önəmli hal bu gün bu hesab edilməlidir ki, Azərbaycanda və Şərqi Anadoluda yaşayan türklər, oğuz tayfaları, Qaraqoyunlu, Ağqoyunlu dövlətlərini, sonra isə Azərbaycan Səfəvilər dövlətini qurmuşlar. Ona görə də bu dövlətlərin qurulması ilə əlaqədar olaraq oğuz türklərinin tarixinə qayıdış bir siyasi zərurət kimi meydana gəlmişdir. Bu göstərir ki, tariximizin qaranlıq səhifələrini öyrənmək bir çox cəhətdən «Dədə-Qorqud»un öyrənilməsi ilə bağlıdır. Bunun öyrənilməsi hər şeydən əvvəl «Dədə-Qorqud» dastanının niyə XV-XVI əsrlərdə qələmə alındığı sualına cavab veriləcəkdir. Məhz buna görə Heydər Əliyevin bu eposun 1300 illiyini qeyd etmək barədə fərmanını sözün əsl mənasında müqəddəs hadisə, milli şərəf işi hesab etmək olar.

Cəmaləddin Əfqani hələ 1870-ci ilin fevralında İstanbul Universitetinin açılışında demişdir: «Dünyanın sultanı həmişə elm olmuşdur, elmdir və elm olaraq qalacaqdır. Hələ ki, elm sarayından heç bir hökmdar qovulmamışdır. Dünyanın hər yerində həqiqi hökmdar olan elm ancaq vaxtaşırı paytaxtını dəyişmiş, gah məşriqdən məğribə, gah da məğribdən məşriqə



getmişdir». Bu gün elm və yeni texnologiyaların yeni «vətəni» müstəqil dövlətlər olmuşdur, çünki milli inkişaf hər şeydən əvvəl, cəmiyyətin elmi inkişaf səviyyəsindən bilavasitə asılıdır. Bu baxımdan 1997-ci il yanvarın 31-də Azərbaycan Prezidenti Heydər Əliyevin respublika Elmlər Akademiyasının üzvləri ilə görüşü milli tarixşünaslığımıza olan misilsiz qayğısının mühüm təzahürü olmuşdur. Məlumdur ki, tarixşünaslığımız 80-cı illərə qədər rəsmi sovet ideologiyasının təsiri altında olduğundan XX əsrin əvvəlində Azərbaycan milli demokratik hərəkatı ilə bağlı tarixi-mədəni hadisələr, demək olar ki, Azərbaycan xalqının tarixi yaddaşından silinmiş, mədəniyyətimizdə varisliyin itirilməsi ilə millətin dünyagörüşünün intellektual dayaqlarına böyük zərbə dəymişdi. Məhz buna görə də Heydər Əliyevin ikinci qayıdışı ona görə tarixi əhəmiyyət kəsb edir ki, o, respublikada müstəqilliyimizin möhkəmləndirilməsi üçün son dərəcə zəruri olan sabitliyin yaranmasından sonra Azərbaycan elminin, xüsusilə tarixşünaslığımızın inkişafı naminə əsl milli rəhbər qayğısı göstərməyə başladı. Yeri gəlmişkən, o, hələ sovet dövründə, durğunluq adlanan illərdə Azərbaycana rəhbərlik edərkən xalq təsərrüfatının inkişafı ilə yanaşı, ictimai elmlərin, xüsusilə milli tariximizin inkişafı yollarını da müəyyənləşdirmişdi. Cəsarətlə demək olar ki, Heydər Əliyevin o dövrdə rəhbərlik etdiyi Azərbaycan heç də yenidənqurma ədəbiyyatında tez-tez səslənən durğunluq illərini yaşamırdı. Ölkəmizin bütün sahələrində, kənd təsərrüfatı və sənayedə coşğun inkişafı var idi, hər bir azərbaycanlı ölkəmizin qazandığı uğurlar üçün məğrurluq duyurdu, hamı etiraf edirdi ki, Azərbaycanı artıq bu gün bütün dünyada xalq təsərrüfatı, elmi, mədəniyyəti inkişaf etmiş respublika kimi tanımağa başlayırdılar. Tarix elmimizin inkişafına xüsusi qayğı göstərən Heydər Əliyev tarixçilərimizi həyatdan geri qalmamağı, yalnız öz mövzularına qapanmayıb bütövlükdə dünya tarixini hərtərəfli bilməyə çağırırdı.

Ona görə də ölkə Prezidentinin Akademiyanın işçiləri ilə görüşündəki çıxışını elmimizə Heydər Əliyev qayğısı ilə yanaşı, tarixşünaslığımızda varislik prinsipinin bərpası kimi

qiymətləndirilməlidir. «İndi Akademiyanın qarşısında duran əsas vəzifə Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. Bu dövlət üçün ən vacib məsələdir. Azərbaycanın milli akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır». – Prezident Heydər Əliyevin tarixi tədqiqatlarımız üçün həmişə aktuallıq kəsb edən bu göstərişindən aydın olur ki, müstəqilliyin qorunması və möhkəmləndirilməsi təkcə siyasi hadisə deyil, həm də milli mənlik məsələsidir, çünki elmini inkişaf etdirməyən xalq zamanla ayaqlaşa bilməz, tarixi yaddaşında haçalanma olan millət mənliyini dərk edə bilmədiyi kimi müstəqilliyinin də mahiyyətini başa düşə bilməz.

Müstəqillik şəraitində yaşayan insanlar müxtəlif xarakterlərə, düşüncələrə, əqidələrə malikdirlər, hər bir insan idleoloji düşüncə tərzini özü seçir, onun dünyagörüşü, həyata baxışı, şüur səviyyəsi və nəhayət, təfəkkürünün mental xüsusiyyətləri müxtəlifdir. Və bütün bu amillər bütövlükdə tarixi hadisələrə və şəxsiyyətlərə müxtəlif xalqların etnomədəni davranışlarına psixologiyanın sınaqdan çıxmış qanunları ilə yanaşmağı aktual etmişdir.

Efesli Heraklitin belə bir dahi mülahizəsi var: «Təbiət özünü gizlətməyi sevir». Bu eynilə insan təbiətinin, xalqların sosiomədəni həyatlarının öyrənilməsinə, real həyat isə bu işdə təkcə rasionalizmin prinsiplərindən deyil, daha çox sosial psixologiyanın və onunla qovuşuq digər elmlərin metodlarından istifadə olunmasına üstünlük verir. Bir sözlə, humanitar elm sahələrində artıq belə bir konsepsiya formalaşmışdır ki, psixologiya, mental funksiyaları öyrənən elm hökmən tarixşünaslıq elmi ilə də əməkdaşlıq etməlidir. Başqa sözlə, psixologiyanın məlumatları ilə silahlanmış tarix keçmiş cəmiyyətlərin, insan tarixinin əsl yaradıcılarının davranışlarını başa düşməyə, daha yaxşı dərk etməyə imkan verir. Doğrudur ki, ölkə Prezidenti tarixi psixologiyaya dair xüsusi əsər yazmamışdır, lakin çıxış və nitqlərində irəli sürülən dərin elmi mülahizələr onun tarixi yaddaşın formalaşması prosesinin



öyrənilməsində önəmli olan metodoloji məsələlərdən danışmağa əsas verir.

Ölkə Prezidentinin əsərləri ilə tanışlıq belə bir başlıca konseptual yanaşma barədə fikir söyləməyə imkan verir: tarixi yaddaşı yaşatmaq, millətin mentalitetini yeni səviyyədə dərk etmək üçün vacib şərtlərdən biri tarixi refleksiyadır, yəni millətin öz tarixinə həm qürur hissilə, həm də sağlam düşüncə baxımından tənqidi yanaşma prinsipidir. Millət öz tarixini və tarixdə özünü qiymətləndirməyi bacarmalı və sosiomədəni dəyərlərə yaradıcı yiyələnməli, bunu özünün intellektual təfəkkürünün mahiyyət qüvvəsinə çevirməlidir. Əgər fəlsəfi baxımdan yanaşsaq, özünüqiymətləndirmənin funksiyası, ümumiyyətlə, özünü anlamaq, cəmiyyət həyatında özünüidarə, öz qüsurlarına kənardan baxıb islah etmək, davranış motivlərinin dinamikası sayəsində özünü qorumaq immuniteti qazanmaqdır. Bu keyfiyyətlər milli «Mən»in özünə hörmət etməsi üçün vacib şərtlərdir. Başqa sözlə, bu keyfiyyətlərin məcmusu sağlam düşüncə mövqeyindən hərəkət etmək, planlaşdırılmış nəticələrə nail olmaq üçün vahid nəzarətedici mexanizm rolunu oynayır. Bu cür özünənəzarət prinsipi əxlaqi meyar kimi tarixçi üçün son dərəcə vacibdir, çünki tarixçi-metodoloq Jan-Pyer Riunun «tarixçinin birinci real vəzifəsi» kollektiv yaddaşı müəyyən etməsi, millətin qəlbində yuva salmış irsi və identikliyi şərh etməkdir».

Yaşlı nəsil yaxşı xatırlayır ki, Heydər Əliyev hələ sovet dövründə marksizmin hakim ideologiya olmasına baxmayaraq, Azərbaycan tarixçilərinin nəzərini məhz xalqımızın keçmişini dərindən öyrənməyə, onun milli mənlik şüurunun inkişafına yardımçı olmağa çağırmışdır. Bu gün xalqımızın müstəqillik əldə etdiyi bir vaxtda həmin prosesdə baş vermiş təlatümlü hadisələrin xalqın yaddaşında özünəməxsus şəkildə həkk olunduğu bir şəraitdə, sosial elmlərin metodologiyası ilə silahlandığı bir ərəfədə tarixçilər hər cür təhrifedici qeyri-obyektiv prinsiplərdən uzaq olmalıdırlar. Bunun üçün ilk növbədə Heydər Əliyevin tövsiyələrini nəzərə alaraq aşağıdakı məqamları xüsusi qeyd etməliyik: tarixi yaddaş və milli

mentaliteti öyrənərkən özünü - qiymətləndirmə prosesində mədəni tənqidi metod zəifləməməlidir, çünki bu, şəksiz olaraq həm tarixçini, həm də mənsub olduğu xalqın məziyyətlərini nüfuzdan sala bilər. Sivilizasiya tarixində onsuz da əbədi yer tutmuş mədəniyyət abidələrini iftixar hissi ilə təbliğ edərkən idealizasiyaya yol verilməməlidir. Təbii ki, heç bir xalqa mədəni identifikasiya hissi yad deyildir. Lakin belə halda tolerantlıq mövqeyi tələb edir ki, başqa xalqların da mədəni irsinə hörmət edilsin. Dünya ölkələrində aparılan elmi tədqiqatlar da göstərir ki, mədəni identiklik müasir transformasiya proseslərini dərk etmək tələbatını meydana gətirmişdir. Məsələ burasındadır ki, müstəqillik şəraitində mədəni identiklik probleminə elmi və siyasi maraq xeyli artmışdır. Sadə bir nümunə: ölkə Prezidentinin ABŞ və Avropa ölkələrinə rəsmi səfərləri, onun yüksək diplomatik görüşləri və söhbətləri, mətbuat konfranslarında milli mənafelərimizin əsl mahiyyətini Qərb ictimaiyyəti qarşısında açıqlaması nəinki siyasətçilərdə, sadəcə olaraq, geniş maraq oyatmış, ilk növbədə xalqımızın tarixi keçmişinə, onun mədəniyyətinə, bugünkü siyasi təfəkkürünə diqqəti xeyli artırmışdır. Başqa sözlə, bəşəri dəyərlər səviyyəsində yeni identiklik prosesinə təkan vermiş, xalqımızda özünə refleksiya qabiliyyətini yeni çalarlarla zənginləşdirmişdir.

Bu gün möhkəmlənmə və təkmilləşmə prosesini yaşayan müstəqilliyimiz xalqının tarixi yaddaşını obyektiv meyarlar çərçivəsində öyrənmək üçün, insanlarımızın qlobalizm dövründə yeni milli mentalitetə yiyələnməsi üçün normal şərait yaratmışdır. Başlıca problem insanın azad inkişafı üçün hərtərəfli ilkin şərtlərlə təmin etmək son dərəcə mühüm humanist vəzifədir. Tarixi yaddaşı öyrənərkən şəxsiyyət ən yüksək dəyər kimi qəbul edilməlidir. Məsələ burasındadır ki, mənəvi böhranlar şəraitində insan gözlənilmədən özü ilə təkbətək, üzbəüz qalır, insan öz varlığını dərk etməkdə çətinlik çəkərkən keçmişinə qayıdır, təfəkküründə və düşüncəsində «yatmış» mental xüsusiyyətlər barədə düşünməyə başlayır, çox zaman səhv dərk etdiyi dəyərlər onun iradəsindən asılı olmayaraq milli yaddaşına həkk olunur. Odur ki, insan üçün



humanist prinsiplərdən bəhrələnən sosiomədəni mühit yaratmaq, cəmiyyətin həyat keyfiyyətini artırmaq lazımdır.

Bir məsələ mütləq nəzərə alınmalıdır: informasiya cəmiyyətimizdə, ümumiyyətlə, dünyada elə bir hadisə yoxdur ki, tarixçi üçün əhəmiyyət kəsb etməsin, tarixi şüurda əksini tapmasın, təfəkkürün mental xüsusiyyətlərinə təsir etməsin. Məhz buna görə görkəmli nəzəriyyəçi Heydər Əliyevin **«tariximiz olduğu kimi yazılmalıdır»** konseptual tövsiyəsi təfəkkürümüzün mental xüsusiyyətlərini sınağa çəkən transformasiya keçid proseslərində öz aktuallığını xüsusilə saxlamaqdadır.

Bu gün Azərbaycanda yaşayan xalqlar milli-dini etiqadlarından asılı olmayaraq özlərini özünüidentifikasiya prosesində müstəqil Azərbaycan dövlətinin vətəndaşları hesab edirlər. Tarixi təcrübə, dil, mədəniyyət, ənənə və dini mənsubluq bunu deməyə əsas verir.

Beləliklə, xalqın tarixi yaddaşı, onun tarixi şüurunun mənəvi dəyərləri millətin mənlik şüurunun əsasını təşkil etməklə mentalitetin aktual vəziyyətinə təsir göstərir. Bütün bu mühüm amillər cəmiyyətin ictimai ovqatının real vəziyyətini xarakterizə edir. Ona görə də mənlik şüurunu, təfəkkürü inkişaf etdirmək, yeni pozitiv mental keyfiyyətlər sahəsində milli siyasətin real olması üçün tarixçi ictimai ovqatın öyrənilməsinə və təhlilinə söykənməlidir. Lakin belə bir siyasətin məzmununun milli olması üçün o, təkcə kütlələrin ovqatının nəzərə alınması ilə kifayətlənməməli, hər şeydən əvvəl, sosial təfəkkürü milli məqsədlərə, iqtisadi, mənəvi-əxlaqi siyasətə uyğun formalaşdırmağa çalışmalıdır. Ümumiyyətlə götürülsə, tarixi yaddaşın və tarixi şüurun sosiomədəni sərvət kimi formalaşması və inkişafı xalqın milli həyat tərzinin ümumi mental mənzərəsini əks etdirir. Bu mənada Azərbaycan milli həyat tərzinin formalaşdırılması siyasətinin başlıca məqsədi bütövlükdə özündə ictimai münasibətlərin mürəkkəb strukturunu, onu təşkil edən komponentləri ehtiva etməlidir. Bu, hər şeydən əvvəl, ictimai istehsal sahəsinə aiddir, çünki millətin həyat fəaliyyətinin bütöv sistem kimi mövcudluq

şərtlərinin başlıca əsası insanların əmək fəaliyyətidir. Azərbaycanın mövcud sosial inkişaf səviyyəsi də göstərir ki, müasir transformasiyanın əsas prioritetlərindən biri iqtisadi dirçəliş məsələsidir.

Lakin Heydər Əliyevin əsərlərinin ruhuna nüfuz etdikcə bir daha əminlik yaranır ki, yuxarıdakı mülahizələr ilk növbədə və daha çox cəmiyyətin və insanların mənəvi yeniləşməsi, milli həyat tərzinin əxlaqi dayaqlarını inkişaf etdirmək problemlərinə aiddir. Başqa sözlə, milli inkişaf prosesi yeni mənəvi mədəniyyətin formalaşdırılmasını, yeni cəmiyyət quruculuğunun aktuallığını vacib edir. Doğrudur, real gerçəklikdə mənəvi mədəniyyətlə iqtisadi-siyasi proseslərin bilavasitə əlaqəsini görmək mümkün deyildir. Nə tarixi yaddaş, nə də tarixi şüur sosial-iqtisadi proseslərə birbaşa təsir göstərir. Lakin hər bir fəaliyyətdə olduğu kimi, iqtisadi praktikada da insanların mənəvi, mədəni təfəkkürü il bağlı olan mental xüsusiyyətlər təzahür edir. Buna görə də, millətin həyat tərzinin pozitiv elementlərlə zənginləşməsinin imkanları mənəvi mədəniyyətin durumundan xeyli asılıdır. İkinci tərəfdən, nihilist bir vəziyyətdən fəal milli
şüura doğru yeniləşmə həyat tərzinin böhran keçirdiyi bir şəraitdə xüsusi əhəmiyyət kəsb edir, milli inkişaf prosesində etnomədəni qaynaqlara maraq xeyli artır. Belə bir vəziyyət milli reallıqlarımız üçün vacib olan, lakin dünyanın mədəniyyət təcrübəsinə açıq olan, onun tərəfindən rəğbətlə qarşılanan humanist fəaliyyət tərzini formalaşdırmaq lazımdır. Bu fəaliyyət tərzini milli mənəviyyatımızın dərin qatlarında yerləşən dəyərlər, sırf Azərbaycan mentaliteti qidalandırmalıdır.

Heydər Əliyevin tarixi yaddaş və tarixi şüur problemləri ilə bağlı mülahizələrindən irəli gələn metodologiyaya söykənərək belə bir nəticəyə gəlmək olar ki, milli həyat tərzinin inkişafı, hər şeydən əvvəl cəmiyyətin, sosial qrupların, əhalinin təbəqələrinin, müstəqil sərvəti olan insanın şəraitinin və həyat tərzinin vahid həyat fəaliyyəti formasına nail olmaqdır. Bu, əslində, milli iqtisadiyyatın, insanların həyat şəraitinin, onların tələbatlarının və sosial qrupların, fərdlərin həmin obyektiv



amillərə şüurlu münasibətinin nisbətini nəzərə alan elmi əsaslandırılmış sosial-iqtisadi proqramların yerinə yetirilməsinin məqsədyönlü prosesidir.

Hər bir nəsil öz xalqının gələcəyi üçün faydalı olmaq istəyirsə, hər şeydən əvvəl, bəşəri dəyərlərə sadiq olmalıdır.

Tarix elə sərt və amansızlıqlarla dolu bir səhnədir ki, burada yaşamaq üçün millət öz həyatını ciddi qurmalıdır, lider mənsub olduğu xalqı dünyada təsdiqi üçün milli inkişafı özünə peşə seçməlidir. O çalışmalıdır ki, müasir nəsil şüurlu olaraq millətinin gələcəyinə əsl vətənpərvər kimi qayğı göstərsin, xalqında siyasi inamın və insani ümidin sönməsinə imkan verməsin. İntellekt sahibləri belə bir fikirdədirlər ki, bütün dövrlər keçid xarakteri daşıyır. Bu, bəlkə də, belədir. Bütün dövrlərdə tarixi substansiya, yəni hər bir xalqın daxili hissiyyatı, düşüncəsi, onun bədii zövqü müəyyən qədər dəyişir.

Ona görə də gözlənilməz hadisələrlə müşayiət olunan mövcud şəraitdə milli həyat tərzinin formalaşdırılması öz növbəsində müvafiq milli mənlik şüurunun inkişafına yönəlmiş ideoloji işin əhəmiyyətini daha da artırır. Bununla əlaqədar olaraq Heydər Əliyevin sosial fəlsəfəsindən irəli gələn başlıca qayə budur ki, bütövlükdə cəmiyyətin, eləcə də onun bütün sahələrinin inkişafı, xüsusilə azərbaycanlıların ictimai şüurunun yeni pozitiv mental xüsusiyyətlər kəsb etməsi, hər şeydən əvvəl, cəmiyyətin nəzəri yetkinliyindən, mövcud tarixi mərhələnin spesifikasını başa düşmək qabiliyyətindən və Azərbaycanın sosial-siyasi və mənəvi-əxlaqi reallıqlarının inkişaf istiqamətlərini düzgün müəyyənləşdirməkdən asılıdır.

Deyilənlər baxımından bir daha qeyd edək ki, bazar, rəqabət, hüquq, xüsusi mülkiyyət milli mentalitetimizə son illər sirayət edən amillərdir. Bunlar şüurumuzun dərin qatlarında tamamilə yer tapmasa da, təbii ki, milli həyat tərzimizin formalaşmasında öz işini görür və buna görə də nəzəriyyəçilərin diqqətini cəlb etməkdədir. Etiraf edək ki, bu problem, fəlsəfə, kulturologiya, etika elmlərinin qarşısında duran mürəkkəb məsələdir. Hər halda, konstruktiv aksiologiya çərçivəsində məsələnin ümumi həllini belə təsəvvür etmək

olar: maariflənmə, ictimai diskussiyalar, islahatlar və qanunvericilik proqramlarının müzakirəsi yolu ilə tarixən şüurda kök salmış, lakin bu gün innovasiyalara yiyələnməyə mane olan stereotipləri dəyişmək olar. Lakin belə bir hal da istisna olunmur ki, dəyişikliklər prosesinin mürəkkəbliyi mentalitetin pozitiv elementlərini də «zədələməyə» bilər. Beləliklə, milli mənlik şüurunun və tarixi yaddaşın şəffaflaşması, yeni tipli mentalitetin formalaşması, xalqın şərəf, ləyaqət, mənəvi-əxlaqi şüur hissinin millətin özünütəsdiqində mühüm rolu nəticə etibarilə milli həyat tərzinin daha da təkmilləşməsinin mühüm müqəddəm şərtləridir.

Dünya inkişafının müasir mərhələsinin başlıca meyllərinin mədəni inteqrasiya və qloballaşmadan ibarət olduğunu nəzərə alsaq, hazırda bütün millətlər kimi, Azərbaycan xalqının da çağdaş sivilizasiyada özünütəsdiqi məsələsinin nə dərəcədə milli aktual problem olduğu bir daha özünü göstərir. Ölkə Prezidenti belə bir məqamı haqlı olaraq vurğulayır ki, əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümüdlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Dünyada proqnostiklərin və intellektualların bu mürəkkəb və birmənalı qiymətləndirmədikləri, əksinə, bir çox hallarda sivilizasiyalar arasında barışmaz konfliktlərin baş verəcəyi barədə narahatedici proqnozların verildiyi bir tarixi mərhələdə bəşəriyyətin gələcək perspektivləri barədə problemlər bizi də düşündürməlidir. Qloballaşma hazırda dövlətlərin sabit inkişafı, ərazi bütövlüyü və idarəetmə sistemlərinin rəvan işləməsi, iqtisadi inteqrasiyada dövlətlərin, xüsusilə yeni demokratiyaların özlərini «tapması» kimi son dərəcə vacib həyatı tələbatları imtahana çəkir. Lakin xalqların dünya proseslərində özünəlayiq yer tutması məsələsinin düzgün həlli baxımından qeyd edilməlidir ki, qloballaşma şəraitində beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərləri layiqincə qiymətləndirməklə yanaşı, hər bir ölkənin səciyyəvi milli xüsusiyyətləri də nəzərə alınmalıdır. Əgər bu meyl qloballaşma və yeni sivilizasiya proseslərinin



mühüm bəşəri və humanist istiqamətlərindən biri olmazsa təbii ki, inteqrasiya proseslərinin pozitiv inkişafından söhbət gedə bilməz.

Azərbaycanın hazırda Şərq ilə Qərb arasında körpü rolunu oynaması qloballaşma proseslərinin rəvan keçməsinə verdiyi ən mühüm töhfədir. Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyatı dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün Azərbaycanın göstərdiyi səylər dünyanın sivil dövlətləri tərəfindən layiqincə dəstəklənir. Əsrin bu nəhəng la-yihəsinin uğurla həyata keçirilməsi, şübhəsiz ki, yeni demokratiyaların dünya inteqrasiya prosesinə intensiv daxil olması üçün real obyektiv şərait yaradacaqdır.

Lakin kiçik dövlət olan Azərbaycanın özündə xalqımızın milli dəyərlərini, onun düşüncə tərzinin mental xüsusiyyətlərini ehtiva edən Böyük Mənəviyyatı qorumaq onun bütün uğurlarının rəhnidir. Vətən amalı və azərbaycançılıq, siyasi mentalitetimizin yeni pozitiv çalarlar kəsb etməsi ən aktual və taleyüklü problemlərimizdir. Olduqca təqdirəlayiq haldır ki, milli varlığımızın inkişafı üçün son dərəcə önəmli olan bu ümummilli dəyərlər Heydər Əliyevin fəlsəfi sistemində bütün aktuallığı ilə qoyulmuşdur.

## IV FƏSİL

## MENTALİTET: VƏTƏN AMALI VƏ AZƏRBAYCANÇILIQ MƏSƏLƏLƏRİ

Heydər Əliyevin zəngin həyat təcrübəsinin və fəlsəfi dünyagörüşünün bəhrəsi olan əsərlərinə dönə-dönə müraciət etdikcə yeni-yeni elmi metodoloji əhəmiyyət kəsb edən ideya və mülahizələr müşahidə etmiş oluruq. Onun çıxış və nitqlərinin analitik təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, təcrübəli dövlət başçısının irəli sürdüyü fikir və ideyaları ictimai fikrimizdə, tarix fəlsəfəsi kontekstində təsnif etmək mümkündür. Dövrünün hadisələrini qlobal şəkildə dərk edib, əldə etdiyi nəticələri lokal formada tətbiq etmək qabiliyyəti belə bir həqiqəti aşkarlayır ki, hazırda Azərbaycan cəmiyyətinin fəlsəfi refleksi-yaya ehtiyacı vardır, yəni millətin öz sosial varlığına fəlsəfi yanaşıb özünü yenidən dərk etməsinə dərin zərurət duyulur. Bu, təbii və məntiqi sosial dünyagörüşü prosesidir, milli inkişafa yeni təkan verən, milli mənlik şüurunu, xalqın mənəviyyatını zənginləşdirən obyektiv reallığa ekzistensial reaksiyadır. Fəlsəfi refleksiya özünəbaxışın dünyagörüşü aksiyasıdır, millətin qlobal miqyasda özünüidentifikasiya prosesinin labüdlüyünün təzahürüdür.

İngilis filosofu Arnold Toynbi hesab edir ki, biz elə bir dövrdə yaşayırıq ki, tarix hamımıza meydan oxuyur. Bu sözlərdə böyük həqiqət var. Doğrudan da, milli inkişafımızın indiki mərhələsində cəmiyyətin həyatında baş qaldıran müxtəlif konfliktlər, milli şüurumuzu narahat edən ideyalar, yeni texnologiyaların bəşəriyyəti böyük çətinliklər qarşısında qoymuş, planet miqyasında ekoloji problemlərin artması insanları görünməmiş təhlükə ilə üzləşdirmişdir. Böhran və fəlakətlər dövlətləri prinsipcə qeyri-ordinar siyasət yeritməyə məcbur edir, gözlənilməz problemləri meydana gətirən transmilli korporasiyaların qətiyyətli diktəsi ilə hesablaşmağa



vadar edir. Bir sözlə, tarix bütün xalqları, xüsusilə gənc demokratiyaları böyük sınağa çəkir. Görünür, bu da mental bir xüsusiyyətdir ki, böhranlı anlarda insanlar bir qayda olaraq, tarixin sınaqlarından çıxmış öz milli təcrübələrinə müraciət etməli olurlar. Lakin intensiv surətdə cərəyan edən transformasiya proseslərinə məruz qalan cəmiyyət ənənəvi təcrübənin bu gün kifayət etmədiyini dərk edərək tarixin burulğanına atılmış xalqları seçim qarşısında qoymuşdur: ya xalqın yaradıcı potensialını artırıb yeni mürəkkəb şəraitə uyğun həyat tərzini formalaşdırmaq, ya da mədəniyyətin qədim qatlarında yuva tapmış dəyərlərlə kifayətlənib zamanın tələbləri qarşısında təslim olmaq. Belə bir fundamental seçim xalqın milli və bəşəri dəyərlərindən bəhrələnmiş, böyük mədəniyyətinin məzmununu müasir yeniliklərin dərkinə və yaradıcı tətbiqinə yönəlmiş böyük şəxsiyyət dühası ilə müəyyənləşir. Məhz geniş miqyaslı təfəkkürə malik şəxsiyyət dərk edir ki, əgər tərəqqiyə inam xalqın böyük əksəriyyətinin düşüncəsinə hakim kəsilmirsə, tarixin amansız sınaqlarından çıxmaq olmur. Konkret tarixi şəraitdə neqativ təsirlərlə üzləşən xalqın mənəviyyatını, əxlaqi idealını və milli varlığını xilas edə bilmir, vətən və millət anlamları insanları narahat etmir.

Bu konteksdə Heydər Əliyevin ictimai görüşlərində vətən amalı problemi mühüm fəlsəfi-əxlaqi mahiyyət kəsb edir, çünki o, milli varlığımızın müqəddəs anlayışı kimi təhlil olunur. Dövlət başçısının görüşlərində mühüm nəzəri məqam budur ki, o, vətən amalı anlayışı və onun struktur elementlərini nəzərdən keçirərkən «milli amil» probleminə xüsusi diqqət yetirir, bunu milli həmrəyliyin dərkində inteqrativ mexanizm kimi təhlil edir.

Qeyd etmək lazımdır ki, bizim cəmiyyətşünaslıq elmində milli amil anlayışı, demək olar ki, araşdırılmamışdır. Halbuki hazırda fəlsəfi araşdırmalarımızda elmi-nəzəri baxımdan yenicə işlənməyə başlanan bu anlayışın da taleyi millətə nəsib olmuş keşməkeşli milli inkişafa qismət olmuş tale ilə sıx bağlıdır. Rəsmi sovet ideologiyasının hökmranlığı şəraitində milli amil anlayışı müxtəlif millətlərin və xalqların qarşılıqlı münasibətlərinin forması kimi başa düşülürdü. İdeoloji qiyafədə

təqdim olunan elmi ədəbiyyatda milli inkişaf konsepsiyalarının təhlilində başlıca diqqət ictimai inkişafın iqtisadi, sosial-siyasi və mədəni sahələrinə yetirilirdi, daha dəqiq desək, «xalqların mədəniyyətlərinin çiçəklənməsi» məsələsinin araşdırılmasına üstünlük verilir, milli amil fenomeni isə kölgədə qalırdı. Heydər Əliyevin fəlsəfəsində «milli amil» kateqoriyası millətin real iqtisadi, sosial-psixoloji və mədəni həyatının potensialını hərəkətə gətirən mexanizm kimi nəzərdən keçirilir. Həmin potensial öz ifadəsini ilk növbədə millətin mənlik şüurunun xarakterik xüsusiyyətlərində, emosional-psixoloji cəhətlərində, ictimai inkişafa verdiyi töhfədə tapır. Müasir azırbaycanlıların yeni mentalitetinin formalaşması baxımından maraqlı cəhət budur ki, Heydər Əliyev milli amil probleminin xalqın mənəvi potensialı sahəsində, milli mədəniyyəti və milli mənlik şüuru kontekstində nəzərdən keçirilməsinə üstünlük verir.

Milli mədəniyyətin və milli mənlik şüurunun inkişaf qanunauyğunluqlarından biri mənəvi irsin varisliyidir. Məlum olduğu kimi, mədəniyyət insanların maddi və mənəvi fəaliyyətinin nəticələrində təcəssümünü tapmış sosial təcrübədir. Bu isə, birincisi, o deməkdir ki, burada bu və ya digər xalq, millət təmsil olunur, deməli, onların dünya anlamı və ətraf mühiti dərk etməsi, xalqın ideya-psixoloji baxışları ehtiva edilir. İkincisi, mənəvi irs təkcə insanların təcrübəsi, bilikləri və fəaliyyətini deyil, həm də xalqın tarixi yaddaşını, onun dərk olunmuş mənafelərini və məqsədlərini əhatə edir. Xalqı vəhdətdə birləşdirən bu subyektiv amillər onun milli inkişafının mühüm müqəddəm şərtləridir. Bu mənada vətən amalından söhbət gedərkən milli mədəniyyət və milli mənlik şüuru, milli təfəkkürün mental xüsusiyyətləri nəzərə alınmalıdır. Bu ideya Heydər Əliyevin fəlsəfəsində mühüm və gərəkli metodoloji təhlil mexanizmi kimi çıxış edir.

Bunu da qeyd edək ki, Heydər Əliyevin ictimai görüşlərində «milli amil» heç də milli özünütəcrid prinsipi deyil, əksinə, milli inkişafın mühüm şərtlərindən biri olan inteqrasiya proseslərinə qoşulmağın vacibliyini bildirən fəlsəfi ideyadır. Müasir qloballaşma prosesləri (mürəkkəb xarakterinə baxmayaraq)



göstərir ki, ən güclü dövlət belə özünü real inteqrasiya proseslərində təsdiq etməsə, zamanın inkişaf məhvərindən qopmuş olur. Vətən millət üçün müqəddəsdir, dünya birliyində tanınması isə onun müqəddəsliyini daha da artırır.

Heydər Əliyevin fəlsəfəsində «vətən» kateqoriyası mücərrəd anlayış deyildir. Onun görüşlərində bu müqəddəs məfhum övladlarının hamısının nemətlərindən azad və bərabər surətdə bəhrələnən suveren Azərbaycan vətəndaşlarının diyarıdır.

«Vətən amalı» anlayışının strukturunda vətənə xidmət prinsipi mühüm yer tutur. Hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki vətən hissi, millətin mənəvi-əxlaqi dəyərləri məhz bu etnik məkanda formalaşır. Əbəs yerə deyildir ki, insanların yaddaşında vətən diyarı, doğma torpaq, əcdadlarımızın beşiyi kimi müqəddəs anlayış olaraq daim yaşamaqdadır. Bu ülvi sözlərdə diyarın təbii landşaftı, xalqın sosial-iqtisadi və mənəvi dəyərləri haqqında təsəvvürləri, onun təfəkkürünün mental xüsusiyyətləri dərin ifadəsini tapmışdır. Heydər Əliyevin çıxış və nitqləri ilə dərindən tanışlıq belə bir güclü əqidəyə əminlik yaradır ki, insanların öz doğma etnik beşiyinə ülvi məhəbbəti, öz doğma diyarına bağlılığı, xalqın ənənələrinə və adətlərinə dərin ehtiram dönməz sosial fenomen kimi hazırda müstəqil Azərbaycanın vətəndaşlarının yeni mental keyfiyyətlərinə çevrilməkdədir. Doğma diyara və ata ocağına təbii bağlılıq xalqımızın görkəmli şair və yazıçılarının əsərlərində öz əksini tapmış, tarixi yaddaşın və tarixi şüurun Vətən xislətində əks etdirilmişdir: görkəmli şəxsiyyətlərimiz həmişə millətin bəşəri təcrübəsində xalqımızın ləyaqətini ucaldan, onu digər xalqlardan fərqləndirən mental keyfiyyətləri vəsf etmişlər. Xalqımızın həyat təcrübəsində mərdlik, cəsarət, ləyaqət, ulu babaların ənənə və adətləri, xeyirxahlıq və əməksevərlik həmişə yüksək qiymətləndirilib. Abbas Səhhətin «Vətənim verdi mənə namu-nəmək, Vətəni məncə unutmaq nə demək» sözləri həmişə azərbaycanlıların Vətən məhəbbəti amalını şüurunda bir milli mentalitetin xüsusiyyəti kimi həkk etdirib. Nizami Gəncəvi öz poeziyası ilə

vətəni viranedici qüvvələrdən, təsirlərdən qorumaq, ana yurdunda sülh, ədalət, əmin-amanlıq yaratmaq istibdad zülmünü, özbaşınalıq təzahürlərini aradan qaldırmaq naminə mübarizəyə üstünlük vermişdir. Ən önəmlisi budur ki, dahi mütəfəkkir N.Gəncəvi orta əsrlərin xürafatı mühitində insan azadlığının həyata keçirilməsi üçün nə obyektiv zəruri, nə də subyektiv amillərin yetişmədiyi bir şəraitdə vətənin taleyüklü məsələlərinin həllinin vacibliyini söyləmiş, bununla düşüncələrdəki dini xürafat steriotiplərini sarsıtmışdı. Göründüyü kimi, vətən anlayışı doğma diyarın bütün guşələrini və geniş düzənlərini, xalqımızın yaradıcı qüvvələrinin qaynaqları haqqında təsəvvürləri özündə ehtiva etmişdir. Görkəmli şair və yazıçılar etiraf etmişlər ki, onların poeziyası, obrazlı düşüncələri, həyat müdrikliyinin mənbəyi olan xalq zərbi məsələlərindən, xalq mahnılarından başlayır, çünki bunlar Vətəni vəsf edən, Vətən məhəbbətini əbədiləşdirən qaynaqlardır. Azərbaycanlılar böyük sovet məkanında yaşasalar da, «öz kiçik» vətənlərini böyük məhəbbətlə sevmiş, onun qədim tarixi abidələrini qorumaqla şüurda vətən amalını yaşatmışlar.

Heydər Əliyevin vətən amalı təliminin mühüm struktur elementlərindən biri Vətənin taleyi üçün məsuliyyət hissidir. O, xalqının ağır vəziyyətində məsuliyyət hissinin artırılmasını Vətənə dönməz sədaqətin təzahürü sayır. Dünyada müstəqil dövlət kimi tanınmış Azərbaycanın suverenliyinin təhlükə altında olmasının xalqın düşüncəsinə xüsusilə çatdıraraq ölkə Prezidenti Bakıda ümumrespublika müşavirəsindəki çıxışında (avqust 1993) açıqca deyirdi: **«Biz, yəni Azərbaycan xalqı, böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Hər bir azərbaycanlı, əgər onun qəlbində doğurdan da Azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vurursa, bu yolla getməlidir».** Həqiqətən də, vətən amalı, hər şeydən əvvəl, vətən üçün əməli, faydalı və vicdanlı işi görmək deməkdir.



Etiraf edək ki, bu, Heydər Əliyevin ikinci qayıdışından sonra onun üçün siyasi-psixoloji sınaq dövrü olmuşdur. Mətin iradəli böyük siyasətçi və səriştəli dövlətçilik təcrübəsinə malik Heydər Əliyev xalqını bu ağır günlərdə ruhdan düşməməyə çağırır, onda özünün yüksək mənəvi keyfiyyətlərini bir daha nümayiş etdirməyə səsləyirdi. Rəhim Qazıyevin, separatçı Əlikram Hümbətovun cəbhədə nadan və səriştəsiz, təxribatçılığa imkan yaradan hərəkətləri, Azərbaycanın gözəl guşəsində yaşayan qeyrətli, əməksevər Lənkaran əhalisini aldadaraq düz yoldan çıxarmaları ölkədə həqiqətən ürəyi ağrıdan dəhşətli vəziyyət yaratmışdı. Məhz belə bir anda ümumi Vətən anlayışının bütün ölkə üçün nə qədər müqəddəs bir sərvət olduğuna Azərbaycan xalqını inandırmaq və bütün azərbaycanlıları bu amal ətrafında birləşdirmək lazım idi. **«Azərbaycan xalqı, tarix boyunca yüksək mənəvi keyfiyyətlərə malik xalq olub. İndi də belədir. Mən təxribatçıları xalqa aid edə bilmərəm»** - xalqının belə yüksək ləyaqətinə söykənən ölkə Prezidenti Vətəni və xalqı üçün qürur hissi keçirərək azərbaycanlıları daha inamla öz ətrafında ümumi milli iş naminə birləşdirməyə nail olmuşdu. **«Mən öz ifadəmdən, - bu isə xalqın ifadəsidir, bir namuslu vətəndaş kimi mənim şəxsi iradəmdir – istifadə edərək Azərbaycanın bu vəziyyətdən çıxması üçün son damla qanıma qədər çalışacağam və heç kəs də məni qorxuda bilməz» - «Heydər – xalq, xalq-Heydər»** həqiqətinin mənəvi qaynaqları məhz bu ağır illərdə soydaşlarımızın mənlik şüurunda dərin kök salmış, xalqımızın bu günə qədər mentalitetində olmayan yeni bir ideya, öz müstəqil Vətəni üçün qürur hissi keçirmək kimi yeni əxlaqi keyfiyyət formalaşdırmışdır. Milli Məclisdəki ilk çıxışlarının birində «Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram» söyləyən Prezident bu gün də xalqının mənəviyyatı önündə baş əyərək onu yeni müstəqillik yolu ilə aparacağını bir daha əyani sübut etdi. Bununla belə, o, xalqı sayıqlığını itirməməyə çağırırdı, çünki Vətəni qorumaq, onun qarşısında vicdan məsuliyyəti

daşımaq əməli ilə sayıqsızlıq bir araya sığmaz. Hadislərin gedişatını və dinamikasını diqqətlə izləyən Heydər Əliyev etiraf edirdi ki, Azərbaycan dövlətçiliyini bütün bölgələrdə təmin etmək o qədər də asan olmayacaqdır, müqavimətlərin olacağı da istisna edilməməlidir. O, cəbhədəki səriştəsiz «generallardan», onların nadanlığından məharətlə istifadə edən daxili düşmənlərdən, təxribatçılardan bəd əməllrindən əl çəkməyi tələb edərək deyirdi: **«Rica edirəm sizdən, şəxsi ambisiyalarınızı kənara qoyun, şəxsi instinktlərinizi, şəxsi mənafelərinizi, şəxsi məqsədlərinizi kənara qoyun, düşünün, Azərbaycan Respublikasınm dövlətçiliyi təhlükə altındadır».**

Həmin dövrdə Heydər Əliyev xalqa «Vətən və tarixi məsuliyyət» anlamının vəhdətdə ən yüksək mənəvi keyfiyyət olduğunu inandırıcı surətdə aşılaya bilmişdir. Xalq dərk etməyə başlayırdı ki, gələcək nəsillərin azad, müstəqil, öz milli ənənələrinə, tarixi ənənələrinə sədaqətli ola bilməsi üçün dərindən düşünməli, ümumi uğurlarda bütün Vətənin qabiliyyətinə inanmalıdır. Bu elə bir tarixi məsuliyyət anıdır ki, hər kəs öz əməli və hər şey üçün məsuliyyət daşımalı, öz vicdanı qarşısında cavab verməlidir. Ölkə Prezidenti üçün vətən və vicdan bir əxlaqi məcrada təsəvvür edilən anlayışlardır. Vicdan əzabı çəkməyən vətəndaş Vətən amalının ülviliyini dərk edə bilməz. Ona görə o, xalqın düşüncəsində bir daha belə ülvi keyfiyyətin önəmliyini xatırladaraq deyir: **«Xalq, insan daxili gücünü, iradəsini həmişə ağır dövrlərdə büruzə verir».** O, xalqın, hər bir vətəndaşın vicdanına müraciət edərək fərarilik etmiş prezidentdən sonra «nə olmalıdır, nə etməliyik» taleyüklü tarixi suala (1993-cü il) özü də cavab axtarırdı, xalqın səsini eşitmək, sözünü bildirməsini istəyirdi. Başqa sözlə, o istəyirdi ki, dəfələrlə tarixin sərt sınaqlarından çıxmış xalq öz fikrini bildirsin, vətən və vicdan həqiqətinin bu ağır günlərdə nə olduğunu bir daha nümayiş etdirsin. Lakin xalq bir şeyə əmin olmalıdır: əgər müstəqil Azərbaycanın tarixi taleyi qarşısında öz eqoist, ambisiyalı



düşüncələrinin əsiri olmuş nadanların havadarları vicdan əzabı çəkib reallıqları dərk etməsələr, onda Vətəni ağır fəlakətdən qurtarmaq çox çətin olacaq. Xalq artıq referendumun keçirilməsinin zəruriliyinə taleyüklü milli məsələ kimi inanırdı. Bu, sadəcə, xalqın öz konstitusion hüququnun təzahürü deyil, onun necə yaşamaq istəməsi barədə siyasi iradi aksiyasıdır. Xalqın bu iradi əzmi Prezi-dentdən xalqın sağlam düşüncəsində yaşamaqda olan güclü milli ruhun olması əminliyini yaratmışdı. **«Mən indi dövlət başçısı vəzifəsini icra edən adam kimi sizin hamınıza ümüd bəsləyirəm»** - bu sözlərdə gələcəyimizin müqəddəratının bütün Azərbaycan xalqının iradəsindən asılı olması ümüdi səslənir. Zamanın həqiqət anı «Heydər – xalq, xalq – Heydər» anlamının səfərbəredici gücündə açıldı. Bu o demək idi ki, xalqın məfkurəsində Vətən həqiqəti və müstəqillik bir vəhdət halında ifadəsini tapmışdır.

Xalqımızın öz Prezidenti ilə birlikdə həmin dövrdə yaşadığı gərgin anlar haqqında çox yazmaq olar, lakin biz Heydər Əliyevin bir siyasətçi kimi mətin iradəsi ilə bağlı haşiyə çıxaraq «riskli tarixi seçim və psixoloji etimad» problemlərinə toxunmaq istərdik.

Millət yaşayıb yaradırsa, deməli, o, seçim etməlidir. Bu, hər bir inkişafın və mövcudluğun danılmaz məntiqidir, müasir fəlsəfi şüurun daim üzləşdiyi, düha sahiblərinin təfəkkürünün enerjisinin predmetidir. Nəhayət, riskli seçim tarixin ən gərgin anlarında siyasətçinin iradə və intellektinin daim toqquşduğu, lakin hələ də milli inkişaf kontekstində axıra kimi funksional təbiəti açılmamış fenomenlərdir. Məsələ burasındadır ki, cəmiyyətin böhranlı anlarında, xüsusilə yeni demokratik quruculuğa keçid dövründə konfliktli vəziyyəti yaradan təkcə seçim etmək deyil, seçim edərkən tarixi alternativ formaların, başqa sözlə, tarixi seçim edərkən riskin özünü doğrultması üçün alternativlik prinsipinin mövcudluğu da nəzərə alınmalıdır.

Ölkəmizin kiçik bir tarixi kəsimdə təlatümlü dövrünü təhlil edərkən bir daha aydın olur ki, Azərbaycan xalqı milli varlığının ən çətin və gərgin anlarında, sözün əsl mənasında, tarixi seçim

riski ilə üzləşməli olmuşdur: müstəqilliyi qorumaq üçün hansı qüvvələrin ardınca getməli? Və yaxud vaxtilə millətin taleyilə oynayan ambisiyalı cəbhəçi liderlər seçim edərkən (əgər buna sağlam düşüncə baxımından doğru, düzgün seçim demək olarsa) həqiqətənmi tarixi zərurəti dərk etmişdilər? Belə bir vəziyyətdə çox az adam hiss edirdi ki, düşüncələri, əslində, keyləşdirən demokratiya və aldadıcı plüralizm pərdəsi altında öz miskin ambision niyyətləri naminə dəridən qabıqdan çıxan «xalqsevərlər», ümumiyyətlə, nəinki tarixi və milli varlıq anlayışlarını dərk edir, əksinə, xalqın müstəqillik idealını böyük risk qarşısında qoyurlar. Daha dəhşətli psixoloji məqam bu idi ki, siyasi azadlıq kimi ümidverici bir sosial dəyər xalqın gözündən düşür, onun məfkurəsində demokratik quruculuğa olan inamı itməyə başlayırdı. Fransız Goyanın sözləri ilə desək, «zəka yatanda dəhşət baş qaldırır» situasiyası yaranırdı. Demokratik dəyərlərin nadan siyasətçilərin əlində manipulyasiya alətinə çevrilməsi nəticəsində milli düşüncənin kütləşməsi baş verir, kütləvi şüurda demokratiyanın dəyərdən düşməsilə bağlı risk vəziyyəti yaranır ki, bu məqamın analitik dərkinə böyük ehtiyac olur. Real seçimdən və real alternativlərdən məhrum olmuş xalqın əxlaqi deqradasiya dövrü başlayır. Bu isə daha böyük risk, daha çox qeyri-müəyyənlik vəziyyəti yaradırdı ki, bu da dar dairədə fəaliyyət göstərən, xalqdan uzaq siyasi elitanın cəhd göstərdiyi siyasi çevrilişlərin müqabilində daha dəhşətli haldır. Təəssüf hissi ilə demək istərdik ki, bu cür destruktiv cəhdlər bir sıra siyasi partiyaların fəaliyyət arsenalında bu gün də qalmaqdadır. Həmin «elitaya» xatırlatmaq istərdik ki, Gəncə hadisələri, «Talış-Muğan Respublikası»nı meydana gətirən sosial destruktivlik məhz respublikada cəbhəçilərin səriştəsiz, ölkəni risk həddinə gətirən nadan siyasətində axtarılmalıdır.

Dərhal və tezliklə uğur qazanmaq strategiyası reallıqları düzgün qiymətləndirməmək, həyatın inkişaf dialektikasına zidd olduğunu başa düşməməkdir. Konyuktur siyasət, liderlərin həyati problemləri tez bir halda, tələm-tələsik həllinə can atmaları mövcud reallıqların və proseslərin məntiqi axarını



öyrənib dərk etmədən hazır bolşevik ideyalara, şüarlara və proqramlara əl atmağa gətirib çıxarır, ona görə də bunlar zamanın ruhu ilə uzlaşmır, geniş kütlələri tarixin sərt dönüşlərində çaşqınlığına gətirib çıxarır. Bunun nəticəsində real seçimlə zəngin olan siyasi məkanda sağlam düşüncənin yerini ehkamçı dünyagörüşünə söykənən amorf bir siyasət tutur. Burada, ola bilsin ki, riskdən bilərəkdən yayınmaq siyasəti yeridilir, lakin belə hərəkət xətti, əslində, siyasətdə daha riskli zona yaradır.

Bu gün etiraf edilməlidir ki, Azərbaycan xüsusi sosiomədəni və geosiyasi məkan kimi yüksək tarixi risk zonasıdır. Bizcə, ölkəmizin yüksək risk məkanına mənsubluğu daha çox onun Şərqlə Qərb arasında strateji mövqedə yerləşməsidir. Bu zonada hər iki dünyanın – Şərqlə Qərbin həm sosiomədəni dəyərlərinin, həm də geosiyasi korporativ maraqlarının çulğaşdığı «körpü zonası»nda böyük mənafelər bir-birilə toqquşur. Digər tərəfdən, Şərqlə Qərbin sosiomədəni dəyərlərinin sintezini regionunun mənəvi sferasında özünəməxsus identikliyin oyan-
masına təkan verir. Azərbaycan dünya sivilizasiyasında özünü təsdiq etdikcə onun xarici ölkələrlə münasibətləri özünü refleksiya amilinə üstünlük verir. Burada korporativ maraqların fonunda milli mədəni dəyərlərin eroziyaya uğraması riski yarana bilər. Deməli, Şərqlə Qərbin sintezinin təsiri məkanında tarixi-mədəni şüura, milli mentalitetə «aşınma» elementləri nüfuz edə bilər. Doğrudur, burada mühafizəkar şüur da ümumi milli inkişafa, xüsusilə xalqın müstəqillik idealının mahiyyət qüvvələrinə təsir edə bilər. Amma elə də olur ki, mühafizəkar şüur və yaddaş özündə məhz pozitiv dəyərləri qoruyub saxlaya bilir ki, bu da potensial sayəsində risk vəziyyətində milli varlığın inkişafına mane olan başlıca çətinliklər aradan qaldırılır. Ona görə də dahi simalar həm inqilaba, həm də irticaya eyni neqativ sosial hadisə kimi baxmışlar. Hər bir mürtəceliyin nə olduğu aydın məsələdir. İnqilab isə dağıdıcılığa və fəlakətə aparan yoldur. Həm inqilabi, həm də utopik ideyaları həyata

keçirmək eyni dərəcədə riskli seçimdir. Bu vəziyyət alternativ variantlar axtarışını stimullaşdırır.

Azərbaycan adlanan Vətənimiz keçid dövrünü yaşayır və bu səbəbdən şüurlarda hələ də hansı cəmiyyəti qururuq sualı tez-tez dolaşır. İnsan dünya baxışının öz cəmiyyətinə refleksiya etməsi təbii psixoloji prosesdir. Postsovet məkanından sonra hansı cəmiyyətin qurulması məsələsini həll etmək tarixi riskli seçimlə üzləşmək deməkdir. Bu prosesdə intellektual dəyərlərə söykənən milli mənlik şüuru, siyasi dünyagörüşü amilləri yaxından iştirak edirlər. Düşüncələrin çaşqınlıq keçirdiyi belə vəziyyətin özündə də risk amili vardır. XX əsrin tarixi göstərir ki, mədəni elitanın olmaması, bir çox xalqların sosiomədəni geriliyi onların tarixi taleyinə, eləcə də milli mənafelərinin tanınmamasına təsir göstərir. Mənəvi legitimliyini itirən xalq sosial nüfuzunu da itirmiş olur. Bir sözlə, mənəvi mədəniyyət xalqların tarixi yaddaşı, mənəviyyatı Vətənin məbədidir. Bu mövcudluq potensialını itirmək labüd təcridliyə yuvarlanmaq, identikliyi itirmək isə sosial enerjini tükəndirmək deməkdir.

İdentikliyi itirmək millətin ümumi mədəniyyətinin məhsulu olan iqtisadiyyatın övqatına, kapitalizm dediyimiz seçimin real mahiyyətinin itirilməsinə səbəb olur. Burada gənc kapitalizmə münasibət sahibkarlıq ideyasının milli dövlət ideologiyası ilə üst-üstə düşdüyünü əks etdirməlidir. Bunsuz milli dövlət quruculuğu da mümkün deyildir. Göründüyü kimi, tarixi seçim labüd risklə müşayiət olunur. Lakin hər bir halda Azərbaycan gerçəkliyində müstəqilliyin ilk illərində çaşqınlıq şəraitində yaşamalı olan iqtisadiyyatda, təsərrüfatda kortəbiilik nəinki iqtisadi legitimliyə ziyan vurur, həm də kütlələrin psixologiyasında milli iqtisadiyyatın xalqın rifahını təmin edə biləcək amil olmayacağı ideyasını formalaşdırırdı. Üstəlik də, hakimiyyət strukturlarının hələ liberallaşma prosesindən uzaq olması, ölkənin ümumi psixoloji övqatının daha da pisləşməsi xaosa, qayda-qanunun pozulmasına, cinayətkarlığın artmasına şərait yaradırdı.



Millətin tarixi seçim qarşısında durması cəmiyyətin həm siyasi, həm də mənəvi risklə üzləşməsi demək idi. Xalq seçim etməli, hər şeydən əvvəl, milli lider axtarışlarında bulunmalı, əhalinin düşüncəsində artıq dərk olunmağa başlayan bu qanunauyğunluq və zərurət ölkənin gələcəyini, Vətənin taleyini müəyyənləşdirməli idi. Mentalitetində önəmli sosiomədəni dəyərlərini hələ itirməmiş azərbaycan xalqının tarixi şüuru öz seçimini etdi, millətinin qeyrətli oğlu, dünya miqyaslı siyasətçi Heydər Əliyevi təkidlə dövlətçilik sükanını əlinə almağa dəvət etdi.

Məhz bu kontekstdə biz xalqın mentalitetinin mühüm cəhətlərinin və Heydər Əliyevin məhz vaxtında hakimiyyətə qaytarılmasının mahiyyətinə aydınlıq gətirən psixoloji etimad probleminə toxunmağı məqsədəuyğun hesab edirik. Ən ümumi şəkildə deyə bilərik ki, Heydər Əliyev şəxsiyyətinə etimad real gerçəkliyimizin sosial-psixoloji övqatından yaranmışdır. Belə bir şəraitdə psixoloji ab-havanın pozulması, ölkənin xaos içində olması, cinayətkarlığın sürətlə artması, vicdan və borc qədər önəmli əxlaqi dəyərlərin tam nüfuzdan düşməsi son dərəcə ağır və mürəkkəb və qeyri-insani münasibətlər sistemini yaratmışdı. İnsanların öz davranışları üzərində sosial nəzarət hissi eroziyaya uğramışdı, belə ki, yaranmış vəziyyəti «xəcalətin özünün də üzü qara olmuşdur» ölçülərində təsvir etmək heç də mübaliğəli səslənmirdi.

Cəbhəçilər hakimiyyəti zorakılıq və cinayətkarlıq hallarının qarşısını almaq tədbirləri görmürdü, yaxud bu iqtidarda deyildilər. Bunlar hələ bir yana qalsın, cəbhəkratiya xalqı bu dəhşətli hallarla mübarizəyə səfərbər etmirdi. Bu cür qeyri-əxlaqi rejimin yaranması, xalqın mənəviyyatının psixoloji keyfiyyətlərinə biganəlik cəbhəçilər hakimiyyətinin mənəvi-siyasi iflasını labüd edirdi. Xalq artıq simasını itirmiş hakimiyyəti onun başında duranlarla identifikasiya etməyə başlayırdı. Bu gün «Lider» kanalının «Kuklaları» xalqa özünün keçmiş mentalitetini xatırladır, sanki sosial refleksiyanın psixoloji fenomen kimi əhəmiyyətini artırır. Cəsarətlə demək olar ki, keçmiş hakimiyyət xalqın möcüzəni arzulayan daim patriarxal

gözləmə psixologiyasından rəhmsizcəsinə istifadə edərək öz eqoist mənafelərini ödəməklə məşğul idi, bir növ cəmiyyətdə etimadsızlıq əhval-ruhiyyəsi formalaşmışdı. Təsadüfi deyildir ki, Azərbaycan gerçəkliyində etimad məsələsinə maraq da xeyli artmağa başlayırdı. İnsanlar, gec də olsa, anlamağa başlayırdılar ki, öz qüvvəsinə inanmalıdırlar. Lakin bu da maraqlıdır, cəmiyyətin hansı zümrəsi belə bir şəraitdə özünə inana bilərdi? O da ola yenicə formalaşmağa başlayan sahibkarlar təbəqəsi. Etimad hər bir normal siyasət üçün zəruri hava və sudur.

Ümumiyyətlə, etimad elə bir psixi vəziyyətdir ki, onun sayəsində insana nüfuzlu görünən mülahizəyə söykənirsən, ona görə də buna şəkk etmirsən. Daha önəmlisi budur ki, etimad insan idrakına aid olan məsələlərlə bağlıdır. Çünki nüfuzlu mülahizəyə etimad göstərən inandığı obyekti daha «təftiş» etmək niyyətinə düşmür. Məsələn, politoloq S.Moskoviçi hesab edir ki, tabeçilik münasibətlərinin özü də etimad sayəsində mümkün olur. Etimad belə bir məqama aydınlıq gətirir ki, milyonlarla insanda «şübhə toxumu» ən qüdrətli tiranı belə devirməyə qadirdir. Çünki diktatura nəinki insan hüquqlarına, habelə hakimiyyətin əsl təbiətinə ziddir. Zorakılıq labüd olaraq məyusluq, biganəlik və düşmənçilik yaradır. Belə bir avtoritar rejimdə isə əxlaqi etimaddan söhbət gedə bilməz.

Maraqlıdır ki, latınca «credo» sözü «etimad göstərmək» «qəlbimi verirəm», yaxud «qəlbimi qoyuram» mənasını verir. Bu o deməkdir ki, etimad insanın ən mühüm psixi vəziyyətidir, lakin fitri keyfiyyət deyildir, çünki belə bir mövqe yalnız insani münasibətlər sistemində mövcud olan insanların bir-birini başa düşmək, dərk etmək prosesində formalaşa bilər. Təsadüfi deyildir ki, etimad mədəniyyəti həm xalqın mentalitetinin, həm də iqtidarın fəaliyyət göstəricisidir. Etimad mədəniyyəti həm hakimiyyətə, onun strukturlarına, həm də cəmiyyətin sosial institutlarına və deməli, ölkədə gedən müxtəlif xarakterli islahatlara, onun nəticələrinə inanmaq deməkdir. Zamanın amansız sarsıntılarını yaşamış sosial faktlar unudulmur, onun



dəyərli məqamları etimad üçün mənəvi əsas olur. Cəmiyyətin sosial-siyasi və tarixi-mədəni dəyərlərinə şübhə etmək, hakimiyyətin siyasi bacarığına tərəddüt nümayiş etdirmək böyük səhvlərə, bəzən də fəlakətə gətirib çıxarır. Əlbəttə, əgər söhbət siyasi etimaddan gedirsə, bu, siyasi təcrübədən çox asılı olur. Və yaxud,vətəndaş «lider siyasi etimada layiqdir» ifadəsini məsuliyyət hissi ilə işlədirsə, deməli, o özü müəyyən siyasi mədəniyyətə və təcrübəyə malik şəxsdir. Belə halda etimad və siyasətçi sinonim anlayışlar kimi çıxış edə bilərlər. Etimada layiq siyasi lider Vətənə etimad hissini formalaşdıra bilərmi? Hakimiyyətin əxlaqi öhdəliklərindən nə dərəcədə söhbət gedə bilər? Bütün bunlar ritorika deyil, Vətən anlayışına, Vətən qarşısında məsuliyyət anlamına aydınlıq gətirən mənəvi reallıqlardır. Vaxtilə Rusiyanın böyük islahatçısı P.A.Stolıpin belə bir ifadə işlətmişdir: Yalnız yetgin dövlət düşüncəsinə və möhkəm dövlət iradəsinə malik hökumətin yaşamaq haqqı vardır. Bu, bizcə, əslində, «etimad hökumətinin» modelidir. Bu kontekstdə demək olar ki, legitim hakimiyyətə etimad milli ideyanın mühüm komponenti olmağa layiqdir. Əslində, Vətən onun etimadını qazanmış ümummilli liderin başçılıq etdiyi dövlətdən, xalqın sosiomədəni dəyərlərə, indiki halda isə müstəqilliyimizin əbədiliyinə inamından başlayır.

Məhz buna görə Azərbaycan adlanan Vətənin qeyrətli və vicdanlı övladları Heydər Əliyevə etimad göstərərək onu prezident seçmiş, onun xalqa və onun dövlətinə milli etimad məktəbinə dərin ehtiram göstərmişlər.

Xalqının etimadını doğruldan ölkə Prezidenti vətənin ağır günlərində azərbaycanlıların mənəvi aşınmaya məruz qalmış vətənpərvərlik hisslərindən müstəqilliyimizi daha da möhkəmləndirmək üçün sosial enerji kimi istifadə etməklə müqəddəs vəzifəni yerinə yetirir. Bu mənada, demək olar ki, vətənpərvərlik Heydər Əliyevin vətən amalı təliminin ən mühüm komponentlərindən biridir. Tamamilə məntiqidir ki, vətən amalını vətənpərvərlik, anlayışından ayırmaq mümkün deyildir. Başqa sözlə, vətən olmadan vətənpərvərlik,

vətənpərvər şəxsin fəaliyyəti və insanın daxilən vətənpərvərliyə hazır olması, ədalətli vətənpərvər hərəkəti üçün müqəddəm şərtlər də ola bilməz. Heydər Əliyevin vətənpərvərlik konsepsiyası funksional olaraq bir-birilə qarşılıqlı əlaqədə olan üç komponentdən ibarətdir: vətənpərvər münasibət, vətənpərvərlik şüuru və vətənpərvərlik fəaliyyəti. Vətənpərvər münasibət insanın vətənin faydası üçün lazım olan fəaliyyəti həyata keçirmək niyyəti, həmçinin ölkəsinin maddi-mənəvi sərvətlərinə daxili pozitiv münasibətdir. Vətənpərvərlik şüuru vətənpərvərlik obyekti ilə vətənpərvərin qarşılıqlı təsirinin bütün növlərinin mənəvi tənzimləyicisi, onun şüurunun daxili determinantıdır. Vətənpərvərlik fəaliyyəti isə vətənpərvərliyin real hiss olunan və görünən tərəfləridir.

Əgər bu anlayışın genezisinə diqqət yetirsək aydın olar ki, burada başlıca cəhətlər vətəndaşın ətraf mühiti vətənpərvərcəsinə dərk etməsi, onun xalqımızın adət və ənənələrinə, sosial həyatımızın bütün sahələrinə idraki münasibət göstərməsi, onun müəyyən vətənpərvərlik aksiyasına psixoloji cəhətdən hazır olmasıdır. Heydər Əliyevin bu problemlə bağlı söylədiyi çıxışlardan aydın olur ki, o, vətənpərvərlik fenomenində psixoloji amilin roluna böyük diqqət yetirir. Həqiqətən də, vətənpərvər şəxs məhz zəngin emosionallığa malik olduğundan o, insanları Vətən naminə konkret fəaliyyətə həvəsləndirə bilir, geniş miqyasda fəaliyyət nümayiş etdirir. Lakin çılğınlığa yaxın emosionallıq vətənpərvər şəxsi millətçilik girdabına da sürükləməyə qadirdir. Ölkə Prezidenti təcrübəli başçı kimi millətçiliyin qəti əleyhinədir. Millətçiliyin xarakterik xüsusiyyəti bundadır ki, mədəni, sosial, əxlaqi motivləri özündə ehtiva etməklə yanaşı özünün niyyətlərinə müəyyən rasionallıq kəsb etdirməyə çalışsa da, əslində söykəndiyi dəyərləri təhrif edir, özünün irrasional təbiətini büruzə vermiş olur. «Kommunizmin son fazası» (A.Mixnik) olan millətçilik çoxçalarlı anlayış kimi konkret tarixi şəraitdə, konkret milli konteksə şəxsiyyətin milli ləyaqətini qorumaq, milli dilin özünü təsdiqi kimi başa düşülür. Daha geniş mənada isə, milli mənafeləri müdafiə etmək, milli ədalət



prinsipini həyata keçirmək vasitəsi olaraq qəbul edilmişdir. Təəssüf ki, müasir elmi ədəbiyyatda və siyasi publisistikada millətçiliyin milli təkəbbürlük, eləcə də milliliyi dini fanatizm ilə eyniləşdirmək cəhdlərinə rast gəlinir, az qala vətənpərvərlik kimi şərh olunur. Halbuki vətənpərvərlik eqoist maraqları deyil, vətənin, xalqın, bütövlükdə cəmiyyətin mənafelərinə üstünlük verməklə ictimai şüurun konkret durumunu ifadə edir.

Müasirlik meyarlarından yanaşılsa, vətənpərvərlik Heydər Əliyevin ictimai görüşlərində hər şeydən əvvəl real gerçəkliyin fərqli cəhətlərini özündə ehtiva edən anlayış kimi açılır, vətənpərvərlik Vətən anlayışının mahiyyəti ilə vəhdətdə götürülür. Vətənpərvərlik vətənə məhəbbət, əcdadların ənənələrinə hörmət deməkdir. Bu mənada bölünməz, vətənpərvərlik hissi ilə vətənpərvərlik şüuru bir-birilə dialektik vəhdətdə çıxış edirlər. Vətənpərvərlik şüuru özündə keyfiyyətcə yeni cəhətləri daşıyan fenomendir, beləki onun məzmununda coğrafi, sosial və mədəni mühitlə bərabər yeni keyfiyyətli dövlət quruluşunu, idarəetmə formalarını, demokratiyanın inkişaf səviyyəsini, real siyasəti ehtiva edən siyasi mühit anlayışını daşıyır. Özündə bu komponentləri daşıyan vətənpərvərlik anlayışı bütövlükdə yüksək mənəvi-əxlaqi dəyər kimi Heydər Əliyevin fəlsəfi görüşlərində milli ideyanın tərkib elementi kimi təqdim olunur. Şəxsiyyətin şüurunda vətən anlayışı tədricən siyasi çalarlar kəsb etmiş, Vətən haqqında bilikləri, onun tarixi, övqatı, ənənələri, hissləri, emosiyaları, vətənpərvərlik davranışı normalarını və mülahizələri əks etdirmişdir. Məhz bu keyfiyyətlər sayəsində vətənpərvərlik şüuru inteqral mənəvi fenomen kimi çıxış edir, vətənin müdafiəsi kimi anlayışın məzmununu müəyyənləşdirir. Vətənpərvərlik şüuru özü müstəqil siyasi-əxlaqi dəyər olmaqla Vətənin sosial dəyərlərinə münasibətdə müəyyən meyar rolunu oynayır, şəxsiyyətin ətraf hadisələrə dəyər yönümlərini formalaşdırır.

Heydər Əliyev vətənpərvərlik fəaliyyəti deyərkən onu Vətənin, milli varlığın, mütərəqqi inkişafın, xarici və daxili

düşmənlərdən müdafiəsi naminə mübarizə aparan şəxsiyyətin, vətəndaşların fəaliyyəti kimi təqdim edir.

Lakin Heydər Əliyev fəlsəfəsində yeni mentalitetin formalaşmasında ən dəyərli metodoloji yanaşmalardan biri kimi gənclərin vətənpərvərlik ruhunda tərbiyə etməyin yolllarını göstərməsidir. Önəmli cəhət budur ki, ölkə prezidenti müasir gənclərdə, xüsusilə tələbələrdə vətənpərvərlik şüurunun tərbiyəsi məsələlərinin müasir vəziyyətini yaxşı bilir. Həqiqətən də bugünkü Azərbaycanın ictimai inkişafının durumu elə vəziyyətdədir ki, hazırki dünyagörüşümüzü Vətən anlayışı, Vətənə sevgi və məhəbbət hissi olmadan təsəvvür etmək, sadəcə, mümkün deyildir. Sarsıntılı sınaqlar keçirən xalqımız milli dirçəlişə, siyasi həyatının dönüşlü mərhələsində, milli yetkinlik çağında labüd olaraq vətənpərvərlik şüurunun saflaşdırılmasına dərin ehtiyac duyur. Belə bir sosial tələbatın bu gün ön plana çəkilməsini təsadüfi hesab etmək düzgün olmazdı. Uzun illər boyu totalitar rejim şəraitində ideoloji təbliğatın aparıcı istiqaməti SSRİ-ni bu ərazidə yaşayan bütün xalqlar və millətlər üçün yeganə Vətən kimi təbliğ etmək olmuşdur. Hər bir millətin özünəməxsus xüsusiyyətləri tam nəzərə alınmır, beynəlmiləl dəyərlərə üstünlük verilmirdi. Bu ağır və ziddiyyətli irsin mahiyyəti bunda idi ki, xalqımız əsl vətənpərvərliyin formalaşması üçün ümdə şərtlər olan arzu ediləcək səviyyədə milli qürur hissi və ləyaqət, tarixi yaddaş, milli adət və ənənələri, lazımi hörmət kimi hissləri qoruyub saxlaya bilmirdi. Lakin hazırda xalqımızın tarixi taleyi lazımi imkanlar açdığından təcrübəli dövlət başçısı Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində tarixi-siyasi əhəmiyyət kəsb edən vəzifələri yerinə yetirir: ölkəni iqtisadi çətinliklərdən çıxarmaq, yoxsulluğu aradan qaldırmaq, müxənnət qonşularımızın zəbt etdikləri torpaqları geri almaq məhz bu qəbildən olan taleyüklü məsələlərdir. Məhz ümummilli lider Heydər Əliyevin ətrafında birləşməyin nəticəsidir ki, xalqımız bütün səylərini, intellektual potensialını səfərbər edərək vətənpərvərcəsinə Vətənin bütün sağlam, demokratik ovqatlı və əqidəli qüvvələri həmin taleyüklü vəzifələrin həllinə nail olmağa istiqamətləndirir.



Lakin təəssüflə qeyd etmək lazım gəlir ki, ölkənin cahanşümul, taleyüklü problemlərinin həllinə bütün xalqın sosial-intellektual enerjisinin səfərbər olunduğu bir vaxtda cəmiyyətdə bəzi destruktiv qüvvələr, onların yanlış düşüncələrinin əsirliyində olan digər ünsürlər Vətənin belə mürrəkkəb vəziyyətində vətənpərvərlik əzmkarlığı nümayiş etdirməkdənsə, ətrafda baş verən pozitiv dəyişikliklərə, Vətənin taleyinə psixoloji biganəlik münasibəti bəsləyirlər. Və buna görə də Heydər Əliyevin çıxışlarında belə sağlam əxlaqi ideya aşılanır ki, vətənpərvərlik hərəkatının gücü və qüdrəti xeyli dərəcədə bu cür biganəlik əhval-ruhiyyəsinə son qoymaqdadır. Kütlələrə belə bir düşüncə aşılanmalıdır ki, dövlət və millət olduqca vətənpərvərlik də cəmiyyətdə birləşdirici ideya olaraq yaşayacaqdır. Bu ideyanı nüfuzdan salmaq və inkar etmək labüd olaraq ümumi inamsızlığa, milli ənənələrin inkarına, vətənin taleyi üçün məsülliyyət hissinin itirilməsinə gətirib çıxaracaqdır. Onu da qeyd etmək gərəkdir ki, tez-tez leksikonda «Vətən», «millət» anlayışlarını işlətmək hələ əsl vətənpərvərlikdən xəbər vermir. Hegel vətənpərvərlik barədə yaxşı deyirdi: «Vətənpərvərlik sözü altında çox zaman yalnız fövqəladə qurban verməyi və davranışları başa düşürlər. Amma, əslində, o, elə bir övqatdır ki, adi vəziyyətdə və adi həyat şəraitində dövləti substansional əsas və məqsəd kimi başa düşür... Bu övqat, ümumiyyətlə, etimaddır, mənim substansional və xüsusi marağımın başqasında, yəni dövlətdə yerləşdiyini başa düşməkdir» (Философия права. С. 292). Heydər Əliyevin vətən amalı ideyasını dərk etməyə çalışanlar bilməlidirlər ki, Vətənə məhəbbət hissi bəlağət sevmir, Vətən amalının daşıyıcısı olan hər bir kəs Vətənə sədaqətini onun çiçəklənməsi naminə göstərdiyi konkret fəaliyyəti ilə nümayiş etdirməlidir. Müdrik dövlət başçısı Heydər Əliyevin vətənpərvərlik fəaliyyətində konkretlik meyarı bundadır ki, onun sözü ilə işi arasında vəhdətlik vardır. Onun Vətən amalı ideyasını xarakterizə edən budur ki, məhz sözlə işin vəhdətini başlıca əxlaqi meyar seçməklə vətənpərvərlik hissinə sahib olmaq mümkündür, yalnız bunun sayəsində vətənin

bütövlüyünü təmin etmək, xalqı böyük məqsədlərə və ideyallara ruhlandırmaq, öz ardınca aparmaq mümkündür.

Azərbaycan gəncliyini milli inkişafın potensial qüvvəsi hesab edən Heydər Əliyev yeni müstəqil dövlət quruculuğunda onların cəmiyyətimizin bütün iqtisadi, ictimai-siyasi və mədəni həyatında önəmli yer tutmasını xüsusi vurğulayır. Gənclərin sosial maraqlarını bilmək və nəzərə almaq, onlardan istifadə etmək vətənpərvərlik şüurunun inkişafında mühüm amillərdir. Heydər Əliyevin Azərbaycan gəncliyi barədə göstərdiyi qayğı belə bir problemin həllini də vacib edir: bu gün vətənpərvərlik tərbiyəsinin xüsusi aktuallıq kəsb etdiyi bir vaxtda ölkədə gənclər və onların yeni təfəkkür ruhunda formalaşdırılması naminə xüsusi sosioloji xidmət sahəsini daha da gücləndirmək son dərəcə vacib, dövlət əhəmiyyətli işdir. Bu kontekstdə Azərbaycan xalqının milli vətənpərvərlik qaynaqlarının dərindən və hərtərəfli öyrənilməsi Azərbaycanın siyasi müstəqilliyini möhkəmlətmək və iqtisadi suverenliyini inkişaf etdirmək naminə görülən müqəddəs işdir.

Ölkə Prezidenti gənclərin məfkurəsində Vətən amalı idealının formalaşdırılması mövqeyindən çıxış edərək respublikanın filosof və sosioloqlarının, psixoloq və politoloqlarının aşağıdakı vəzifələrin həllinə səfərbər olunmasını məqsədəuyğun sayır: hər şeydən əvvəl tələbə-gənclərin siyasi şüurunun, siyasi mədəniyyətinin artması üçün əlverişli şərait yaratmaq lazımdır. Müasir gənclərimizdə vətənpərvərlik keyfiyyətlərini formalaşdırmaq üçün siyasi tərbiyə işinin effektliyini artırmaq, onlarda öz dünyagörüşünü inkişaf etdirmək, özünütərbiyə, ictimai əhəmiyyət kəsb edən ideyaların, normaların və prinsiplərinin mənimsənilməsinə yönəldilmiş fəallığı stimullaşdırmaq vacib sosial-psixoloji problemdir. Heydər Əliyevin nəzəri ideyalarından faydalanaraq gənclərimizin vətənpərvərlik tərbiyəsinin, sosial yetkinliyinin, mənəvi inkişafının yeni meyarlarını axtarıb tapmaq lazımdır.

**«Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. Hər bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun vətənə, xalqına,**



**ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir».**

Bu fikrin tərbiyəvi mahiyyəti bundadır ki, Heydər Əliyevin Vətən amalı konsepsiyasında vətənpərvərlik cəmiyyətdə əxlaqi vətəndaşlıq mövqeyi, ictimai fəallığın mühüm forması kimi qiymətləndirilir.

Şüurlu vətəndaş mövqeyinin mühüm ayrılmaz hissəsi Heydər Əliyevin fikrincə, gənclərin öz vətəndaşlıq borcunun nə qədər şərəfli bir iş olduğunu dərk etməsidir. Azərbaycanın milli ordusunda, silahlı qüvvələrində xidmət etmək Vətənə sədaqətin, müstəqilliyi qorumağın nümunəsidir. Ölkə Prezidentinin gənclərimizə aşıladığı müqəddəs ideya budur ki, onlar xalqımızın qəhrəmanlıq ənənələrini öyrənsinlər, azərbaycanlıların mənlik şüurunda dərin kök salmış vətən sevgisi əqidəsini mənimsəsinlər. İndiki gənclərin taleyinə qismət olan bir şərəfli vəzifə də budur ki, onlar tamamilə yeni bir şüur formasına – öz müstəqil dövlətini qoruyub çiçəkləndirmək amalında köklənmiş məfkurəyə sahib olmuşlar. Ona görə də ölkə Prezidentinin fikrincə, bu gün hər bir azərbaycanlı gənc dərk etməlidir ki, o, artıq öz vətəni, doğma torpağı, xalqı üçün öz ordusunda xidmət etməlidir. Bunun üçün isə **«Siz də Azərbaycan xalqına xidmət edərək... Vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız».** («Azərbaycan» qəzeti 28.08.2001). Hazırda hər bir azərbaycanlının milli mənlik şüurunda «Mən – milli ordu – müstəqillik» anlayışları yeni təfəkkürün mental xüsusiyyətlərinə çevrilməli, dövlətimizin qüdrətinin artırılması naminə vətəndaşlıq fəaliyyətində psixoloji stimul rolunu oynamalıdır. Buna görə də ölkə Prezidentinin soydaşlarımızın vətəndaşlıq mövqeyini müəyyənləşdirməyə yönəlmiş bu sözləri mühüm aktuallıq kəsb edir: **«Azərbaycan gəncliyinin qarşısında duran ən birinci, ən ümdə vəzifə ordu ilə əlaqəni**

**möhkəmləndirmək, orduda xidmət etmək, orduya diqqət, qayğı yetirmək, ordunun hörmətini qaldırmaqdır. Orduda, Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hər bir kəs cəmiyyətimizin ən hörmətli, ən mötəbər adamı olmalıdır».** Heydər Əliyevin bu müdrik ifadəsinə psixoloji təhlil meyarları mövqeyindən yanaşsaq, burada hər bir azərbaycanlının milli mənlik şüurunda orduya yalnız cəmiyyətimizin ən mühüm sosial institutu kimi münasibət deyil, həm də hər şeydən əvvəl, ordunun ləyaqət və nüfuzunu yüksəldən şəxsiyyətin ləyaqətinə dərin hörmət bildirilir. Ordu isə öz növbəsində Vətənimizin milli varlığının və şərəfinin yüksək simvolu kimi qiymətləndirilir. Ordunun nüfuzu Vətənin şərəfi ilə, nüfuzu ilə ölçülür. Heydər Əliyevin Vətən amalı konsepsiyasında bu qayə yüksək tərbiyəvi əhəmiyyət kəsb edir, xalqın mənlik şüurunun, mentalitetinin yeniləşməsində önəmli rol oynayır.

El arasında belə bir müdrik deyim var: «Çörək bol olarsa, basılmaz Vətən». Lakin biz elə bir burulğanlı əsrdə yaşayırıq ki, Vətənin «çörəyi də, suyu da» cəmiyyətimizin insan potensialından, milli inkişafımızın tükənməz resursu olan gənclərimizin intellektual imkanlarının səmərəli reallaşmasından asılıdır. Bununla bağlı Heydər Əliyevin gənclərə verdiyi bu müdrik öyüdü necə də qiymətləndirməyəsən: «Gənclik günlərindən, aylarından, gənclik illərindən səmərəli istifadə edin, boş yerə vaxt sərf etməyin, yaxşı oxuyun, yaxşı təhsil alın, özünüzü həyata, əmək fəaliyyətinə, gələcəyə yaxşı hazırlayın».

Tarix boyu ən dəhşətli müharibələr görmüş bəşəriyyətin çıxardığı nəsihətamiz nəticə bundan ibarətdir ki, dövlətin sağlamlığı dinc dövrdən daha çox müharibələrdə üzə çıxır. Bu həqiqətin müstəqil Azərbaycanın reallıqları üçün müstəsna əhəmiyyətini ölkə başçısının ordu quruculuğu məsələləri ilə bağlı çıxışlarından, onun güclü və intizamlı ordu yaratmanın vacibliyini aşılayan söhbətlərindən çox aydın görmək olar. Qarabağ konfliktinin törətdiyi ədalətsiz müharibə, daxildə dövlət çevrilişinə edilən cəhdlər o dövrdə azərbaycanlıların öz Vətəninin gələcəyi üçün dərindən düşünüb daşınmağa vadar



etmişdi. Yaranmış vəziyyətə, hadisələrə çevik və operativ şəkildə refleksiya verən dövlət başçısının mətin iradəsi sayəsində 1995-ci ilin ortalarında Azərbaycan dövləti bütün qeyri-qanuni silahlı dəstələrin törətdiyi təhlükədən xilas oldu. Xalq onu şok vəziyyətinə salan hadisələrdən nəticə çıxardı, o andan başlayaraq öz Prezidentinin ətrafında daha sıx birləşdi, müstəqilliyinin möhkəmləndirilməsi kimi taleyüklü vəzifəni inamla həyata keçirməyə başladı. Daxili iğtişaşlara vaxtında və qətiyyətlə son qoyulsa da, həm Prezident, həm də xalq güclü milli ordunun yaradılmasının zəruriliyinə bir daha əmin oldu. O, sarsılmaz ordunun milli ləyaqət və şərəf işi olduğunu, övladlarının güclü ordu sıralarında qəlbən xidmət etməsinin vacibliyinə bütün varlığı ilə inandırır. **«Əgər Azərbaycanın oğulları, Azərbaycanın yetirmələri başqa bir ölkədə Sovet ordusunun tərkibində vuruşa bilirdilərsə, qəhrəmanlıq nümunəsi göstərə bilirdilərsə, deməli, onlar öz torpaqlarını daha cəsarətlə, ürəklə qoruya bilər və torpaqlarımız uğrunda döyüşə bilərlər»** - Heydər Əliyevin Əfqanıstan müharibəsində iştirak etmiş keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşündə söylədiyi bu düşündürücü fikir ölkəmizin müharibə vəziyyətində olduğu bir şəraitdə gənclərimizi son dərəcə ruhlandırmışdı. Bəzən siyasətçinin konkret anda və vaxtında təsirli ideya irəli sürməsi cəmiyyətin bütün təbəqələrində olan qüvvələri daha sıx birləşdirməyə səfərbər edir. Ölkə başçısının vətənpərvərcəsinə söylədiyi bu fikir sanki bütün soydaşlarımızın düşüncəsində mövcud məqamın həqiqətini açdı, onları Vətən, ləyaqət, şərəf kimi milli təfəkkürün dərin qatlarında tarixən təşəkkül tapmış dəyərləri, milli məsuliyyət hissini oyatdı, sınaq illərinə hazır olmağı bir daha düşüncələrə çatdırdı. Bu o demək idi ki, Prezident Heydər Əliyev xalqımızın həm qəhrəmanlıq, həm döyüşkənlik, həm intellektual potensialına müraciət edir, ölkə əhalisini fəallığa səsləyir. O bu ağır illərdə emosional çıxış edən ziyalılarımıza üzünü tutaraq bildirirdi ki, ah-vay etməkdənsə, baş vermiş məsələlərə subyektiv, özü bildiyi qiyməti verməkdənsə, **«gedib hər bir**

**cəbhə bölgəsində, ordu hissəsində adamların əhval-ruhiyyəsini, vətənpərvərlik hissini qaldırsa, müdafiə qüvvələrinin möhkəmləndirilməsində iştirak etdiklərini göstərə bilərlər».** Həqiqətən də, İkinci dünya müharibəsinin ən gərgin çağlarında ziyalılarımız, yazıçılar, mədəniyyət xadimləri döyüşçülərimizin vətənpərvərlik əzmini artırmaq, bütün vətəndaşlarda Vətənə haqq işinə inam ruhunu yüksəltmək üçün cəbhə xəttinə gedərək azərbaycanlı zabit və əsgərləri xalqın qələbə ümüdünü doğrultmağa çağırırdılar. Prezidentin başçılıq etdiyi xalq inanmışdı ki, **«bütün imkanlardan istifadə edərək Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmağa bizim imkanımız var... bir sözlə, vəziyyət ağırdır, gərgindir. Ancaq bu o demək deyildir ki, biz vəziyyəti çıxılmaz hesab edirik».**

Həmin dövrdə Heydər Əliyevin siyasi müdrikliyinin bir tərbiyəvi təzahürü də bu idi ki, o, xalqımıza vətənpərvərlik kimi ülvi keyfiyyəti milli şüurumuzun önəmli mental cəhəti kimi təlqin edir, xalqa milli ruhunu daim nikbin saxlamağı dönə-dönə tövsiyə edirdi, milli ruh düşkünlüyünə səbəb ola bilən hər cür ideya və zorakı təxribatların qarşısını vaxtında qətiyyətlə alınmasının sosial psixoloji əhəmiyyətini inandırıcı surətdə aşılayırdı. Xalqın ruhu daim gümrah və nikbin olmalıdır, çünki müstəqil dövlətçiliyini yalnız gələcəyinə inamla baxan xalq möhkəmlədə bilər. Təsadüfi deyildir ki, Hegel dövləti xalqın ruhu hesab etmişdir. Bu mənada «müəyyən xalqın dövlət quruluşu onun xarakterindən və milli mənlik şüurunun inkişafından asılıdır: xalqın subyektiv azadlığı, deməli, dövlət quruculuğunun gerçəkliyi bundan ibarətdir (Гегель. Философия права. С. 315). Beləliklə, xalq dövlətini qurmaqla özünü azadlıqda reallaşdırır, milli mənlik şüurunu təsdiq edir.

Xalqının vətənpərvər övladı Heydər Əliyevin öz xalqına aşıladığı müdrik fəlsəfə bundan ibarətdir: azadlığının real təcəssümünü öz müstəqil dövlətində tapmış azərbaycanlılar məhz azad olduqları üçün gələcəyinə nikbin baxmalıdırlar. Unudulmamalıdır ki, Azərbaycan adlanan müstəqil ölkənin hər



bir vətəndaşı özünü əsl azərbaycanlı hiss etməli, azərbaycanlılara məxsus mənlik şüuru ilə hərəkət etməlidir.

Heç də təsadüfi deyildir ki, Heydər Əliyev müstəqilliyini əldə etmiş soydaşlarımızın mənlik ruhunun saxlanmasında, onların dünya sivilizasiyasında bir millət kimi özünütəsdiqində azərbaycançılıq ideologiyasına xüsusi diqqət yetirmiş, indi də bu amilin milli-siyasi xarakterini və əhəmiyyətini uca tutmaqdadır.

Mentalitet milli xarakterin başlıca təzahürü olduğundan onun tarixi inkişaf mərhələləri və mahiyyəti təbii zərurət sahəsinə daxildir. Yəni ictimai şüurun yaranması və inkişafı tarixi zərurət olduğu kimi, millətin də şüuru və mentaliteti onun sosiomədəni formalaşma mərhələlərini əks etdirir, labüd olaraq praktikada insani münasibətlərdə üzə çıxır. Ona görə də xalqın millətə çevrilməsi üçün zəruri olan tarixi keçid mərhələləri vacib şərtlər olub şüurun və mentalitetin məzmununu tarixi ideyalarla zənginləşdirir. Heydər Əliyevin fəlsəfəsində azərbaycançılıq ideologiyasının başlıca qayəsindən söhbət açmazdan öncə göstərmək istərdik ki, Azərbaycanlılar, onların şüuru, xarakteri də özlərinə məxsus tarixi inkişaf mərhələləri keçmişdir. Tarixilik baxımından yanaşsaq, deməliyik ki, azərbaycançılıq ideologiyasının ən mühüm ideyalarını «Kitabi-Dədə Qorqud» eposunda, xalqımızın milli mifoloji təsəvvürlərində izləmək mümkündür. Təbii ki, biz azərbaycanlıların dərin etnomədəni, tarixi-siyasi kökləri barədə ətraflı söhbət açmaq niyyətində deyilik, məqsədimiz Heydər Əliyevin ictimai-siyasi görüşlərində azərbaycançılıq ideologiyasının önəmli yer tutmasından bəhs etməkdir. Lakin ən qısa şəkildə qeyd etmək istərdik ki, Azərbaycan etnosunun formalaşmasında hun-qıpçaq türklərinin psixologiya və mentalitetinin yayılması (I mərhələ), oğuz türklərinin sosiomədəni dəyərlərin yayılması (II mərhələ) aparıcı rol oynamışdır, Azərbaycanda yaşayan qeyri-türk mənşəli xalqlar yalnız Azərbaycan türkcəsi deyil, həmçinin Azərbaycan türklərinin tarixi birləşdiricilik ideyası əsasında ünsiyyətə girərək müəyyən tarixi zaman kəsiyində Azərbaycan xalqını, Azərbaycan cəmiyyətini yaratmışlar. Bu təkamül və

təkmilləşmə prosesi zamanın uzun sosiomədəni keyfiyyət dəyişiliklərinə məruz qalaraq bu gün azərbaycanlıların bir millət kimi dünya sivilizasiyasında özünəlayiq yer tutması barədə düşüncəsini əsaslandırmağa obyektiv əsas vermişdir.

Vaxtilə siyasi oyanışın, milli mənlik şüurunun yeni müasir keyfiyyətdə formalaşdığı dövrdə Əlimərdan bəy Topçubaşov yazırdı: «Hər bir kəs başa düşürdü ki, bu ülvi ideyların (vətəndaşlıq, dini və siyasi azadlıq idealları – müəll.) dərin mənasını dərk etmək üçün ilk növbədə özünü, öz millətini və bölgəsinin tarixini başa düşməli, cari hadisələrin içərisində olmalı, millətin müasir tələbatlarını, görüşlərini və ideyalarını bilməli, bir sözlə, millətin fərdiyyətliyi, necə deyərlər, öz milli siması olmalıdır». Onu da qeyd edək ki, görkəmli ziyalı şəxsiyyətimiz Y.V.Çəmənzəmənli 1918-1919-cu illərdə yazdığı «Xarici siyasətimiz», «Milli və mədəni işlərimiz», «Biz kimik və istədiyimiz nədir» əsərlərində azərbaycançılıq ideologiyasının formalaşması üçün mühüm obyektiv sosial-siyasi amillər olan Vətən, millət və milli dövlət anlayışlarını vəhdətdə götürürdü. Odur ki, tarixən Azərbaycan xalqının mentalitetində bu anlayışlar sintez şəklində həkk olunaraq milli bütövlük anlayışının təkamülündə mühüm rol oynamışdır.

Lakin mübaliğəsiz demək olar ki, milli bütövlüyün təcəssümü olan azərbaycançılıq məhz Heydər Əliyevin ikinci qayıdışından sonra bir milli ideologiya kimi formalaşmağa başlamış, müstəqilliyimizin möhkəmləndirilməsində səfərbəredici fenomenə çevrilmişdir.

Heydər Əliyevin ictimai-siyasi görüşlərində işlənib hazırlanmış, ölkə əhalisinin rəğbətlə qarşıladığı azərbaycançılıq Vətən amalının milli dərki kimi təqdim edilir. Biz yuxarıda ölkə Prezidentinin Vətən amalı konsepsiyası üzərində geniş dayanmışıq. Bununla belə, demək lazımdır ki, Heydər Əliyevin təsəvvüründə müasir sosial inkişaf prosesində azərbaycançılıq ideologiyası milli-mənəvi sərvətlərimiz sistemində ən önəmli yer tutur və mübaliğəsiz demək olar ki, müstəqilliyin möhkəmlənməsi əqidəsində olan bütün azərbaycanlıların milli ideologiyası kimi funksional əhəmiyyət daşıyır. Ölkə Prezidenti



açıqca yazır: **«Əgər muxalifətdə olan qüvvələr Azərbaycanın müstəqilliyini qorumaq tərəfdarıdırlarsa, deməli, burada fikir müxtəlifliyi yoxdur. Bizim ideologiyamızın əsası budur».** Başqa sözlə, Heydər Əliyevin vətənçiliklə sıx bağlı olan azərbaycançılıq ideyası müharibə gedən bir ölkədə iqtidar-müxalifət qarşıdurmasının qəti pislənməsinə yönəlmişdir, çünki Heydər Əliyevin ikinci qayıdışının ilk günlərindən Azərbaycanı müharibə vəziyyətindən çıxarmaq üçün millət qarşısında bütün qüvvələri birləşdirmək vəzifəsini qoymuşdu. Tale onu millətin çox ağır günlərində Azərbaycana məhz bu müqəddəs vəzifəni yerinə yetirmək üçün gətirmişdi, çünki hakimiyyət sükanının ona etibar edildiyi həmin dövrdə çətinlik təkcə Ermənistanın Azərbaycana xain hücumu nəticəsində torpaqlarımızı işğal etməsi ilə deyil, habelə milli düşüncə baxımından daha ağrılı vəziyyətlə-daxili müxənnət qüvvələrin Azərbaycan dövlətçiliyinə qarşı cəhdləri ilə bağlı idi. Heç bir dövlətçilik səriştəsi və təcrübəsi olmayan, marginal dünyagörüşlü qüvvələr hər vasitə ilə vəzifə davası edir, zorakılıqla hakimiyyətə gəlmək istəyirdilər. Məhz belə dağıdıcı fəaliyyətə respublikada son qoymaq üçün xalq tarixi müdriklik nümayiş etdirərək öz qeyrətli oğlunu müsibətlərə düçar olmuş Bakıya dəvət etdi.

Ölkədəki reallıqları dərin analitik təhlil edən böyük siyasətçi başa düşürdü ki, «azərbaycanlının Azərbaycandan başqa Vətəni yoxdur» əqidəsini azərbaycançılıq ideyasının məhək daşı kimi dərk edilməsi üçün hər şeydən əvvəl bu ideologiyanın əsas struktur komponentlərindən olan milli dövlətçilik düşüncəsini aşılamaqdır, milli şüurda bu inamı möhkəmlətməkdir, Abbas Səhhətin «Vətən övladımızın məskənidir» poetikasını soydaşlarımızın təfəkkürünün amalına, düşüncə qayəsinə çevirməkdir.

Heydər Əliyevin azərbaycançılıq nəzəriyyəsinin mühüm metodoloji əhəmiyyəti bundadır ki, o, tarixi varislik prinsipindən yaradıcılıqla istifadə edir, bunun milli məfkurəmizin, düşüncə tərzimizin, millətin irsində vətənçilik ideologiyasının

sosiomədəni dəyərlərinin formalaşmasının mənbəyi hesab edir, dövlətçiliyimizin yaranması prosesində bütün tarixi mərhələləri elmi-obyektiv qiymətləndirir, Azərbaycan maarifçilik fəlsəfəsinin azadlıq və müstəqillik barədə ideyalarının mühüm əhəmiyyətini göstərir. O, tarixi varislik prinsipini rəhbər tutaraq tamamilə haqlı olaraq yazır ki, XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzminin kökləri uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır». Daha önəmli cəhət budur ki, o, Azərbaycanın görkəmli şəxsiyyətlərinin müstəqillik ideyalarını nəinki layiqincə qiymətləndirir, həmçinin bu düha sahiblərinin elmi müddəalarını tarixi kontekstdə vəhdətdə götürür, dialektik metoda əsaslanaraq tarixi şəxsiyyəti öz sosiomədəni mühitindən ayırmır.

Bu cəhətdən maraqlıdır ki, Heydər Əliyev 1872-ci ildə çar hökümətinin sərəncamı ilə neft üzərində icəradarlıq sisteminin ləğv olunmasına milli inkişaf baxımından yanaşır. İlk baxışda belə bir fakt təəccüb doğura bilər: bu sərəncamın dövlətçiliklə məntiqi əlaqəsi varmı? Gəlin, bu fikrə aydınlıq gətirək. Məlum olduğu kimi, adı çəkilən sərəncamdan sonra Bakıya güclü xarici kapital axını başlamış, ölkəmizdə kapitalizmin inkişafı üçün tarixi imkanlar açılmışdır. 1883-cü ildə Zaqafqaziya dəmir yolunun açılması ilə Azərbaycanın Rusiya və Avropa ölkələri ilə əlaqələri daha da genişlənmiş və nəhayət, 1896-1906-cı illərdə Bakı-Batumi neft kəmərinin işə düşməsi ilə Bakı nefti dünya bazarına çıxarılmağa başlamışdır. Məhz Bakı nefti sayəsində Rusiya neft hasilatına görə dünyada birinci yerə çıxırdı, iri sənaye şəhəri kimi Bakı isə bütün Qafqazın iqtisadi mərkəzinə çevrilmiş, Azərbaycanın paytaxtı kapitalizmin inkişaf etmiş şəhələrindən biri olmuşdur.

Lakin bu proseslərin sosiomədəni nəticələri isə milli inkişafımız kontekstində heç də az əhəmiyyət kəsb etmir. Məsələ burasındadır ki, tarixən dövlətlər və xalqlar arasında iqtisadi əlaqələr mədəni-siyasi münasibətlərin yaranmasına, xalqların milli identifikasiyasının təzahürünə geniş imkanlar



açmışdır. Qərbi Avropada gedən ictimai-siyasi proseslərin məcrasında yetişən mütərəqqi ideyalar Rusiya vasitəsilə, eləcə də Avropanın nüfuzlu universitetlərində təhsil alan ilk ziyalılarımızın əsərləri ilə Azərbaycana da yayılırdı. Məsələn, M.F.Axundovun, sonralar Əhməd Ağaoğlunun və digər önəmli maarifçilərin Fransa burjua inqilabı haqqında düşüncələrində millət və milli vətən azadlığı ideyalarının üstünlük təşkil etməsi Azərbaycanda yalnız dövlətçilik deyil, həm də vətənçilik nəzəriyyəsinin inkişafı üçün örnək olmuşdur. Heydər Əliyev bu təsirin sosial mahiyyətini düzgün qimətləndirərək qeyd edir ki, **«XIX əsrin sonu-XX əsrin əvvəlləri dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində öz təsirini göstərmişidir».** Şübhəsiz ki, həmin dövrdə Azərbaycan xalqının dünyagörüşündə, mənlik şüurunda həmin hadisələr barədə düşüncələr az təsir göstərməmişdir. Milli mətbuatda şərhini tapan maarifçilik ideyalarında milli dövlətçilik haqqında düşüncələr, ziyalıların məfkurəsində dövlətçilik fikirləri üstünlük təşkil edirdi. Məhz milli dövlətçilik ideyalarının tarixi xidmətidir ki, Azərbaycanda XX əsrin əvvəllərində yaranmış partiyaların (təməyülündən asılı olmayaraq) proqramlarında müxtəlif variantlarda dövlətçilik və Vətən idealı məsələləri qoyulurdu. Və nəhayət, əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Xalq Cümhiriyyətinin varisi olan Azərbaycan dövlətçiliyinin inkişafı üçün ziyalılarımız Sovet dövründə bütün siyasi ideoloji qadağalara baxmayaraq, bu siyasi irsin müəyyən dəyərlərini qoruyub saxlaya bildilər.

Unutmayaq ki, 1920-1991-ci illərdə azərbaycançılıq ideyası barədə legitim mülahizələr irəli sürülməsə də, bu dövrdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyətinin keçdiyi yol milli azadlıq ideyalarının şüurlarda tədrici təkamülü prosesi olmuşdur. Ədalət naminə deyilməlidir ki, 70 illik sovet dövründə rəsmi ideologiyanın hökmranlığına baxmayaraq, elmlərin inkişafı xalqımızın intellektual səviyyəsinin artmasını təmin etmiş, vətənçilik ideyalarının legitim aşkarlanması yolunda maneələrə məhəl qoymadan

zəhmətkeşlərin sosial-siyasi həyatında böyük dəyişiliklər baş vermişdir. Müasir Avropa tipli teatr, məktəb və demokratik mətbuatın yaranması, ölkə Prezidentinin obyektiv qiymətləndirdiyi kimi, məhz bu 70 ildə Azərbaycanda savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tədbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkələri yaranmış, Elmlər Akademiyası formalaşmışdır. Bununla yanaşı, musiqi təhsilimizin ali ocağı konservatoriyanın (hazırda Musiqi Akademiyası) yaranması və kino sənətinin formalaşması, çoxlu sayda qəzetlərin çıxması Azərbaycan elminin güclü inkişafını təmin etmiş azərbaycanlıların bir millət kimi dünya miqyasında tanınmasında müstəsna rol oynamışdır. Bütün bu sosial yeniliklər bütövlükdə xalqın düşüncə tərzində özünü göstərməyə bilməzdi.

Lakin həmin dövrdə azərbaycan xalqının mənliyi üçün sarsıntılı illər də olmuşdur. Sovet dövründə qazanılan uğurlara nihilist münasibət, varislik prinsipinin Vətənin inkişafı üçün əhəmiyyətini dərk etməyən, keçmişin dövlətçilik təcrübəsinin rasional elementlərindən istifadə etmək qabiliyyəti olmayan cəbhəçilərin kəmsavad rəhbərliyi ucbatından yaranmış hərc-mərclik bütün milli nailiyyətləri heçə endirdi. Üstəlik də, bədnam qonşularımızın bizi düçar etdikləri Qarabağ faciəsi Vətənin və deməli, milli varlığımız üçün sınaq olsa da, irəliləyişimizi xeyli geri atdı, azərbaycanlıların sosial dinc quruculuq işlərinə dəhşətli dərəcədə ziyan vurdu. Həqiqətən də, Azərbaycan 1920-ci ildən SSRİ-nin tərkibində olmasına baxmayaraq, dövlətçiliyimizə vurulan ziyan heç bir digər respublikanın başına gəlməmişdir. Ölkə Prezidenti yeni 2001-ci il, əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində azərbaycanlıların başına gələn bu faciənin nəticələrini bir təcrübəli siyasətçi kimi düzgün qiymətləndirdiyi üçündür ki, yazır: **«Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm».** Etiraf edək ki, Heydər Əliyev o dövrdə Ali Sovetdə milli dövlətçiliyimizi Qarabağ problemi ilə bağlı böhrandan qurtarmaq üçün bütün qüvvələri, bütün Azərbaycan vətəndaşlarını hərtərəfli və konstruktiv bir proqram hazırlamağa çağırırdı. Lakin kar və kor qüvvələr müdrik həyat yolu keçmiş bir insanın, zəngin dövlətçilik təcrübəsi olan siyasətçinin öyüd və nəsihətlərinə məhəl qoymadılar. Vətəni hərcmərclik girdabına sürüklədilər. Təbii ki, burada Qarabağ konfliktinin kökü və sosial-siyasi səbəbləri barədə çox danışmaq olar. Ölkə Prezidentinin istər respublikamızda, istərsə də xarici səfərlərdə olarkən elə bir çıxışı yoxdur ki, o, Qarabağ faciəsindən bəhs etməsin, onun genezisi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə açıqlamasın. Qarabağ regionunun harada yerləşməsini bilməyən siyasətçilərə «xəritə effekti» ilə təsir etməsi dünya birliyində, sıravi insanların təsəvvüründə necə təsir göstərdiyini bu gün hamımız bilirik. Heydər Əliyevin xarici siyasət strategiyasının bir amalı var: Azərbaycan dövlətçiliyini sülhsevər xalqı ilə birlikdə tanıtmaq, azərbaycanlıların mənlik şüurunu dünya sivilizasiyası ilə yaxından qovuşdurmaq. Bu baxımdan hərcmərclik dövrünü, «cəbhəçilər erasını» ürəkağrısı ilə xatırlayan ölkə Prezidenti yazırdı: **O, dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdə idi.** Yeni geosiyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi. Yenidənqurmanı dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alınan Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli proqram yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi». Bu, həqiqətən, böyük və təcrübəli siyasətçi iradıdır. Xalqın, bütün azərbaycanlıların milli şüurunun inkişafı üçün ziyalıların gördükləri intellektual-zehni potensiala biganə qalmaq, onları «kommunist təfəkkürünə qapılmasında» günahlandırmaqla, əslində, Azərbaycanın müstəqillik imicinə, Vətənçilik ideyasına

ölçüyə gəlməz ziyan vurdular, azərbaycanlıların milli mənlik şüurunu zədələmiş oldular, əslində, «mənfi azərbaycanlı obrazını» yaradan erməni separatistlərinin əlinə «dövlətçilik üçün hazır olmayan xalq» kartını verdilər.

Tarixi xoşbəxtlikdir ki, Heydər Əliyevin müdrik dövlətçilik siyasəti sayəsində azərbaycanlıların üzərindən bu «qara damğa» nəinki götürüldü, əksinə, xalqımız dünya birliyində öz layiqli yerini tuta bildi, Azərbaycan adlı Vətəni tanıdılar. Ölkəmizin müstəqillik tarixinin ən ağır illərində dünya birliyində qısa bir müddətdə yüksək siyasi imic qazanmaq yalnız Heydər Əliyev zəkasının sayəsində mümkün oldu.

Hazırda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolunda çalışan bütün xalq, bütün azərbaycanlılar Prezident ətrafında sıx birləşərək öz talelərini müstəqil həll edirlər. Bu gün Heydər Əliyevin rəhbərlik etdiyi suveren Azərbaycan sülhsevər daxili və xarici siyasət strategiyasını həyata keçirir. Hazırda bu müdrik siyasət sayəsində Azərbaycan 137 ölkə ilə diplomatik əlaqə yaratmışdır. Azərbaycanlıları artıq dünya miqyasında öz sivilizasiyasını və mədəniyyətini yaradan xalq kimi tanıyırlar, mədəni xalqların mentalitetində artıq erməni «ideoloqlarının» yaratdıqları «vəhşi azərbaycanlı obrazı» yoxdur. Sülhsevər xalqımız öz Prezidenti ətrafında birləşərək əzmlə müstəqilliyini möhkəmlətmək arzusu ilə yaşayıb yaradır, çünki «ölkəmizdə demokratik inkişaf üçün zəruri olan təsisatlar və hüquqi baza yaradılmışdır».

Hegeldə nəzəri təfəkkürü qidalandıran belə bir ifadə var: «Təbiət bizə yalnız onun məntiqində daşlaşmış ruhun cizgilərini dərk etdirir, ruh isə bir ruh kimi özü üçün başqa təbiəti yaradır, azadlıq aləmini yaradır ki, bu da dövlətdir». Ruhun ən ali reallaşması, ruhun inkişafı bu deməkdir. Həqiqətən də, xalqın ruhunun təcəssümü olan dövlət, daha doğrusu, təkmil dövlət azadlıq aləmidir, vətənçiliyin təzahürüdür, vətəndaşların dərk olunmuş azadlığının məhsuludur. Azadlığın dərk olunması fəlsəfi təfəkkürün ən böyük uğurudur, azadlıq Vətən amalının dərk edilməsidir. Azadlığını dərk edən xalq həmişə öz mənlik şüuruna və



ləyaqətinə, vətən idealına uyğun dövlət qurur. Belə bir dövlət xalqın xoşbəxtlik haqqında idealını həyata keçirir. Platon öz dövlət modelini təklif edərkən söyləyirdi: «Biz bu dövlətin əsasını yaradarkən heç də fikrimizə gətirmirik ki, əhalinin hansısa bir təbəqəsini xoşbəxt edək, əksinə, istəyirik bütün dövləti xoşbəxt edək». Onun fikrincə, ideal dövlətdə gərək hər şey gözəl olsun (Платон. Государство. 420$^{б}$ с. 229, 230). Belə dövlət əsl vətənçilik amalına cavab verən siyasi qurumdur.

Azad vətənin müdriklər tərəfindən idarə olunmasının vacibliyi hamının qəbul etdiyi həqiqətdir. Klassik alman fəlsəfəsinin nümayəndələri dövləti millətin əxlaqi substansiyası, insan mənəviyyatının keşiyində duran sosial-siyasi qurum hesab etmişlər. Bu da təbiidir ki, müasir müstəqil və azad vətən anlamı Avropada burjua inqilabları dövründə xüsusilə daha çox vüsət almışdır. Böyük Fransa inqilabının meydana gətirdiyi azadlıq ideyaları nəinki bütün Avropa mütəfəkkirlərini, hətta Avrasiya məkanında yaşayan maarifçi filosofları, həmçinin sağlam siyasi düşüncəli insanları da düşündürməyə başlamışdır. Azərbaycançılıq ideologiyasının nəzəri ideyalarının əsası, azərbaycan dövlətçilik təliminin ilk təməli də məhz həmin dövrdə qoyulmuşdur. Məsələyə daha geniş yanaşaq, azərbaycançılıq ideologiyasının pozitiv ideyaların azərbaycanlıların məfkurəsinə yol tapması XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində formalaşmış maarifçiliklə bağlı olmuşdur.

Maarifçilərin ana dilinə hədsiz məhəbbət və azərbaycanlı həssaslığı ilə yanaşması, onun saflığının qorunub saxlanması hər şeydən əvvəl tarixi yaddaşımızın itməməsi, dövlətçilik ənənələrinin dərindən öyrənilməsi, milli mənəviyyatımızın, adət-ənənərimizin yaşadılması ilə bağlı olduğundan milli mənlik şüurunun oyanmasında, azərbaycanlıların təfəkküründə dünya sivilizasiyası dəyərlərinə marağı xüsusilə artırmışdır. M.F.Axundovun Azərbaycan cəmiyyətinin latın qrafikalı əlifbaya keçmək niyyətilə apardığı mübarizə maarifçilərimizin ana dilini daha sadə əlifba ilə öyrənilməsində mühüm addım olmuşdur. Böyük Fətəlinin layihəsinin o dövrdə uğursuzluğuna

baxmayaraq, bu səmərəli toxum öz münbit torpağını məhz müstəqil Azərbaycanın öz doğma dilinə dərin məhəbbət hissində tapdı. Bu, müqəddəm şərtləri Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Hadinin, Hüseyn Cavidin, Abdulla Şaiqin, Abbas Səhhətin, Əhməd Cavadın Vətən, millət, istiqlal haqqında yazdıqları əsərlərdə, milli mentalitetimizin bariz ifadəçisi M.Ə.Sabirin milli inkişafımıza mane olan qüsurları qamçılayan şerlərində, XX əsrin əvvəlində 25 il ərzində xalqının təfəkkürünün saflığı, milli varlığının zənginləşməsi naminə mübarizə aparan Mirzə Cəlilin «Molla Nəsrəddin»ində hazırlanmışdır. Təbii ki, fikir və düşüncə bahadırlarımız Ömər Faiq Nemənzadə, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar kimi mütəfəkkirlərimizin yazdıqları mənəviyyatımızı saflaşdıran milli ruhlu əsərləri unutmaq mümkün deyildir. Onların əsərlərində vəsf olunan Azərbaycan, onun mənəvi dəyərləri, milli varlığın məna və amalı azərbaycançılıq ideologiyasının təşəkkülündə, Vətən əxlaqının düşüncələrdə bu günə kimi yaşamasında müstəsna rol oynamaqla yanaşı, Azərbaycan Demokratik Respublikasının dövlətçilik ideyalarının fəlsəfi təməlini də yaratmışdır. Əsrin əvvəlində yaşayıb yaratmış maarifçilərimiz Azərbaycanın maarifçilik fəlsəfəsində milli ideologiyamızın təşəkkülü üçün fəlsəfi metodologiyadan elmi yaradıcılıqla istifadə etmişlər.

Təsadüfi deyildir ki, XX əsrin 80-cı illərinin sonunda vüsət tapmış milli azadlıq hərəkatının ilk günlərindən cəmiyyətin intellektual qüvvələri məhz o dövrün irsinə, xüsusilə ADR-in tarixi təcrübəsinə müraciət etmişlər. Ən başlıcası isə ona görə ki, Heydər Əliyevin məmnunluqla qeyd etdiyi kimi, o dövrdə **«Azərbaycanda müasir burjuaziya təbəqəsi formalaşıb ölkənin ictimai həyatında mühüm rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi... yeni mühitdə formalaşan görkəmli ictimai-siyasi xadimlərimiz**



**əsrin çağırışına və tələblərinə layiqincə cavab verməyə qadir oldular».**

Ölkə Prezidentinin keçmişin bir tarixi kəsimi olan, lakin milli ideologiyamızın formalaşmasında əvəzsiz rol oynayan bu dövrü layiqincə qiymətləndirməsi bunu deməyə əsas verir ki, azərbaycançılıq ideologiyasını öyrənərkən, ana dilimizin nəinki ədəbi, hətta bütün milli mədəniyyətə çevrilməsindən bəhs edərkən hər bir azərbaycanlı bu dövrün düha sahiblərinin yaratdıqları bədii, fəlsəfi və siyasi nümunələrə, xalqımızın intellektual irsini zənginləşdirmiş əsərlər kimi qəbul etməlidirlər. Vətəndən kənarda yaşayan, lakin onun qayğıları ilə alışıb yanan mühacir soydaşlarımız da azərbaycançılıq ideologiyasını öyrənərkən bu nəcib işə Azərbaycan maarifçilik fəlsəfəsinin qaynaqları, ADR-in milli dövlətçilik ideologiyası ilə dialektik vəhdətdə yanaşmalıdırlar.

Və bu gün təcrübəli dövlət başçısı Heydər Əliyevin ictimai-fəlsəfi irsini öyrənərkən onun azərbaycançılıq ideologiyasının Azərbaycanın maarifçilik fəlsəfəsi irsinin layiqli davamçısı olduğuna bir daha inanırsan. Əmin olursan ki, bu böyük insan ömrünün ən parlaq dövrünü azərbaycanlıların dünya millətləri içərisində öz imzası olmasına, azərbaycançılıq ideologiyasının təntənəsinə, müstəqil Azərbaycan dövlətinin bəşər sivilizasiyasına tanıdılmasına həsr etmişdir. Beləliklə, Heydər Əliyevin fəlsəfi görüşlərində: **«Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, dünya sivilizasiyasına inteqrasiyasından bəhrələnmək hər bir insanın inkişafının təmin olunması deməkdir»** fikri qırmızı xətt kimi keçir.

Heydər Əliyev intellekti xalq düşüncəsinin, milli təfəkkürümüzün qaynaqlarından bəhrələnən, daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinin qüdrətli fenomeni, dərin fəlsəfi düşüncələrin nəticəsi, siyasətçi şəxsiyyətinin özünütəsdiqinin vacib vasitəsidir. Heydər Əliyev təfəkkürü ətrafda baş verən ən mürəkkəb və ən ziddiyyətli sosial-siyasi hadisələrin mahiyyətinə nüfuz etmək, bunlara vaxtında və çevik reaksiya vermək qabiliyyətinin bariz nümunəsidir. Ölkə Prezidentinin dövlətçilik fəaliyyəti göstərir

ki, milli inkişaf və azərbaycançılıq siyasəti ilə bağlı mümkün potensial imkanları real gerçəklikdə yalnız əxlaqi və intellektual düşüncə gərginliyi sayəsində həyata keçirmək olar. Ola bilsin, məhz belə halda o, fəlsəfi düşüncələrə dalır, bu dəyərin təfəkkür keyfiyyətinə çevrilməsini vacib sayır, soydaşlarına mənəviyyat deyilən sərvətə yiyələnməyi tövsiyə edir. Çünki fəlsəfi düşüncələrə dalmaq, fəlsəfi fikrin nəhəngləri ilə «məsləhətləşmək» insanın intellektinin hüdudlarını genişləndirməklə yanaşı, həm də onun cəmiyyətin təlatümlü hallarında milli varlığın sağ qalmaq missiyasını əxlaqi problem kimi dərk etmək qabiliyyətini inkişaf etdirir. Fəlsəfi düşüncələrə dalmağın bir danılmaz məntiqi də budur ki, fəlsəfi intellekt varislik kateqoriyasında düşünür, fikir və ideya varisliyindən qaynaqlanır.

Bir daha qeyd edək ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimai təfəkküründə və fəlsəfi düşüncəsində belə bir elmi fikir formalaşmışdı ki, Azərbaycan dili öz mənşəyi etibarilə türk dillərindən biridir. Bu ideya özünün real təcəssümünü məhz müstəqil Azərbaycanda, məhz Heydər Əliyevin düzgün milli inkişaf strategiyasına əsaslanan dil siyasəti sayəsində olmuşdu. Milli mənlik şüurunun formalaşmasında çox önəmli, müstəsna rol oynayan bu nəcib işdə Heydər Əliyevin bu siyasətində varislik prinsipi, maarifçilik fəlsəfəsinin ideyalarını inkişaf etdirmək səyi milli təqdirəlayiq fəaliyyətidir. **«Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur»**-ölkə Prezidentinin dialektik vəhdətdə götürdüyü bu dəyərlər sistemindən göründüyü kimi, o, dil amilinə daha ciddi yer ayırır. Qədirbilən xalqının dilini bütün varlığı ilə sevən və çıxışlarından da göründüyü kimi, onun incəliklərinə dərindən bələd olan Heydər Əliyev bir çox illər ana dilimizin, Azərbaycan dilinin inkişafını buxovlayan sosial-ictimai səbəbləri dərindən bildiyindən milli həyatımızda onun xalqın istəyincə yer ala bilməmisini, heç şübhəsiz ki, ürəkağrısı ilə yaşamışdır. Və ona görə də xüsusi bir vurğu ilə söyləyir: **«Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili,** ana **dilimiz həddindən artıq əzizdir».** O, bütün çıxışlarında Azərbaycanın müstəqillik yolu ilə inkişaf etməsini,



azərbaycanlıların Vətəndə azad və müstəqil yaşamalarını qürur hissilə qeyd edir. **«İndi hər bir azərbaycanlı qürur hissi keçirə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti, mənim millətim, ölkəm vardır».** Bunu XX əsrin sonunda Azərbaycan xalqının əldə etdiyi ən yüksək nailiyyət sayan Heydər Əliyev xalqı ilə ünsiyyət bağladığı dildən böyük, əsl azərbaycanlıya xas qürur hissi keçirərək dilimizin estetikası barədə belə deyir: **«Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etmək üçün nə qədər böyük söz ehtiyatına malikdir».**

Heydər Əliyevin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixdə verdiyi fərman onun dilimizə göstərdiyi növbəti qayğının təcəssümüdür.

Milli mədəniyyətin yüksəliş səviyyəsi hər şeydən əvvəl təhsilin bütövlükdə cəmiyyətin humanistləşməsindən asılıdır. Burada isə aparıcı element xalqın, millətin sosiomədəni dəyərlərinin zəngin bazasının mahiyyətini özündə daşıyan dil mühüm amildir. Dil sosiomədəni ünsiyyət vasitəsidir. Ölkə Prezidentinin çox mənalı bir ifadəsi var: Dil ünsiyyət vasitəsidir, bu o deməkdir ki, insanlar hansı dildə danışırlarsa danışsın, təki bir-birlərini başa düşsünlər. Buna görə də Heydər Əliyevin ictimai-siyasi görüşlərində dil daha çox xalqlar arasında mədəni ünsiyyət vasitəsidir. Ümumiyyətlə, ünsiyyət mədəniyyəti xalqın mənlik şüurunun və mentalitetinin mühüm göstəricisidir. Əsrlər boyu xalqlar bir-biriləri ilə sıx əlaqələr yaratmış, bir-birilərinin dil xüsusiyyətlərini öyrənmiş, maddi və mənəvi dəyərlər mübadiləsinə girmişlər. Həmin prosesdə tədricən ünsiyyət mədəniyyəti yaranmış, müxtəlif dillər qarşılıqlı şəkildə zənginləşmişlər. Heydər Əliyev dilimizin özünəməxsusluğundan danışarkən dilimizin zənginliyini xüsusi vurğulayır. Bəlkə buna görə də, yəni Azərbaycan xalqının düşüncəsində və mentalitetində xalqlarla ünsiyyətə meyl yüksək olduğundan dili də çox zəngindir. Heç təsadüfi deyildir ki, ünsiyyət mədəniyyəti bu gün xalq diplomatiyasının ayrılmaz hissəsinə çevrilmişdir. Milli həyatın söykəndiyi mədəniyyət, milli

razılıq kimi mühüm sosial amillər ünsiyyət mədəniyyətindən asılı olsa da, hər halda, xalqın ünsiyyət mədəniyyətinin əsasında başlıca dəyər olaraq dil durur. Təsadüfi deyildir ki, xalqların keçirdiyi mədəni və ruhi böhran hallarında həmişə ilk plana dil amili çıxır.

İkinci bir tərəfdən, dil siyasətinin düzgün qurulması cəmiyyətin ümumi sabitliyinin təmin olunmasında müstəsna rol oynayır.

Heydər Əliyevin dilin ünsiyyət mədəniyyətində müstəsna rolu barədə fikirləri onun milli mədəniyyətimizin gözəl bilicisi olmasından xəbər verir. Ölkə Prezidentinin bu problem barədə fəlsəfi-etik düşüncələri Azərbaycan maarifçiliyinin mədəni cəmiyyət qurmaq haqqında ideyalarının inkişafı deməkdir. Hələ M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani və s. kimi mütəfəkkir şəxsiyyətlərimiz belə bir ideyanı əsaslandırırdılar ki, əgər ünsiyyət mədəniyyəti olmasaydı, cəmiyyət üzvlərinin əxlaqına nəzarət edə bilməz, xalqların mədəni dəyərlərinə layiqincə qiymət vermək mümkün ola bilməzdi. Onlar təkəbbürlük, lovğalıq kimi neqativ mental xüsusiyyətləri ünsiyyət mədəniyyətinin formalaşmasına mane olan cəhətlər hesab etmişlər. Deməli, insanların ünsiyyət mədəniyyəti gözəl insani keyfiyyətlərə söykənməlidir. Hələ Demokrit «Etika» əsərində göstərirdi ki, insan ədalətə, vicdana zəkanın gözəlliyi ilə vəhdətdə baxmalıdır... Xoşbəxt olmaq üçün ədalətli, ağıllı və gözəl yaşamaq lazımdır» - yunan mütəfəkkirinin bu fəlsəfi baxışı bu gün də estetik dəyərini nəinki itirmiş, əksinə, müstəqil Vətənimizin çiçəklənməsi naminə çalışan Prezidentin görüşlərində də inkişaf etdirilmişdir.

Təbii ki, Heydər Əliyevin ana dilimiz haqqında qayğısı müdrik insanın öz doğma xalqına, onun zəngin mədəniyyətinə, qədim tarixinə, mənliyinə və əqidəsinə dərin ehtiram hissindən irəli gəlir. Son nəticədə ölkə Prezidentinin dil siyasəti ilk növbədə onun müdrikliyinə ehtiram bəsləyən hər bir vətəndaşı barədə qayğıdır. Bu gün insanlarımız artıq imperiya şüurundan azaddır, öz doğma dilində sərbəst danışır, yaradır, dünya birliyinin xalqları ilə mədəni dialoqda iştirak etməyə hazır vətəndaşdır. Zəka sahibi olan insana fəlsəfi yanaşılsa, o elə bir Kainatdır ki, onunla yaranır, onunla dünyasını dəyişir. H.Heyne deyirdi ki, hər baş daşının altında bütöv dünya tarixi yatır.



Şəxsiyyətə, onun suverenliyinə hörmət edilməlidir. İnsan tarixi yaddaşını unutmamalı, lakin bütövlükdə keçmişinə qapılmamalı, daim irəliyə baxmalıdır.

Heydər Əliyevin mədəniyyətimizi, onun gövhəri olan dilimizin saflığı barədə qayğısı hər bir azərbaycanlının qarşısında vətəndaş məsuliyyəti problemini qoyur. Hər bir azərbaycanlı belə bir həqiqəti dərk etməlidir ki, Vətən amalı və azərbaycançılıq ideologiyası gözəl ifadə xatirinə deyilməmişdir. Bu bir-birini tamamlayan ülvi-əxlaqi fenomenlər hər birimizdən vətəndaş məsuliyyətini düzgün başa düşməyi tələb edir. Bilməliyik ki, Heydər Əliyevin Vətən amalı və Azərbaycançılıq ideologiyası barədə fəlsəfi düşüncələri cəmiyyətimizin ədalət, ləyaqətli həyat qanunları əsasında inkişafına, xalqımızın mənlik şüurunun zənginləşməsinə, yeni mentalitetimizin formalaşmasına yönəlmişdir. Bir sözlə, ləyaqətli cəmiyyətdə ləyaqətlə yaşamaq fəlsəfəsini milli mənliyimizin mahiyyətinə çevirmək vacib məsələdir.

Əsərləri ilə tanışlıq dönə-dönə göstərir ki, Heydər Əliyev mücərrəd seyrçilikdən uzaqdır. Zəngin siyasi həyat təcrübəsinə malik olan ölkə Prezidenti yaxşı dərk edir ki, insanlar təbiətən müxtəlif olduqları kimi, bərabər həyat tərzini yaşaya bilməzlər. Bu, həyatın qanunudur, bunu parçalayıb doğramaq qeyri-mümkündür. Hər bir kəs azadlıqda bərabərliyin, imkanlar bərabərliyinin həyata keçirilməsinə inanmalıdır. Bu gün cəmiyyətimizdə eyniləşdirmə qanunlarında liberallaşma, şüurda və davranışda plüralizm prinsipləri əsasında qurulmuş həyat normalarının reallaşması prosesi gedir. Bugünki vətəndaşlarımız möcüzələrə, inama əsaslanan düşüncələrə qapılmamalı, milli mənliyi və ləyaqəti qorumaqla, Vətən amalını və azərbaycançılığı təfəkkür fəlsəfəsinə çevirərək həyat problemlərinə rasional münasibət bəsləməli, irrasional aludəçiliyin əsiri olmamalıdır. Heydər Əliyevin millətinə daim təlqin etdiyi zəka fəlsəfəsinə söykənməli, milli inkişafımız naminə, sağlam şüur və şəffaf mentalitet nümayiş etdirməlidirlər. Vətən amalının başlıca fəlsəfi qayəsi də məhz bundadır!

# V FƏSİL

## XALQIN MENTALİTETİ MİLLİ HƏMRƏYLİK MÜSTƏVİSİNDƏ

Həyat fəlsəfəsinin incəliklərinə dərindən nüfuz edən, sosial gerçəkliyin mürəkkəb hadisələrinin cəmiyyətin bütün funksional sahələrinə təsirinin ictimai mahiyyətinin analitik təhlilinə üstünlük verən Heydər Əliyevin siyasi görüşlərində milli inkişafın mühüm fenomeni olan həmrəylik problemi, yeni mentalitetin formalaşmasında onun rolu və yeri, bunların qarşılıqlı dialektik proses kimi nəzərdən keçirilməsi önəmli yer tutur.

İlk baxışda çox sadə, bəlkə də hamı tərəfindən aydın dərk edilən milli həmrəylik problemi, əslində, çox mürəkkəb proses olub özündə insanların vətəndaş və sosial-siyasi birlik formalarını birləşdirir.

Maraqlıdır ki, müasir Qərb sosial-siyasi fikrində həmrəylik, daha doğrusu, bu anlamın bütün çalarlarını özündə ehtiva edən sosial həmrəylik vətəndaş cəmiyyətinin, demokratiyanın paradokslarından biri kimi qiymətləndirilir. Bununla belə, bir çox elmi nəzəriyyələr elə demokratik cəmiyyət modelini yaratmağa çalışır ki, burada həmrəylik və sosial dəyərlərə, yəni insanların siyasətə necə münasibət göstərməsi, onların siyasəti necə dərk etməsi, nələr düşünməsini əks etdirən keyfiyyətlərə daha çox diqqət yetirilsin. Elə bir nəzəriyyə yaratmaq lazımdır ki, cəmiyyətin sosial strukturunun mahiyyətini əks etdirən, insanların ideyalarına, təcrübəsinə və onların qarşılıqlı münasibətlərinə və ünsiyyətinə cavab vermiş olsun. Demokratiyanın paradokslarından biri budur ki, nəzəriyyəçilər çox zaman onu səthi, bəsit şəkildə başa düşürlər. Müasir tənqidi təlimlər demokratiyanı təsvir edərkən və onun tərifini verərkən yalnız iqtisadi hüquqların üstünlüklərinə diqqət verirlər. Lakin bu hüquqlar insanların arzu edilən birliyini təmin etmir. Kaliforniya universitetinin professoru Cefferi S.Aleksandr yeni vətəndaş cəmiyyətinin tərifini təqdim



edərək burada demokratik cəmiyyətdə sosial həmrəyliyin böyük rol oynadığını xüsusi vurğulayır, bu şərtlə ki, bu model fərdiliyin mahiyyətinə zidd olmasın. Məlumdur ki, insan cəmiyyətində həmrəyliyin bütün formaları bilavasitə insanların xarakteri, psixologiyası, mənlik şüuru və mental xüsusiyyətləri ilə sıx bağlıdır, başqa sözlə, həmin keyfiyyətlər şəxsiyyətin mahiyyətinin açılmasında müstəsna rol oynayır. Daha dəqiq desək, milli identiklik sosial birliyin mühüm komponentidir. Amerika filosofu hesab edir ki, vətəndaş cəmiyyəti sosial həmrəyliyi mümkün edən fundamental sosial gerçəklikdir. O bunu milli ümumiliyin «biz-mahiyyət» kimi universal məna kəsb edən termin vasitəsilə əsaslandırmağa çalışır, həmin ümumiliyin şəxsi öhdəliklər, qrup və təriqət maraqlarına sədaqət kimi anlayışların əsirliyində qalmayan, yüngül deyilsə, bunları nəzərə almamaq şərtilə hər üzvünün birliyi kimi başa düşür. İdentikliyin rəhni olan bu cür həmrəyliyi dərk etmək sayəsində dini, sinfi və irqi əlamətlərə görə bir-birindən təcrid olunmuş insanları birləşdirmək olar. C.S.Aleksandrın dərin inamına görə, yalnız bu cür birlik və unifikasiya insanlara belə birlikdə öz «təbii» hüquqları üçün məsuliyyət daşımaq hissini duymağa imkan verir. Qeyd edək ki, amerika filosofu özünün «sosial həmrəylik» konsepsiyasını şərh edərkən Hobbs, Lokk kimi maarifçi filosofların dövlət, vətəndaş cəmiyyəti və sosial həmrəylik haqqında ideyalarından bəhrələndiyini etiraf edir. Adı çəkilən filosof milli həmrəylik anlayışını hakimiyyət pillələrində ən mühüm sərvət kimi qiymətləndirmişdir, çünki bu termin mühüm mənəvi-psixoloji və ideoloji potensialı özündə üzvi şəkildə, dialektik vəhdətdə ehtiva edir.

Lakin zaman hətta dahi mütəfəkkirlərin də ideyalarını ya alt-üst edir, ya da bunları güclü transformasiyaya məruz qoyur. Həqiqətən də, artıq XIX əsrin ortalarında vətəndaş cəmiyyəti ideyasına həvəs sönməyə başlayır. Əvvəlki nəzəriyyələr həmrəyliyin və nisbi bərabər şərtlərin mövcudluğunu etiraf edir, qanun və siyasət baxımından hüquq bərabərliyini təmin edən azadlıq anlayışını daha çox vurğulayırdılar. Kapitalizm cəmiyyəti təşəkkül tapdıqca siyasi

demokratiya idealı öz yerini «sosial məsələ» deyilən fenomenə verdi. Güclü fəhlə, həmkarlar hərəkatları və sosial islahatlar «proteksionizm» hərəkatının genişlənməsinə səbəb oldu. Bu faktor nəinki o vaxta qədər rədd edilən iqtisadi qruplara diqqət və marağı cəlb etdi, habelə yenə də güclü dövlətin qanuniliyini bir daha təsdiqlədi. Nəzəri düşüncədə belə bir amil üstünlük təşkil etməyə başladı: bir halda ki, dövlət pərakəndə bazarın əlaqələndirilməsində və gəlirin bö-lünməsində mühüm bir institutdur, onda belə çıxır ki, sənaye dövründə-fərqi yoxdur istər liberal dövlət olsun, istərsə də avtoritar rejim, vətəndaşların hüquq bərabərliyi sahəsinin müstəqilliyi o qədər də əhəmiyyət kəsb etmir. Belə bir sosial faktor real həyatda müəyyən nəticələrə gətirib çıxarmalı idi. Məhz buna görə də XX əsrdə kapitalizmə qarşı çevrilmiş inqilablar sosial hüquq bərabərliyinə üstünlük verən güclü dövlətlərə ümid bağlamışdı. Müharibədən sonrakı müstəmləkəçiliyə qarşı çevrilmiş inqilablar da bu idealı rəhbər tuturdu. Və belə ictimai inqilabların necə səhv yol tutduğunu son hadisələrin sosial, mədəni və intellektual faciələri bir daha təsdiq etdi. Heç səbəbsiz deyil ki, məhz bu inqilabların törətdiyi sosial sarsıntılar XX əsrin mütəfəkkir nəzəriyyəçilərini dünya nizamında vətəndaş həyatı dəyərlərinin bərqərar olunmasına ciddi marağını artırmış oldu. Amma bununla belə, bir siyasi stereotip hələ də qalmaqdadır: kapitalizmin hər şeyə qadir bazarlar sistemi sosial əlaqələri qırmaqla vətəndaşları eqoist etmiş, bütün hakimiyyəti oliqarxiyalara və bürokratiyaya verərək vətəndaş həyatını pozmuşdur. Kapitalizm dağıdıcı və özgələşmə cəmiyyəti kimi təsvir edilməyə başlanır. Marks Hegeli bunda günahlandırırdı ki, o, güya vətəndaş cəmiyyətini sırf tələbatlarla bağlayır. Halbuki onun fəlsəfəsində həmrəylik ideyaları daha çoxdur. Hegel tələbat probleminə həqiqətən də mühüm əhəmiyyət vermişdir, lakin o, bununla daha çox belə bir ideyanı əsaslandırırdı ki, insanın tələbatları kollektivçilik şəraitində həyata keçir, fərd öz tələbatını ödəyərkən bununla obyektiv olaraq başqasının da məqsədinin reallaşmasına yardımçı olur.



Lakin həmrəylik, sivilizasiya, vətəndaş cəmiyyəti və vətəndaş hüquqları problemi daim nəzəri fikrin diqqətində qalmaqda davam etmişdir. İnsan haqlarına beynəlxalq tələblərin guclənməsi, vətəndaş həmrəyliyinin qlobal şəkildə yayılması müasir dünyanın kəsərli və danılmaz faktoruna çevrilməkdədir. Bu gün həmrəyliyə can atan və identikliyi başlıca sayan millət açıqca nümayiş etdirir ki, o, heç də dövlətə bərabər, onunla eyniyyət təşkil edən millət deyil. Lakin bununla belə, millətin konkret və dərin kök salmış cəhətləri vətəndaş cəmiyyətinə tətbiqən normativ ideyaya zidd olan xüsusiyyətləri şərtləndirərək onun fəlsəfi universallığını sosioloji əsaslarda relyativləşdirir. Tarixən qarşılıqlı əlaqələrlə məhdudlaşmış kollektivçilik xoşbəxtlikdən, yox, bədbəxtlikdən özünü hər şeydən əvvəl tarixi, yüksək mədəniyyət terminlərində, milli mövcudluğun xüsusiyyətləri barədə yerli əfsanələrdə dərk edir. Bundan əlavə, əgər vətəndaş şüurunun kollektiv ölçülərinin konkret oriyentirləri millətin ümumiliyini müəyyənləşdirirsə, universalizm isə artıq mövcud olan əsl milli məzmunu saxlayır. Beləliklə, vətəndaş şüuru baxımından yanaşsaq, millətçiliyi fərdi avtonomluğu açıq-aşkar etiraf edən amil kimi müəyyən etmək olar. Dövlətin təsir dairəsinin hüdudlarının əsrlər boyu müşahidə olunan genişlənməsi və daralması təkcə siyasi, iqtisadi, dini və mütəşəkkil hakimiyyətə deyil, milli ümumiliyin qurulmasına, dəyişilməsinə, müəyyən mənada, vətəndaş cəmiyyəti barədə təsəvvürlərin də formalaşmasına səbəb olmuşdur. Milli həmrəylik anlamının məhdud başa düşülməsi etnoloqlar tərəfindən tənqid olunmuş, yeni məcrada dərk edilmişdir. Lakin buna baxmayaraq, bu proses müsbət istiqamətdə irəli getməmişdir, birlik və həmrəylik prinsipləri nə qədər çox səslənsə də, millətlərin yuxarıda göstərdiyimiz daxili universalizmi sanki əngəllik törədirdi. Sosial gerçəklikdə vaxtilə məhz F.Engelsin göstərdiyi dialektika üzə çıxırdı: o deyirdi ki, XIX əsrdə Britaniyada ixtisaslı fəhlələrin görünməz dərəcədə çoxalması və «sosial sifariş» onları imperialist siyasətini dəstəkləməyə sövq edirdi. Vaxtaşırı olaraq, «əsl amerikalı» olmalarını (məsələn, amerika müharibələrində göstərdikləri

döyüş şücaətinə görə) sübut etməyə çalışarkən irqi, etnik və dini azlıqlar Birləşmiş Ştatların vətəndaş cəmiyyətinə mənsubluğu hüququnu qazanırdılar. Məsələn, Marşall hesab edirdi ki, Britaniya ümumi rifah dövləti, vətəndaş cəmiyyəti nümunəsini verən bir dövlət kimi öz təşəkkülünə və meydana gəlməsinə görə İkinci dünya müharibəsində Britaniya əsgərlərində formalaşmış sinfi həmrəyliyə minnətdardır.

Deməli, milli ümumiliyi yalnız irsi mental meyllərlə birləşmiş ilkin, aparıcı ümumilik deyil, geniş yayılmış və real əldə edilə bilən dəyər və keyfiyyətlərə söykənən assosiasiya kimi başa düşmək olar. Əgər vətəndaş cəmiyyətinin kollektiv tərəfi «Allahın seçdiyi xalq» millətçi ritorikası ilə, yaxud qeyri-vətənpərvərlik davranışları ilə, məhdudiyyətlərlə təmsil olunsa da, onun fərdi cəhəti ideallaşmış hüquq, dəyər, ağlabatan prinsiplər və azadlıq, həmçinin kortəbii həmrəylik əsasında yaranmış insani münasibətlər barədə təsəvvürlərdən ibarətdir.

Göründüyü kimi, vətəndaş cəmiyyəti paradoksal bir cəmiyyətdir. Başqa sözlə, geniş mənada başa düşülən həmrəyliyin bərqərar olması üçün subyektiv öhdəliklər bütöv milli qrupa həvalə edilməlidir. Birləşmiş Ştatlar Konstitusiyasının ilk ifadəsinə «Biz amerika xalqı» ifadəsinə diqqət yetirək. Bu, tarixən konkretləşdirilmiş müraciətdən daha çox dəyəri bildirir. Bu cəmiyyətdə həmrəyliyə nail olmaq üçün hər bir döyüşdə «vətəndaşlığı» təsdiq etməyə imkan yaradır və kömək edir.

Keçmiş Sovetlər Birliyindəki repressiya dövründə «xalq düşməni» ifadəsi xalqın düşüncəsində əsl həmrəylik deyil, hətta tanımadığın bir vətəndaşın repressiyaya məruz qalmasında bütün kollektivlə birlikdə iştirak etməyi nəzərdə tuturdu. «Xalq demokratiyaları» da bu «kollektiv mentalitetə» söykənirdi. Bir sözlə, vətəndaş cəmiyyətinin fərdi və kollektiv ölçüləri arasında gərgin ziddiyyət fərdi hüquqların və plüralizmin həyata keçirilməsinə imkan vermir. Ona görə də demokratiyanı qorumaq üçün vətəndaş cəmiyyəti çox zaman sosiumun strukturlarında potensial şəkildə yerləşən həmrəylik elementlərinə müraciət etməli, birgəyaşayışın, necə deyərlər,



zədələnmiş qeyri-vətəndaş nahiyyələrini «düzəltməlidir». Yalnız belə olduqda insan hüquq və öhdəlikləri vətəndaş cəmiyyətində həmrəyliyə nail olmağa qadirdir.

Biz bu nəzəri diskursa bu qədər yer ayırmaqla vətəndaş cəmiyyətinin və onun başlıca sosial atributu olan milli həmrəyliyin ümumdünya xarakteri kəsb etməsi, onun bugünkü reallıqlarda hansı çətinliklərlə üzləşməsi məsələsinə toxunmaq istəyirik. Vətəndaş cəmiyyətinin qurulması o deməkdir ki, burada milli həmrəylik özündə xüsusi əxlaqi-siyasi cəhətlər ehtiva edir, insan fərdliyinin və varlığının spesifik cəhəti, insanlar arasında münasibətlərin sosial və mənəvi yetginliyinin təcəssümü kimi təzahür edir.

Bu mənada təcrübəli siyasətçi Heydər Əliyevin fəlsəfi görüşlərində milli həmrəylik probleminin nəzərdən keçirilməsi xüsusi aktuallıq kəsb edir. Bunun daha önəmli fəlsəfi-psixoloji mənası bundadır ki, məhz mürəkkəb, təzadlı bir fenomen kimi formalaşan vətəndaş cəmiyyətinin obyektiv dəyəri olan həmrəyliyin əldə olunması mentalitetin də yeni keyfiyyətlər kəsb etdiyi dialektik prosesdir.

Heydər Əliyevin görüşlərində «həmrəylik nümayiş etdirmək» prinsipi insanların yüksək humanist dəyərlərin fəlsəfi ruhunu dərk etməsi, fərdlər arasında qarşılıqlı ünsiyyəti inkişaf etdirmək deməkdir. Onun insan kollektivinin danılmaz birləşdirici amili kimi təqdim etdiyi həmrəylik prinsipinin aşıladığı fəlsəfi qayə budur ki, həmin ideya altında insanlar həmrəyliyi bəşəri xeyirxahlıq kimi dərk etsinlər, əxlaqi normaları üstün tutaraq keçici maddi maraqların fövqündə dursunlar, öz mənafelərini ümumi, yüksək əxlaqlı, humanist məqsəd və ideallardan yüksək tutmasınlar.

Görkəmli siyasətçinin hakimiyyətə qayıdışı ona görə zəruri və vaxtında oldu ki, həmin dövrdə cəmiyyətimizin aparıcı institutları öz məqsədli fəaliyyətini həyata keçirmək qabiliyyətini itirmişdi və sosial qayda-qanunlar ölkəmizdə inteqrasiya proseslərini çox ləngidirdi. Başqa sözlə, insanlar yeni şəraitə uyğunlaşmaq immunitetini itirdiklərindən daxili birliyə ehtiyac duyurdular.

O dövrdə praktik sferadan bilərəkdən uzaqlaşdırılmış sosioloqlarımız başa düşürdülər ki, cəmiyyətdəki sosial institutların funksiyalarının «ölməsi» və bunun nəticəsində cəmiyyətdə baş verən dezinteqrasiya prosesləri hakimiyyət strukturları və cəmiyyətin vətəndaşları arasında uçurum yaratmış, sosial təbəqələrarası ünsiyyətdə tam düşüncə və əqidə ayrılığı sosial depressiya vəziyyətini yaratmışdır. Belə halda milli həmrəyliyin ilkin şərtlərindən biri olan şəxsiyyətin identikliyindən söhbət gedə bilməzdi. Buna görə də həmrəylik ən ümumi şəkildə cəmiyyətin fəaliyyətinin müxtəlif ölçülərində, xüsusilə şəxsiyyət səviyyəsində ictimai tarazlığa nail olmaq kimi başa düşülürdü. Şəxsiyyətin daxili aləmini pozan, onun mentalitetini «yaralayan» bütün həyat sahələrini bürümüş hərc-mərclik cəmiyyətdə sosial sabitliyin pozulmasına səbəb olmuş, cəmiyyətin bütövlüyünü təmin etmək naminə sosial strukturların bərpa olunmasına labüd ehtiyac yaradırdı.

Heydər Əliyevin ictimai görüşlərində dominant yer tutan plüralizm mədəniyyəti əvəzinə «istədiyini et» psixologiyasının hökm sürməsi milli birgəyaşayışı qaydalarına kökündən zərbə vururdu. Milli həmrəyliyin formalaşmasında və mentalitetin yeni pozitiv keyfiyyətlərlə zənginləşməsində müxtəlif düşüncə və fikir azadlığını, onların insan psixikasında və təfəkküründə birgəyaşayış prinsipi kimi mövcudluğunun təzahürü olan plüralizm müstəsna rol oynayır. Birgəyaşayış strategiyası ilk növbədə cəmiyyətdə plüralizm prinsipinə söykəndiyindən hər cür zorakılığın pislənməsi və qarşısının alınmasına, kompromisə və tolerantlığın reallaşmasına istiqamətləndirilmişdir. Plüralizmin təlqin etdiyi başlıca fəlsəfi qayə budur ki, insanlar fikir ayrılığına baxmayaraq, öz mənafelərini dərk etmək və onların həyata keçirmək naminə birləşmək üçün milli razılıq əldə etməli və həmrəyliyə nail olmalıdırlar.

Heydər Əliyev fəlsəfəsinin aşıladığı önəmli ideyalardan biri budur ki, ən mühüm sosiomədəni dəyərlərdən olan fəlsəfi plüralizm ilk növbədə çoxlu sayda mənafelərin, varlığın, ideyaların, baxışların mahiyyətini və mövcudluğunu qəbul edən



fəlsəfi-dünyagörüşü mövqeyidir. Respublikaya qayıdışından sonra Milli Məclisdə ilk çıxışında o, xalqa müraciətində bu mövqeni bildirmişdi: **«Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var, hamını birləşdirib bu vəziyyətdən çıxmaq olar».**

Demokratik proseslərin uğurla keçdiyi ölkələrin canlı siyasi praktikası göstərir ki, milli inkişafın imkanları plüralizmi dəstəkləyən sosial sistemlərdə avtoritar rejimlərdən daha çoxdur, çünki burada fikir müxtəlifliyi, siyasi partiya və qruplar sərbəst dialoqda iştirak edir, milli mənafelərin rasional həyata keçirilməsinə yardım göstərir, sağlam tənqid ruhu demokratik proseslərin ağrısız keçməsinə mənəvi-siyasi mühit yaradır. Bununla belə, plüralizm yeganə çıxış yolu deyildir, o, yalnız ölkədə demokratik prosesləri həyata keçirməkdə, fikir kompromisinə şərait yaratmaqda, insanların sağlam ideyalar ətrafında birləşdirilməsində mühüm vasitələrdən biridir.

Bizim mürəkkəb dövrümüzdə varlıq dünyası ilə sərvətlər ülvi surətdə qovuşur, zəmanəmizi həm mürəkkəbləşdirir, həm də mənalandırır. Planetar təfəkkürə yiyələnməkdə olan insanlar öz həqiqətini vaxtında demək istəyir, çünki zaman elə sürətlə dinamik inkişaf edir ki, bu gün vaxtında həyata keçməyən dəyərli bir ideya sabah öz əhəmiyyətini itirir. Dühа sahiblərinin etiraf etdiyi kimi, bu gün siyasət bürokratik maşına çevrilmişdir. O sanki cansız və hissiyyatsız texniki sənaye kimi xarici formalar istehsalı ilə məşğuldur, ictimai təşkilatları, mədəni dayaqları istehsal edir. Siyasət bir növ xidmət funksiyalarını itirərək özlüyündə müstəqil müəssisənin xarakterlərini kəsb etmişdir. Bir daha belə bir həqiqət üzə çıxır ki, siyasət insanı unutmuşdur, gec-tez öz konseptual təlimlərini insan üzərində qurmalı olacaqdır. Əgər söhbət bəşəri həmrəylikdən gedirsə, siyasətçilərin fikir dünyası və davranışları insan haqqında təsəvvürləri antropologiya səviyyəsinə qaldırılmalıdır. Və bu gün siyasi antropologiya elminə üstünlüyün verilməsi səbəbsiz deyildir. Çünki yer üzündə azad, ləyaqətlə yaşayan insandan uca və qiymətli sərvət yoxdur, vətəndaşlıq məsuliyyətini dərk edən insanlarla

quruculuq işlərini görmək mümkündür. İnsan varlığı, şəxsiyyətin mövcudluğu dövrün, zamanın sosial-siyasi dominantlarının təsirində olsa da, həmişə daxili, heç bir şeylə məhdudlaşdırılmayan ünsiyyətə ehtiyac duyur, çünki ünsiyyətsiz həmrəyliyi də təsəvvür etmək mümkün deyildir. Dünya müdrikləri həmişə çalışmışlar ki, onların fəlsəfi düşüncələrinin intellektual enerjisi ülviliyə və həmrəyliyə xidmət etsin, həyatın mənasını dərk etməyə səy göstərən insanlara gərəkli olsun. Həyatın qərinələrində elə hal olub ki, fəlsəfi duyum hissini itirənlər özlərindən asılı olmadan «iblislərin» oyununa meydan açmalı olublar. Fikir plüralizmi də məhz ona görə lazımdır ki, mənlik və ləyaqət hissinə hörmət edən insanlarla ünsiyyətə girib həmrəyliyin mahiyyətini dərk etsinlər. Məhz buna görə də Heydər Əliyev zəka qanunlarına söykənən səriştəsiz siyasətbazların deyil, məhz miqyaslı düşüncələrin, bu qanunları dərk edənlərin ifadəsi ilə xalqa xidmət edən dövlət hakimiyyətinin və normal sabit cəmiyyətin formalaşdırılmasının tərəfdarıdır. Çünki yalnız belə cəmiyyətdə insanların milli birliyini, vətəndaşların milli həmrəyliyini, onların mənlik şüurunu və insani ləyaqətini ucaltmaq olar. Ölkə Prezidenti daxili siyasət strategiyasını işləyərkən inanırdı ki, sabitliyin yaranması insanların əzmindən və iradəsindən asılı olduğu kimi, onların da sonrakı inkişafı stabilliyin sosial imkanlarından asılıdır. Bu dialektik prosesdə şüurun digər komponentləri kimi mentalitet də «sınaqlardan çıxır». Bu proses elə bir sosial enerji mənbəyi olur ki, onun işığında xalqı və lideri ümumi fəlsəfi sərvət - milli həmrəylik hissi birləşdirir. Çox şübhəsiz ki, bu proses o qədər də rəvan keçmədiyindən hakimiyyət də, xalq da buna hazır olmalıdır, milli həmrəyliyin cəmiyyətimiz üçün bəşəri sərvət olmasını dərk etməlidir. Hakimiyyət insanla bağlı fenomendir, ona görə ətrafa, insanların düşüncəsinə təsir göstərə bilir. Onun və liderin fəaliyyət enerjisi «hakimiyyətə sahib olmağa» deyil, «onu həyata keçirmək» amalına sərf olunmalıdır. Heydər Əliyev fəlsəfəsi milli həmrəyliyi ön plana çəkməklə məhz bu xalq enerjisini qoruyub saxlamaq, onu milli inkişafın ardıcıl



aparılması işinə sərf etmək istəyir. Heydər Əliyevin siyasət fəlsəfəsində hakimiyyəti milli inkişaf naminə həyata keçirmək prosesi birbaşa milli həmrəyliyin təmin olunması ideyası ilə dialektik vəhdətdə götürülür. **«Biz öz taleyimizin sahibi kimi öz vətənimizi, öz torpaqlarımızı öz gücümüzlə qorumalıyıq»** - ölkə Prezidentinin bu fikri xalqla ümummilli liderin muqəddəs milli amal müstəvisində vəhdəti, bu vəhdətin təminatı naminə milli həmrəyliyə çağırışıdır.

Müstəqilliyin möhkəmləndirilməsinin əldə edilməsində hakimiyyətin rolunu qeyd edərkən ilk növbədə insan potensialını nəzərə almaq lazımdır. İnsan potensialı Heydər Əliyevin siyasət fəlsəfəsində əsas anlayışlardan biri kimi ictimai həyatın təşkilində, sosial sistemin tənzimlənməsində müstəsna rol oynayır. İnsan potensialı cəmiyyətin başlıca resursudur, milli inkişafın ardıcıl həyata keçirilməsinin güclü sosial mexanizmidir. Ümummilli lider əqidəsində insan potensialını qiymətləndirmək milli həmrəyliyin təmin olunmasında vacib resurs olan vətəndaşların qabiliyyət və ləyaqətinə ehtiram deməkdir. **«Azərbaycanlıları, respublikanın vətəndaşlarını, bakılıları, hamınızı qucaqlayır, hər birinizi ürəkdən öpürəm, bağrıma basıram»**-1994-cü il oktyabrın 4-də Prezident sarayı qarşısında Bakı əhalisinin mitinqində Heydər Əliyevin söylədiyi bu səmimi sözlər, sadəcə, ölkə Prezidentinin çağrışına səs vermək deyildi, bu, son dərəcə ürəkdən gələn sözlər, xalqın əqidəsinə inam, onun rəhbərlə birlikdə olmaq ideyasına sədaqət, ümummilli liderin belə bir ağır şəraitdə həmrəyliyin mümkünlüyünə inamın ifadəsi idi, «el gücü, sel gücü» müdrikliyinin xalqın mental xüsusiyyəti olmasının bir daha bariz nümunəsi idi. Bu mitinqin bir sosial sərvət kimi öyrənilməsinə, bizcə, həmişə ehtiyac duyulacaq, çünki bu, xalq psixologiyasının və ləyaqətinin təzahürü, xalqın mentalitetinin keyfiyyətcə yeni elementini – həmrəylik hissinin kök salmasının başlanğıcı olmuş, məhz ölkənin vətəndaş müharibəsi həddinə gəlib çatdığı bir halda, qan töküləcəyi heç kəsdə şübhə

doğurmadığı bir vaxtda milli həmrəyliyin necə güclü sosial-ictimai qüvvə olduğu üzə çıxmışdı. O gün hamı Azərbaycanın Prezidenti ilə bir yerdə idi, başlıcası isə bədxahlara xalqımızın həmrəyliyindən, birliyindən ibrətamiz nəticə çıxarmaq üçün daha bir tarixi dərs oldu. Həmin andan Heydər Əliyevin **«mən xalqa inanıram, xalqa güvənirəm»** sözləri milli şüurumuzun örnəyi oldu, mentalitetimizi qidalandıran yeni sosial keyfiyyətə güclü təkan verdi.

Həmin hadisələr göstərdi ki, içərimizdə hələ də xalqın həmrəyliyini istəməyən, öz şəxsi mənafelərinə, fərdi eqoist niyyətlərinə nail olmaq üçün vətən xainləri və xalqımızı müstəqillik yolundan azdırmaq istəyən bədxahlar da vardır. O gün cəmiyyətimizin siyasi palitrası öz rəngarəngliyini göstərdi. Ümummilli lider Vətənin ağır günlərində xalqdan ümid, enerji aldı, xalq əxlaqının əsl təzahürünə heyran qaldı, ona dərin ehtiramını bildirdi, **«Yaşasın müstəqil, əyilməz Azərbaycan Respublikası!»** şüarını xalqına əqidə fəlsəfəsi kimi ünvanladı, ona həmrəylik idealını utopiya deyil, reallıq olması psixologiyasını aşıladı.

Hakimiyyətin ən ağır şəraitdə sosial-siyasi qabiliyyətini nümayiş etdirməsi təkcə onun möhkəmliyini və sabitliyin təminatçısı kimi çıxış etməsini göstərmirdi bu həm də öz vətəndaşlarının sosial inamına yeni enerji verməsi demək idi, sosial psixologiyanın dili ilə desək, hakimiyyətin kütlələrin reaksiyasını irəlicədən duyub ona verilən cavab reaksiyası Heydər Əliyev fəlsəfəsində hakimiyyətin mahiyyətini dərk etmək, xalqın öz dövlətinə münasibəti kontekstində «xalq-hakimiyyət-lider» dialektikasını dərk etməkdir. Bu fenomenin dialektik mahiyyətini dərk etmək, kütlələrin sosial səfərbərliyinin mahiyyətini, milli həmrəyliyin mənasını, ümummilli liderin əxlaqi nüfuzunun dialektik vəhdətdə başa düşməkdir. Bu komponentlərdən hər biri milli həmrəyliyin təminatı üçün müstəsna əhəmiyyət kəsb edir. Xalq zorakılıqdan uzaq güclü dövlətdə böyük nüfuz və ehtiram sahibi olan liderə inanır. Əsrlər boyu Azərbaycan xalqının mentalitetində ədalətli hakimə hörmət mühüm



xüsusiyyətlərdən biri olmuşdur. Tarixi təcrübə də göstərir ki, həmişə dövrlərin sərt və sarsıntılı çağlarında, siyasi qiyamlar baş verəndə kütlələr nüfuzlu başçı ardınca getməyə can atmışdır. Doğrudur, çox zaman tarixdə xalq kütlələrinin rolu yetərincə qiymətləndirilməmişdir. Təsadüfi deyildir ki, Qrin ilk dəfə olaraq «İngilis xalqının tarixi» əsərində (1877) yazmışdır: «Bu ingilis krallarının, yaxud ingilis işğallarının tarixi deyil, ingilis xalqının tarixidir». Xalqlar, bununla belə, öz haqlı mübarizəsində ədalət anlamını adil liderin şəxsiyyətində, onun rəhbərlik etdiyi hakimiyyətin əxlaqi nüfuzunda axtarmışdır, onda xalq mənəviyyatının təcəssümünü görmək istəyilə yaşamışdır. Səbəbsiz deyil ki, Hegel yazırdı: «Dövlət özündə və özü üçün əxlaqi bütövlük, azadlığın həyata keçirilməsidir, zəkanın da mütləq məqsədi bundadır ki, azadlıq gerçəklik olsun» (Философия права. с.283).

Heydər Əliyevin siyasət fəlsəfəsi plüralizmə söykənən, tolerantlığa hörmət edən insani azadlıq cəmiyyətimizin mühüm əxlaqi fenomeninə çevrilməsində çox önəmli rol oynayır, bununla da diqqəti milli həmrəyliyi təmin edən sosial mexanizmlərin təkmilləşdirilməsinə yönəldir.

Təcrübəli siyasətçi, milli və bəşəri miqyasda nüfuzlu xalq lideri olan Heydər Əliyevin hakimiyyətə qayıdışına qədər dövlətçiliyin, xalq və hakimiyyət institutlarının nə vəziyyətdə olmasından çox yazılıb, dərindən təhlil olunub. Biz bu məsələdə geniş izaha yol verməmək üçün Amerika sosioloqu S.Moskoviçinin fikrini iqtibas gətirməklə kifayətlənəcəyik: «İnsanlar daha bilmirlər kimin ardınca getsin, kimə tabe olsun, kimin xatirinə özünü qurban versin. Heç nə və heç kim onları sivilizasiyalı əmək üçün intizama dəvət etmir, heç nə və heç kim onlarda həvəs oyatmır... xalqın yerini fərdlərin amorf məcmusu tutmuşdur». Bu ifadədə nəinki o dövrdə ölkədə tüğyan edən hərc-mərcliyin acınacaqlı ştrixləri əks olunmuşdur, həm də həmrəyliyin müqəddəm şərtlərindən olan «sivilizasiyalı əmək», «intizam» «daxili həvəs» kimi elementlər ifadəsini tapmışdır. Deməli, hakimiyyətin və liderin nüfuzu milli həmrəylik üçün vacib şərtlərdir, ən azı ona görə ki, bütövlükdə

sosial nüfuz inteqrativ keyfiyyətdir, cəmiyyət üzvləri birliyinin təmin olunmasıdır.

Həyatın məntiqi elədir ki, nüfuz sahibi ehtiyac duyulanda yetişir, insanların daxilən həmrəylik şəraitində yaşamasını vacib edir. Bu ehtiyac, sadəcə, fərdi tələbat deyil, milli varlığın inkişaf qanunauyğunluqlarından doğan sosial-siyasi tələbatdır. Həmrəylik prinsiplərinin hakimiyyət və lider ölçülərində dərk olunmasına yönəlmiş obyektiv reallıqdır, bütövlükdə xalqın milli mənlik şüurunun mövcud reallıqlara mentalitet ölçülərində refleksiyasıdır.

Bu kontekstdə Heydər Əliyevin fəlsəfəsi də nəzəri praktik əsasları dərindən işlənib hazırlanmış milli ideya konsepsiyasıdır. Görkəmli nəzəriyyəçi bu problemə aid xüsusi əsər həsr etməsə də, belə bir mülahizəni inamla söyləmək olar ki, onun sosial fəlsəfəsində milli ideya liderin fəallığının, onun hakimiyyət sistemində fəaliyyətinin konseptual əsası kimi təqdim edilir. Tarixi təcrübə də sübut edir ki, milli ideya hər bir millətin tarixən davam edən formalaşması prosesində aparıcı amil olmuş, xalqların milli azadlıq hərəkatlarının vüsət almasında liderlərin fəallığına təkan verməkdə əhəmiyyətli rol oynamışdır. Milli ideyanın sosial mexanizm kimi funksiyası bundadır ki, o, milli lider yetişdirir, hakimiyyət və liderlik institutlarının fəaliyyətinin ideoloji istiqamətini müəyyənləşdirir. Milli ideyaya sədaqət və onu milli ləyaqət səviyyəsində dərk etmək hakimiyyətin və liderin siyasi imicini daha da artırır, milli həmrəyliyi təmin etmək naminə cəmiyyətin insani və mənəvi resurslarının səfərbərliyində müstəsna rol oynayır. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, yeni tarixi şəraitdə, yeni geosiyasi reallıqlarda milli həmrəyliyin siyasi-əxlaqi mahiyyətini dərk etmək milli seçim deməkdir, bu isə yüksək sərvət kimi millətin daxili zərurətidir. Məhz mənəvi seçim prosesində milli həqiqət, milli mənlik şüuru bütün şəffaflığı ilə təzahür edir. Əgər milli seçim yoxdursa, deməli, milli ideya qüvvəsini və həyatiliyini itirir, milli mənlik şüuru reallığı əhatəli dərk etmək hissini və qabiliyyətindən məhrum olur ki, bu da



hakimiyyətin və liderin siyasi transformasiyalar prosesində fəallığını xeyli zəiflədir.

Müstəqil və azad dövlətçilik ideyasının siyasi reallaşdırılması bizi belə bir həqiqətin dərkindən yayındırmamalıdır ki, xalqımızın qısa müddətdə əldə etdiyi uğurlara baxmayaraq, cəmiyyətimizin hər bir üzvü tariximizin siyasi ibrət dərslərini dönə-dönə öyrənməli, siyasi mədəniyyətini durmadan artırmalıdır.

Məlum həqiqətlərdən biri də budur ki, sovet gerçəkliyində «azad, müstəqil Sovet Azərbaycanı» milli ideyaya çevrilə bilmədi. Milli mənlik şüuru özünün mənəvi məzmununu itirdiyindən milli inkişafın siyasi reallaşmasını xeyli geriyə atmış oldu. Və məlum olduğu kimi, yalnız XX əsr 80-cı illərin ortalarından başlayaraq sosial-siyasi, mənəvi-ideoloji vəziyyət dəyişməyə başlayır. Yenidənqurma dövründə milli mənlik şüurunun kəskin surətdə siyasiləşməsi yeni ideoloji miflər meydana gətirsə də, dövlət müstəqilliyi və suverenliyi ideyasının şüurda möhkəmlənməsi doğma torpağa məhəbbət, ana dili hissi, öz ərazisinin bütövlüyünün mahiyyətini dərk etmək, həqiqəti kütlələrin etnik birliyinin, milli həmrəyliyə olan daxili tələbatın ödənilməsi vasitəsinə çevirdi, başqa sözlə, azərbaycanlılar öz mənəvi-siyasi tələbatlarını sərbəst bəyan etmək üçün azad sosial mühit əldə etdilər. XX əsrin əvvəlində milli ideyamızın mühüm mənəvi-siyasi dəyərlərinin - türkçülüyün, islamçılığın, müasirliyin bərpası milli-mədəni təcrübəmizi zənginləşdirməklə yanaşı, milli həmrəylik idealını ön plana çəkmiş oldu. Bu, həm də o demək idi ki, XX əsrin son onilliyində milli-azadlıq hərəkatı son dərəcə ziddiyyətli keçsə də, milli şüur bir sıra gözlənilməz sarsıntılara məruz qalsa da, millət Heydər Əliyevin fədakar liderlik qabiliyyəti sayəsində tarixin sərt dönəmində sosial-mədəni varlığımızı mənəvi-intellektual tənəzzüldən xilas etdi. Heydər Əliyevin bu tarixi xidməti bir daha göstərdi ki, millətin intellektinin böhran keçirdiyi bir şəraitdə nəinki milli həmrəylikdən, habelə onu təmin edən müqəddəm şərtlərdən, o cümlədən milli mənlik şüurundan da söhbət gedə bilməz.

Ölkə Prezidentinin əsərlərinin dərin təhlili göstərir ki, o, yeni demokratik quruculuq işlərinin vüsət aldığı yeni hakimiyyət strukturlarının, o cümlədən sosial institutların təşəkkül tapması, köhnə əlaqə və münasibətlərin qırıldığı və nəhayət, bütün bu ictimai amillərlə bağlı olaraq milli həmrəylik ideyası cəmiyyətin siyasi-psixoloji ovqatının yaxşılaşmasında əhəmiyyətli yer tutmağa başlayır, cəmiyyətin sosial-siyasi birliyinin təmin olunmasına yardımçı olur. Prezidentin qeyd etdiyi kimi, **«Bizim adamlarda keçmişin psixologiyası, əhvalı, iş üslubu və metodları o qədər dərin kök atmışdır ki, onlar bunlardan ayrıla bilmirlər».** Təcrübəli dövlət başçısının fəlsəfəsi belə bir ideyanı aşılayır ki, milli həmrəyliyin təmin olunmasında ictimai həyatımızda müşahidə olunan hər şey əhəmiyyət kəsb edir. Məlumdur ki, prezidentliyinin ilk illərindən ölkənin iqtisadiyyatında ağır, çətin, xüsusilə səriştəsiz idarəçilik ucbatından yaranmış böhranlı vəziyyət onu çox narahat etmişdi. O bunu həyatımızın reallığı kimi qiymətləndirsə də, cəmiyyətdə psixoloji bədbinliyə qətiyyən əsas olmadığına görə xalqı pozitiv islahatların həyata keçirilməsində iştirak etməyə dəvət etmişdir. «Bu real vəziyyəti dərk edib hamımız əl-ələ verib böhrandan şərəflə çıxmalı, müstəqil Azərbaycanı irəliyə aparmalıyıq. Bundan ötrü isə gərək hər kəs öz sahəsində məsuliyyətlə çalışsın» - bəli, sosial məsuliyyət hissinin azalması da, təəssüf ki, bizim reallıqlarımızdandır. Hər bir xalqın sosial-tarixi praktikası dəfələrlə sübut etmişdir ki, hakimiyyətin cəmiyyətdə insanlar arasında, fərdlər və kollektivlər, eləcə də dövlət və cəmiyyət arasında qarşılıqlı əlaqələrin vacib forması olan siyasi məsuliyyət hissini itirməsi həyat sabitliyi üçün zəruri olan tənzimləmə mexanizmlərindən ən mühümüsünü itirmək deməkdir. Siyasi məsuliyyət amilinin zəifləməsi hakimiyyəti nüfuzdan salır, dövlət və vətəndaş münasibətlərinə ziyan vurur, vətəndaşı ictimai sistemdə öz rolunu dərk etmək keyfiyyətindən məhrum edir, bütövlükdə milli həmrəyliyin təmin olunmasında önəmli yer tutan sosial ünsiyyət hissini dəyərdən salır. Yaxın tariximizin göstərdiyi kimi, məhz sosial məsuliyyət hissinin itməsi elə gərgin ictimai-



psixoloji vəziyyət yaratmışdı ki, əvvəlki rəhbərlik «xalqın qüvvəsini toplayıb, birləşdirib Ermənistanın təcavüzünə qarşı mübarizə aparmaq əvəzinə, beynəlxalq aləmdə müstəqil Azərbaycanın mövqeyini möhkəmləndirilməsi əvəzinə, respublikamızın içərisində ayrı-ayrı qüvvələr hakimiyyət mübarizəsi ilə məşğul olmuşlar... onlar vəzifə hərisliyinə düşərək, şəxsi mənafelərini ümummilli, ümumxalq, ümumrespublika mənafeyindən üstün tutaraq respublikada qarmaqarışıqlıq yaratmağa çalışmış, ölkəni bir çox hallarda vətəndaş müharibəsi həddinə gətirib çıxarmışlar». Heç şübhəsiz ki, o dövrdə sosial-iqtisadi böhrandan sui - istifadə edən qüvvələr və onların törətdikləri cinayətkar əməllər nəinki respublikanın vəziyyətini ağırlaşdırmışdı, həm də cəmiyyətin sağlam qüvvələrini birləşməyə maneçilik törədir, milli birliyə ölçülməz ziyan vururdu, xalqın mənlik şüurunu haçalayırdı. Fərdi şüurun deformasiyası özündə əqidə, inam kimi keyfiyyətlərin itməsinə, ətraf aləmdə baş verən proseslərin mahiyyətini, empirik faktların qavranılmasını təhrif edir, cəmiyyətdə marginallaşmanı sürətləndirir, bununla da milli psixoloji dünyagörüşü və mentaliteti yanlış şüur məcrasına salırdı. İnsanların dünyagörüşünün əxlaqi dayaqları sarsılırdı. İstər cəmiyyətin, istərsə də şəxsiyyətin emosional-iradi və idraki xüsusiyyətlərini özündə ehtiva edən əxlaqi şüurun böhranlı vəziyyəti, fəlakət həddi insanların davranışında şər əməllərə meyli artırırdı ki, bu da sabitliyə ehtiyac duyan cəmiyyətdə destruktiv mühit yaradırdı. Hərc-mərcliyin hökm sürdüyü cəmiyyətdə insanlarda çox zaman onların iradəsindən asılı olmayaraq, destruktiv hərəkət psixologiyası formalaşır. Belə sosial ovqat bir növ cəmiyyətimizdə, fransız filosofu E.Drürkgeymin ifadəsilə desək, arxaik, inkişaf etməmiş cəmiyyətlərə xas olan mexaniki həmrəylikdən başqa bir şey meydana gətirə bilməzdi. Bu cür «həmrəylik» şəxsiyyət keyfiyyətlərini itirmiş insanların neqativ əməllər naminə mexaniki birliyi deməkdir. Təbii şəffaf mentalitetin formalaşması amillərindən biri olan milli ləyaqət hissinin itirilməsi heç zaman insanlar arasında həmrəylik, həmçinin

elementar ünsiyyət mədəniyyətinin yaradılmasına xidmət edə bilməz. Elə bu səbəbdən də Azərbaycanın müstəqilliyinə qəsd edən qüvvələr, əmin-amanlığın pozulmasında maraqlı olan düşmən qüvvələr hərəkətə gəlmişdilər. Sabitliyi siyasi dəyər kimi qiymətləndirən Heydər Əliyevin Azərbaycanı parçalamağa can atanların, cinayətkar qrupların qətiyyətli fəaliyyəti sayəsində destruktiv qüvvələrin müxənnət əməllərinin qarşısı alınmaqla, cəmiyyətimizin sosial-psixoloji ovqatından xeyli saflaşmış şüur dekstruktiv təsirdən azad olmuş, xalqda müstəqilliyini qorumaq məsuliyyətinin artmasına şərait yaranmışdır. O bu qətiyyətli addımı atarkən nikbinlik ruhunu itirməmiş xalqının iradəsinə söykənmişdi, o bilirdi ki, Azərbaycan xalqı, onun mənliyi və ləyaqətinin keşiyində duran dövləti cinayətkar qüvvələrin hərəkətlərinin qarşısını almağa, düşmənlərimizin bədnam niyyətlərini puç etməyə qadirdir. Beləliklə, milli varlığın mühüm inkişaf şərti olan sosial sabitliyə nail olundu.

Həmrəylik əzəli sosial-psixoloji keyfiyyət deyildir. O tarixi inkişaf prosesində, milli mənlik şüurunun, təfəkkürün mental xüsusiyyətlərinin formalaşması dövründə yaranır. Bu mənada əsl insan həmrəylik prosesində formalaşan varlıqdır. Odur ki, həmrəylik bəşəri fenomen kimi hər bir xalqın öz tarixi şüurunun ayrılmaz tərkib hissəsidir. Deməli, həmrəylik hər bir xalqın inkişafı üçün ümdə sosial-siyasi və mədəni-tarixi faktorlardan biridir. Bu bəşəri fenomenin müasir milli inkişafı üçün danılmaz rolunu layiqincə qiymətləndirən görkəmli dövlət başçısı Heydər Əliyev həmişə belə bir həqiqəti də aşılayır ki, müstəqil Azərbaycanın sabitliyi şəraitində azərbaycanlıların həmrəyliyinə nail olunması, müxtəlif səbəblər üzündən müxtəlif xarici ölkələrdə yaşayan həmvətənlərimizlə cəmiyyətin əlaqəsini yaratmağı zəruri edir.

Alman filosofu K.Yaspers yazır ki, biz nə ediriksə, onu ancaq qarşılıqlı şüurlu anlaşmanın hesabına edirik. Özü-özlüyündə fərd, sadəcə olaraq, mövcud ola bilməz. Bu mülahizəyə daha geniş kontekstdə yanaşılsa, demək olar ki, Yer üzünün müxtəlif guşələrinə səpələnmiş azərbaycanlılara



şüurlu surətdə qarşılıqlı ünsiyyət son dərəcə vacib şərtdir. Onların bir-birindən təcrid yaşaması, milli-mədəni dəyərlərdən uzaq düşməsi bütün azərbaycanlıların siyasi taleyində, milli şüurunda yalnız ikili düşüncə tərzini yarada bilər. Ona görə də bu, əsl milli problem kimi, hamını düşündürməyə bilməz. Açıqca etiraf olunmalıdır ki, bu problemə əsl diqqət və qayğı yalnız Heydər Əliyevin respublika rəhbərliyinə ikinci qayıdışından sonra göstərildi.

Ölkə Prezidentinin fəaliyyəti sayəsində diaspora anlayışı nəinki həmvətənlərimizin gündəlik leksikonuna daxil oldu, həm də milli düşüncəmizdə yeni məna kəsb etməyə başladı. İlk dəfə olaraq xalqımızın haçalanmış tarixi şüurunda milli varislik ənənəsinin bütövlüyünün bərpası naminə, vətəndaş hərəkatı başladı. Prezidentimizin hər dəfə xarici ölkələrə səfərində bizdən uzaq düşmüş azərbaycanlılarla söhbətləri bizə əsas verir deyək ki, xarici soydaşlarımız hələ kəşf olunmamış planeti xatırladır.

Qeyd edək ki, dünya azərbaycanlılarının birliyinin müstəsna milli problem kimi mühüm siyasət sahəsi olmasını uzaqgörənliklə dərk edən Heydər Əliyev hələ Naxçıvan Ali Məclisinin sədri olarkən milli həmrəyliyin təmin olunmasının strategiyasını işləyib hazırlamış, məhz onun təşəbbüsü ilə respublikada ilk dəfə olaraq 1991-ci il dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan edilmişdir. Bu tarixi qərar 1991-ci il dekabrın 16-da Naxçıvan Ali Məclisində böyük ruh yüksəkliyi şəraitində qəbul edilmişdir. Və yalnız sonra, 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının iclasında dünya azərbaycanlılarının həmrəyliyi günü elan edildi.

Lakin bu da əlamətdar haldır ki, məhz 1993-cü ilin 31 dekabrında milli şüurun özünü təsdiqində xüsusi rol oynamış bu milli-tarixi əhəmiyyətli gün Azərbaycanın bütün ərazisində çox geniş şəkildə qeyd olunmuş, müstəqilliyini qorumağa daim hazır olan xalqın öz Prezidenti ətrafında birləşməsinin mühüm təzahürünə çevrilmişdir. Tarixi vətənlərində bu günün yüksək mütəşəkkil şəraitdə keçirilməsi xaricdə yaşayan

soydaşlarımızın vətənə bağlılıq hissini gücləndirmiş, milli mənlik şüurunun oyanışında mühüm mərhələnin başlanğıcını qoymuşdur.

Yeri gəlmişkən, bunu da xatırladaq ki, hələ 1990-cı il noyabr ayının 3-də Türkiyədə keçirilən azərbaycanlıların ilk toplantısında gündəlikdə bir sıra mühüm məsələlərlə yanaşı, dünya azərbaycanlılarının həmrəyliyi gününün qeyd olunması məsələsi də daxil edilmiş, onun həyata keçirilməsi, milli mənlik şüurunun inkişaf etdirilməsi ilə bağlı təkliflər səslənmişdir. Müzakirə olunan məsələlərə aid qəbul edilmiş qərarlarda həmrəylik gününün qeyd olunması da göstərilir. Lakin bir daha qeyd edək ki, həmin günün milli bayram kimi keçirilməsi yalnız bir ildən sonra mümkün olmuşdur.

İlk milli həmrəylik gününün yüksək səviyyədə keçirilməsində Heydər Əliyevin ümumxalq lideri kimi təşkilatçılıq qabiliyyəti bir daha özünü təsdiq etdi və bu, xalqın milli dəyərlərinə xüsusi ehtiramın təntənəsinə çevrildi. Ölkə Prezidentinin hər bir xarici səfərində həmvətənləri ilə görüşündə milli mənlik şüurunun inkişafı, azərbaycanlı olaraq milli şərəfi harada olursa olsun qorumağını və uca tutulması ilə bağlı məsləhətlər vermiş, soydaşlarımızın həmrəyliyinin, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində misilsiz rolundan ətraflı danışılmışdır. Həmvətənlərimizin xarici ölkələrdə yaratdıqları təşkilatların, cəmiyyətlərin, mədəniyyət mərkəzlərinin milli şüurun oyanışında, milli həmrəyliyə istiqamətlənmiş tədbirlərin azərbaycançılıq ideyalarının yayılmasında müstəsna əhəmiyyətini qeyd edən ölkə Prezidenti yüksək amallı azərbaycanlı kimi milli təşkilatlanmanın təmin olunması naminə maraqlı təkliflər vermiş, soydaşlarımızın birliyə olan daxili tələbatını daha da artırmışdır. O, soydaşlarımıza həmişə xüsusi bir qürurla çatdırır ki, biz Azərbaycanda yaşayan azərbaycanlılar öz həmvətənlərimiz haqqında daim düşünmüşük. Təbii ki, məlum tarixi səbəblər üzündən soydaşlarımızın taleyüklü məsələlərinə ciddi diqqət yetirmək imkanlarından məhrum olmuşuq. Sovetlər İttifaqının «dəmir divarları» alman əsirliyində olmuş və xaricdə sığınacaq



tapanları stalinizmin xalq düşmənləri kimi təqdim etməsi, sovet ideologiyasının «danılmaz sosializm həqiqətlərinin» şüurlara yeridilməsi həmvətənlərimizlə heç bir səviyyədə əlaqə yaratmağa imkan vermirdi. Yalnız incəsənət ustalarımızın xaricdə çıxışları soydaşlarımızda vətənə həsrət hissini oyatmış, unutduqları mədəni dəyərləri yenidən yaddaşlarda bərpa etməyə imkan yaratmışdır. Ölkə Prezidentinin qeyd etdiyi kimi, **«məhdud imkanlardan istifadə edərək onlarla əlaqə qurmağa çalışmışıq».**

Milli şüurun böyük faciəsi onda idi ki, o, ənənəvi milli dəyərləri və sərvətləri mental xüsusiyyətləri tarixən yaxın olan türk dilli xalqlar sosial ünsiyyət imkanlarından məhrum olmuşdu. Bu baxımdan 1994-cü il fevralın 10-da Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri fövqəladə əhəmiyyət kəsb etmişdir. O bu ölkənin ictimai-siyasi həyatında önəmli rol oynayan soydaşlarımızla görüşündə Azərbaycanın müstəqilliyinin bütün türk xalqlarının tarixində misilsiz hadisə olmasından danışarkən Yer üzündə yaşayan azərbaycanlılarının milli ideya ətrafında birliyinin təmin olunması, milli həmrəylik məsələsinin taleyüklü mahiyyətinə toxunmuşdu. O demişdir: **«Biz dünya azərbaycanlılarının həmrəylik, birlik gününü elan etmişik. Biz istərdik ki, dünya azərbaycanları həmrəy olsunlar, daha da bir olsunlar. Mən bu duyğularla, bu hisslərlə yaşayıram. Öz prezidentlik vəzifəmi bundan sonra həyata keçirəcəyim dövrdə də bu hissləri əsas tutacağam».** Bu, yüksək amallı Prezidentin soydaşlarımız qarşısında çox mühüm çıxışı olmaqla yanaşı, hər şeydən əvvəl, dərin milli psixoloji səciyyə daşıyır, soydaşlarımızın təfəkkürünün çox vacib əxlaqi-mentalitet dəyəri ilə zənginləşməsinə kökləyir. O, həmvətənlərimizə belə bir tarixi əhəmiyyət kəsb edən ideyanı aşılayır ki, azərbaycanlıların milli həmrəyliyə can atması onların siyasi taleyinin müəyyənləşməsində danılmaz rol oynamış azadlığa yetişmək idealının həyata keçməsi ilə bağlıdır. Tarixi vətən barədə obyektiv informasiyadan uzaq olan soydaşlarımız

Heydər Əliyevin müstəqilliyimizlə bağlı söhbətlərindən keçdiyimiz azadlıq yolunun necə əzablı və məşəqqətli olmasını aydın dərk edirdilər. Özünün həmrəylik idealına sadiq qalan Heydər Əliyev çox gözəl bilir ki, soydaşlarımızın düşüncəsində və mentalitetində həmrəylik hissini gücləndirmək üçün Azərbaycanda yaşayan həmvətənləri barədə onların bilmədikləri həqiqətlərin əsl mahiyyətini açıqlamaq və başa salmaq lazımdır. Ermənistan – Azərbaycan, Qarabağ konfliktinin başvermə səbəblərinin düzgün izahı milyona yaxın azərbaycanlının öz doğma torpaqlarından zorla qovulub qaçqın vəziyyətinə düşməsini real faktlar əsasında aşkarlamaq, bununla bağlı Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsini həmvətənlərimizin milli mənlik və ləyaqət şüurunun probleminə çevirmək, soydaşlarımızda Vətənimizin mövcud vəziyyəti barədə mücərrəd deyil, obyektiv və pozitiv təsəvvürlərin formalaşması demək idi. Milli reallıqlarımızı dərindən bilməyən xarici soydaşlarımızı quru ibarələr və basmaqəlib şüarlarla birləşdirmək mümkün deyildir. Milli psixologiya qarşısında qeyri-səmimilik xalqın sosial həmrəyliyini və inkişafını ləngidir, onun dünya birliyində layiqli yer tutması kimi müqəddəs vəzifənin yerinə yetirilməsinə imkan vermir. Atəşkəsin müstəsna vacibliyi, milli dövlətçiliyə qarşı sui-qəsd cəhdlərini və onların qətiyyətlə aradan qaldırılması barədə məlumatları soydaşlarımıza vaxtında və siyasi səmimiyyətlə çatdırmamaq azərbaycançılıq düşüncəsinə zərbə vurmaq, milli mənlik şüuru qarşısında xəyanət etmək demək olardı. Bu hərəkət ən azı soydaşlarımızı xaricdəki erməni icmalarının sistemli şəkildə apardıqları antiazərbaycan kampaniyası qarşısında mənəvi-siyasi tərki-silah etmək idi.

Təqdirəlayiq haldır ki, Heydər Əliyev soydaşlarımız ilə ilk görüşlərindən başlayaraq milli həmrəylik hissinin formalaşması amilini milli diasporun təşkilatlanması problemi ilə dialektik vəhdətdə götürmüş, bunun qarşılıqlı əlaqədə dərk olunmasını ümummilli vəzifə kimi qarşıya qoymuşdur. Siyasi fəaliyyətində realizmə üstünlük verən Heydər Əliyevin fikrincə, dövlətçiliyimizin taleyüklü problemlərindən ən vacibi olan milli



diasporun formalaşması üçün sosial-psixoloji zəminin yaranması ilə azərbaycanlıların şüurunda çox böyük dəyişikliklər baş verməlidir. Azərbaycan dövləti başa düşür ki, çox böyük səylər hesabına da olsa cəmiyyətimizin bütün sosial institutların təkmilləşməsi, hüquqi mexanizmlərin ahəngdar işləməsi müstəqilliyimizi daha da möhkəmlətməlidir. Başqa sözlə, biz soydaşlarımıza demokratik transformasiya proseslərinin uğurlu keçməsində ən universal sosial-siyasi institut olan dövlətimizin həqiqətən də vətəndaş cəmiyyətini qurmaq qabiliyyətini bir nümunə kimi nümayiş etdirməliyik. Bu gün xaricdəki soydaşlarımız inanırlar ki, bu cahanşümul vəzifəni həyata keçirmək üçün Heydər Əliyevin müdrik rəhbərliyi ilə geniş, hərtərəfli islahatlar həyata keçirilir. Bütün bu sosial amillər mühüm milli-əxlaqi vəzifəni dünya dövlətlərində fəaliyyət göstərən soydaşlarımızın sıx əlaqələrinin yaranmasında, onların təşkilatlanmasında mühüm rol oynayan cəmiyyətlərinin möhkəmləndirilməsində, onların ölkəmizin problemləri ilə daha yaxından maraqlanmasında çox vacib şərtlərdir. Ölkə prezidentinin hər bir səfəri getdikcə soydaşlarımızın həmrəyliyə olan tələbat və meyllərini artırmağa səfərbər edir.

1995-1996-cı illərdə qarşısı alınmış iqtisadi tənəzzüldən sonra Azərbaycanda iqtisadi inkişafın uğurla keçməsini beynəlxalq iqtisadi-maliyyə mərkəzləri də etiraf edirlər. Bütün bunlar, şübhəsiz ki, bizdə olduğu kimi, xaricdəki soydaşlarımızın da düşüncəsində, mentalitetində öz soydaşları ilə ruhən və qismən birləşmək idealını gücləndirir, ümumi azərbaycançılıq, vətənsevərlik kimi siyasi-əxlaqi sərvətlərin milli şüurda dərin kök salmasını şərtləndirir.

Hələ 1994-cü il yanvarın 9-da Heydər Əliyev Almaniyadan gəlmiş həmvətənlərimizi qəbul edərkən müstəqil və suveren dövlətimizin ilk uğurları ilə onları məlumatlandırmış, xalqımızın yüksək amala sahib olduğunu, öz xoşbəxt gələcəyi yolunda inamla addımladığını xüsusi vurğulamış, Azərbaycana öz vahid vətəni kimi baxmağı və bundan şərəf hissi duymalarını tövsiyə etmişdir. Milli həmrəyliyi və inkişaf etmiş mənlik şüurunu

dövlətçiliyimizin sosial sərvəti hesab edən Heydər Əliyev demişdir: «Mən çalışıram ki, bütün çıxış və müraciətlərimdə dünyanın bütün guşələrində - Avropada, Asiyada, Amerikada, eləcə də digər bölgələrdə yaşayan azərbaycanlılarda Azərbaycan dövləti haqqında rəy formalaşdıram. İstəyirəm ki, onlar Azərbaycana öz doğma vətənləri kimi baxsınlar və onu ürəkdən sevsinlər».

Ümumiyyətlə, sevgi hissi kamil təfəkkür və insani duyğu fenomenidir, mentaliteti qidalandıran etik-estetik dəyərdir. Bu hissin formalaşması, yəni vətən sevgisi anlamının Vətən amalının düşüncəyə hakim kəsilməsi milli birliyin mahiyyət qüvvələrinin dərkində mərkəzi rol oynayır. Bu əxlaqi düşüncə meyarını xüsusi dəyərləndirən Prezident hesab edir ki, **«Gərək bütün dünyada yaşayan azərbaycanlıların təşkilatlanma prosesi sürətlənsin, erməni diasporu kimi öz vətənləri üçün də faydalı işlər görsünlər. Təəssüf ki, bu sahədə işlər hələ də tam qaydasında deyil».** Prezidentin keçirdiyi təəssüf hissi sağlam düşüncəli, mənəviyyatlı azərbaycanlıları həyəcanlandırmaya bilməz, onların diqqətini taleyüklü problemlərimizə yönəltməyə bilməz, milli vicdan mövqeyini seçməyə həvəsləndirməyə bilməz. Həqiqətən də, düşündürücü haldır ki, Fransada xeyli azərbaycanlının məskunlaşmasına, ticarət obyektlərinin bir qisminin onların əlində cəmləşməsinə baxmayaraq, Prezidentlə görüşə onların az bir hissəsinin gəlməsi milli mənlik şüuru, milli həmrəylik kimi bəşəri dəyərlərin xalqımızın milli inkişafı üçün nə qədər vacib və aktual olduğuna dəlalət edir. «Bu fakt da bir daha təsdiq edir ki, azərbaycanlılar Fransanın müxtəlif guşələrində yaşayırlar və aralarında o qədər də sıx əlaqə yoxdur» - fəlsəfi zəkasını milli həmrəyliyin təmin olunmasının xidmətinə verən ölkə Prezidentinin bu təəssüfünü bir azərbaycanlı kimi, sadəcə, bölüşdürməmək qeyri-mümkündür.

Məlum olduğu kimi, Fransa erməni diasporunun dərin kök saldığı və erməni elektoratının güclü sosial baza kimi formalaşdığı ölkədir. Ona görə də Prezidenti narahat edən



başlıca məsələ Avropanın zəngin mədəni, iqtisadi-siyasi cəhətcə inkişaf etdiyi Fransada Azərbaycan diasporunun yetərincə formalaşmaması, azərbaycançılıq düşüncəsi ilə zəif bağlı olmasıdır. Heydər Əliyev bu ölkədəki soydaşlarımıza müraciətində demişdir: **«Mən əvvəllər də haradan azərbaycanlı səsi gəlibsə, maraqlanmışam. İmkanım daxilində əl tutub kömək etmişəm. Azərbaycanın çağdaş durumunda təbliğata daha çox ehtiyac vardır. İlk əvvəl bu sahədə siz azərbaycanlılar köməklik göstərməlisiniz. Bu istiqamətdə atılan hər addımı qiymətləndirəcəyik»** - Heydər Əliyev siyasi səmimiliyi ölçülərindən deyilmiş ifadədə gözəl bir məqam var: xalqımızın mentalitetində tarixən layiqli yer tutmuş «kömək etmək, yaxın adamına yardım əli uzatmaq» kimi mənəviyyat məsələsinə toxunur, «xidmətlərinizi qiymətləndirəcəyik»-deyib mənliyimizin etik dəyərlərindən uzaq düşmüş soydaşlarımızın vicdanına müraciət edir, tarixi vətənində yaşayan biz azərbaycanlılarla həmrəy olmağa səsləyir. Ölkə Prezidentinin milli həmrəylik ideologiyasının sosial bazası olan diasporaya yüksək əhəmiyyət verdiyini onun 1994-cü il fevralın 24-də Böyük Britaniyada yaşayan soydaşlarımız qarşısında söylədiyi bu sözlər də sübut edir: **«Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə bir vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq gərək hər kəs öz ana vətəni haqqında düşünsün: azərbaycanlılar artıq bilirlər ki, indi bizim, nəhayət, müstəqil dövlətimiz – Azərbaycan Respublikası var. Bu, müstəqil Azərbaycan torpağıdır. Deməli, harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən»** - ölkə prezidentinin bu ürək sözləri bir Vətənçilik konsepsiyasıdır, qədim türklərin

Vətən əxlaqı düşüncəsindən bəhrələnmiş milli mentalitetimizin bariz təzahürüdür.

Onun görüş və müraciətlərinin ruhuna dərindən nüfuz etdikdə aydın olur ki, o, milli düşüncə tərzinə söykənən hərəkətə və davranışa xüsusi diqqət yetirir. Məsələn, xarici ölkələrdə yaşayan həmvətənlərimizlə söhbətlərində, o, bəzi hallarda milli həyatımızda hələ də mövcud olan qüsurlarımıza da toxunmalı olur, soydaşlarımızın bəzən sosial biganəlik əhval-ruhiyyəsinin təsirinə qapıldıqlarını da demək məcburiyyətində qalır. O, belə bir məqamı vurğulayır: **«Xalqımızın çox gözəl xüsusiyyətləri var. Amma qüsurlu cəhətləri də var. Düşdüyümüz mühitdə bəziləri əriyib başqalarına qarışıb, öz milli mənliyini saxlaya bilməmişdir. Hesab etmək olar ki, indi Azərbaycan müstəqil dövlət olandan sonra digər ölkələrdə yaşayan azərbaycanlılar özlərinin Azərbaycan kimi Ana vətəni olduğunu dərk edəndən sonra bəlkə onda bu nöqsan aradan götürülə bilər...».** Göründüyü kimi milli həmrəylik hissinin formalaşması, onun real həyatda təcəssüm tapması prosesində ən mühüm problem vətənçilik kimi sosial-əxlaqi sərvətin mənlik düşüncəsində möhkəm yer tutması, mentalitetimizin ən mühüm keyfiyyət göstəricilərindən birinə çevrilməsi imkanıdır. O, bu missiyasını həmişə və durmadan davam etdirməyi xalqı qarşısında Prezident xidməti, özünün həyat amalı saymış, bu gün də bu nəcib niyyəti ön plana çəkməkdədir.

1995-ci il yanvar ayının 29-da Davosda (İsveçrə) yaşayan azərbaycanlılarla görüşündə İsveçrə-Azərbaycan cəmiyyətinin (2800-dən artıq üzvü var) üzvləri qarşısında çıxış edərək müstəqil Azərbaycanın həyata keçirdiyi islahatların miqyası və mahiyyətindən ətraflı söhbət açmışdır, ölkəmizin müstəqilliyinin daha da möhkəmləndirilməsində dünya azərbaycanlılarının milli həmrəyliyini başlıca siyasi-mənəvi faktor kimi dəyərləndirmişdir.



Xaricdəki həmvətənlərimizin milli problemlərimizə diqqəti cəlb etmək baxımından önəmli bir görüş Heydər Əliyevin 1995-ci il aprelin 17-də Belçikada azərbaycanlılarla söhbəti olmuşdur. Maraqlıdır ki, buraya Almaniyanın müxtəlif şəhərlərindən, İsveçrədən, Hollandiyadan gəlmiş soydaşlarımız da toplaşmışdılar. Artıq xaricdə yaşayan hər bir azərbaycanlı dünya siyasətində böyük nüfuz qazanmış, ümummilli lider Heydər Əliyev şəxsiyyətinə dərin ehtiramını bildirərək onunla görüşməyi şərəf işi sayırdı. Bu səmimi toplantıda ölkə Prezidenti xaricdə yaşayan ermənilərin güclü təbliğatı qarşısında sıx birləşməyi vacib milli keyfiyyət kimi irəli sürmüşdür. O, xüsusilə vurğulamışdır ki, milli dövləti olduğu üçün iftixar hissi keçirən hər bir soydaşımız, bu gün bizim hamımız Azərbaycanın müstəqilliyi və gələcəyi üçün çalışmalıyıq. Qarşılaşdığımız çətinlikləri aradan qaldırmaq üçün müstəqil Azərbaycanın Avropada, Asiyada, Amerikada geniş təbliğ olunmasına böyük ehtiyac var. Belə bir zəruri işdə isə xarici ölkələrdə yaşayan azərbaycanlıların respublikamıza böyük köməyi dəyə bilər. Lakin bundan ötrü, hər şeydən əvvəl adı çəkilən ölkələrdə yaşayan həmvətənlərimiz güclü təşkilatlanmalı, öz aralarında sıx əlaqələr yaratmalı, bütün dünya azərbaycanlıları qayğılandıran problemləri ağıl və səbrlə düşünməli və həll etməlidirlər. Onlar milli həmrəylik naminə vahid qüvvə şəklində birləşib bir-birlərinə dayaq olmalıdırlar.

Heydər Əliyevin istər ölkəmizdə keçirilən tədbirlərdə, istərsə də xarici səfərləri zamanı iştirak etdiyi görüşlərdə söylədiyi çıxışlarında və söhbətlərində aşıladığı ən başlıca fəlsəfi qayə **«Azərbaycanlı olmaq vətənpərvərlik hissinin təzahürüdür»** ideyasıdır, əgər biz azərbaycanlıyıqsa müstəqillik qazanmış Vətənimizin, milli varlığımızın mənası kimi dərk etməliyik, başa düşməliyik ki, müstəqilliyimiz bütün dünya azərbaycanlılarının tarix boyu düşüncəsində yaşadığı ideal və haçansa bunun reallıq olacağı inamının bu gün həqiqətə çevrilməsidir. Bunu dərk etmək milli həmrəyliyin ülvi qayəsini düşüncə əqidəsinə çevirmək, dünya birliyində özünü bəşəri idealları mənimsəmiş və bunları milli ideyasında üzvi

əlaqələndirilmiş bir xalq, millət kimi təsdiq etdirməkdir. Milli həmrəyliyi milli ideya səviyyəsində nümayiş etdirmək, dünyada bütün azərbaycanlıların milli mənliyini, onların şəffav mentalitetə malik olduqlarını sübut etdirməkdir. Vaxtilə, görkəmli fransız tarixçisi və filosofu J.Mişle «Xalq» əsərində (1845) yazırdı: «Millət, Vətən dünya həyatında başlıca olandır». Həqiqətən də azərbaycanlı və vahid Vətənə mənsubluq ideyası milli təfəkkürümüzün fenomeninə, varlığımızın qayəsinə çevrilməsə milli həmrəyliyimiz barədə emosional düşüncələrimiz mücərrəd fəlsəfəçilikdən başqa bir şey ola bilməz.

Dünya azərbaycanlılarının ümummilli lideri və yüksək amallı azərbaycanlı Heydər Əliyev 1997-ci il avqustun 4-də Birləşmiş Ştatlarda soydaşlarımız ilə görüşəndə «azərbaycanlı – vətən» ideyasının ülvi qayəsini bir daha vurğulayaraq demişdir: **«Bir daha deyirəm, bütün azərbaycanlıların indi dünyada bir vətəni var. O da Azərbaycan Respublikasıdır. Bir dövləti var. Bu, müstəqil Azərbaycan Respublikasıdır, onun dövlətidir. Gəlin hamımız bu dövlətin, bu vətənin ətrafında sıx birləşək. Kim harada yaşayır, yaşasın. Biz hamıya sərbəstlik veririk, Keçmiş vaxt deyil, biz heç kimin qarşısını almırıq. Amma harada yaşayırsan-yaşa, öz vətənini həmişə qəlbində saxla, fikirləş, sən Azərbaycan üçün nə etmisən? Bu barədə hər gün fikirləş».** Budur milli həmrəylik fəlsəfəsi, düşüncəmizi milli ruhda saflaşdıran, mentalitemizi mənalandıran təfəkkür fəlsəfəsi.

Müdrik siyasətçinin öz soydaşlarına verdiyi bu tövsiyə, bizcə, təkcə ABŞ deyil, bütün yer üzündə yaşayan azərbaycanlıların düşüncə tərzinə dərindən hopmuş, onların varlığının əqidə meyarına çevrilmişdir. Bu görüşdən bir il keçməmiş soydaşlarımız 1998-ci ilin may ayında Vaşinqtonda Dünya Azərbaycanlılarının II konqresinə toplaşmışlar. Ölkə Prezidenti bu tədbiri xarici soydaşlarımızın həyatında təqdirəlayiq hadisə hesab etmiş, özünün təbrikində ürək sözlərini belə çatdırmışdır. **«Əziz soydaşlarım! Azərbaycan**



**bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba yurdudur. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, qürbətdə yaşayan, lakin qəlbi doğma Azərbaycanın eşqi ilə döyünən soydaşlarımızın da, xalqımızın da milli azadlıq mübarizəsində, tərəqqisi və inkişafı yolunda diqqətəlayiq xidmətləri, zəhmətləri vardır. Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı müqəddəs vətən amalı və Azərbaycan dövlətçiliyi ətrafında amal və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirməsi, ay-ulduzlu üç rəngli bayrağımız bütün soydaşlarımızın müqəddəs and yerinə çevrilmişdir. Bu bizim hamımızın ümumtale işimiz, vətənə övladlıq borcumuzdur. Əmin olduğumu bildirmək istəyirəm ki, xeyirxah və nəcib niyyətlərlə bir araya gəldiyimiz toplantı günlərində ümummilli problemlərimiz müzakirə ediləcək, xaricdəki çox - milyonlu Azərbaycan diasporunun təşkilatlanması, tarixi Vətənlə daimi və davamlı əlaqələrin zəruriliyi barədə geniş, ciddi fikir mübadilələri aparacaqdır».**

Heydər Əliyevin milli həmrəylik konsepsiyasının başlıca qayəsi onun «gərək xalq, millət yaşasın» kəlamıdır. Bu müdrik ideya yeni reallıqlarda düşüncə tərzimizin, təfəkkürümüzün, intellektimizin fəlsəfi tərbiyəsi üçün misilsiz örnəkdir. Soydaşlarımızla keçirdiyi bütün görüşlərində o, azərbaycanlıları möhkəm birliyə, bir-birinə yardımçı olmağa, dilimizi, mədəniyyətimizi, musiqimizi, adət-ənənələrimizi unutmamağa çağırır. Soydaşlarımızın düşüncəsində, əqidəsində milli ruhu yaşatmağı milli varlığımızın inkişafını müəyyənləşdirən çox mühüm sosial-psixoloji amil sayır. Onun müdrik tövsiyələrini, ağıllı siyasətçi məsləhətlərini Rusiyada, Ukraynada və digər MDB ölkələrində Vətən eşqi ilə yaşayıb yaradan bütün soydaşlarımız dinləmiş və son dövrdə təcrübənin göstərdiyi kimi, ölkə Prezidentinin yüksək milli amal aşılayan sözləri onların qürbətdəki həyat tərzinə yeni keyfiyyətlər kəsb

etdirmişdir. Onlar etiraf edirlər ki, Prezidentlə görüşlərdə onun dilimizi, mədəniyyətimizi, tarixi dəyərlərimizi qorumaq barədə tövsiyələri qızğın alqışlarla qarşılanır, soydaşlarımızın düşüncəsinə həkk olunur.

Müdrik dövlət başçısı kimi Heydər Əliyevin milli həmrəylik fəlsəfəsinin təntənəsinin bariz təzahürü Bakıda 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi oldu. Planetin müxtəlif guşələrində azərbaycanlıların yeni keyfiyyətdə təşkilatlanmasında mühüm birləşdirici rol oynayan bu qurultay ölkə Prezidentinin böyük təşəbbüsü və özünün ən fəal iştirakı sayəsində dünya əhəmiyyətli hadisə olmuşdur. Qurultaydakı nitqində Heydər Əliyev demişdir: **«Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi həm Azərbaycan üçün, həm də bütün dünya azərbaycanlıları üçün çox böyük əhəmiyyət kəsb edir».** İnsanlar milliyyətindən, irqindən, dinindən asılı olmayaraq hər yerdə özünü azad şəxsiyyət kimi dərk etməli, azadlıq qanunlarına uyğun yaşamalıdır. Millətinə bağlılıq, vətən sevgisi, milli dünyagörüşü hər bir azərbaycanlıya onun dünya ölkələrində öz həyatlarını qorumağa kömək etməlidir. Lakin bir azad vətəndaş olaraq hər bir azərbaycanlı milli həmrəylik hissini itirməmək şərtilə o bilməlidir ki, yaşadığı ölkənin vətəndaşıdır, onun qayda-qanunları ilə yaşamalıdır və istədiyi yol ilə getməlidir... bununla belə **«dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-birilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır».** Ölkə Prezidenti xarici soydaşlarımıza bir daha belə bir önəmli tövsiyəni xatırlatdı ki, **«Azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir, şerlərimiz, mahnılarımız, incəsənətimiz, xalqımıza mənsub olan adət-ənənələrimizdir».**



Fəlsəfi dildə desək, ölkə Prezidentinin sadaladığı bu mühüm milli keyfiyyətlər, xalqın düşüncə tərzini müəyyənləşdirən bu konponentlər azərbaycanlıların planetar həmrəyliyini təmin edən sosial-mədəni mexanizmlərdir, xalqın dünya-görüşünün əxlaqi parametrləridir, milli şərəf hissini sosial məzmunla zənginləşdirən zəruri paradiqmalardır.

Biz bu gün qürur hissi ilə deyə bilərik ki, dünyanın əsas beynəlxalq təşkilatlarının üzvü olan Azərbaycan Respublikasının vətəndaşları və xaricdəki soydaşlarımız dünya miqyaslı siyasətçi Heydər Əliyevin milli qaynaqlarımızdan qayələnmiş zəkasından ruhlanaraq, milli varlığımızın ən önəmli sərvəti olan milli həmrəylik hissinin dərin həyati və fəlsəfi mahiyyətini tam mənimsəyərək, müstəqil Azərbaycanın beynəlxalq münasibətlər subyekti kimi dünya birliyində daha da möhkəmlənməsindən istifadə edərək böyük amallı ölkə Prezidentinin tövsiyələrini əzmlə həyata keçirəcəklər.

Beləliklə, Azərbaycanın üzləşdiyi ağrılı problemlərin ölkəmizin milli maraqları çərçivəsində həlli və dünyanın bir çox dövlətləri ilə sıx əməkdaşlıq və perspektivdə müttəfiqlik münasibətlərinin qurulması işində nəhəng qüvvə olan diasporumuz formalaşması dünya azərbaycanlılarının milli həmrəyliyi üçün zəruridir. Dünya azərbaycanlılarının milli həmrəylik hissinin yüksəlməsi milli mentalitetimizdə həmrəyliyin birləşdirici amil kimi kök salmasına və müstəqilliyimizin daha da möhkəmlənməsində və inkişafında müstəsna rol oynayacaqdır.

## VI FƏSİL

## DÖVLƏTÇİLİK VƏ SİYASİ MENTALİTET

Siyasi mentalitet fərdi və kollektiv siyasi şüur tərəfindən siyasi təcrübənin dərk edilməsi olub mövcud siyasi kollektiv üçün aktual olan dəyərləri ifadə edir. Bu mənada o, sosial-siyasi sistemin öyrənilməsinin və başa düşülməsinin vahid sinkretik formasıdır.

Ümumiyyətlə, rasional idrakdan fərqli olaraq mental dərk etmənin dəqiq müəyyənləşmiş hüdudları yoxdur. Mentalitetin formalaşması çox zaman bitəlşüur sərhədlərində, onun dərinliklərində formalaşır. Siyasi mentalitetin iki yaradıcı sosial subyekti olur ki, onunda birincisi xalqdır. Bir qayda olaraq, onun təsəvvürləri anonim olaraq mifoloji şüurda həyata keçirilir. İkinci subyekt elitadır. Elita isə siyasi təcrübəni siyasi şüurun idealları, simvolları, dəyərləri, stereotipləri və digər cəhətlər formasında dərk edir.

Maraqlı məqam budur ki, xalqın aktual şüurunda ehkamcasına kök salmış mental xüsusiyyətlərdən fərqli olaraq siyasi mentalitet həmişə sadədir və hamıya müəssirdir, bu şərtlə ki, təbii mədəniyyətin zəminində yaranmış olsun. O, ənənə ilə sıx bağlı olaraq daim siyasi praktikada reallaşır. Mentalitet şüuri fəaliyyətin inikas forması kimi insanın dünyaya gəldiyi gündən ömrünün sonuna kimi formalaşır. Tərbiyə-təhsil, siyasi və ictimai sosiallaşma, siyasi mədəniyyət və iştirak, elektoral davranış, siyasi elitalaşma - bütün bu amillər siyasi mentalitetin formalaşmasına mühüm təsir göstərir. Lakin burada belə bir məqamı da qeyd edək ki, siyasi mentalitetin struktur elementləri olan bu fenomenlər hakim mentaliteti yaratmaq üçün müxtəlif modifikasiyaya uğrayırlar. Sadə şəkildə desək, bütöv sistem kimi siyasi mentalitet şüurlarda özünəməxsus səviyyədə qavranılır. Bu mənada mentalitetin diferensasiyasından danışmaq olar, belə ki, bu reallıq kimi o, siyasi mədəniyyətin strukturunu təkrar istehsal edir. Elita



submədəniyyətləri mentallığın formalaşmasında fərqli rol oynayır. Belə halda siyasi mentallıq sadaladığımız struktur elementlərindən götürülmüş dəyərlərə əsaslanır. Mentallığın dəyişməsi siyasi marqinallara da xasdır. Cəmiyyətin böhranlı çağında siyasi və sosial dəyişikliklərin getdiyi bir vaxtda mentalitet sabit olur, xarici xarakter daşıyır, insanları çaşdırır. Köhnə adət şəkli almış sərvətlər dağılır, yenilik isə ya təşəkkül dövrünü keçirir, ya da xəyali xarakter daşıyır. Lakin ictimai şüurun inkişaf dialektikası elədir ki, bütün qeyri-müəyyənliyə aydınlığı məhz həyatın özü gətirir.

Mentalitetin, xüsusilə siyasi mentalitetin ən mühüm funksional xarakteri bundadır ki, o, həyatı sinkretik formada yığcam əks etdirir, həyati dəyərlərin incə məqamlarını ehtiva edir. Artur Şopenqauer deyərmiş ki, həyat hədiyyə deyil ki, ondan ləzzət alasan. Həyat yerinə yetirilməsi tələb olunan tapşırıqdır, borcdur. Bəlkə buna görə o, tarix-insani məna kəsb edir. Siyasətçinin əsas fəaliyyət metodu hadisələrə tez reaksiya verməsidir. Əgər zaman hadisələrin rejissorudursa, siyasətçi zamanın rejissorudur. Sadə insan deyə bilər ki, mən yox, zaman təqsirkardır. Siyasətçi isə deyir zaman belə gətirib, çünki siyasətin özü bu cürdür, baş verənlər üçün zaman yox, mən məsuliyyət daşıyıram. Bu mənada siyasətçi, N.Berdyayevin sözləri ilə desək, çalışır ki, həyatda yüksək məqsədlər naminə yalan bərqərar olmasın, xeyir naminə şərə bəraət qazandırmasınlar. Ona görə də ağıllı, nəzəri təfəkkürə malik siyasətçi başa düşür ki, siyasət dünya haqqında bilik deyil, dünyanın qurulması barədə bilikdir, elmdir. Özü də bu bilik xalq iradəsinə söykənən bilikdir.

Bu gün cəmiyyət özünün mürəkkəb və ziddiyyətli tarixi mərhələsini yaşadığı bir zamanda insan potensialına, onun intellektual resurslarına müstəsna ehtiyac duyulur, çünki siyasi reallıqları dərk etmək, hər bir fərdin şüurunu yeni quruculuğa yönəltmək son dərəcə mühüm sosial vəzifədir. İctimai şüurun mental xüsusiyyətlərinin sarsıntılara məruz qaldığı bir zamanda belə bir vacib məsələni dərk etmək lazım gəlir: bu gün siyasi hakimiyyətdən nə asılıdır, bilavasitə liderdən nə asılıdır, başqa

sözlə, hər iki fenomen nəyə qadirdir. Bizə elə gəlir ki, liderlə siyasi hakimiyyətin bu cür sosial qarşılıqlı şərtlənməsi səviyyəsi cəmiyyətdəki dəyişikliklərin keyfiyyətini bərpa edə bilər. Buna görə də yeni formasiya liderinin siyasət fəlsəfəsinin mahiyyəti heç də öz hakimiyyətini göstərmək deyil, əksinə, sübut etməlidir ki, onun rəhbərlik etdiyi hakimiyyət həyatın bütün sahələrində ölkə vətəndaşlarının fəaliyyəti üçün məsuliyyət daşıyır. Heydər Əliyev məhz bu cür milli liderdir. Ümummilli liderin hakimiyyət fəlsəfəsi uzun təkamül və inkişaf prosesi keçmişdir. Əgər Heydər Əliyevin hakimiyyət fəlsəfəsi və psixologiyası haqqında fikirlərini, ideyalarını konseptual şəkildə ifadə etmək istəsək, onda bunları deyə bilərik: millətin tarixi inkişafı onu təşkil edən insanların müəyyən keyfiyyətindən asılıdır. Sivilizasiyanı öyrənən fəlsəfi təlimlərdə sübut ediblər ki, bəşəriyyətin heç bir «obyektiv xüsusiyyət» deyilən cəhəti yoxdur. Bu mənada hakimiyyət fəlsəfəsi də insanlıq meyarlarına söykənən humanitar fəndir. F.İ.Uspenski yazırdı ki, əgər biz bütün tarixi təkamülü qaçılmaz və amansız qüvvələrin ayağına yazsaydıq, onda tarix öz əxlaqi və humanitar xarakterini itirmiş olardı. Buna görə Heydər Əliyevin hakimiyyət fəlsəfəsinin mühüm metodoloji prinsipi keçmişə sağlam düşüncə mövqeyindən, yaradıcı yanaşmaqdır. O, tarixi ənənələrə nihilist münasibətin tam əleyhinədir. Biz yuxarıda ölkə Prezidentinin tarixi yaddaş, vətən amalı ilə bağlı qaldırdığı problemlərdən bəhs edərkən bu məsələlərə müəyyən qədər toxunduq, lakin Heydər Əliyev fəlsəfəsinin önəmliliyi ondadır ki, o öz təlimlərində xalqının həyatını dərindən əks etdirə bilir. Dərin dünyagörüşə malik bu tanınmış siyasətçiinin həyatı canlı təkamül nümunəsidir. Sosializm cəmiyyətini təkmilləşdirmək naminə siyasi fəaliyyəti yaxından müşahidə etməsi onun siyasi təcrübəsini xeyli zənginləşdirmişdir. O, 70-ci illərdə sosializmi ideologiyalaşdırılmış əxlaq normaları əsasında inkişaf etdirməyin acı aqibətini öz təcrübəsində aydın görmüş və bunun çox ağır nəticələrə gətirəyəcəyini irəlicədən sezmişdi. Təsadüfi deyil ki, o, 1991-ci il iyulun 19-da Sov.İKP sıralarından çıxmaq haqqında ərizəsində yazmışdı:



**«yeniləşdirilən partiya, yeniləşən İttifaq barədə sonsuz bəyanatlar xalqı növbəti dəfə aldatmaqdır».** Bununla belə, Heydər Əliyevin siyasi müdrikliyi sosialist keçmişimizin müəyyən üstünlüklərini layiqincə qiymətləndirməsidir. Həmin illərdə respublikada onun rəhbərliyi sayəsində yaradılmış digər respublikalarla müqayisədə çox güclü sosial-iqtisadi və intellektual potensial xalqımızın milli sərvəti kimi bu gün də inkişafımızın gərəkli bazası olaraq qalır. Həm də bugünkü reallıqlarda keçmişin üzə çıxan qüsurları çağdaş həyatın inkişaf meyarlarını işləyib hazırlamaqda ibrətamiz rol oynayır.

Bu gün cəmiyyətin siyasi mentalitetinin formalaşması tələb edir ki, mənəvi borc, məsuliyyət, xeyir və şər kimi fəlsəfi-etik anlayışların xüsusi sosial-mənəvi mahiyyət kəsb etdiyi bir şəraitdə bəzi liderlərin siyasi mövqelərinə etimadsızlıq, riyakarlıq və simasızlıq kimi neqativ keyfiyyətlər aradan qaldırılsın, yeni həyat tərzinin formalaşdırılması prosesində əngələ çevrilməsin.

Keçmişin təcrübəsini dərindən öyrənən və sosializmin dağıdılmasını şərtləndirən amilləri dərindən təhlil edən Heydər Əliyev hakimiyyətdə məsuliyyətsizliyin və siyasi həyatda gizli riyakarlığın, konformizmin kökünün kəsilməsini, ikili standartlardan uzaqlaşmağın vacibliyini yaxşı bilir. Ona görə də Azərbaycanın müstəqilliyini müdafiə etmək və möhkəmləndirmək onun hakimiyyət fəlsəfəsinin strategiyası və metodologiyasıdır. Biz «hüquqi dövlət və vətəndaş cəmiyyəti qururuq» ideyası onun siyasət fəlsəfəsinin başlıca ideyasıdır.

Biz qeyd etdik ki, insan mentaliteti kəskin böhranların baş verdiyi ictimai mühitdə, hərc-mərclik, xaos və qanunsuzluğun baş alıb getdiyi yerdə ağrılı təsirlərə məruz qalır, yanlış şüur həyatı eybəcər boyalarda təsvir etməyə başlıyır ki, bu da milli siyasi şüurun inkişafını təmin edən sosial-siyasi oriyentirləri nəinki dərk etməyə mane olur, habelə reallıqların təhrif olmasına gətirib çıxarır. Məhz buna görə də təcrübəli siyasətçi Heydər Əliyev ölkədə sabitliyin yaranması və qorunması probleminə birinci dərəcəli əhəmiyyət verir. Sağlam düşüncə fəlsəfəsinə üstünlük verən ölkə Prezidenti, bununla belə,

hesab edir ki, tam müstəqilliyə nail olmaq, azadlığı dolğun şəkildə həyata keçirmək siyasi cəhətdən çox çətin və məsuliyyətli prosesdir. Onun hakimiyyət fəlsəfəsində irəli sürülən konsepsiyaların və mülahizələrin mahiyyətini müasir inkişafın bəşəri ideyası olan demokratiya təlimi təşkil edir.

Ümumiyyətlə, yeni müstəqil dövlətlərdə demokratikləşdirmə prosesi çox ziddiyyətli, həlli demokratik üsullarla axtarılan, problemlərlə müşayiət olunduğundan hakimiyyət strukturlarında cəmiyyətin bütün təbəqələrinin təmsilçilərinin iştirakını, idarəçiliyin inkişafını, hər bir millətin və xalqın azad inkişafını, onların və beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığın yaranmasını, qanunçuluğun, dövlətin və ictimai həyatın hüquqi əsaslarının yaradılmasını, aşkarlığın genişləndirilməsini və ictimai rəyin rolunun artırılmasını və s. tələb edir. Bütün bu demokratik dəyərlər, təbii ki, təkcə siyasətdə yaxından iştirak edənlərin deyil, ümumiyyətlə, bütün həyat sahələrinin siyasiləşdiyi hər yerdə insanların siyasi mədəniyyətini artırır, siyasi şüurunu yeni məzmunlu biliklərlə zənginləşdirir, yeni insanın pozitiv mental xüsusiyyətlərini inkişaf etdirir.

Mentalitetin sosial-siyasi məzmunundan söhbət gedərkən heç də belə düşünülməməlidir ki, onun təkmilləşdirilməsi üçün zəruri xüsusiyyətlər yalnız gələcəkdə bərqərar olacaqdır, mənfi keyfiyyətlər isə guya keçmişdə formalaşmışdır. Bu həm də o deməkdir ki, milli mənlik şüurunun strukturlarını müəyyənləşdirən sosial xarakteristikalar millətin və onun dövlətinin inkişafının müxtəlif mərhələlərində adekvat olmur. Dövlətin və millətin inkişaf qanunauyğunluqlarının üzə çıxardığı bir həqiqət də budur ki, həm müsbət, həm də mənfi keyfiyyət və cəhətlər istər köhnə, istərsə də yeni sosial-siyasi qurumlara ziddiyyətli amillər kimi daxil olurlar və sosiumda insan bunların hər ikisi ilə üzləşməli olur. Belə ki, keçmişdə təşəkkül tapmış milli adətlər arasında gərəkli, hətta ümumbəşəri motivlər də ola bilər, son zamanlar, xüsusilə dərin böhran mərhələsində yaranmış ənənələr və adətlər isə neqativ mahiyyət kəsb edə bilər. Böhran dövrünün bir xüsusiyyəti də bundadır ki, bəzi



zərərli ənənələr yenidən canlanaraq daha mənfi keyfiyyətlərdə təzahür edir. Belə şəraitdə mənlik şüurunda bir növ daxili təbəddülat baş verir, fikir enerjisi reallığı və bu məcrada özünü dərk etməyə çalışır. Millətin şüurda əksini tapan yeni sosial xarakteristikalar, hüquqi dövlət və vətəndaş cəmiyyəti kimi kateqoriyalar milli düşüncəyə yeni sosial enerji verir. Yeni müstəqil dövlətlərdə ağrılı keçən demokratik dəyişikliklər prosesi ilk anlarda elə bir müsbət dəyərlər yaratmasa da, dirçəlməkdə olan şüurun fenomeni kimi milli mənafelər probleminə marağı artırır, politoloji və fəlsəfi düşüncələrdə, elmi polemikada sosial hadisə kimi qəbul olunur. Bu o deməkdir ki, mentallığın tarixi məhdudluqlarından xilas olmağa çalışan millət özünü mənlik şüurunda tapmağa cəhd edir, yəni dövləti yaradan sosial fenomeni dərk etməyə başlayır. Başqa sözlə, konkret millətə mənsub olan şəxsiyyət üçün milli mənafelər özünüidentifikasiya amili kimi çıxış edir, bu, dövlətin həyata keçirdiyi ən mühüm funksiyası kimi qəbul edilir. Milli inkişafın obyektiv məntiqi belə bir həqiqəti şüurda möhkəmlədir ki, qlobal siyasi inkişaf şəraitində milli mənafeləri həyata keçirmək naminə birləşməyi, həmrəyliyi təmin edən milli suveren dövlətçilik vacib sosial mexanizmdir.

Bu kontekstdə demək olar ki, Heydər Əliyev hakimiyyətə məhz milli mənafelərin düzgün başa düşülməsinə, onun milli şərəf və ləyaqət ölçülərində dərk olunmasına, bu fenomenin dövlətin həqiqi funksiyası kimi qavranılmasına ehtiyac duyulduğu gərgin dövrdə gəldi. Təcrübəli siyasətçinin qayıtmasına qədər milli mənafe dövlətçilikdə yetərincə dərk edilmirdi, çünki yenicə yaranmış suveren dövlətə dəyən ciddi ziyan, onun fəaliyyətini iflic edən siyasi-psixoloji durumun mövcudluğu şəraitində idarəetmədə hökm sürən səriştəsizliklə bunu həyata keçirməyə imkan vermirdi. Heydər Əliyevin qeyd etdiyi kimi, 1991-1993-cü illərdə **«hökümətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət aydın, ardıcıl və prinsipial bir kursun olmaması idi»** və haqlı olaraq o bu illəri dövlətçiliyimiz üçün itirilmiş illər hesab edir. Xalqın düşüncəsində milli dövlətçilik barədə yanlış təsəvvürləri

yaradan reallıq belə idi ki, dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini inkar edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulurdu». Xalqın ümdə mənafelərinə sosial biganəlik, tariximizin ən mürəkkəb, ziddiyyətli bir vaxtında səriştəsiz insanların «hakimiyyət oyunları» təbii olaraq milli şüurda milli fəlakət anlayışını möhkəmləndirməyə başlayırdı. Tarix xalqın milli varlığını və mənəviyyatını fəlakətlə üz-üzə qoymuşdu. Və təsadüfi deyildir ki, ölkə prezidenti ikinci gəlişinin ilk aylarında çoxlu sayda çıxışlarında, nitqlərində, müsahibələrində real siyasi durumu barədə narahatlığını xalqla bölüşdürür, milli dövlətçilik strategiyasının işlənib hazırlanmasını, böhrandan çıxmaq üçün dövlətçiliyin möhkəmləndirilməsinin müstəsna zəruriliyini elan edirdi. O, şüurlara belə bir inamı aşılayırdı ki, başlıca vəzifə milli dövlətçiliyi daha da möhkəmləndirmək xalqın elmini, mədəniyyətini, təhsilini inkişaf etdirmək intellektual sərvətlərini artırmaq, mənəviyyatını qorumaqdır. Bütün bunları dərk etmədən, milli şərəf və ləyaqət məsələsi olduğunu başa düşmədən milli dövlətçiliyin tarixi rolunu, onun sosial missiyalarını, siyasi mahiyyətini də başa düşmək mümkün deyildir.

Ölkə prezidenti hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu işinin milli-tarixi əhəmiyyətini əsaslandırarkən Azərbaycan gerçəkliyinin real iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi durumundan çıxış edir, bu prosesdə millətin mənlik şüurunun və düşüncə tərzinin roluna yüksək qiymət verir. Bununla bağlı olaraq biz Heydər Əliyevin hüquqi dövlət konsepsiyasının bəzi nəzəri-metodoloji cəhətlərinə toxunmaq istərdik.

Birincisi, Heydər Əliyevin siyasi görüşlərində hüquqi dövlətin konstitusion prinsipləri vətəndaşların hüquqlarının real təcəssümü kimi təqdim olunur. Hüquqi dövlətin fəaliyyəti qanunun aliliyi prinsipi ilə tənzimlənir. O, şəxsiyyətin azadlığını, təhlükəsizliyini və ləyaqətini qoruyur, hakimiyyəti suveren xalqın iradəsinə tabe etdirir. Hakimiyyətlə şəxsiyyət arasında



münasibətlər insan haqlarını qoruyan konstitusiya vasitəsilə təmin edilir. Qanunvericilik sistemi elə qurulur ki, xalq dövlətin fəaliyyətinə nəzarət etmək iqtidarında olur. Müstəqil məhkəmələr qanunun aliliyini qoruyur, onun ümumiliyini, yəni bütün vətəndaşlara, dövlət və ictimai institutlara eyni dərəcədə şamil olunması prinsipini müdafiə edir.

İkincisi, hüquqi dövlət, onun fikrincə bir tərəfdən, millətin firavanlığını təmin etməli, digər tərəfdən də öz vətəndaşlarının şüurunda və psixologiyasında milli şərəf və ləyaqət hissini aşılamalı, bunu milli mənafelərin həyata keçirilməsi ilə əlaqələndirməlidir. Lakin, bununla belə, Heydər Əliyev Azərbaycan gerçəkliyini dərindən bildiyindən dövlətçilik konsepsiyasında bir sıra problemlərin həllinə kompleks yanaşır. Gerçəkliyimizin təxirəsalınmaz problemlərinin həlli və çətinliklərinin aradan qaldırılması kimi real dövləti vəzifələr hakimiyyət strukturlarından tələb edir ki, xalqın siyasi-mənəvi potensialı milli inkişaf naminə səfərbər edilsin. Heydər Əliyevin milli hüquqi dövlət konsersiyasının mənəvi əsasları barədə mülahizə və fikirlərini ümumiləşdirsək belə bir nəticəyə gəlmək olar: bir tərəfdən xalqın rifahı, həyatının real səviyyəsi və keyfiyyəti, digər tərəfdən isə milli və bəşəri dəyərlərlə zənginləşmiş mənlik şüuru xalqın dövlətçiliyinin məzmununu müəyyənləşdirən parametrlərdir. Xalqın psixologiyasını və mentalitetini yaxşı bilən və buna ehtiramla yanaşan Heydər Əliyev, bir çox rəhbər işçilərin düşüncəsində təəssüf ki, yetərincə yer tutmayan güclü sosioloji müşahidə qabiliyyətinə malikdir. O, özünün hüquqi dövlət təlimində milli psixologiyanı və xalq mentaliteti fenomenlərini real gerçəkliyə müncər etmir, milli mənlik şüurunun mühüm elementlərindən biri olan demokratik inkişaf ideyalarına bağlılıqla sosiumda trasformasiya hadisələrin gedişini dərk etmək qabiliyyəti arasında dialektik vəhdəti göstərir. Onun aşıladığı mühüm sosial-psixoloji dəyər budur ki, öz şərəf və ləyaqətini qiymətləndirə bilən xalq, hər şeydən əvvəl bu keyfiyyətlərə hörmət edə bilən dövlətini qurmalı və onun işlərində, mühüm siyasi-hüquqi qərarların qəbul edilməsində, başqa sözlə,

demokratik proseslərdə fəal iştirak etməlidir. Dahi Hegelin «dövlət mənəvi substansiyadır» kəlamını xatırlatsaq deməliyik ki, Heydər Əliyev belə bir ideyaya üstünlük verir: milli dövlət və onun başında duranlar yüksək mənəviyyata, mədəniyyətə söykənməlidirlər. Onun əqidəsincə, yalnız öz tarixi və mədəniyyəti ilə yanaşı, bəşəri dəyərləri də milli şüur və milli ideya prizmasından mənimsəyən vətəndaş öz dövlətini möhkəmləndirə bilər. Bir sözlə, ölkə Prezidentinin dövlətçilik konsepsiyası Vətən, suverenlik, müstəqillik, milli mənəviyyat, Vətənpərvərlik kimi bəşəri məna və əbədi əhəmiyyət kəsb edən sərvətlərdən qidalanır, xalqın bu dəyərləri öz sosial-siyasi dünyagörüşünün ayrılmaz tərkib hissəsi kimi dərk etməyi aşılayır.

Üçüncüsü, Heydər Əliyevin ölkəmizdə onun təşəbbüsü ilə keçirilən tədbirlərdə, eləcə də xarici səfərlərdəki çıxış və nitqlərində milli dövlət quruculuğu proseslərini dünyanın müxtəlif guşələrində vətən ideyası ilə yaşayan azərbaycan diasporundan ayırmır. Bir daha qeyd edək ki, diasporun fəaliyyətində tarixi vətənin rolu mühüm əhəmiyyət kəsb edir. Əgər tarixi vətən öz diasporunun məskunlaşdığı ölkə ilə sıx geosiyasi münasibətdədirsə, bu problem xüsusi aktuallıq kəsb edir. Belə ki, tarixi vətən ölkənin milli maraqlarını təmin edən siyasi, iqtisadi və mədəni siyasət yeritmək məqsədilə çalışır ki, onun xaricdəki soydaşları məskunlaşdığı ölkənin həyatına daha sıx inteqrasiya olunsunlar. Öz diasporunun həyati problemlərinə maraq və qayğı göstərən ölkənin beynəlxalq imici müsbət olur, həmin ölkəyə münasibətdə həyata keçirilən, siyasətin mühüm göstəricisi kimi çıxış edir. Məhz buna görə dövlət öz diasporu ilə münasibətlərində siyasi, iqtisadi və mədəni informasiya məkanını genişləndirməli, xarici soydaşlarına yerli qanunlara və adətlərə hörmət etmək şərtilə hər cür yardım göstərməlidir. Bu, həmçinin dövlətlərin ikitərəfli əməkdaşlığının genişlənməsində, onlar arasında sülhpərvər münasibətlərin inkişafında mühüm rol oynaya bilər.

Digər tərəfdən, bu qəbildən olan münasibətlərin genişlənməsi əməkdaşlıq edən ölkələrdə sosial-siyasi sabitliyin



yaranmasında və möhkəmlənməsində mühüm rol oynaya bilər. Təsadüfi deyildir ki, ölkələr arasında qarşıdurma hallarının aradan qaldırılmasında maraqlı olan regional və beynəlxalq təşkilatlar tarixi vətənlə diaspor arasında normal münasibətlərin yaranmasını həmişə alqışlayırlar. O özünün 1997-ci il 25 dekabr tarixli «Bütün dünya azərbaycanlılarına» müraciətində deyir: **«Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, ata-baba yurdudur. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, dünyanın bütün ölkələrində yaşayan və qəlbi doğma Azərbaycanla döyünən həmvətənlərimizin də xalqımızın milli azadlıq mübarizəsində, ölkəmizin tərəqqisi və inkişafı yolunda önəmli xidmətləri vardır».**

Etiraf edək ki, hüquqi dövlət quruculuğunda diasporamızın potensialından istifadə nə qədər önəmli fəaliyyət olsa da, bu işdə böyük çətinliklərin meydana çıxması bir sıra mühüm problemlər yaradır. Bunları dərk etmədən diaspor hərəkatının strategiyasını qurmaq çətin olur. Birinci çətinlik bundadır ki, Rusiya, Fransa, ABŞ kimi ölkələrdə diaspor tam şəkildə formalaşmamış, təşəkkül tapmamışdır.

Görünür, bir sıra ictimai mərkəzlərin yaranmasına baxmayaraq, ictimai ətalət, həmvətənlərimizin cəlb olunmasında nisbi zəiflik göstərilməsi, bəzi təşkilatların yaranmasının təsadüfü xarakteri mühüm çətinliklərdəndir. Heydər Əliyevin hakimiyyət fəlsəfəsində suveren dövlətçiliyin inkişafının mexanizmi və milli dünyagörüşün təsdiqi olaraq partiya quruculuğu işi müstəsna yer tutur. Təcrübəli siyasətçi kimi, o, çox uzaqgörənliklə dərk edirdi ki, siyasi təşkilatlanma millətin sosial səfərbərliyinin göstəricisi, milli mənliyinin və iradəsinin özünütəsdiqi deməkdir.

Sovet imperiyasının dağılmağa başladığı illərdə Naxçıvanda olarkən dövlət xadimi Heydər Əliyev sosial-siyasi reallıqları diqqətlə izləyir, cəmiyyətimizdə baş verən ziddiyyətləri müdrikcəsinə təhlil edirdi. Başa düşürdü ki, ölkənin bu ağır günlərində təkcə Azərbaycanda deyil, habelə

dünyanın bütün guşələrində yaşayan azərbaycanlıların təşkilatlanması olduqca vacibdir, milli ideyası və ideologiyası hələ tam formalaşmamış xalqa milli səfərbərlik və sağlam düşüncə həmişəkindən daha çox lazımdır.

Xalqın taleyini düşünən ziyalılarımız artıq belə bir əqidədə idilər ki, Azərbaycanın faciəli günlərində Heydər Əliyev dühasından və siyasi təcrübəsindən istifadə etməmək bağışlanmaz tarixi səhv olardı. Odur ki, Heydər Əliyevdən partiya yaradıb sağlam qüvvələri öz ətrafında birləşdirməyi təkidlə tələb edirdilər.

Böyük siyasətdə öz sözünü desə və xalqı üçün çox iş görsə də, Heydər Əliyev yenidən siyasətə qayıtmağı fikrinə belə gətirmirdi. Bununla belə, xalqın faciəsi onu mənəvi dilemma qarşısında qoymuşdu: doğma Naxçıvanda qalıb rahat həyat sürmək, yoxsa yenidən siyasətə qayıtmaq? Nəhayət, real vəziyyəti bir daha dərindən təhlil edən təcrübəli dövlət xadimi «91-lər»in partiya yaratmaq ideyasına müsbət cavab verdi. Tarix belə bir həqiqəti dəfələrlə təsdiqləyib: siyasətçi yaşayırsa, deməli, seçim etməlidir. Xalqının və dövlətinin şərəfini yüksək tutan Heydər Əliyev də millətinin iradəsinə ehtiram göstərərək özünün tarixi seçimini etdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan partiyasının təsis konfransı keçirildi, Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi.

Bizcə, Heydər Əliyevin tarixi seçiminin fəlsəfi qaynaqlarını onun özünün mənəvi həyat mövqeyində axtarmaq lazımdır. Xalqın içindən çıxmış və xalqına qayıdan təcrübəli siyasətçi həmişə qürur hissi ilə deyir: **«Mənim gücüm, ilhamım mənim xalqımdır».** Digər tərəfdən, çalışdığı yüksək vəzifələrdə sovet rejiminin ziddiyyətləri ilə tez-tez üzləşməsi, dünyanın görkəmli siyasətçiləri ilə təmasları və bunun sayəsində əldə etdiyi təcrübə əsasında belə bir qənaətə gəlmişdi ki, **«Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar».** Elə bu səbəbdəndir ki, inam,



zəka, təcrübə kimi ümdə keyfiyyətlər öz dialektik təcəssümünü Heydər Əliyevin simasında cəmləşdirmişdi. Heç də təsadüfi deyil ki, hazırda Yeni Azərbaycan Partiyasının proqram fəaliyyəti məhz Heydər Əliyevin siyasət fəlsəfəsinə söykənir.

Beləliklə, Azərbaycan xalqı tarixinin olduqca ağır, demək olar ki, milli fəlakət həddinə çatdığı bir dövrdə qədirbilən ziyalıların təşəbbüsü və fəal iştirakı ilə Yeni Azərbaycan Partiyası yaradıldı.

Bu gün mübaliğəsiz demək olar ki, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev öz proqram prinsiplərini artıq Azərbaycan ziyalılarının müraciətinə verdiyi cavabda hərtərəfli açıqlamışdı. Bu prinsiplər ümummilli lider Heydər Əliyevin zəngin və mənalı rəhbərlik təcrübəsinin süzgəcindən keçərək partiyanın həyat kredosuna çevrilmişdir.

O zaman görkəmli siyasətçi Heydər Əliyevin başlıca qayğısı milli inkişaf naminə yaradıcı və mənəvi-intellektual potensialını səfərbər edərək xalqın dövlətçiliyimizə inamını artırmaq idi. Çünki daxili inamı milli-mənlik şüurunun elementinə çevirmədən xalqın iradəsini pozitiv fəaliyyətə istiqamətləndirmək mümkün deyildir. Yeni Azəbaycan Partiyasının fəaliyyət proqramının siyasi-fəlsəfi prinsipləri işlənib hazırlanarkən Azərbaycan müharibə vəziyyətində idi, Dağlıq Qarabağ tədricən əldən gedirdi. Buna görə də təcavüzü dayandırmaq ən mühüm milli məsələ və vəzifə kimi qarşıda dururdu. Görkəmli strateq Heydər Əliyev başa düşürdü ki, müharibənin uzun sürməsi Azərbaycanı milli inkişafdan dayandıra bilər. Ona görə də sülhsevər dövlət kimi tezliklə atəşkəsə nail olmaq üçün sülh konsepsiyasını yaratmaq lazım gəlirdi. Bunu aktuallaşdıran o idi ki, cəbhə bölgələrində baş alıb gedən özbaşınalıq ölkənin mövcud potensialına həm iqtisadi, həm də insan resurslarına ölçüyəgəlməz zərbə vururdu.

Hələ Naxçıvanda YAP-ın fəaliyyət proqramını, onun ideologiyasını formalaşdırarkən görkəmli siyasətçi özünün atəşkəs konsepsiyasını da işləyib hazırlamış və bunu özünün sülh fəlsəfəsinin əsas qaynağı kimi götürmüşdü. Odur ki, «yeni, müstəqil Azərbaycan uğrunda» devizini özünün

fəaliyyət kredosu seçmiş YAP-ın mühüm siyasi-ideoloji prinsiplərindən biri «ölkənin ərazi bütövlüyünün bərpası, ölkə əhalisinin dinc və firavan həyat şəraitinin təmin edilməsidir». On illik fəaliyyəti dövründə YAP-ın hər bir üzvü bu əqidəyə xidmət edir.

Milli inkişaf strategiyasını həyata keçirmək, hər şeydən əvvəl, müstəqil, güclü və qüdrətli dövlət quruculuğu uğrunda əzmkarlıqla mübarizə aparmaq deməkdir. Bunun üçün ilk vəzifə kimi ölkədə sosial-iqtisadi böhranı aradan qaldırmaq lazım idi. Əslində, şüurda başlayan böhran nəticəsində xalqın güzəranının dözülməz vəziyyətə düşməsi hadisələri diqqətlə izləyən və bir təcrübəli strateq kimi cəmiyyətin, demək olar ki, bütün sahələrində meydana çıxan dağıntı faktlarını analitik təhlil edən Heydər Əliyevdə böyük həyəcan doğururdu. Uzaqgörən dövlət başçısı ürəkağrısı ilə xalqına müraciət edirdi: **«Əgər Azərbaycan iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində (söhbət 1982-ci ildən gedir-Q.Ə.) dayanmadan aşağı düşməsini nəzərdən keçirsək, o zaman respublikanın necə böyük fəlakətlə üzləşəcəyini təsəvvür etmək çətin deyil».** Zəngin təbii sərvətlərə, sənaye, aqrar və sosial ehtiyatlara, lazımi intellektual potensiala malik olan bir ölkənin belə səfalət içində olması, şübhəsiz ki, xalqının qeyrətli oğlu Heydər Əliyevi narahat etməyə bilməzdi. Böyük həyat təcrübəsi keçmiş, müxtəlif dövlət vəzifələrində ləyaqətlə çalışmış Heydər Əliyevi YAP-ın yaradılması ərəfəsində narahat edən digər məsələ kadr siyasətinin düzgün aparılmaması idi. AXC-Müsavat rejimi dövründə bu sahədə hərcmərclik, sözün əsl mənasında, naşılıq, qeyri-professionallıq hökm sürürdü. Az əmək sərf edib, cəmiyyətdən daha çox qoparmaq kimi yaşayış yolunu seçmiş bədnam əxlaq sahibləri hər vasitə ilə hakimiyyətə soxulur, milli sərvəti amansızcasına talan edirdilər. Xalqın böyük ümid bağladığı islahatların həyata keçirilməsinə rəhbərlik naşı və savadsız kadrlara həvalə olunmuşdu. Bunu görmək çətin deyildi ki, o dövrdəki iqtidar elmi düşüncədən, dövlətçilik təfəkküründən tamamilə uzaq idi. Həmin dövrdə Azərbaycan EA-nın bir qrup tanınmış alimlərinin



imzası ilə dərc olunmuş «Respublikanın böhrandan çıxması sahəsində bəzi təxirəsalınmaz tədbirlər» adlı qəzet məqaləsində açıqca bildirilmişdi ki, iqtidarda olan kadrlar sosial-siyasi durumu düzgün qiymətləndirmir, ortaya çıxan ağrılı qüsurlar təhlil edilmirdi». Çünki keçmiş iqtidar konkret kadr siyasəti konsepsiyasına malik deyildi.

Qeyd etdiyimiz kimi, «dövlətçilik siyasəti» ona gətirib çıxarmışdı ki, bilikli və təcrübəli, yüksək ixtisasa malik kadr potensialı dövlət idarəçiliyindən tamamilə kənarlaşdırılmışdı. YAP-ın müasir tipli partiya şərəfini yüksəldən bu idi ki, Heydər Əliyev başda olmaqla onun yaradıcıları rəzalətin qarşısını alıb öz sıralarına layiqli vətəndaşları qəbul etdi. Bu gün təcrübəli siyasətçinin rəhbərlik etdiyi partiya intellektual potensialına görə ən zəngin təşkilatdır. Onun fəaliyyət fəlsəfəsinin əsasını insan amilindən, insan resurslarından məqsədyönlü və rasional istifadə kimi milli hüquqi dövlət quruculuğuna cavab verən prinsiplər təşkil edir. Hələ Naxçıvanda olarkən ölkə və millət qarşısında duran qlobal problemlərin milli mənafelər baxımından həlli strategiyasını işləyib hazırlayan Heydər Əliyev bu işə layiqli kadrları cəlb etməyi ön plana çəkmişdi. YAP-ın layiqli işçi komandası bu gün də həmin əxlaqi meyarlara söykənən kadr siyasətinə tam riayət edir.

Xüsusilə qeyd olunmalıdır ki, təcrübəli siyasi xadim Heydər Əliyev YAP-ın müasir tipli intellektual partiya olması üçün böyük səy göstərmişdir. Məlum olduğu kimi, inkişaf etmiş cəmiyyətlərdə siyasi partiyalar ümumi seçki hüququnu reallaşdırmağı, demokratik institutlardan normal istifadə etməyi öz qarşılarına məqsəd qoyurlar. Hazırda YAP-ın müasir partiya kimi yetkinləşməsi özünü mütəşəkkilliyində və təşkilati prinsiplərinin həyatiliyində göstərir. Bununla partiyanın həm sosial bazası genişlənir, həm də fəaliyyətinin səmərəsi artır. O, ölkəmizdə demokratikləşmə prosesinin öndəri və ilhamçısıdır.

Bir həqiqəti qəbul etmək lazımdır ki, demokratiya davamlı prosesdir. Fransız filosofu F.Dyuverje demokratiyanı uçuşda olan təyyarə, yaxud hərəkətdə olan atom reaktoru adlandırır.

Fəlakətə uğramamaq üçün həmişə onları ağılla idarə etmək, hərəkət parametrlərini normal saxlamaq lazımdır.

Partiyanın yaradılması ərəfəsində onun üzvləri Heydər Əliyev başda olmaqla YAP-ın ideologiyasını da müəyyənləşdirmişlər. İdeologiyanın şüurda və cəmiyyətdə təsdiq olunması üçün dünya görüşü böhranından yaxa qurtarmaq lazım idi. Qeyd edək ki, XX əsrin 80-cı illərin ortalarından sovet məkanında başlayan böhranı sonralar permanent xarakter kəsb etməyə başlamışdı. Əslində bu milli şüurun böhranı idi və bu gün də onun izləri qalmaqdadır. AXC-Müsavat rejimi onu aradan qaldırmaq üçün nəinki heç bir dövlət səviyyəli tədbirlər görmür, əksinə səriştəsiz idarəçiliyi ilə böhranı daha da dərinləşdirdi. Milli təhlükəsizlik, milli həmrəylik və vətənpərvərlik şəxsiyyətin, cəmiyyətin və dövlətin məqsədlərinin vəhdəti anlayışları sanki unudulmuş, əhalinin hakimiyyətə etimadı azalmışdı. Bu da öz növbəsinidə özbaşınalığa aparıb çıxarır, hüquqi dövlət quruculuğu işinə böyük təhlükə yaradırdı.

Buna görə də Heydər Əliyevin siyasət fəlsəfəsinə söykənən YAP-ın fəaliyyətinin başlıca istiqaməti Azərbaycanı yeniləşdirmə yolu ilə inkişaf etdirməkdən ibarətdir. Bu partiyanın son illərdəki fəaliyyəti göstərir ki, milli tərəqqi yolunda atılan addımlar Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq məqsədindən qaynaqlanır.

Azərbaycan xalqı, azərbaycanlılar dünyanın müxtəlif dövlətlərində - İranda, Rusiyada, Türkiydə, Gürcüstanda, ABŞ-da, İngiltərədə, Almaniyada, Fransada, Skandinaviyada, Baltikyanı ölkələrdə və dünyanın digər regionlarında yaşasalar da onları bir-birinə yaxınlaşdıran mənəvi-ideoloji mexanizmlər vardır: bu ana dilidir, ata yurdu Azərbaycandır.

Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyini daha da möhkəmləndirmək üçün azərbaycançılığı aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar arasında müntəzəm təbliğ etmiş, indi də bu nəcib fəaliyyəti davam etdirməkdədir. Bu gün azərbaycançılıq birləşdirici milli ideyaya çevrilmişdir. Ölkə Prezidentinin qeyd



etdiyi kimi **«azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda, ümum bəşəri dəyərlərin sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir».**

Məhz bu ideyanın milli ümumbəşəri qayəsi dünya azərbaycanlılarının Bakıda keçirilmiş I qurultayının iştirakçılarını bir-birinə yaxınlaşdırmış və onlarda belə bir inam yaratmışdır ki, bundan sonra daha sıx ünsiyyətdə olmaq, müxtəlif ölkələrdə mütəşəkkil Azərbaycan diasporu formalaşdırmaq olduqca vacibdir. Bu gün cəsarətlə demək olar ki, YAP-ın fəalları tərəfindən xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələri möhkəmləndirmək üçün gördüyü böyük işlər həm ölkəmizdə, həm də xaricdəki soydaşlarımızın siyasi düşüncəsi üçün əvəzsiz fəaliyyətdir.

Azərbaycançılıq ideyası dünya azərbaycanlılarının milli həmrəyliyinin təmin olunmasına yönəlmiş milli fəlsəfi ideologiyanın təməl daşıdır. Hazırda yeni təfəkkürə yiyələnmiş azərbaycanlıları öz ətrafında birləşdirmiş YAP öz mühüm tarixi inkişaf mərhələsini yaşayır. Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycan dövlətinin xarici siyasətində milli mənafelərin həyata keçirilməsini başlıca vəzifə seçmiş, ölkəmizin milli inkişaf strategiyasının işlənib hazırlanmasında və reallaşdırılmasında gördüyü işlər müstəsna əhəmiyyət kəsb edir.

Yeni Azərbaycan Partiyasının fəlsəfi ideologiyasının mühüm elementlərindən biri də xarici siyasətimizin başlıca prinsipi olan sülh mədəniyyətidir. Ölkə Prezidenti özünün bütün səviyyələrdə keçirdiyi diplomatik görüşlərində həmişə Azərbaycanı sülhsevər ölkə kimi ləyaqətlə təmsil etmiş və Azərbaycanın öz müstəqil inkişaf yolunda heç zaman geri dönməyəcəyini birmənalı şəkildə bildirmişdir. Bu prinsipi rəhbər tutan Yeni Azərbaycan Partiyası dünya ölkələri ilə iqtisadi, siyasi, ictimai, elmi, humanitar əlaqələri daha da möhkəmləndirməyi və genişləndirməyi özünün fəaliyyətinin başlıca məqsədlərindən biri kimi həyata keçirir.

Hazırda Heydər Əliyevin yaratdığı YAP milli inkişafımıza təkan verən ən mühüm sosial amil, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda aparıcı qüvvə kimi çıxış edir. Yüksək intellektual potensialın daşıyıcısı kimi bu partiyanın fəaliyyət istiqamətlərindən biri ölkədə demokratiyanın inkişafına, insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına fəal kömək etməkdir. Partiya çalışır ki, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı konstitusiya hüquqları çərçivəsində azad insan kimi yaşasın. Milli inkişafımızı təmin edən bu prinsiplər Yeni Azərbaycan Partiyasının fəaliyyət fəlsəfəsini qidalandıran başlıca müddəalardır.

Bu gün Yeni Azərbaycan Partiyasından söhbət açarkən onun fəaliyyətində misilsiz rol oynayan İlham Əliyev amilindən danışmamaq, sadəcə, mümkün deyil. YAP-ın yarandığı gündən onun sıralarında olan İlham Əliyev bu gün böyük siyasətimizin aparıcı liderlərindən biridir. Təbii ki, Heydər Əliyevin böyük siyasət məktəbində vətəndaşlıq dərsi almış İlham Əliyev YAP-ın fəaliyyətindən, onun həyat amalından kənarda qala bilməzdi. Azərbaycanda siyasi plüralizm, mətbuat və fikir azadlığının sabitlik şəraitində daha da inkişafı, demokratik şüurun, vətəndaş cəmiyyətinin formalaşması, ölkəmizin dünya birliyinə inteqrasiyası, beynəlxalq əməkdaşlığın genişləndirilməsi kimi mühüm proqram prinsipləri İlham Əliyevin də diplomatik fəaliyyətinin özəyini təşkil edir. Onun AŞPA-da məzmunlu çıxışları, erməni separatçılığını və terrorçuluğunu tutarlı dəlillərlə ifşa etməsi, ABŞ-da keçirdiyi yəksək səviyyəli görüş və danışıqlar nəinki onun böyük siyasətdə inamla addımlayan siyasətçi olmasından xəbər verir, həm də Heydər Əliyev partiyasının öz sıralarından görkəmli şəxsiyyətlərin yetişmə potensialının göstəricisi kimi dəyərləndirilir. O, istər xaricdə, istərsə də ölkəmizdə üzvü olduğu partiyanı yeni tipli elitar partiya simasında təqdim edir, bu missiyasından iftixar hissi duyur. Təsadüfi deyil ki, partiyanın üzvləri ən məsuliyyətli vəzifələri ona etibar edirlər. Yeni formasiya lideri İlham Əliyev də öz



növbəsində istər millət vəkili, istərsə də tanınmış diplomat kimi YAP-ın fəaliyyət fəlsəfəsinə sadiq qalaraq ona bəslənilən bütün ümidləri layiqincə doğruldur.

Xalqımızın siyasi mənlik şüurunun yeni pozitiv keyfiyyətlər kəsb etməsində ölkə Prezidentinin 1998-ci il martın 13-də **«Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında»** sərəncamı müstəsna rol oynamışdır. Ümumdövlət əhəmiyyəti kəsb edən bu sənədin sosial-tərbiyəvi qayəsini, milli-qlobal səciyyəsini Heydər Əliyev belə izah edir: **«Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir».** Görkəmli dövlət başçısının hakimiyyətə ikinci qayıdışından sonra ölkəmizdə siyasi sabitliyin yaranması və atəşkəsin əldə edilməsi ölkədə geniş miqyaslı islahatların keçirilməsi üçün əlverişli şərait yaratmış oldu. Bu sahədə dövlət müstəqilliyinin müqəddəs rəmzlərinin (bayraq, gerb, himn) qəbul edilməsi və bunların müstəqil Azərbaycanın ilk Konstitusiyasında (12 noyabr 1995-ci il) təsbit olunması mühüm hadisə idi. Belə ki, Prezident Heydər Əliyevin tarixi fərmanında dövlət rəmzlərinin mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliği, bunların Azərbaycan gənclərinə dərindən öyrənilməsini xüsusi vurğulaması vətənçilik, azərbaycançılıq, həmrəylik, eləcə də hər şeydən əvvəl müstəqillik kimi sosial-siyasi, milli-mənəvi dəyərlərə dərin insani ehtiramın simvoluna çevrilmişdir.

Dövlətimizin siyasi simasının düşüncələrimizdə bütöv obrazının yaranmasında önəmli rol oynayan bayrağımız, gerbimiz və himnimiz Heydər Əliyevin həm ölkəmizdə, həm də xaricdəki soydaşlarımızla görüşlərində söylədiyi çıxışlarda böyük iftixar hissi ilə qeyd olunur. O, həmişə belə bir dövlətçilik ideyasını aşılayır ki, vətəndaşlarımızın, xüsusilə gənclərimizin milli dövlətçilik rəmzlərinə bəslədikləri hörmət, ehtiram və məhəbbət böyük məşəqqətlər hesabına azadlığa çıxmış

vətənimizə, qüdrətli xalqımıza, yaradıcı qabiliyyətə malik millətimizə, müstəqil dövlətimizə olan məhəbbətə bərabərdir.

Müstəqilliyimizin fəlsəfi-konseptual səviyyədə dərkini ön plana çəkən Heydər Əliyev tövsiyə edir ki, müstəqilliyimizin rəmzi olan bayrağa müqəddəs ehtiram və hörmət **«hər bir cocuqda, yeniyetmədə daxilən olmalıdır»**. Təbii ki, belə bir vətənpərvərlik hissinin düşüncəmizin mental xüsusiyyətinə çevrilməsi birdən-birə baş verməmişdir. Keçmiş İttifaqda nominal dövlətçilik şəraitində respublikaların bayrağına dövlət rəmzi kimi baxılmırdı, başqa sözlə, o, hələ milli dünyagörüşümüzün elementinə çevrilməsindən uzaq idi, gerbin təbliği isə heç fikrə belə gəlmirdi. Dövlət himnimiz dahi Üzeyrin yaradıcılıq təntənəsi kimi möhtəşəm səslənsə də, dünya arenasına çıxa bilmirdi. Məhz ona görə də ölkə Prezidenti bəzi çıxışlarında dövlət əhəmiyyəti kəsb edən müstəqillik rəmzlərinə qeyri-ciddi münasibəti kəskin tənqid edərək əsl vətəndaşlıq hissinin məktəblərimizdə tərbiyə olunmasını xüsusi nəzərə çatdırmışdır. Müstəqillik atributlarımızın məna və mahiyyətinin dövlət əhəmiyyətli iş olması barədə Heydər Əliyevin çıxışlarında, sadəcə, təbliğat xarakteri daşımır. Onun xarici səfərləri zamanı hər dəfə dövlət bayrağımızın qaldırılması müstəqilliyimizin təsdiqinin simvolunu nümayiş etdirir. Prezident haqlı olaraq öz həmvətənlərinə müraciət edərək deyir: **«Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında ... bu amal ətrafında birləşməlidir».** Heydər Əliyevin etibarlı əllərində ucalan milli bayrağımız milli dövlətçiliyimizin, milli varlığımızın sönməz simvolu kimi bu gün düşüncəmizin, mentalitetimizin ləyaqət elementinə çevrilməkdədir, azərbaycanlıların müstəqilliyini dərk etmək simvolu kimi Vətənimizi dünya birliyinə daha yaxından tanıtmaqdadır.

Ədalət naminə qeyd edilməlidir ki, İlham Əliyevin rəhbərlik etdiyi Milli Olimpiya Komitəsinin xətti ilə keçirilən idman yarışlarında bayrağımızın tez-tez ucalması hər bir



azərbaycanlıda öz vətəni və müstəqilliyi üçün qürur hissi aşılayır, onun mentalitetində azərbaycançılıq hissiyyatını gücləndirir. Milli bayrağımız sosial-psixoloji ovqatımızdır. Milli bayrağımız Heydər Əliyevin mətin iradəsi ilə yenidən ucalan və bir daha enməyəcək milli simvolumuzdur və buna görə də milli mənliyimiz özünü təsdiq etdikcə o da yaşayacaqdır.

Hazırda YAP öz proqramında «ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıları Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi, bölünməz Vətəni, doğma yurdu kimi» qiymətləndirir. Partiya milli, mənəvi, ümumbəşəri dəyərləri özündə əks etdirməyi azərbaycançılıq və vətənçilik kimi qiymətləndirir. Qədim türklərin dünyagörüşündə önəmli yer tutan Vətən əxlaqı YAP-ın fəaliyyətinin fəlsəfi mahiyyətini təşkil edir. Hər cür qərəzli və mənasız hücumlara baxmayaraq, Yeni Azərbaycan Partiyası 10 illik yubileyi ərəfəsində öz fəlsəfi-ideoloji platformasına sadiq Heydər Əliyev siyasi məktəbinin ənənələrinə söykənərək özünün daha da kamilləşmə dövrünü yaşayır, onun sıraları Azərbaycanın layiqli oğlanları və qızları hesabına getdikcə genişlənir. Bugünkü reallıqlarımız da sübüt etməkdədir ki, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin şah əsəridir. Və ona görə də inanırıq ki, o elə Prezidentinin dühasının yüksəltdiyi Yeni Azərbaycan Partiyası öz tarixi missiyasını bu gün də əzmlə həyata keçirərək, özünün fəlsəfəsini bütün xalqın həyat fəlsəfəsi kimi inkişaf etdirməkdədir.

Milli mənlik şüuru, Azərbaycan məhəbbəti mədəniyyətimizə, adət və ənənələrimizə bağlılıq həmvətənlərimizin birləşməsi və milli mənsubluğunu qorumaq üçün vacib dəyərlər olsa da, tarixi yaddaşımızın inkişafında mühüm rol oynasa da, bunlar hələ mənəvi cəhətcə daha zəngin diaspora yaratmaq üçün kifayət deyildir. Görünür, özləri üçün qeyri-adi tarixi mühitdə yaşayan həmvətənlərimizi birləşdirmək üçün başlıca şərt həmvətənlərimizdən hər biri belə bir psixoloji elementi dərk etməlidir ki, o, sadəcə, Azərbaycandan köçüb gedən deyil, hər şeydən əvvəl özünü milli birliyin üzvü kimi hiss etməlidir. Təbii ki, xaricdə yaşayan

həmvətənlərimiz öz milli dəyərlərini qoruyub saxlamaqla yanaşı, yerli xüsusiyyətləri də mənimsəməli olurlar. Ölkə Prezidentinin qeyd etdiyi kimi, həmvətənlərimiz yaşadığı ölkənin qayda-qanunlarına hörmət və ehtiram etməlidirlər. Burada yaşayan həmvətənlərimizin intellektual potensialı onların üzv olduğu təşkilatlar vasitəsilə açılmalıdır. Belə bir həqiqət danılmazdır ki, hazırda diasporamız, sadəcə, demoqrafik və etnoqrafik kateqoriya deyil, milli mənlik və milli mental xüsusiyyətlər əsasında yaranmış və xaricdə özünü ləyaqətlə təmsil edən birliklər olmalıdır. Heydər Əliyev Ümumrusiya Azərbaycan Konqresinə 2001-ci ilin oktyabrında göndərdiyi təbrikdə yazır: **«Mənim üçün çox xoşdur ki, Azərbaycan icması da Rusiyanın ictimai-siyasi, elmi-mədəni, sosial-iqtisadi həyatında bilavasitə iştirak edir, bizim soydaşlarımız yaşadığı ölkə qarşısında öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirirlər».** Biz haqlı olaraq Rusiya elminə, mədəniyyətinə, ədəbiyyatına və incəsənətinə, iqtisadiyyatına samballı töhfə vermiş Azərbaycanın oğulları və qızları ilə, bizim dünyada tanınmış həmvətənlərimizlə fəxr edirik. Həqiqətən də, bu gün Rusiya bir çox soydaşlarımızın ikinci vətəni olmuşdur.

Diasporumuzun təşəkkülündə və özünütəsdiqində mühüm çətinliklərindən biri də həmvətənlərimizin xarici ölkələrdə dağınıq vəziyyətdə məskunlaşmasıdır. Məsələ bundadır ki, xaricdəki soydaşlarımız hər bir etnik birlik kimi müxtəlif təbəqələrdən və qruplardan təşkil olunduğundan həm statusuna, həm də təhsil səviyyəsinə, professional məşğulluğuna, siyasi rəğbətinə və nəhayət, mənsub olduğu təşkilatına görə fərqlənirlər. Əlbəttə, söhbət təşkilatlanma plüralizmindən deyil, kütləvi milli kommunikasiyanı təmin edən həmvətənlərimiz üçün ümumi əhəmiyyət kəsb edən informasiya mədəni məkanın olmamasıdır. Bu dağınıqlığı ölkə Prezidenti də dəfələrlə qeyd etmiş, ümumazərbaycan milli ideyasının vacibliyini xarici həmvətənlərimizin nəzərinə xüsusilə çatdırmışdır. Biz təəssüf hissilə qeyd etmək istərdik ki,



kollektivçilik mentalitetimizin o qədər də geniş yayılmış xüsusiyyətinə çevrilməmişdir. Bəlkə, elə buna görə də dağınıqlığı aradan qaldırmağa cəhd edəndə də bacarıq nümayiş etdirə bilmirik, bəzən ümumi hərəkata qoşulmağın zəruriliyi lazımınca dərk edilmir, təəssüf ki, amirlik, ambisiya hallarına yol verilir. Problemə aydınlıq gətirmək məqsədilə qeyd etmək istərdik ki, bəzən ambisiyalılıq, amirlik lokal cəmiyyətlərin müəyyən mənada hərəkətverici qüvvəsi olaraq müsbət rol oynayır. Belə halda da ölçü hissi gözlənilməli, özünə tam arxayınçılığa yol verilməməlidir. Əgər mənəm-mənəmlik diasporun mənafeləri baxımından nümayiş etdirilirsə, bunu başa düşmək olur. Deməli, dağınıqlıq özü-özündən aradan qalxmır. Belə hal diasporun fəaliyyət diapozonunu, milli həmrəylik potensialını xeyli zəiflədir. Buna görə xarici ölkənin paytaxtında yaşayan ziyalılarımızın milli borcu diasporun dağınıq qüvvələrini birləşdirməkdə xüsusilə fəal olmalıdırlar. Bunu birlikdə etmək lazımdır.

Təəssüflər olsun ki, diasporumuzun həyatında bağışlanılmaz qüsurlardan biri bəzi həmvətənlərimizin düşüncəsində tarixi kökləri qoruyub saxlamaq sosial-mədəni və dil mühitindən təcrid olunmaqla bərabər tutulur. Başqa bir ifrat cəhət isə bundadır ki, bizim bəzi soydaşlarımız yaşadığı ölkənin mühitinə inteqrasiya edərkən istər-istəməz etnik köklərini itirir, özləri də assimilyasiya olurlar. Bunun da ən faciəli məqamı budur ki, birləşdirici milli ideya və dini mühit olmadığından milli hissin zəifləməsi başlayır. Zaman keçdikcə öz tarixi qurumunun, mədəni mənsubluq hissiyatının aşınmaya məruz qalması bütövlükdə milli mədəni irsin saxlanmasını çətinləşdirmişdir. Bu isə orada yaşayan gənc nəslin milli mədəni-tarixi qaynaqlardan uzaq düşməsi ilə bağlı olaraq mənəvi faciənin başlanğıcı qoyulmasında öz əksini tapır. Tarixi vətəninə sevgini, milli ənənəyə hörmət hissini itirmiş bu nəsl, təbii ki, özündən sonra gələn nəslə heç bir dəyərli miras qoya bilməz. Üstəlik də, soydaşlarımızın qeyd etdikləri kimi, diasporanın fəaliyyət göstərdiyi ölkələrdə gənclər təşkilatlarının olmaması milli varislik prinsipini tamamilə mənəvi təhlükəyə

salır. Bütün bu söylədiklərimiz diasporumuzun həm də psixoloji problem olmasından xəbər verir. Görünür, bir-birilə ünsiyyət bağlamaq mədəniyyətini inkişaf etdirməsək, vahid birlikdə həmrəy olmaq çətindir. Bizcə, Azərbaycan diasporu qəti olaraq belə bir məsləklə yaşamalıdır: xalqımızın müdrikliyi, yenilməzliyi və qəhrəmanlığı, onun intellektual potensialı sayəsində yaradılmış müstəqil dövlətimiz dünyanın hər yerində yaşayan azərbaycanlılar üçün ideya qaynağı olmalıdır. Ölkə Prezidenti çox gözəl deyir: **«Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi müstəqil bir dövlət durur».** Onun tezis şəklində söylədiyi bu konseptual fikir azərbaycan dövlətçiliyinin yüksək məzmunu, onun öz xalqının yenilməz iradəsinə söykənən milli hüquqi dövlətimizin fəlsəfi qayəsi olmaqla xaricdəki soydaşlarımızın bütöv diaspor halında birləşməsi üçün mühüm birləşdirici ideya rolunu oynaya bilər, diasporumuzun düşüncə tərzində kollektivçilik mentalitetinin kök salmasında misilsiz örnək ola bilər.

Bu gün cəmiyyətimizin və xalqmızın siyasi mentalitetinin inkişaf etdirilməsində Heydər Əliyevin vətəndaş cəmiyyəti haqqında nəzəri mülahizələri mühüm yer tutur. Dövlətdə vətəndaşların mühüm spesifik hüquq və azadlıqların hüquqi institutlar vasitəsilə tənzimlənməsi, mənlik şüurunun vətəndaşlıq mədəniyyəti elementləri ilə zənginləşməsi yeni tipli mentalitetin formalaşması vətəndaş cəmiyyətinin mühüm sosial-siyasi keyfiyyətidir.

Demokratiya təcrübəsi göstərir ki, cəmiyyətin inkişafı ilə şərtlənən hüquqi dövlətin meydana gəlməsi məntiqi olaraq vətəndaş cəmiyyətinin formalaşması, intellektual-dünyagörüşlü potensialın trasformasiya prosesinin gedişində həyata keçirilməsi üçün daha real imkanlar açır. Bu o deməkdir ki,



vətəndaş cəmiyyəti birbaşa hüquqi dövlətin yaranması və inkişafı ilə bağlıdır. Vətəndaş cəmiyyəti burjua-kapitalist münasibətlərinin sosial nəticəsi olsa da, sosiumda belə bir ideologiya aşılanır ki, burada dövlət strukturlarından fərqli olaraq vertikal deyil (tabeçilik), üfiqi əlaqələr tərəfdaşlar arasında hüquqi cəhətcə azad və bərabər rəqabət münasibətləri üstünlük təşkil edir.

Lakin bugünkü reallıqlar belədir ki, hüquqi dövlətlə vətəndaş cəmiyyəti arasında elə bir prinsipial fərq axtarmaq, sadəcə, mümkün olmur. Təsadüfi deyildir ki, ölkə Prezidenti yeni müstəqil ölkələrdə gedən demokratikləşmə proseslərindən, hüquqi dövlətdən danışarkən həmişə onu vətəndaş cəmiyyəti quruculuğu prosesi ilə vəhdətdə götürür. Belə ki, o, vətəndaş cəmiyyətinin formalaşmasını bazar iqtisadiyyatına keçid və hüquqi dövlət qurmaq üçün zəruri şərt heçab edir. Deməli, müasir anlamda hüquqi dövlətin formalaşmasının müqəddəm şərti paralel olaraq vətəndaş cəmiyyəti quruculuğu prosesidir. Lakin hüquqi dövlət şəxsiyyətin mütləq azadlığını qəbul etmir, çünki hər kəsin mütləq sərbəstliyi başqalarının azadlığının pozulduğu yerdə sona çatır.

Bu kontekstdə azərbaycanlıların siyasi təfəkkürünün formalaşmasında, mənlik şüurunun mental əsasının siyasi elementlərlə zənginləşməsində, nəhayət, vətəndaşlıq mədəniyyətinin təkmilləşməsində Heydər Əliyevin misilsiz əməyi sayəsində işlənib hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının müstəsna rolu danılmaz həqiqətdir, daha önəmlisi isə tarixən təfəkkürü totalitar və avtoritar rejimlərdə konqlomerat ideologiyaların təsirində formalaşmış xalqımızın milli düşüncəsi ali siyasi dəyərlərlə zənginləşmişdir. Hegel «Almaniyanın konstitusiyası» əsərində maraqlı bir fikir söyləyir: «Alman xarakterinə müəyyən mənada bir nəcib cəhət xasdır, o da bundan ibarətdir ki, hüquq öz əsasından və nəticələrindən asılı olmayaraq onun üçün müqəddəsdir. Və əgər Almaniya müstəqil özünü idarə edən dövlət kimi tam tənəzzülə uğrasa... alman millətinin,

ümumiyyətlə, varlığına son qoyulsa, hər halda, sevindirici hal budur ki, məhvedici ruhların başında hüquqa ehtiram durur» (Гегель. Политические произведения. М, 1978. с.73).

Belə bir anlamın intellektual dərki yalnız yetgin siyasi təfəkkür sayəsində mümkündür. Konstitusiyanın qəbulu bu mənada cəmiyyətin bütövlükdə siyasi mədəniyyətinin və intellektual təfəkkürünün məhsuludur. Odur ki, Prezident Heydər Əliyev azərbaycan xalqının, xüsusilə gənc nəslin siyasi təfəkkürünün formalaşması problemlərinə bununla bağlı əhalinin hüquqi şüurunun təşəkkülü məsələsinə çox ciddi qayğı göstərir, ölkə əhalisinin qanunların ruhuna ehtiram göstərməsini siyasi təfəkkürün formalaşmasında mühüm amil sayır.

Məlumdur ki, yeni siyasi təfəkkürün formalaşması heç də kortəbii xarakter daşımır. Dünyada baş verən hadisələr göstərir ki, bu gün siyasi təfəkkürün daşıyıcıları təkcə sülhsevər dövlətlər və sülh yaradan ictimai təşkilatlar deyil, həm də kütləvi hərəkatlar, bəşəriyyətin düçar ola biləcəyi təhlükəni dərk edən və sivilizasiyanı yaşatmaq naminə qlobal problemlərin həllində böyük səylər göstərən sülhsevər insanlardır. Real qüvvəyə çevrilmək üçün yeni siyasi təfəkkür kütlələrin şüuruna hakim kəsilməlidir. Vətəndaşın siyasi mentalitetinin formalaşmasının ən mühüm amillərindən biri məhz düşüncə süzgəcindən keçən bu kütləvilikdir. Bu mənada o daha mütəhhərrik fenomendir. Belə ki, beynəlxalq münasibətlərə yeni yanaşmaların əsasında mənafelər balansını və milli maraqlara qarşılıqlı hörməti qəbul etmək, digər xalqların həyat tərzindəki dəyərlərə və prioritetlərə tolerantlıq bəsləmək durmalıdır. Bu isə o deməkdir ki, soyuq müharibə ərzində şüurlarda daşlaşmış təsəvvürlərdən və stereotiplərdən imtina etmək lazımdır. Bununla əlaqədar belə bir mühüm dünyagörüşü problemini də qeyd etmək lazımdır, çünki hazırda başlıca məsələ Şərqlə Qərb arasında barışmaz qarşıdurmanı əsaslandıran konsepsiyaların aşıladığı köhnəlmiş təsəvvürlərdən xilas olmaqdır. Bir zamanlar belə təsəvvürlər Sovetlər ölkəsi xalqlarının mentalitetində kapitalist ölkələrinə



qarşı düşmənçilik, bu cəbhədə baş verən hər şeyə inamsızlıq psixologiyası formalaşdırırdı.

Heydər Əliyevin siyasi fəaliyyətini, onun xarici siyasət strategiyasını və sülhsevər diplomatiyasını dəyərləndirən ən mühüm amil budur ki, o, hər bir rəsmi xarici səfərində, diplomatik görüşlərində Azərbaycan həqiqətlərini təbliğ edərkən, Qarabağ konfliktinin tarixi köklərini açarkən təkcə Qərblə Şərq arasında anlaşmanı yaratmaqla kifayətlənməyib, hər şeydən əvvəl Qərbin siyasi təfəkküründə Azərbaycanın milli imicini yaradır, xalqımızın sülhsevər və başqa millətlərin mədəniyyətinə hörmət göstərmək kimi dəyərlərə dərin hörmətini çatdırır. Bu prosesdə, psixoloji baxımdan yanaşılsa, daxiili identifikasiya ilə yanaşı, xarici identifikasiya da baş verir, yəni yüksək səviyyədə keçirilən görüşlərdə Prezidentin ölkəmizi ləyaqətlə təmsil etməsi, xalqımızın həqiqətləri barədə obyektiv, inandırıcı və səmimi mülahizələri ilə azərbaycanlıların siyasi millət obrazını yaratması xaricdəki soydaşlarımızın yaşadıqları ölkələrdəki xalqlarla özlərini sivil zəmində müsbət müqayisə etməsi baş verir. Hər beynəlxalq səviyyəli rəsmi görüşdə aşılanan müsbət xarakteristika sonralar siyasi mentalitetimizin atributiv xüsusiyyətinə çevrilir. Real gerçəklik budur ki, siyasi məkan və zamanda cərəyan edən müxtəlif xarakterli hadisələr məcmu şəkildə milli mentalitetin, siyasi təfəkkürün formalaşmasında aparıcı rol oynayır.

Beləliklə, yuxarıdakı tezisə qayıdaraq qeyd etmək istərdik ki, milli konstitusiyanın qəbul olunması hər şeydən əvvəl cəmiyyətin siyasi mədəniyyətinin, vətəndaşlarımızın siyasi təfəkkürünün mövcud səviyyəsinin məhsuludur. Lakin konstitusiyada xalqa verilən insan hüquqları və onların həyata keçirilməsi də öz növbəsində siyasi təfəkkürün və mentalitetin təkmilləşməsinə yardımçı olur. Dünya birliyində qəbul olunmuş beynəlxalq hüquq normalarına və standartlarına uyğun konstitusiyamız sivilizasiyalı ölkələrlə məhsuldar, milli mənafelərimizə uyğun, faydalı əməkdaşlıq xarici siyasət strategiyasını həyata keçirməyə imkan verir. **«Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin**

**coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir. Məhz öz xüsusiyyətlərini başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyirik, xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq»** - Heydər Əliyevin xarici siyasətimizin strategiyasını səciyyələndirən bu müddəası deməyə əsas verir ki, hər halda, muasir dövrdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlər subyekti kimi dünya siyasətində önəmli mövqelərə çıxması xalqımızın siyasi təfəkkürünün formalaşmasına, onun mentalitetinə mühüm bəşəri xüsusiyyətlər gətirmişdir.

Uzaqgörən siyasətçi Heydər Əliyev belə bir qlobal prinsipi nəzərə alır ki, həm bu gün, həm də gələcəkdə bütün ölkələr əmin olacaqlar ki, hər bir ölkənin milli mənafelərinin tam həyata keçirilməsi onun beynəlxalq sistemdə fəal əməkdaşlıq münasibətləri qurmasından xeyli asılı olacaqdır. Məsələn, politoloq C.Rozenau hesab edir ki, «Nə milli hökumətlər, nə də lokal hakimiyyətlər artmaqda olan asılılığın meydana gətirdiyi problemlərin öhdəsindən öz qüvvələri ilə gələ bilməzlər». Həqiqətən də, dünyada baş verən intensiv inteqrasiya prosesləri xalqları bir-birilərinə yaxınlaşdırmaqla yanaşı, ölkələrin bir-birindən asılılıq dərəcəsini də artırır. Lakin bu proses lokal və regional konfliktlərlə müşayiət olunsa da, xalqların qarşılıqlı ünsiyyətinin genişlənməsi yeni təfəkkürün formalaşmasına və şübhəsiz ki, siyasi mentalitetinin rəngarəng keyfiyyətlərlə zənginləşməsinə stimul yaradır.

Dialoq mədəniyyəti Heydər Əliyev diplomatiyasının başlıca metodlarıdan biri olmaqla həm də onun siyasət fəlsəfəsində əhəmiyyətli siyasi ünsiyyət formalarındandır. Ölkə Prezidentinin xarici səfərlərdə, diplomatik görüşlərdə apardığı söhbətlərdən aydın görmək mümkündür ki, o, siyasi dialoq aparmağın mahir ustasıdır. Bu gün siyasi dialoqun beynəlxalq əhəmiyyəti bundadır ki, dövlət başçıları xalqların sosial



gerçəkliyində müxtəlif səviyyəli konfliktlərin-qlobal və lokal, sülh və hərbi səviyyəli konfliktlərin həlli mühüm əhəmiyyət kəsb edir. Müasir siyasətçilər artıq tez-tez etiraf etməli olurlar ki, böyük dövlətlər arasında da hərbi toqquşmalar baş verə bilər. Son dövrün parodoksal hadisələri göstərir ki, bəzən ABŞ kimi super dövlət İraq kimi zəif dövlətə hücum edir. Hər halda, hazırkı dünyamızda baş verən hadisələr (məsələn, İraq ətrafında baş verənlər) göstərir ki, ayrı-ayrı bölgələrdə təzahür edən konfliktli situasiyalarda dünyanın bütün böyük dövlətləri belə bu və ya digər dərəcədə iştirak etməli olurlar. Başqa sözlə, əgər bu və ya digər ölkənin daxili həyatını təhlil etsək, onların ictimai həyatında müxtəlif səviyyəli çoxlu sayda konfliktlərin şahidi oluruq və mühüm meyllərdən biri də budur ki, onlardan hər birinin siyasi konfliktə çevrilmək ehtimalı vardır. Məhz buna görə də diplomatik münasibətlərdə ən aktual vəzifələrdən biri beynəlxalq konfliktlərin fundamental iqtisadi və sosial səbəblərinin zəruri olaraq aradan qaldırılmasıdır. Bu prosesdə siyasi dialoqun rolu müstəsnadır.

Siyasi dialoqun məhsuldar keçməsinin müqəddəm şərti belədir: əgər tərəflər hazırkı situasiyaya pozitiv təsir göstərmək istəyirlərsə, gerçəkliyi qərəzli şərh edən, yəni özgə mövqeyini zorla şamil edən qərarlar qəbul etməməlidirlər. Əksinə, hər iki tərəf öz mövqeyini dəstəkləmək məqsədilə sağlam məntiqlə hərəkət etməli, bir-birilərinin mülahizələrinə hörmətlə yanaşmalıdırlar. Siyasətçilər belə bir həqiqəti qəbul edirlər ki, hər bir siyasi qərar «vəziyyətin funksiyasıdır», çünki o, həqiqətən də, konkret və obyektiv qüvvədə olan qüvvələrin, onların kəsişdiyi nöqtənin fonunda baş verir. Hamı etiraf edir ki, siyasət, həqiqətən də, müəyyən mənada «mümkünlük sənətidir» və özlüyündə ictimai praktikanın bir hissəsinə çevrilir, ona çünki praktik həyata keçiriləcək alternativlər çərçivəsində qərar qəbul edilir və elə alternativ üzərində dayanılır ki, onu həqiqətən reallaşdırmaq mümkün olur.

Lakin bunu da nəzərə almaq lazımdır ki, heç bir siyasi qərar öz-özündən, avtomatik olaraq meydana gəlmir, o həmişə müəyyən siyasətçinin yaradıcılığıdır, onun kütlələrlə səmərəli iş

görməsinin nəticəsidir, ona görə də öz dövlətinin, xalqının mənafelərindən çıxış edən siyasətçi heç zaman başqasının mənafelərinin sadə ötürücüsü ola bilməz, əksinə, o elə bir siyasət subyektidir ki, obyektiv qüvvələr nisbətini və mənafeləri dərindən öyrənir, ən rasional olanı praktikada istifadə edir. Heydər Əliyev məhz bu cür rasional siyasət tərəfdarıdır, başqa sözlə, o, həyata keçirdiyi müəyyən siyasi alternativə yaradıcı yanaşır, bu işdə ona özünün zəngin həyat təcrübəsi, intellektual potensialı və təcəssüm etdirdiyi siyasi əxlaq normaları kömək edir. Deməli, hər bir siyasi qərar obyektiv gerçəkliyin praktikasından doğsa da, hər halda, subyektiv determinantın, yəni siyasətçi bacarığı və şəxsiyyətinin məhsuludur.

Bütün bu parametrlər siyasi dialoqun rasional aparılması üçün vacib şərtlərdir. Bu gün demokratik proseslərin və diplomatik münasibətlərin ayrılmaz hissəsi olan siyasi dialoqun sülh mədəniyyəti prinsipinə dərin ehtiyacı vardır. Müəyyən mənada demək olar ki, sülh mədəniyyəti müasir diplomatiyanın ideolo-giyasıdır. Sülhlə insan hüquqları, tolerantlıq və demokratiya arasında qırılmaz əlaqə olduğunu dünya ölkələrinin başçıları başlıca diplomatik fəaliyyət prinsipləri kimi qəbul edirlər. Dövlətlər özlərinin xarici siyasətinin əsas istiqaməti, məqsəd, vəzifə və problemlərini, milli mənafelərin prioritet dəyərlərini müəyyənləşdirərkən sülh mədəniyyəti prinsiplərini hökmən nəzərə alırlar. Belə bir vəzifə hazırda ölkəmizin dünya birliyinə inteqrasiya olunduğu, ikitərəfli, çoxtərəfli əlaqələr yaratdığı, beynəlxalq təşkilatlarda fəal iştirak etdiyi bir zaman diplomatiyamız üçün mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, müasir qloballaşma şəraitində xalqların və millətlərin milli-siyasi dünyagörüşlərinin pozitiv məcrada formalaşması üçün siyasi və mədəni plüralizm, vətəndaş cəmiyyətinin rolunun güclənməsi, iqtisadi inkişaf və daxili sabitlik, yeni nəsillərin təhsil sistemini yaxşılaşdırmaq bütün sivilizasiyalı ölkələri dərindən düşündürən bəşəri problemlərdir. Bu ölçülərdə aparılan həm daxili, həm də xarici siyasətin



başlıca humanist qayəsi fərdi keyfiyyətdə insan hüquqlarını təmin etmək sahəsində, siyasi və dini tolerantlığı, azsaylı xalqların hüquqları ilə bağlı məsələləri yeni demokratik dövlətlərin fəaliyyətində prioritet dəyərlərə çevirməkdir. Ölkə Prezidenti Heydər Əliyev öz diplomatik fəaliyyətində bu prinsiplərə riayət etməklə xalqımızın siyasi mədəniyyətinin və siyasi dünyagörüşünün inkişafında böyük rol oynayır. Prezidentin belə bir müdrik ifadəsinə diqqət yetirək: **«əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur».**

Deyilənlərlə bağlı sülh mədəniyyətinin tərifini verməyə çalışsaq, deməliyik ki, sülh mədəniyyəti aşkarlıq mədəniyyəti, özgə mədəniyyətə insani diqqət göstərməkdir. Təbii ki, bu gün iki mədəniyyət-Qərb və Şərq sivilizasiyası arasında tarazlığın yaranması barədə ciddi fikir söyləmək olmur. Hər halda, sülsevər qüvvələr çalışırlar ki, iki mədəniyyət arasında psixoloji anlaşma yaransın. Bu nə qədər çətin iş olsa da, hər halda, hər bir mürəkkəb problemin həlli alqoritmi mövcuddur. Başqa sözlə, mürəkkəb problemi bir neçə çalara bölüb onun bu hissələrinin həlli üçün müvafiq yollar tapmaq mümkündür, belə halda ümüdsizliyə qapılmağa əsas yoxdur. Bizcə, sülh mədəniyyətinin ən mühüm tərkib hissələri bunlardır. İlk növbədə çalışmaq lazımdır ki, «sülh mədəniyyəti»nin boş metaforaya çevrilməsi informasiya vasitələrinin spekulyasiya predmeti olmasın. İkinci tərəfdən, təhlükə yaradan durum bundan ibarətdir: xalqlar və vətəndaşlar arasında elə qarşılıqlı münasibətlər yarana bilər ki, bu zaman tarixə və mədəniyyətə qarşılıqlı maraq olmasın, başqa ölkənin xüsusiyyətlərini və adət-ənənələrini başa düşmək şəraiti yaranmasın. Buna yol verməmək və sülh mədəniyyətini ardıcıl formalaşdırmaq üçün, birincisi hər bir mədəniyyətin özünəməxsusluğu, ümumbəşəri dəyərlər şəxsiyyətin əsas hüquq və azadlıqlarının toxunulmazlığını təsdiq etməlidir. Məsələ burasındadır ki, dəyərlər böhranı siyasi böhranla çulğaşdığı zaman sülh mədəniyyəti dövlətlərarası münasibətlərdə daha da aktuallaşır.

Lakin sülh mədəniyyətini konsensus prinsipi olmadan onun funksional əhəmiyyətini dərk etmək mümkün deyildir. İstənilən səviyyələrdə aparılan danışıqlarda, xüsusilə siyasi dialoqda fikir mübadiləsi zamanı konsensus prinsipindən diplomatik priyom kimi istifadə lazım gəlir. Bu demokratik yanaşma danışıqlarda tərəflərin qarşılıqlı anlaşmasına, yaxud qarşılıqlı münasibətlərin prinsipcə müəyyənləşməsinə kömək edir. Konsensus hər bir insan birliyinin sosial qayda-qanunun ən mühüm aspektlərinə münasibətdə mühüm çoxluğun razılığı deməkdir. Fransız politoloqu Jül Kambon özünün «Diplomat» əsərində yazır ki, hansı tərəf «danışıqlar» ifadəsini işlədirsə, o, hər halda, «razılıq» əlamətini bildirir. Konsensus siyasətdə, xüsusilə dialoqda həm də etik prinsipdir. Belə ki, hər bir hüquqi dövlətin fəaliyyət göstərdiyi ölkədə vətəndaşlar hakimiyyətlə bir növ sosial müqavilə şəraitində yaşayırlar. Və bu cür münasibətlərin tənzimlənməsində siyasi etikanın prinsipləri mühüm rol oynayır. Başqa sözlə, dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarını qorumaqla həmçinin onların şərəf və ləyaqətini qorumuş olur. Siyasi etikanın dəyərləri siyasi liderlərin və siyasi proses iştirakçılarının xeyirxah məramına söykənir. Siyasi etika diplomatik görüşlərdə bəzən «dəyirmi masa» etikası da adlanır. Burada başlıca prinsip danışıqların qarşılıqlı hörmət və anlaşma şəraitində aparılması, eləcədə tərəflərin mənafelərinin nəzərə alınmasıdır. Çünki belə bir «masa ciddi diplomatik söhbət üçün əlverişli şansdır». «Dəyirmi masa» arxasında hakimiyyət strukturlarının, siyasi partiyaların, müxtəlif ictimai hərəkatların, informasiya hadisələrinin nümayəndələri görüşə bilərlər. Qeyd edək ki, ölkə Prezidenti konsensus probleminə özünün «sülh mədəniyyəti» konsepsiyasının mühüm tərkib hissəsi kimi baxır. Dünya mətbuatından da məlumdur ki, Heydər Əliyev bütün diplomatik görüşlərində təcrübəli siyasətçi kimi diplomatik etika qaydalarına ehtiram, yüksək amallı azərbaycanlı siyasətçi kimi, böyük səriştəyə malik dövlət başçısı nüfuzunu qazanmışdır. Buna görə də siyasi mentalitetin formalaşmasındakı rolunu nəzərə alaraq Heydər Əliyevin konfliktlərin həllində istifadə



etdiyi konsensus mədəniyyəti tədqiqatçı politoloqlar tərəfindən geniş tədqiq olunmalıdır. Onun aşıladığı siyasi ideallar və sərvətlər əhalinin bütün təbəqələri üçün əlçatar olmalı, geniş yayılaraq dünyagörüşü elementinə çevrilməlidir. İkincisi, qarşılıqlı hörmət, aşkarlıq tolerantlıq əsasında təşəkkül tapmış bu ideyalar XXI əsr mənəvi azərbaycan vətəndaşlarının düşüncə tərzini müəyyənləşdirən amillər olmalıdır. Üçüncü, Heydər Əliyevin siyasət etikasından irəli gələn prinsiplər ölkənin daxilində, sosial qruplar və milli icmalar arasında sülh mədəniyyətinin qayəsi kimi təbliğ olunmalı, dialoq mədəniyyətinin

başlıca vasitəsi kimi təqdim edilməlidir. Belə olduqda əqidəcə mənimsənilmiş və insanların mental xüsusiyyətinə çevrilmiş sülh mədəniyyəti sosial həmrəyliyin təmin olunmasında ideoloji mexanizm rolunu oynaya bilər. Dördüncüsü, sülh mədəniyyəti ölkələr arasında qarşılıqlı münasibətlər mədəniyyətidir. Bu o deməkdir ki, hər bir ölkədə siyasi və yaradıcı elitalar tarixən miras qalmış xürafat təsəvvürlərini neytrallaşdırmaqda, kütləvi şüurun stereotiplərinin təsirini zəiflətdirməkdə yaxından iştirak etməli, deməli, milli mentalitetin saflaşdırılmasında intellektlərinin imkanlarını əsirgəməməlidirlər. Beşincisi, millətlər arasındakı bu gündəlik mədəniyyət normaları əsasən kortəbii formalaşır. Belə ki, turizmin təsiri, leqal və ya qeyri-leqal əmək miqrasiyası nəticəsində kütləvi şüurda başqa ölkələrin və xalqların haqqında heç də həmişə müsbət olmayan stereotiplərini yaradır.

Heydər Əliyevdən yuxarıdan gətirdiyimiz iqtibasın ruhuna nüfuz etməyə çalışaq. Tam inamla demək olar ki, təcrübəli siyasətçi, siyasət psixologiyasının dərin bilicisi hələ Naxçıvanda olarkən 1992-ci ildə qısa, lakonik şəkildə deyilmiş bu ifadədə insan hüquqlarına hörməti sülh mədəniyyətinin qayəsi kimi göstərmiş və dövlətin gücünü hər bir azad insanın ləyaqətinə hörmət etməkdə görür. Bu, hər şeydən əvvəl, Azərbaycan vətəndaşının əqidəsinə, onun dünyagörüşünə yaşarlıq enerjisi vermək deməkdir. Lakin Heydər Əliyevin millət

barədə humanist qayğısının təzahürü bundadır ki, o, gənclərin mənfi təsirlərə daha çox məruz qaldığını xüsusi qeyd edərək dövlət səviyyəsində gənclər siyasətinin həyata keçirilməsinə, bu yolla gənclərin milli düşüncəsində sülh mədəniyyətinin önəmli yer tutmasını milli inkişafın mühüm prinsiplərindən biri hesab edir. Təbii ki, cəmiyyətin ictimai şüurunda bu fenomenin pozitiv yer tutması üçün çox işlər görmək lazım gələcəkdir. Hər halda, insan ləyaqətinə hörmət sağlam siyasətin əsasında durmalıdır.

Bu baxımdan cəmiyyətin sosial sağlamlığı məsələsi Heydər Əliyevin milli rifah siyasətində çox önəmli yer tutur, çünki bu, iqtisadi, sosial, siyasi və mənəvi əxlaqi proseslərin qovşağında yerləşən problemlərdəndir. Təbii ki, respublikamızın keçirdiyi böhran prosesləri cəmiyyətin sosial sağlamlığı məsələsində də iz qoymuşdur. Məsələn, müqayisədə götürüləndə əhalinin həyat səviyyəsinin aşağı olması, işsizlik, etnik konfliktlər və sosial gərginlik, gəncləri dərindən narahat edən müxtəlif problemlər, kortəbii miqrasiya prosesləri, təbii ki, insanların düşüncə tərzinə də ağır psixoloji təsir göstərməyə bilməz, bütövlükdə cəmiyyətin sosial-siyasi ovqatını müəyyənləşdirməyə bilməz. Lakin bununla belə, qeyd edilməlidir ki, cəmiyyətimizin sağlamlığı və ovqatı məsələsi yeni demokratikləşdirmə proseslərinin pozitiv meylləri fonunda öyrənilməlidir. Cəmiyyətin sosial sağlamlığı problemi bir tərəfdən, millətin fiziki sağlamlığı və genetik fondunun vəziyyəti, digər tərəfdən, sosiallıq, mənəviyyat və əxlaq kimi tarixən xalqın həyat tərzində və düşüncəsində yaranmış dəyərlərlə bağlıdır. Bu mənada cəmiyyətin sosial sağlamlığı məsələsi Heydər Əliyevin hakimiyyət fəlsəfəsində məhz fəlsəfi problemdir, onun fəlsəfi yanaşmasında cəmiyyətin sosial sağlamlığı heç də ideoloji anlayış deyil, əksinə, cəmiyyətin fiziki, sosial, mədəni, əxlaqi və mənəvi mənada özünü istehsal etməsi vəziyyətinin və real imkanlarının göstəricisidir, son nəticədə dövlət siyasəti məsələsidir. Heydər Əliyevin öz çıxış və nitqlərində geniş işıqlandırdığı təhsil, səhiyyə və ekologiya, eləcə də insanlarımızın rifahı, sosial təminat barədə



düşüncələri bir başa cəmiyyətimizin sosial sağlamlığı, həyatımızın taleyüklü məsələləri ilə bağlı problemlərdir. Makro səviyyədə yanaşsaq, ölkə Prezidentinin cəmiyyətimizin sosial sağlamlığı ilə bağlı işıqlandırdığı problemlər başlıca sosial-siyasi vəzifəyə – suveren dövlətin, müstəqilliyin möhkəmləndirilməsinə, həyatımızın bütün sahələrində böhran hallarının aradan qaldırılmasına, dünya təcrübəsindən istifadə etməklə dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsinə, bütövlükdə cəmiyyətin və millətin inkişafına, bir sözlə, keçid dövrünün real həyatına xidmət edir. Heydər Əliyevin bütün çıxışlarında xüsusi taleyüklü problem kimi toxunduğu Ermənistan-Azərbaycan konfliktinin həlli, qaçqınların və məcburi köçkünlərin öz doğma yerlərinə qayıtmasının təmin olunması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi cəmiyyətimizin sosial sağlamlığının vacib şərtləri olaraq qəbul edilməlidir. Məlum deyimin ruhundan çıxış etsək, deyə bilərik ki, Heydər Əliyevin fəlsəfəsində sağlam cəmiyyət sağlam xalq ruhunun olması deməkdir.

Bu gün biz sosial sağlamlıq sahəsində ölkə Prezidentinin daxili siyasətinin bəhrəsi olan bir çox ictimai tədbirlərin şahidiyik. Son illər istehsal sahəsində sabitliyin yaranması maddi şərt kimi cəmiyyətimizin sosial sağlamlığına pozitiv təsir göstərir. Azərbaycanın daxili və xarici iqtisadi fəaliyyəti cəmiyyətimizin sosial sağlamlığının möhkəmləndirilməsi üçün yeni maddi və maliyyə imkanları yaratmaqdadır. Son hadisələr göstərir ki, Azərbaycan cəmiyyətinin sosial sağlamlığı yaxşılaşdıqca insanların psixologiyasında da pozitiv irəliləyişlər yaranır, vətəndaşlarımızın özünə inamı artmağa başlayır. Narahat həyat artıq rəvan məcraya düşmüş, əhali yeni şəraitdə özünü öz dövlətinin sahibi kimi hiss etməyə başlamışdır. Demokratik dəyişikliklərin uğurla keçməsi insanların şüurunu da yeni məzmunla zənginləşdirmiş, mənlik şüurumuza pozitiv mental xüsusiyyətlər aşılamış, cəmiyyətimizin mənəvi sağlamlığında əhəmiyyətli rol oynamağa başlamışdır.

Lakin cəmiyyətin siyasi sağlamlığı deyilən bir anlam da var ki, bunun təmin olunmasında mühüm amil «iqtidar-müxalifət»

münasibətlərinin yaratdığı sosial ovqatdır. Öncə qeyd etmək lazımdır ki, müxalifət və iqtidar anlayışları, onların sosial institut kimi funksional fəaliyyəti Azərbaycanın siyasi gerçəkliyi üçün tamamilə yeni hadisədir. Ölkəmizdə milli-azadlıq hərəkatının başlaması, müstəqil respublikanın yaranması, demokratik də-yişikliklərin həyata keçirilməsi, plüralizmin bərqərar olması müxalifət deyilən institutun fəaliyyəti üçün obyektiv şərait yaratmışdır.

Müasir dünya nizamı elədir ki, XX əsrin son on illiyində Sovetlər İttifaqı kimi kontinental imperiyanın dağılması, Berlin səddinin aradan götürülməsi, NATO-nun Şərqə doğru irəliləməsi, başlıcası isə dünya birliyində yeni demokratiyaların meydana gəlməsi hesabına zənginləşmiş müasir dünyamızda sosial-siyasi proseslər yeni geosiyasi keyfiyyətlər kəsb etmiş, Z.Bjezinskinin ifadəsilə desək, «Avrasiya dünya qüdrətinin mərkəzinə» çevrilmişdir. Cahanda cərəyan edən qloballaşma hadisələri bəşəriyyətin çoxqütblüyə doğru hərəkətini və inkişafını müəyyənləşdirmiş, zaman ölçülərində görünməmiş dərəcədə yeni tipli siyasi-iqtisadi proseslərin formalaşması güclü vüsət almışdır. Bu sosial-iqtisadi, texnoloji, siyasi və digər törəmə proseslərin dinamikasının artması dünyada transmilli korparasiyaların qlobal rolunun artmasına, planetimizin bir çox guşəsində qeyri-müəyyənlik və sabitsizlik yaratmışdır. Müasir dünyamızın siyasi mənzərisinin məntiqini diqqətlə izləyərkən belə qənaətə gəlmək olur ki, sanki bir neçə ildə baş verən cahanşümul hadisələr özündə bir neçə epoxanın gördüyü işləri əhatə etmişdir. Qloballaşma proseslərinin dinamikasının ümumdünya miqyası və planetar məzmun kəsb etməsi hadisələrin meydana gətirdiyi konfliktli problemlərin tez bir zamanda rasional dərkinə imkan vermir, baş verən siyasi innovasiyaların nəticələrini, sadəcə, izləmək mümkün olmur. İntensiv cərəyan edən hadisələrin planetar xarakteri məhz bundadır ki, qlobal sosial-siyasi proseslər bütün dünya dövlətləri qarşısında, o cümlədən demokratik milli inkişaf yolunu seçmiş ölkələr qarşısında dərindən öyrənilməsini və vaxtında həllini tələb edən problemlər qoyur. Hər halda, müasir



düşüncə metodologiyasından yanaşılsa, danılmaz məntiq budur ki, hazırda ənənəvi hegemonluq, nüfuz sahəsi, təhlükəsizlik kimi anlayışların zamanın ruhuna uyğun qiymətləndirilməsi, dövlətlərin, o cümlədən Azərbaycanın daxili və xarici siyasət strategiyasını müəyyənləşdirən yeni meyarların işlənib hazırlanmasında həmin meyillərin nəzərə alınması xüsusi aktuallıq kəsb edir.

Bu gün önəmli bəşəri dəyərlərdən biri budur ki, plüralizmə və tolerantlığa söykənən yeni dünya fəlsəfəsi, milliyyətindən və irqindən asılı olmayaraq, milli və bəşəri dəyərləri hamının düşüncə tərzinə başlıca meyarlar kimi təlqin edən, bütün insanları planetin taleyi barədə düşünməyi və məsuliyyət daşımağı aşılayan planetar təfəkkür formalaşmağa başlayır. Bir sözlə, sosial sarsıntılar keçirən, nəticələri çox zaman real dərk olunmayan konfliktlərə mübtəla olmuş bəşəriyyətin müasir mərhələsində sosiomədəni ənənələrin, cəmiyyətin, millət və dövlətlərin tarixi sınaqlardan zorakılıq yolu ilə sülh mədəniyyəti və demokratik dialoq vasitəsilə çıxmasını başlıca insanlıq missiyası sayan yeni ideologiya formalaşmaqdadır. Bu elə bir prosesdir ki, sağlam düşüncə fəlsəfəsinə üstünlük verən dövlətlər labüd olaraq bu bəşəri amalın həyata keçirilməsində iştirak etməlidirlər. Təbii ki, bu obyektiv dünyəvi proseslərin fəal iştirakçılarından biri də müstəqilliyini daha da möhkəmləndirmək ideologiyasını rəhbər tutan, keçmişin ideoloji, dünyagörüşü sarsıntılarından azad olmuş, əzmkar əməyi ilə öz ölkəsinin çiçəklənməsi naminə Prezident Heydər Əliyevin ətrafında sıx birləşmiş Azərbaycan xalqıdır.

Deyilənlər baxımından belə bir cəhəti də nəzərə almaq lazımdır ki, planet miqyaslı sosial-siyasi və mədəni-ideoloji proseslər labüd olaraq dünya birliyinə inteqrasiya olunmuş hər bir ölkənin daxili həyatına, milli-demokratik inkişafına, dövlətçilik ideologiyasına, plüralizm və tolerantlığın daha çox rol oynadığı «iqtidar-müxalifət» münasibətlərinə obyektiv təsir göstərir.

Dialektik metodu rəhbər tutaraq belə bir elmi-nəzəri mülahizə irəli sürmək mümkündür ki, milli dövlətimiz müasir

inteqrasiya proseslərinin subyekti olmaqla həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda yaşayan milyonlarla azərbaycanlını birləşdirən ümummilli ideyaya və mühüm həyati faktora çevrilmişdir.

Həqiqətən də, sosial-siyasi konfliktlərlə müşayiət olunan müasir qlobal dəyişikliklər dövründə xalqın mənlik şüurunda belə bir ümdə məsələnin dərki baş verir ki, tarixdə tərəqqinin və yaxud da süqutun ayrı-ayrı mərhələlərində hər bir xalqın əsas saydığı, bu və ya digər dərəcədə iradəsini ruhlandıran və səfərbər edən, həyat fəaliyyətinin məzmununu radikal dəyişdirə biləcək başlıca ideyanın nədən ibarət olduğu bilinməlidir. Məhz tarixin taleyüklü çağırışları məqamlarında xalq şüurunda belə bir tələbat formalaşır ki, milli dövlət quruculuğunun, ölkənin milli mənafelərinin həyata keçirilməsi, insan hüquqlarına hörmətin, ümumibəşəri sərvətləri xalqın mənlik şüurunun mənəvi dəyərlərinə çevrilməyin əxlaqi meyarı özündə ehtiva edən milli ideya və onun real daşıyıcısı-lider lazımdır. Müstəqil dövlətçiliyin və milli inkişafın mühüm sosial mexanizmlərindən biri olan milli ideya xalqın potensialını, onun ziyalılarının zəkasını dövlətin möhkəmləndirilməsinə, dünya bazar münasibətləri sistemində bərqərar olmuş mütərəqqi prinsiplər əsasında iqtisadiyyatın inkişafına, milli inkişafın səlahiyyətini öz üzərinə götürə biləcək gələcək nəsl üçün humanist-əxlaqi oriyentirlər yaratmaq kimi tarixi amal naminə birləşdirici amildir. Hakimiyyətə milli barışıq ideyasını həyata keçirmək idealı ilə gələn Heydər Əliyev milli ideyanın təməlini xalqa xidmət amalında görürdü. Bu ideyanı rəhbər tutan xalq 1993-cü ildə Azərbaycanda milli dövlətçiliyin bünövrəsini qoymuşdur. Önəmli cəhət budur ki, müstəqil dövlətçiliyin formalaşmasında, onun möhkəmləndirilməsində düzgün ideoloji istiqamət götürmüş ziyalılarımızın intellektual potensialı aparıcı qüvvə olmuş xalqın mənlik şüuruna yeni impuls vermişdi.

Heç şübhəsiz ki, Azərbaycanda, milli demokratik inkişafın sosial-fəlsəfi mahiyyətindən, respublikada cərəyan edən siyasi proseslərin xarakterindən bəhs edərkən Heydər Əliyev



fəlsəfəsinin etik-əxlaqi və sosiomədəni müddəalarının müstəsna rolun xüsusilə qeyd etmək gərəkdir. Bu barədə f.e.d. R.Mehdiyev yazır: «XXI əsrdə Azərbaycanın milli dövlətçiliyi elə bir insanın həyat fəaliyyətinin bəhrəsidir ki, onun amalları azərbaycançılıq ideyasının zəfər çaldığı, fərdin hüquq və azadlıqlarının təmin edildiyi, iqtisadiyyatın ardıcıl surətdə yüksəldiyi və ictimai inkişafa nail olunduğu məkan qurulmasına yönəlmişdir».

Çox gözəl deyilmiş bu yığcam fikirdə o, Heydər Əliyev şəxsiyyətinin həyat amalının önəmli prinsiplərini məharətlə verə bilmişdir.

Lakin bu gün sağlam düşüncəyə söykənən hər bir azərbaycanlının vicdanını ağrıdan bir cəhət də var. Bu, Azərbaycanda çox iddialı «fəaliyyət» nümayiş etdirən müxalifətin sivil ölkələrdəki müxalifətdən siyasi mədəniyyətinə, milli mənafelərə xidmət etməməsi baxımında açıq-aşkar geri qalması, iqtidarla barışmaz mövqe tutması, kompromis və konsensus mədəniyyətindən uzaq olmasıdır.

«Çalış öz borcunu yerinə yetir, onda dərhal biləcəksən ki, nəyə qadirsən» - alman şairi Hotenin bu sözləri sanki bizim müxalifət üçün deyilib. Biz istərdik ki, siyasi həyatımızın ayrılmaz hissəsi olan müxalifətdəki opponentlərimiz bizi düzgün başa düşsünlər. Ölkə Prezidenti Heydər Əliyev, eləcə də onun dövlətçilik sahəsində misilsiz fəaliyyətini səmimi dəstəkləyən siyasi qüvvələr dəfələrlə bildirmişlər ki, hər bir ölkənin siyasi-ideoloji həyatında müxalifətin fəaliyyət göstərməsi tamamilə normal haldır.

Ümumiyyətlə, elə bir cəmiyyət tapılmaz ki, orada hakimiyyət münasibətləri ziddiyyət və konflikt yaratmasın. Burada heç bir qorxulu şey yoxdur, çünki hakimiyyət uğrunda sivilizasiyalı mübarizə həmişə olub və olacaqdır, bu, cəmiyyətin siyasi-mədəni inkişafının müəyyən hərəkətverici qüvvəsidir. Bu mübarizəyə obyektiv olaraq müxtəlif sosial qrupların nümayəndələri, xalq kütlələri cəlb olunurlar. Siyasi qarşıdurmanın bilavasitə iştirakçıları mütəşəkkil subyektlər - dövlət, siyasi partiyalar institutlar, parlament fraksiyaları,

ictimai-siyasi hərəkatlar, kütləvi informasiya vasitələri olurlar. Çünki təşkilatlanmada nə siniflər, nə də hər hansı sosial qrup siyasi proseslər subyekti ola bilməz. İdeya parakəndəliyinin əsirliyində, təsirində olan, lakin obyektiv olaraq müəyyən sosial birliyi təmsil edən insanları məhz təşkilat vahid ideoloji prinsip əsasında birləşdirə bilir, ona əsl milli maraqların və dəyərlərin mahiyyətini aşılamaq imkanında olur.

Məhz buna görə də siyasi təşkilatın yaranması üçün şəraitin olmadığı, yaxud bunun üçün yaranmış imkanlardan sivil yolla istifadə edə bilmədikdə məhz təşkilatın özü konflikt predmetinə çevrilir. Belə bir vəziyyət müstəqilliyin möhkəmləndirilməsi, dövlət strukturlarının və cəmiyyətin sosial institutlarının dövrün tələbləri səviyyəsində təkmilləşdiyi, ictimai birliklərin cəmiyyətdə sivil rol oynadığı bir zamanda xüsusi analitik təhlil tələb edir. Azərbaycanın yeni minilliyə hüquqi, sivil dövlət, vətəndaş cəmiyyətini quran dövlət kimi daxil olması, Heydər Əliyevin demokratik inkişaf xəttini daha əzmlə davam etdirəcəyi faktı üzərində dayanarkən, mövcud müxalifətin cəmiyyətimiz üçün ziyanlı ideyalardan yaxa qurtarması cəhdini ümummilli arzu hesab edirik.

Bu baxımdan demokratikləşmə kimi onsuz da ziddiyyətli keçən quruculuq proseslərində müxalifətin siyasi simasını açıb göstərmək üçün 2002-ci ilin avqustunda «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» aktın layihəsinin ümumxalq səsverməsində iştirakla bağlı məsələyə toxunmaq istərdik. Heç şübhəsiz ki, bu çox əhəmiyyətli sənəd Azərbaycanın dövlət quruculuğunun hüquqi bazasının təkmilləşdirilməsi və möhkəmləndirilməsi istiqamətində iqtidarın apardığı ardıcıl siyasi-hüquqi fəaliyyətində mühüm rol oynamaqdadır. Referendum müstəqil Azərbaycanın inkişafı yolunda, xüsusilə insan hüquqlarının müdafiəsi və demokratik proseslərin genişlənməsində yeni mərhələnin təməlini qoydu. Məhz buna görə də siyasi mədəniyyəti xeyli inkişaf etmiş xalq bu həqiqəti dərk edərək, Heydər Əliyevin dövlətçilik siyasətinə sədaqətini bildirərək bu tarixi sənədin qəbul edilməsinə yekdilliklə səs verdi.



Referendum siyasi gerçəkliyimizin bir çox düşündürücü, ibrətamiz cəhətlərini üzə çıxardı. Məsələn, biz təəssüflə qeyd etmək istərdik ki, yeni hüquq mədəniyyətimizin inkişafına təkan verən bu sənədin əsl mahiyyətini hətta politoloqlarımız yetərincə dərk etmədilər. Bizə elə gəlir ki, müxalifətə xidmət edən «nəzəriyyəçilər» bu reallığı, ümumiyyətlə, etiraf etmək istəməmişdilər. Boykotçu müxalifət özünün xalqla işləyə bilməmək siyasətini bir daha nümayiş etdirərək ölkəmizin milli demokratik inkişafı, siyasi sistemin təkmilləşdirilməsi üçün taleyüklü əhəmiyyət kəsb edən bu sənədə Azərbaycan əhalisini səs verməməyə çağırdı. Çox qəribədir ki, siyasi prosesləri analitik təhlildən daha çox, həmişə demokratiyadan boykot aləti kimi istifadəyə üstünlük verən müxalifət belə bir həqiqəti etiraf etmək istəmədi ki, bu referendumun ən mühüm sosial funksiyası məhz keçmiş sovet sisteminin özünü doğrultmayan siyasi və hüquqi prinsiplərindən azad etmək zərurətindən yaranmışdı. Hər halda, müxalifət referendumda Azərbaycan əhalisinin 83 faizinin iştirak etməsi və onun 96 faizinin bu sənədi dəstəkləməsi faktı üzərində düşünməli və «iqtidar-xalq» həmrəyliyi faktorunu qəbul etməlidir.

Bu gün bütün beynəlxalq təşkilatlar etiraf edirlər ki, Azərbaycan artıq düşüncədə plüralizm və idarəçilikdə demokratiya yolunu seçmişdir, bu ölkə beynəlxalq hüquq normalarına cavab verən yeni konstitusiya qəbul etmiş, insanlarımızın hüquqlarına təminat verən yeni hüquqi mexanizmlər yaranmış və bu proses təkmilləşməkdə davam edir. Suveren Azərbaycan Respublikasında müstəqil məhkəmələr yaranmış, prokurorluq sistemi artıq hansısa siyasi partiya qarşısında deyil, məhz dövlət qarşısında məsuliyyət daşıyır. Bu gün ölkəmizdə müstəqil hüquqşünaslar, hüquq firmaları və birlikləri yaradılmış, əhali arasında demokratik şüuru inkişaf etdirmək məqsədilə hüquqi biliklər geniş təbliğ olunur. Kütləvi informasiya vasitələri bu gün görünməmiş dərəcədə azad fəaliyyət göstərərək ölkəmizin siyasi və iqtisadi həyatı barədə tənqidi, bəzən də kəskin materiallarla çıxış edir. Respublikanın Milli Məclisində yeni demokratik infrastrukturun

formalaşması üçün insanın beynəlxalq hüquqları üzrə qanunvericilik sənədləri qəbul olunur, azsaylı xalqların hüquqlarının müdafiəsi sahəsində, beynəlxalq ekspertlərin də etiraf etdiyi kimi, hər şey normal vəziyyətdədir. Önəmli haldır ki, qeyri-hökümət təşkilatlarının qanunvericilik çərçivəsində fəaliyyətinə geniş yer verilmişdir. Onlar kütləvi informasiya vasitələri vasitəsilə çıxışlarında dövlətin diqqətini bir çox qüsurlu cəhətlərə, xüsusilə insan hüqüqlarının pozulması ilə bağlı məsələlərə cəlb etmək imkanı əldə etmişlər. Bununla belə, biz cəmiyyətimizdə demokratikləşmə ilə bağlı hər şeyin ideal olduğunu demək fikrindən uzağıq. Hər halda, bu da danılmaz tarixi faktdır ki, demokratiya və insan hüquqları sahəsində iqtidar tərəfindən nə iş görülübsə, 1995-ci ildən, ölkədə tam sabitlik dövründə görülmüşdür. Qısa tarixi bir kəsimdə, xüsusilə totalitar rejimdən çıxmış bir ölkədə Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində insan hüquqlarının təminatı sahəsində xeyli iş görülmüşdür. Hazırda təkmilləşməkdə olan insan hüquqları institutu ölkədə gedən demokratikləşmə proseslərinin ayrılmaz sahəsinə çevrilmişdir. Bu institut keçmişin «Hər şey insan üçündür» ideoloji basmaqəlibinə deyil, demokratik şüuru daim inkişafda olan yeni demokratik Azərbaycanın hər bir vətəndaşının real rifahının yaxşılaşması üçün kəsərli hüquqi mexanizm kimi çıxış edir. Ölkəmizdə insan hüquqları ümumi və universal xarakter daşıyır, yəni, kimliyindən və harada yaşamasından asılı olmayaraq, bu hər bir insana aiddir. Milli Məclisin qəbul etdiyi qanunvericilik aktlarında insan hüquqları şəxsiyyətin ayrılmaz təbii xüsusiyyətləri kimi təqdim edilir. Bir daha təkrar etmək istəyirik: əldə etdiyimiz bütün nailiyyətlər çox qısa bir tarixi kəsimdə qazanılmışdır, bütün sosial institutlarımız kimi insan hüquqları institutumuz da özünün təkmilləşmə prosesini keçirir. Bütün bunların müxalifət tərəfindən danılmasını isə biz elementar vicdan kateqoriyasında qiymətləndirilməsinə üstünlük veririk. Təəssüf ki, nə cəbhəçilərin, nə də əvvəlki hakimiyyətin bu zəruri idarəçilik mexanizmləri işləmirdi.



Bütün deyilənləri yazmağa ehtiyac duyarkən belə bir nəzəri müddəanı əsaslandırmaq istərdik ki, müasir cəmiyyətin əsas siyasi institutlarından biri olan müxalifətin mürəkkəb təzadlı təbiəti, təzahür formaları, həqiqi kökləri və yaranma səbəbləri politoloqlarımızın, cəmiyyətşünaslarımızın nəzərindən kənarda qalmışdır. Bu kontekstdə siyasi publisistikamızda söylənmiş təqdirəlayiq məqamlardan biri budur ki, professional filosoflar müxalifətin bir siyasi hadisə kimi mahiyyətini dərindən açmalı, onun destruktiv xarakterdə çıxış etməsini, ölkədə gedən demokratik proseslərin qiymətləndirməsinə elmi pozitiv yanaşa bilib- bilməməsini analitik məntiq prinsipləri əsasında inandırıcı surətdə saf-çürük etməlidir. Bunu görməmək mümkün deyildir ki, Heydər Əliyevin siyasət məktəbinin yetirmələri olan gənc siyasətçiləri daha çox qayğılandıran problem müxalif qüvvələr içərisində destruktiv və pozuçu fəaliyyət növünü seçmiş müxalifətçilərin siyasi hərəkətləridir. Cəmiyyətimizin sosial-siyasi strukturunun elmi araşdırılması çox zəif aparıldığından müxalifətin ictimai həyatda oynadığı rolun əsl mahiyyəti hələ dəyərincə açılmamışdır, ona görə ki, müxalif siyasi partiyaların strukturu və təsnifatı, demokratik partiya kimi elan etmələrinin psixoloji kökləri müxalif qüvvələrin düşüncəsinə hakim kəsilmiş barışmazlıq psixologiyasının formalaşma səbəbləri yetərincə elmi əsaslarla işlənib hazırlanmamışdır.

Bizə elə gəlir ki, f.e.d. R.Mehdiyevin bu yaxınlarda mətbuatda dərc olunmuş «XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət» yazısında müxalifət barəsində çox geniş bəhs olunmuşdur. Təəssüf edilməli haldır ki, 15 ildən artıq siyasi arenaya demokratiyanın carçıları kimi atılmış bəzi müxalifətçilər hələ də sivil mübarizə metodlarına yiyələnməmiş, Azərbaycanda siyasi liderlik institutunun formalaşmasına töhfə vermək əvəzinə, destruktiv, pozucu fəaliyyət yolunu seçmişlər. Siyasi həyatımızdakı bütün bu neqativ hallar tutarlı və kəskin vətəndaşlıq mövqeyindən analitik təhlil edilməli, Heydər Əliyevin müdrik siyasəti baxımından müxalifətçilərin siyasi təkmilləşmədən uzaq olduğu, onların uğursuz mitinqçilik

taktikasının qeyri-pozitiv mübarizə üsulu olduğu açılıb göstərilməlidir.

Biz bu məsələlər ətrafında geniş dayanmaq fikrində olmasaq da, indiki müxalifət barədə fikir söyləməyi vacib hesab edirik. «Biz demokratiyadan fetiş yaratmaq niyyətində olmamışıq» - ingilis alimi F.Xayekin «Köləliyə aparan yol» əsərində söylədiyi bu mülahizə deməyə əsas verir ki, demokratik proseslər hətta inkişaf etmiş ölkələrdə də arzu edilən şəkildə, rəvan getmir. Paradoksal səslənsə də, tarixdə bəzən elə hallar olub ki, mənəvi və mədəni çiçəklənmə demokratik rejimlərdə deyil, avtoritar idarəçilik cəmiyyətində baş vermişdir. Elə Azərbaycanın nümunəsində götürək: məgər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrü durğunluq illəri adlandırmaq olarmı? Ölkəmizin həyatın bütün sahələrində – iqtisadiyyat, mədəniyyət sahəsində əldə edilmiş cahanşümul uğurlar digər sovet respublikalarında yaşayan sadə adamları belə heyran edirdi. Deməli, söhbət, sadəcə, demokratiyanın hər şeyə qadir olmasından deyil, onun təbiətindən irəli gələn dəyər və prinsiplərdən mövcud siyasi reallıqların xarakterini nəzərə almaqla, bəşəri əxlaq normalarını rəhbər tutmaqla istifadə olunmasından gedir. Deməli, demokratiya rasional inkişafa nail olmaq naminə nəzarət institutudur. Əgər bu anlayış barədə səmimi fikir söyləsək, onun dəqiq tərifini vermək, sadəcə, mümkün deyildir. Bu səbəbdən də onu öyrənmək və dərk etmək xüsusi təfəkkür strategiyasına yiyələnməyi tələb edir. Məsələn, uşaqlıqdan qorxu metodu ilə tərbiyə almış insanın demokratiya şəraitinə alışması çox çətin olur. Belə bir insan hakimiyyətə gələndə xalqına səmimi rəhbərlik edə bilmir, insanların ədalət və qarşılıqlı anlam şəraitində yaşaması barəsində düşünə bilmir.

Ölkədə siyasi şüurun haçalanması məsələsinə toxunarkən milli və siyasi marginallaşma problemi barədə danışmaq lazım gəlir. Yeri gəlmişkən, son illər marginallıq anlayışı çox geniş kontekstdə işlədilir. Amerika sosioloqu R.Parkın təqdim etdiyi klassik tərifə görə, marginallıq iki mədəniyyət arasında qalmış, lakin onlardan heç birinə mənsubluğunu müəyyən edə



bilməyən şəxsiyyətin mövqeyini bildirir. Bu mövqe özünü çox zaman bir mövqedən sosial məkanda digərinə keçid vəziyyətində üzə çıxır. Sovet dövründə, məlum olduğu kimi, kəndlilər fəhləyə çevrilir, kənd əhalisi isə şəhər əhalisi olurdu və bu daha çox psixoloji adaptasiya vəziyyəti özünün ifadəsini sosialist həyat tərzində tapırdı. Biz isə problemi şərh edərkən marginallığı sosial qrupun, yaxud şəxsiyyətin sosial və mənəvi durumunu, marginallaşma deyərkən isə belə vəziyyətə gətirib çıxaran sosial-psixoloji proses kimi başa düşürük. Bu kontekstdə sabit cəmiyyətdəki və keçid dövründəki marginallıq də fərqlənməlidir. Sabit cəmiyyətdə marginallıq özünün təzahürünü bunda tapır: şəxsiyyət, yaxud qruplar iki sosial identiklik arasında, yaxud ictimai dəstəklənən sosial məkandan kənarda qalmış olur. Keçid dövründə marginallaşma geniş miqyasda, hər sahəni əhatə edən, yəni sosial subyektlərin öz identikliklərini itirməsi və qeyri-müəyyənlik, identikliyin silindiyi vəziyyətə keçməsi prosesidir. Bu cür marginallaşmanı meydana gətirən amillər cəmiyyətdə sosietal səviyyədə keyfiyyət dəyişikliklərinin baş verməsi, mülkiyyət və mülkiyyətçilər sisteminin dəyişməsi, həmçinin sosial stratifikasiya dəyişiklikləri, bir tip sosial strukturunun dağılması və digərinin formalaşması ilə müşayiət olunur. Bu zaman cəmiyyətin sosial-status əsasları dəyişir, sosial münasibətlərin yeni konfiqurasiyası təşəkkül tapır, sosial qrupların qarşılıqlı əlaqələrənin yeni əsasları formalaşır, yeni sosial institutlar sistemi meydana çıxır. Postkommunist cəmiyyətlərə məhz belə dəyişikliklər xasdır. Bu tip ölkələrdə transformasiya hadisələri şəxsiyyətin özünüidentifikasiyası proseslərinə ciddi təsir göstərən keyfiyyətcə müxtəlif modellər əsasında baş verir.

Keçmiş sovet məkanında baş verən transformasiya hadisələri göstərdi ki, qanlı konfliktlərin olmadığı ölkələrdə şəxsiyyətin yeni özünüidentifikasiyası üçün daha əlverişli şərait yaranmışdır, ona görə də burada yalnız sosial-siyasi quruluşun dəyişməsi baş vermişdir. Lakin hərbi konfliktlərə cəlb olunan ölkələrdə şəxsiyyətin özünüidentifikasiyası prosesi cəmiyyətin «özününkülərə» və «düşmənlərə» bölünməsi şəraitində

cərəyan etmişdir. Ümumiyyətlə, keçid dövründə çox zaman hansı zümrənin marginal olması və hansı qütbün marginallarla qarşıdurmada olduğunu təyin etmək çətin olur. Tarixi məqamın mürəkkəbliyi də bundadır.

Digər tərəfdən, gözlənilmədən öz obalarını, evlərini itirmiş qaçqınlar, məcburi köçkünlər də yeni şəraitə psixoloji uyğunlaşmanın çətinliyi səbəbindən müəyyən mənada marginallıq psixologiyası ilə yanaşmışlar. Məhz buna görə də ölkə Prezidenti onların barəsində xüsusi dövlət qayğısı göstərməyi dəfələrlə vurğulayır. O, real gerçəkliyimizin gözəl sosioloji bilicisi kimi, başa düşür ki, marginallaşma uyğunlaşmanın böhranlı vəziyyəti deməkdir. Uyğunlaşma həqiqətən də şəxsiyyətin yeni yaşayış üslubunu və həyat tərzini mənimsəməsidir. Əgər dəyişikliklərə uyğunlaşma prosesində müəyyən nəticə əldə olunubsa, insan yeni sosial əlaqələr sistemini mənimsəyir, onu daxili tələbatları sisteminə çevirə bilir. Doğrudur, bəzən uyğunlaşma prosesi subyektiv səbəbdən baş tutmur, məsələn, insan öz həyat baxışlarını, dəyərlərini, dünyagörüşünü dəyişmək istəməyəndə də marginallaşma baş verir. Bizə elə gəlir ki, konkret hallarda uyğunlaşma bir neçə ayda, hətta ildə baş verə bilər. Əgər uyğunlaşma üçün bir neçə illər on illər tələb olunursa, buna artıq adaptasiya demək çətindir, görünür, belə vəziyyətin başqa anlayışda ifadə olunmasına ehtiyac duyulur.

Sosioloji eksperimentlər göstərir ki, əgər millətin mədəniyyətində baza dəyəri, sosial ədalət prinsipi bir neçə yüz illiklər mövcud olmuşsa, onu ən volyuntarist idarəçilik şəraitində belə dağıtmaq mümkün deyildir. Nə qədər inandırmağa çalışsalar ki, dəyərlər sistemində birinci yerdə müqəddəs xüsusi mülkiyyət və insan hüquqları durur, etiraf edilməlidir ki, bu sərvətlər bizim cəmiyyətdə, ədalət kimi, sosial-əxlaqi keyfiyyətlə rəqabətə girə bilməzlər.

Aydın məsələdir ki, yeni identikliyin formalaşması insanların əksəriyyəti üçün çox mürəkkəb psixoloji problemdir. İndi belə bir mənzərəni təsəvvür etməyə çalışaq. Məlumdur ki, vətəndaşlıq hüquqi institut kimi insanla dövlət arasında rəsmi



əlaqəni ifadə edir. Əvvəlki rəhbərliyin pozucu, səriştəsiz olması ucbatından onsuz da identifikasiya prosesinin ağrılı keçdiyi dövrdə ölkədəki hərc-mərclik, xaos, ideoloji səbatsızlıq, bir sözlə, insanın öz dövləti ilə identikliyini itirdiyi bir zamanda insanların psixoloji çaşqınlığından doğan marginallaşmanın nə olduğunu başa düşmək çətin deyildir. İlk növbədə belə böhranlı dövrdə dövlət nüfuzunu kəskin surətdə itirir. Dövlət və vətəndaş əlaqələrinin itirilməsi, hər şeydən əvvəl, xalqımızın mentalitetində əsrlər boyu önəmli yer tutan sosial ədalət prinsipinə vurulan ağır zərbənin nəticəsidir. Burada hansı identifikasiyadan danışmaq olar? Müxalifətin yağlı vədlərinə aldanmış xalq nəinki heç bir mütərəqqi yaradıcılığa səfərbər olunmadı, əksinə, ideoloji yalanların, populist çıxışların məngənəsinə düşdü, vətən və dövlət anlayışlarına ümüdini itirməyə başladı. Elə bir vəziyyət yaranmışdı ki, cəmiyyət gec-tez bu mürəkkəb marginallaşma vəziyyətini dərk etməli idi, ölkənin siyasi gələcəyi üçün mövcud durumun nə dərəcədə təhlükəli olduğunu başa düşməli idi. Obyektiv səbəblərdən vəziyyəti siyasi marginallaşma səviyyəsinə enmiş cəmiyyətdə müxalifət, heç olmasa, xalqın sosial səfərbərliyinə nail olmalı, onu öz taleyinin ümüdinə buraxmamalı, ağır sınaqlara hazırlamalı idi. Əfsuslar olsun ki, kəmsavad insanların hakimiyyət strukturlarında yerləşdirilməsi, intellektual potensialı güclü olan ziyalıları ya öz sahəsindən kənarlaşdırılması, ya da onların taleyinin marginalların rəhbərliyinin öhdəsinə buraxılması nəticəsində marginallaşma prosesi daha da güclənmişdi.

Şükürlər olsun ki, məhz Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışı ilə cəmiyyətin ictimai ovqatında dərin iz buraxılmış, kütlələrin psixoloji səfərbərlik hissini buxovlamış marginallıq tədricən aradan qaldırıldı, xalq öz mənliyinin və ləyaqətinin nə dərəcədə alçaldığının əsl səbəblərini dərk etməyə başladı, özünün identikliyini başa düşməsi üçün vacib olan Vətən və dövlət, həmrəylik və özünəinam anlayışları üçün əsl sosial şəraitin yaranacağına ümidi artmağa başladı.

Müxalifət belə bir həqiqəti dərk etməlidir ki, demokratiya zorakılıqla hakimiyyətə gəlmək deyil, onun ruhuna hörmət edərək cəmiyyətdə birgəyaşayış qaydalarını öyrənmək və bunu həyat tərzinin ayrılmaz keyfiyyətinə çevirməkdir, demokratik dəyişikliklərin onsuz da ziddiyyətli keçdiyi cəmiyyətimizdə siyasi tolerantlıq, qarşı tərəfin mülahizələrini dinləyərkən sağlam tənqidə söykənmək və əxlaqi dözümlülük sənətinə yiyələnməkdir. Demokratiyanı heç zaman bütləşdirmək və spekulyasiya obyektinə çevirmək lazım deyildir. Haqlı olaraq belə bir ideyanı qəbul etmək olar ki, demokratik proseslərdə barışmaz, destruktiv mövqedə duran yeni müxalifətçilər fəaliyyət prinsiplərinə görə hər şeydən əvvəl siyasi mədəniyyətinə görə Qərb müxalif qüvvələrindən ciddi şəkildə fərqlənirlər. Müxalif partiyalardakı hökm sürən ideoloji pərakəndəlik və liderlik ambisiyaları nəticəsində onlarda «müasir dünya reallıqlarına və beynəlxalq standartlara uyğun heç bir müsbət dəyişikliklər baş vermir». 80-cı illərin sonunda və 90-cı illərin əvvəlində müxalifət liderlərinin siyasi dünyagörüşünü müəyyənləşdirmiş «meydan psixologiyası», təəssüf ki, hazırda da onların mübarizə arsenalında möhkəm yer tutmuş silah kimi istifadə olunur. Lakin xalq içində nəinki sosial bazası olmayan, hətta geniş kütlələrlə işləməyi bacarmayan müxalifət liderləri bilməlidirlər ki, xalqın dünyagörüşü xeyli tərəqqi etmiş, onu artıq köhnəlmiş «meydan və mitinq» taktikası ilə total qarşıdurmaya cəlb etmək mümkün deyildir. İfrat radikal mövqeni müdafiə edən ideologiya nəinki ölkə daxilində, hətta inkişaf etmiş demokratiyalarda da dəstəklənmir. Xarici qüvvələrin göstərişi və daxili destruktiv elementlərin dəstəyi ilə – Allah bilir, hansı qrantlar hesabına - xalqı meydanlara çıxarıb onun milli mənafelərini real müdafiə edən və həyata keçirən dövlətlə qarşı-qarşıya qoymaq, milli demokratik inkişafın uğurlarının daha da artırılmasına öz xidmətini təqdim etmək əvəzinə, düşünülməmiş, bugünkü reallıqlarımızın təşəkkül tendensiyalarını analitik qavranılmadığının təzahürü olan «istefa» şüarları ilə insanları küçələrə, meydanlara çıxarmaq - bəs bu, pozuculuq deyil?



Hakimiyyət kreslosu uğrunda əxlaqi prinsiplərə sığmayan üsullarla mübarizə aparmaq, hər cür vasitələrlə öz siyasi ambisiyalarını həyata keçirmək üçün xalqın inamını qurban verməyə hazır olan müxalifət liderlərinin Azərbaycan əhalisinin legitimliyini qazanmış hakimiyyət strukturlarına qara yaxan məsuliyyətsiz bəyanatları pozuculuq və dağıdıcılıq fəaliyyəti deyil, bəs nədir? 1990-cı illərin əvvəllərində ölkədə baş alıb gedən dərəbəylik, səriştəsiz siyasətin törətdiyi özbaşınalıq nəticəsində cəmiyyət həyatının tənzimlənməsinə xidmət edən bütün sosial institutların, ilk növbədə dövlətin iflic vəziyyətinə düşməsi məgər xalqın yaddaşından silinib? Xalq elə o illərdə əmin oldu ki, ölkədə ayaq tutub yeriyən anarxiya məhz indiki müxalifətçilərin, onların liderlərinin bəd əməllərinin nəticəsidir. Öz mətbuatında Azərbaycanı terroru dəstəkləyən bir dövlət kimi təqdim etməkdən və bununla da ölkəmizin «bədxah imicini» yaratmaqdan daha hansı pis pozuçuluq əməlindən danışmaq olar?

Müxalifətçilərdən bundan başqa ayrı şey gözləmək mümkün də deyil, çünki onların arasında hələ də davam edən liderlik davası, son zamanlar isə qarşıdakı prezident seçkiləri qarşısında «vahid namizəd» irəli sürmək cəhdlərinin boşa çıxması kimi prinsipsiz mübarizə onları istər-istəməz pozuculuq mövqeyinə sürükləmişdir. Bu gün artıq bütün cəmiyyət görür ki, müxalifətdaxili inteqrasiya, müxalifətdaxili ziddiyyətlər prinsipsiz çəkişmələrlə, ambisialı çıxışlarla müşayət olunur. Təbii ki, belə şəraitdə konkret sosial təbəqəyə və elektorata istiqamətlənmiş aparıcı siyasi partiyaların mövcudluğundan söhbət gedə bilməz. Mətbuatda çox haqlı olaraq belə bir ümumiləşmə verilir ki, Azərbaycanda müxalifətin fəaliyyətini qiymətləndirərkən, parçalanmış və daxili ziddiyyətlər nəticəsində dağılan, buna oxşar başqa ifadələrdən istifadə etsək səhf etmərik. Tədqiqatçılar bu tezisi əsaslandırarkən müxalifət liderlərinin çıxışlarından və onların «platformasını» dəstəkləyən radikal yönümlü mətbuatda əksini tapan materiallardan istifadə edir, analitik təhlil onların pozucu fəaliyyətini yetərincə ifşa edir, tam haqlı olaraq sübut edirlər ki,

mövcud reallıqlarımızda xalqı öz ardınca apara biləcək nüfuzlu müxalifət partiyası yoxdur.

Müxalifət özünü refleksiya metodundan istifadə etməlidir, özünə kənardan nəzər salıb pozucu əməllərinin hansı dəhşətlərə gətirib çıxaracağı barədə ciddi düşünüb daşınmalı, xalqın sadəlövh hissəsinin taleyini siyasət hərracına qoymamalıdır, sağlam düşüncə fəlsəfəsinə söykənib dəyişən dünyanın reallıqlarını dərindən təhlil etməlidir.

Bu gün dünyanın bütün mütərəqqi qüvvələri «bir planet, bir tale, bir tarix» amalına xidmət etməyi, bunu bütün şüurlu insan ların əxlaq devizi etməyə səylər göstərir, xalqların yeni sosiomədəni birliyini yaratmaq naminə humanist hərəkata qoşulurlar. Müxalifətçilərin liderləri bilməlidirlər ki, bu gün «iqtidar-müxalifət» münasibətlərində dialoq ruhu hökm sürməlidir, iqtidarın hansısa prinsipləri ilə razılaşmamağın da bir həddi var, dərk olunmalıdır ki, demokratik plüralizm özbaşınalıqla bir yerə sığmaz, tolerantlıq, qarşılıqlı anlamaya söykənən dözümlülük hazırda bəşəri dəyər kimi təbliğ olunur, şüurları maarifləndirir, nifrətsiz mübahisələr bu gün dialoq mədəniyyətinin ayrılmaz hissəsidir. Belə əxlaqi meyar olmasa, siyasi məxrəcə gəlmək qeyri-mümkündür. Bu gün ölkələr mədəni dialoq rolunu seçmişlər, dialoq mədəniyyətinə üstünlük verirlər. Dialoq həqiqəti aşkarlamaqdır, bir-birilə konfliktdə olan iki ideyadan daha yaxşı ideya yaranır-bunu bilmək üçün Hegelçi olmaq lazım deyildir. Dialoq siyasəti daha da kamilləşdirir.

Bir tarixi fakta müraciət edək. Vaxtilə Çexiyanın keçmiş prezidenti Vatslav Qavel totalitarizm şəraitində «Xartiya - 77» sənədinin müəlliflərindən biri kimi hökuməti dialoqa çağırmağına görə öz silahdaşları ilə birlikdə repressiyaya məruz qalmışdı. Bizdə isə bu gün demokratik proseslərin gedişində iqtidar dialoq təklif etdiyi halda, müxalifət liderləri bunu rədd edir, əhalini heç bir uğur gətirməyən mitinqlərə çağırmaqda israrlıq göstərirlər. Düşünülməmiş «istefa» sözü sanki onların siyasi manifestinə çevrilmişdir. Belə destruktiv,



siyasi etikaya sığmayan hərəkətləri ilə müxalifət xalqın etimadını heç vaxt qazana bilməyəcəkdir.

**Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir!** Heydər Əliyevin düşüncəmizin rəmzinə, mənlik şüurumuzun amalına çevrilmiş bu sözləri düşüncə tərzimizi, mentalitetimizi mənalandıran faktordur. Biz milli inkişafımızın uğurlarından bəhs edərkən, öz nəzəri mülahizələrimizi əsaslandırarkən ölkə Prezidentinin misilsiz fəaliyyətini layiqincə qiymətləndirməliyik, çox önəmlidir ki, R.Mehdiyev Heydər Əliyev şəxsiyyətinin əzəmətindən danışarkən hiss olunur ki, o, təkcə Prezidentin tarixi xidmətlərindən deyil, həm də öz müəllimindən söz açır, 30 il ərzində xalqımızın ozman oğlu ilə çiyin-çiyinə işlədiyiindən, onun siyasət məktəbindən bəhrələndiyindən səmimiyyətlə bəhs edir. Heç şübhəsiz ki, Azərbaycanın tarixin sınaqlarından çıxması, ölkənin siyasi mühitinin sabit xarakter alması, iqtisadiyyatının inkişafı, sosial mədəni yüksəlişi, milli dəyərlərimizin xalqımıza bir daha qayıtması Heydər Əliyevin titanik fəaliyyəti ilə bağlıdır. Müstəqilliyimizin qısa tarixi kəsiyində əhalinin sosial rifahının artmasında, milli büdcənin sabitləşməsində 1994-cü ildən bəri imzamlanmış müqavilələrin milli iqtisadiyyatımızın maliyyələşdirilməsi üçün açdığı imkanlardan, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə başlanmasını, neft sənayesi sahəsində aparılan məqsədyönlü siyasəti və digər göstəriciləri sadalayarkən bunu məhz iqtidarın xalqın rifahının yaxşılaşdırılması naminə apardığı ardıcıl siyasət kimi dəyərləndirmək, bu uğurların ölkə Prezidentinin işləyib hazırladığı xarici siyasət strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində önəmli rol oynadığını xüsusi vurğulamaq lazımdır. Bu göstəricilər, daha dəqiq desək, xalqımızın siyasi şüurunun getdikcə inkişaf etməsi, iqtisadiyyatımızın dünya iqtisadi proseslərinə daxil olması, mədəniyyətimizin qısa bir müddətdə dirçəlişi, hüquqi dövlət quruculuğu sahəsində beynəlxalq standartlara cavab verən hüquqi bazanın yaradılması, bir sözlə, Azərbaycanın beynəlxalq münasibətlər subyekti kimi tanıdılması ölkəmizdə vətəndaş cəmiyyəti

yaratmaq üçün ilkin sosial-siyasi şərtlər yaratmışdır. Bir çox tədqiqatçıların düzgün qeyd etdiyi kimi, bu gün Azərbaycan üçün vətəndaş cəmiyyəti quruculuğu artıq utopiya deyildir, xalqımız, onun müstəqil dövləti bu yola qədəm qoymuşdur. Ermənistanla qanlı konflikt şəraitində, əvvəlki rəhbərlərin səriştəsiz fəaliyyəti nəticəsində iqtisadiyyatın bərbad, böhran vəziyyətinə düşməsi və mədəniyyətin nadanların rəhbərliyinə verilməsi ucbatından fəlakət həddinə çatmış ölkəni yalnız Heydər Əliyev şəxsiyyətinin ətrafında birləşmək sayəsində xilas etmək mümkün oldu. Məhz buna görədir ki, «Heydər Əliyev Azərbaycan xalqının misilsiz sərvətidir. O, dünya miqyaslı tarixi sima və şəxsiyyətdir» sözlərini vətəndaş qüruru ilə səsləndirərkən sanki bütün dünya azərbaycanlılarının ürəyindən xəbər veririk. Və həqiqətən də, inanırsan ki, xalqımızın milli həmrəyliyini öz aralarındakı mənasız, çəkişmələr aparan, liderlik ambisiyaları üzündən bir məxrəcə gələ bilməyən müxalifət deyil, yalnız Heydər Əliyev zəkasının nuruna söykənən indiki iqtidar təmin edə bilər.

Alman filosofu M.Veberin bu sözləri yada düşür: «Biz ona görə insanıq ki, dünyaya, ətrafımıza insani məna kəsb etdirmək qabiliyyətinə, iradəsinə malikik».

Tarix də sübut etdi ki, xalqımızın müstəqilliyini, milli varlığını mənalandıran, gələcəyini nurlandıran böyük insan Heydər Əliyev şəxsiyyəti və iradəsidir.

Qeyd edək ki, Heydər Əliyevin siyasət fəlsəfəsinin güzgüsü olan diplomatik fəaliyyətində lobbizm mühüm yer tutur. Bu institutun Azərbaycanın milli mənafelərinin həyata keçirilməsində önəmli yer tutmasını o, dünya azərbaycanlılarının Bakıda keçirilən qurultayında xüsusilə qeyd etmişdir. Ümumiyyətlə, dövlətlər arasında konsensus yaratmaq işinə kömək edən lobbizm eyni zamanda millətin mənlik şüurunun, onun suveren dövlətinin inkişaf səviyyəsini əks etdirən mühüm sosial-siyasi səfərbərlik formasını ifadə edir. Əgər milli mənafeləri dərk etmək milli mənlik şüurunun inkişaf göstəricisidirsə, lobbizm milli mənafelərin həyata keçirilməsinin əsas mexanizmi olmaqla yanaşı, xalqın siyasi özünütəsdiqinin



çox mühüm formasıdır. Təbii ki, bu institutun son dərəcə vacibliyini göstərməklə bərabər, lobbizmin həm də məsuliyyətli dövlət işi olduğunu da dərk etməliyik. Lobbizmi yaratmaq, bundan milli mənafelərin həyata keçirilməsi naminə istifadə etmək heç də asan iş deyil. Lobbizm fəaliyyətini maliyyələşdirməklə yanaşı, bunu yaratmaq üçün gərgin, çevik diplomatik fəaliyyət tələb olunur. Bunun üçün samballı siyasi təcrübəyə yiyələnmək, onun potensialından rasional yararlanmaq, problemin mahiyyətini, siyasi məkanın xüsusiyyətlərini nəzərə almaq lazım gəlir.

Məsələn, ABŞ-da təşəkkül tapmış ənənəyə görə, lobbistlər dəstəklənən məsələni dərindən öyrəndikdən sonra öz «müştəriləri» adından Konqresə müraciət edir, konkret məlumatların toplanması barədə maraqlı tərəfə dövlətçiliyin təmsilçisinə konkret informasiya təqdim edirlər. Buradakı lobbistlərin funksiyalarına qanun layihələrini müdafiə edən, neytrallaşdıran formalardan istifadə etmək, yaxud qanunlara əlavələr məqsədilə siyasi strategiya və taktika işləyib hazırlamaq daxildir.

Lobbizmin ən mühüm fəaliyyət funksiyalarından biri xidmət etdikləri dövlətlərin daxili, siyasi-inzibati münasibətlərini yaxşı bilməkdir. Məsələn, Birləşmiş Ştatlarda fəaliyyət göstərən lobbistlər bu ölkənin federal sistemini, Konqreslə icra hakimiyyətinin qarşılıqlı münasibətlərinin xarakteri və xüsusiyyətlərini, bu strukturlarda çalışanların potensial imkanlarını, hətta psixologiyasını yaxşı bilirlər. Lobbizm çoxşaxəli siyasət fəaliyyəti sahəsi olduğundan müstəsna peşəkarlıq tələb edir, hər şeydən əvvəl, tərəf müqabili ilə yüksək intellektual səviyyədə işləməyi vacib sayır.

Müasir siyasi reallıqlar göstərir ki, bu gün dünya birliyi tərəfindən demokratik dəyişiklikləri uğurla həyata keçirən, eləcə də beynəlxalq münasibətlər subyekti kimi tanınan müstəqil Azərbaycan Respublikasının güclü lobbizmə ehtiyacı vardır. Millət vəkili İlham Əliyevin siyasi fəaliyyəti ilə bağlı bir fakta müraciət etsək yerinə düşər. Məlum olduğu kimi, 2001-ci il aprelin 24-də Avropa Şurası Parlament Assambleyasında

mütəşəkkil cinayətkarlıq probleminin müzakirəsi prosesində Azərbaycan nümayəndə heyətinin rəhbəri, tanınmış siyasətçi İ.Əliyev Dağlıq Qarabağ problemindən danışarkən bu diyarın ərazisindən narkotiklərin daşınması, bu qondarma qurumun nəzarətsiz torpaqlarından qanunsuz olaraq silahların ötürülməsi üçün istifadə olunması, burada hərbi dəstələrin yaradılması və bununla bağlı çirkli pulların yuyulması barədə ətraflı məlumat vermişdir. Gənc siyasətçinin gətirdiyi inandırıcı arqumentlərin qarşısında çaşqınlıq keçirmiş erməni nümayəndələri heç bir əks, təkzibedici sübut və dəlillər gətirə bilməmişlər. İ.Əliyevin güclü məntiqi yük daşıyan məruzəsi AŞPA üzvləri üçün gözlənilməz açıqlama olmuş, salondakılar tərəfindən (ermənilərdən başqa) bəyənilmişdir. Bu faktın özü bir daha göstərir ki, uydurma «Qarabağ Respublikası» deyilən qurumun siyasi simasını açmaq, Qarabağ haqqında əsl həqiqəti dünya birliyinə operativ və inandırıcı şəkildə çatdırmaq üçün Azərbaycanın mütəşəkkil lobbiyə ehtiyacı vardır.

Bunun əhəmiyyətini vurğulamaq məqsədilə bir daha amerika təcrübəsinə qayıtmaq istərdik. Çünki siyasi anlayış kimi lobbizm ilk dəfə ABŞ-da 1864-cü ildə Konqresin dəhlizlərində pulla səs almaq mənasında işlədilməyə başlamışdır.

Lakin sonradan bu mənasını itirən lobbizm 1946-cı ildən başlayaraq Ədliyyə Nazirliyində qeydə alınır və bu gün qanunvericilik əsasında maliyyə nəzarəti altındadır. Nədənsə, lobbizm yenə də bir çox hallarda pulla səs toplamaq, müəyyən məqsədə qanunsuz yolla çatmaq vasitəsi kimi qiymətləndirilir. Amma, əslində, belə deyil. Lobbizm sosial-konstruktiv aktları arqumentlərlə əsaslandırmaq, hazırlamaq və qəbul etmək mexanizmidir. Amerikanın XİA informasiya mənbəyinin (1996) verdiyi məlumata görə, ABŞ-ın «lobbistlər şəhəri» hesab olunan paytaxtında 67000-dən artıq adam hökümətə təsir göstərmək fəaliyyətilə məşğul olur. Həmin mənbənin məlumatına istinad etsək, lobbistlərin təkcə Vaşinqtondakı fəaliyyətindən gələn gəlir ildə səkkiz milyard dollardan çox olur. Ənənəyə görə, lobbistlər öz «müştəriləri» üçün Konqresə



müraciət edərək çoxlu məlumat toplayırlar. Lobbizm çox mürəkkəb, bəzən hökümətin siyasətinə zidd gedən bir prosesdir. Belə bir faktı götürək. ABŞ və eləcə də bir sıra xarici kompaniyalar İrana qarşı sanksiyalarla bağlı qanun layihələrinin əleyhinə çıxmış və bunu belə əsaslandırmışlar ki, sanksiyaları İranda investisiya qoyan, ona texnoloji yardım göstərən dövlətlərə tətbiq etmək lazımdır. Bir sözlə, Konqresin məşğul olduğu məsələlər lobbistlərə də aiddir. Onların dəstəklədikləri bəzi xarici siyasi məsələlər Konqres üzvlərinin mövqeyi ilə üst-üstə düşür.

Xarici siyasət sahəsində lobbistlərin xidmətindən əsasən xaricə yardım və xarici ticarət üzrə, o cümlədən intellektual mülkiyyət üzrə qanun layihələrinin hazırlanması zamanı istifadə olunur. Lakin lobbistin kifayət qədər inandırıcı və təsirli fəaliyyət aparması üçün mənafeyi müdafiə edən tərəf onu tutarlı faktlar və dəlillərlə təmin etməlidir. Bu işdə informasiyanın məzmunu və çatdırılması müstəsna əhəmiyyət kəsb edir. Birləşmiş Ştatlarda təşəkkül tapmış siyasi ənənəyə görə, Konqresin bir çox üzvləri istefaya çıxandan sonra lobbist olurlar. Onların çoxu hüquq firmalarında çalışır. Şübhəsiz ki, dəstəklənən məsələnin xarakterindən asılı olaraq lobbizm prosesində çoxlu sayda ekspert, məsləhətçi, icraçı fəaliyyət göstərir, onun fəaliyyət mexanizmini formalaşdırmağa səy göstərir. Bunlar əsasən keçmiş məmurlar, dövlət xadimləri, peşəkar hüquqşünaslar, ictimai rəy üzrə mütəxəssislər, konfliktoloqlar və digər peşəkarlardır. Lobbizmin sosial bazasını bu və ya digər ictimai siyasi partiyalar, etnik qruplar, hərəkatlar təşkil edir. Onun bəzi fəaliyyət mexanizmləri nəzarət altındadır, lakin bu siyasi aksiyanın təbiəti elədir ki, əgər o, peşəkarlıqla həyata keçirilirsə, onu tam nəzarətə almaq olmur. Birləşmiş Ştatlarda, Rusiyanın özündə hərbi sənaye kompleksinin lobbisi çox güclü siyasi institut sayılır.

Lobbizm Azərbaycanın xarici siyasətində bir də ona görə vacib yer tutmalıdır ki, Sovetlər dövründə bu institut ABŞ siyasətinin mənfi cəhəti ilə eyniləşdirildiyindən ona müsbət

yanaşılmamış və buna görə də bu sahədə təcrübə qazanılmamışdır.

Lobbizmin dəyərindən danışarkən, utopiyaya uymamaq, müasir dövrün problemlərinə ağılla, sağlam düşüncə baxımından yanaşmaq, azdırıcıl populizmdən uzaq olmaq lazımdır. Russonun bir kəlamını xatırlamaq yerinə düşər. O deyir ki, insanları birləşdirmək kimi çətin vəzifənin öhdəsindən gəlmək üçün hər şeydən əvvəl başqa xalqların adət və psixologiyasını dərk etmək, təhsilin inkişafına, informasiyanın yayılmasına şərait yaratmaq və insan hüquqlarını müdafiə etmək lazımdır.

Tanınmış filosof A.Toynbi B.Rasselin «İnsanın gələcəyi varmı» əsərinə yazdığı ön sözdə qeyd edir ki, təhlükənin miqyasları arasında heyrət doğuran fərqləri biz özümüz yaratmışıq və uğrunda çarpışdığımız xırda milli maraqlar da dünya məhv olunandan sonra heç nəyə lazım olmayacaq. Bu ideyadan çıxış etsək, deməliyik ki, lobbizm məhz sülh işinə xidmət etməlidir.

Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, dünyanın inkişaf etmiş ölkələrinin parlamentlərində Azərbaycan lobbisinin yaradılması ölkəmizin milli mənafelərini həyata keçirməkdə, Qarabağ həqiqətinin dünya birliyinə çatdırmaqda, digər taleyüklü problemlərimizə diqqəti cəlb etməkdə son dərəcə aktuallıq təşkil edir. Lobbizm həm də hər bir xalqın siyasi yetginliyinin mühüm göstəricisidir. Müasir dövrdə dünya birliyində Heydər Əliyevin sülhsevər diplomatik fəaliyyəti sayəsində respublikamız demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu seçmiş ölkə kimi tanınmışdır. Ölkə vətəndaşlarında belə bir qəti əminlik yaranmışdır ki, milli gerçəkliyimizin reallıqları lobbizmin yaradılması üçün ən mühüm siyasi və mənəvi baza olacaqdır.



## VII FƏSİL

## MİLLİ MENTALİTETİMİZİN İNKİŞAF ORİYENTİRLƏRİ

Mentalitet şüur fenomeni kimi, hər şeydən əvvəl, sosiomədəni dəyərlərin sintezinin təzahürü olmaqla cəmiyyət və insan həyatının bir çox sahələrinə nüfuz etdiyindən çoxlu ölçülərdə və xarakteristikalarda üzə çıxır. Əgər belə demək olarsa, o, intellektlə iradədə əksini tapmış ruhi və fəhmi qavramanın ittifaqının fərdin mənlik şüurunda, düşüncə tərzində təcəssümüdür, buna görə də insanın formalaşmış fikirləri və ideyaları praktik siyasət üçün hələ kifayət deyildir, başlıca şərt bunların sosial reallaşmasıdır. Lakin intellektin süzgəcindən keçən siyasi fikirlər güclü dəstək qazanmaq üçün geniş kütlənin ovqatına adekvat olmalı, «zəkaya və qəlbə» yol tapmalıdır. Bu isə milli mənlik şüurunun formalaşmasının müqəddəm şərtləri olan milli psixologiyanın, milli mentalitetin öyrənilməsini aktual tədqiqat sahəsi kimi daha vacib edir. Əlbəttə, bu işdə ən vacib şərt, xüsusilə böhran dövründə zamanın ruhunu vaxtında və dərindən duyan, dövlətin milli mənafelərini düzgün dərk edib müdrikcəsinə və peşəkarcasına həyata keçirməyi bacaran ümummilli lider lazımdır. Real siyasət məhz bu komponentlərdən, yəni siyasi liderlə milli psixologiyanın «əməkdaşlığından» daha çox asılı olur.

Bəs, Azərbaycanda cəmiyyətin siyasi mədəniyyətinin və mənlik şüurun təkmilləşməsinə yardımçı olan siyasət fəlsəfəsi necə olmalıdır? Ölkəmizin müstəqilliyi hansı fəlsəfəyə söykənməlidir və yaxud müstəqillik ideyaları hansı fəlsəfəni yarada bilər? Azərbaycanın böyük siyasətdə yeri, onun geosiyasətini müəyyənləşdirən ideologiya necə olmalıdır? Bu gün xalqı milli həmrəyliyə səsləyən, onun real problemləri və qayğılarını həll etmək amalını özünə əqidə seçən lider Azərbaycanın bu günü və gələcək taleyi üçün nə deməkdir? O, xarizmatik populist liderdir, yoxsa rasional siyasətçi?

Bütün bu mülahizələr baxımından, müstəqil Azərbaycanın böyük siyasətinin əsl mahiyyətini obyektiv dərk etmək baxımından yanaşsaq, ən yeni tariximizin bu qısa kəsimi belədir: öz azadlığı uğrunda ayağa qalxmış xalqın inam və iradəsini qırmaq, milli mənliyini və ləyaqətini alçaltmaq və can verməkdə olan imperiya hərb maşınının «cahanşümul» gücünü nümayiş etdirmək məqsədilə ölkəmizdə 20 Yanvar faciəsini törətmiş totalitar rejim xalqımıza qarşı ən böyük cinayət etmişdir. Cinayətin miqyasına və siyasi mahiyyətinə biganə qalan keçmiş respublika rəhbərliyi faciənin nəticələrini hər vasitə ilə ört-basdır etməyə çalışmışdır. Ən bağışlanmaz sosial biganəlik budur ki, Azərbaycan SSR Ali Sovetinin yanvarın 22-də Yanvar faciəsi ilə əlaqədar çağırılmış sessiyasında dövlət başçıları iştirak etməmişdi. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi də lazım bilməmişdi. Daha qəribəsi budur ki, xalqın etiraz mitinqlərinə başçılıq edən Xalq Cəbhəsinin liderləri hakimiyyətdə olanda da Yanvar müsibətlərinə siyasi qiymət verməmişdir. Nə qədər acı olsa da, deyilməlidir ki, antikommunist çıxışları özlüyündə ictimai şüur baxımından nə qədər önəmli olsa da, tarıma çəkilmiş emosional şüur kütləlləri rasional dövlət quruculuğu, milli həyatın təşkili problemlərinin dərkinə nəinki kömək etməmiş, əksinə, insanların düşüncəsini kütləşdirmişdi. Milli mənlik şüuru sanki virtual reallığın əlavəsinə çevrilmişdi və cəmiyyətin sosial ovqatı konstruktiv ideyalardan qidalanmırdı. Şüurlara yenicə dəbdə olan bazar və demokratiya ideyaları sirayət etsə də (söhbət hələlik bu fenomenlərin rasional dərkindən getmir), milli düşüncə hələ bir çox dəyərləri emosional-psixoloji səviyyədə qavrayırdı. Lakin bir amil şübhəsiz idi: xalq milli müstəqillik və suveren dövlətçilik hisslərinə dərin tələbat duyğusu ilə yaşayırdı, onun etirazlarının emosional xarakter kəsb etməsinə baxmayaraq, o, azadlığın şirinliyini dadmışdı. Lakin xalq hələ özünü beynəlxalq münasibətlər subyekti kimi dərk etmir, dünya inteqrasiya proseslərində öz yerini tapa bilmirdi. Xalq Cəbhəsinin «diplomatları» ona nail olmuşdular ki, hətta Mərkəzi Asiyanın türkdilli dövlətləri də Azərbaycanla



faktik olaraq əlaqələrini kəsmişdilər. Milliliyinə qayıdan xalq real müstəqilliyini hələ tərəddüdlər məcrasında qavrayırdı. Sadəcə, əhali hələ yeni reallıqlara psixoloji uyğunlaşma vərdişlərinə yiyələnməmişdi, ağrılı adaptasiya prosesləri hələ onda pozitiv psixoloji keyfiyyətlər formalaşmağa imkan yaratmamışdı. Respublikada 1988-ci ildən 1993-cü ilin ortalarına qədərki siyasi, iqtisadi və sosial həyatın analitik təhlili belə nəticəyə gəlməyə imkan verirdi ki, nəzərdən keçirilən dövrdə cəmiyyətdə iki böhran–sosial-iqtisadi və mənəvi-əxlaqi, mədəni böhranlar üst-üstə düşərək vəziyyəti mürəkkəbləşdirir, ona dönməz xarakter verirdi. «Total böhran isə, öz növbəsində, real milli siyasətin formalaşmasına, cəmiyyətin və dövlətin modernləşdirilməsinə əngəl törədirdi». O dövrdə respublikaya rəhbərlik edən liderlər dərk etmirdilər ki, Azərbaycan öz tarixində yeni formasiyaya daxil olmuşdur, bu, yeni intellekt, mövcud reallıqlara uyğun milli siyasətin formalaşdırılmasını tələb edirdi. Tarixi tələbat isə millətin gələcəyi ilə bağlı taleyüklü problemlərlə məşğul olmalı, ona qayğı göstərməli lider zərurəti yaradırdı.

Heç şübhəsiz ki, Heydər Əliyevin siyasət fəlsəfəsinin mühüm problemlərindən biri Azərbaycan reallıqlarının modernləşdirilməsi və milli inkişaf ideologiyası ilə bağlı məsələlərin təcili həlli idi. Problemin bu şəkildə qoyulması, təbii ki, cəmiyyətşünaslıq elmimizə bir yenilik gətirmişdir. İlk illərdən aydın oldu ki, təfəkkür tərzi emosional eyforik meydan çıxışlarının təsirinə qapılmış milli şüuru modernizm və müasir inkişaf fəlsəfəsindən bəhrələndirmək son dərəcə çətin və ziddiyyətli prosesdir, bu sosial təşəbbüs püxtələşmiş şüur və siyasi mədəniyyət tələb edirdi. İkinci bir tərəfdən, modernləşdirmə prosesi dinamik və permanent xarakter daşıyırdı. İctimai həyatda sosial-siyasi hadisələr elə sürətlə inkişaf edir ki, son beş ildə yararlı olmuş modernləşmə prinsipləri və metodları sonrakı illər üçün aktuallığını itirir.

1993-cü ilin ortalarından Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra transformasiya prosesləri özünün rasional məcrasını tapdı. Önəmli cəhətlərdən biri budur

ki, Heydər Əliyevin gerçəkliyimizə sosial fəlsəfi yanaşmaları tədqiqatçılarımız arasında modernizm nəzəriyyələrinə marağı artırmışdır. Dördüncü mərhələ hesab olunan bu dövr ölkənin milli inkişafı baxımından özünəməxsus mürəkkəbliyi və ziddiyyətli dönüşlərinə görə fəlsəfənin əksliklərin mübarizəsi və vəhdəti qanununun təzahürünü xatırladır. Azərbaycanın bazar iqtisadiyyatı sisteminə doğru ilk real addımlar atması və dünya birliyinin bərabərhüquqlu subyekti kimi cəsarətlə siyasət meydanına atılması, dünyanın iri və qüdrətli dövlətləri ilə rasional münasibətlər qurması, başqa sözlə, ilk beynəlxalq inteqrasiya təşəbbüslərində bulunması bu konfliktli yeniləşmə dövrlə bağlıdır. Məhz həmin mərhələdə konstruktiv inkişaf ideologiyası formalaşmağa başladı. Onu ideoloji konstruksiya baxımından araşdırsaq, zənnimizcə, bu ideologiyanı neokonservatizmə aid etmək olar. Ümumiyyətlə, konservatizm anlayışını ilk dəfə fransız yazıçısı Şatobrian elmə gətirmiş və bununla o, Böyük Fransa İnqilabı dövründə feodal-aristokratik ideologiyasının yaranmasına təkan vermişdir. Ənənəvi olaraq o, əvvəlcə sosializmə və liberalizmə qarşı çevrilmişdir. Lakin sonralar liberalizm və konservatizmin ideya və dəyərlərinə yenidən baxan neokonservatizm meydana gələrək XX əsrin 70-ci illərinin ortalarından bu iki cərəyanın sintezi kimi formalaşmış, Qərbin sənayecə inkişaf etmiş ölkələrində sol radikal ideyalara və etiraz hərəkatlarına fəlsəfi cavab reaksiyası olmuşdur. Məhz həmin dövrdə liberalizm ideyaları əsasında təşəkkül tapmış «bolluq cəmiyyəti», «rifah cəmiyyəti» sosial-fəlsəfi konsepsiyaları nüfuzdan düşməyə başlayır. Məsələn, B.Kenstsi «Neokonservatizm və yeni sağlar» (1986) əsərində yuxarıda adı çəkilən sosioloji konsepsiyaların tərəfdarlarını bunda günahlandırırdı ki, onlar cəmiyyətin iqtisadi və sosial sahələrində tənzimləmə imkanlarını şişirtməklə əlavə destruktiv halları meydana gətirmiş, ənənəvi sosial institutları dağıtmaqla mücərrəd ideya və layihələrə aludə olaraq cəmiyyətin mövcud inkişafa uyğun gələn təsisat və qurumlarının fəaliyyətini heçə endirmişlər. Cəmiyyətdə, əlbəttə, universal ideal, siyasi institutlar mövcud deyildir, ona görə də



sosiumun inkişafına kömək edən rasional ideyalardan istifadə olunmalıdır, onları saxlamaq lazımdır. Neokonservatorlar cəmiyyətin sosial-iqtisadi sahələrinə dövlətin müdaxiləsini məhdudlaşdırmaq proqramı ilə çıxış etsələr də, sosial qayda-qanunun, hüquq və qanunçuluğun qorunmasında dövlətin nüfuzunun möhkəmləndirilməsinin vacibliyini xüsusi vurğulamışlar. Onların görüşlərini konservatizm tərəfdarlarının baxışları ilə eyniləşdirmək düzgün olmazdı. Çünki neokonservatizm şəxsi azadlıqları, insan hüquqlarını, bazar iqtisadiyyatı və demokratik plüralizmi, xalqların milli mədəniyyətlərini qoruyub saxlamaq hüququnu, sosial təminat prinsipləri kimi dəyərləri qətiyyən inkar etmir. Bu səbəbdən də liberal dəyərlərlə sosializm prinsiplərini qovuşdurmaqla cəmiyyətdə ahəngdar fəlsəfi ideologiyanın bərqərar olmasına çalışır. Onlar bu ideologiya vasitəsilə ailə, məktəb, eləcə də şəxsiyyətlə cəmiyyət arasında vasitəçilik funksiyasını yerinə yetirən müxtəlif assosiasiyaların nüfuzunu bərpa etməyə üstünlük verirlər, çünki bu dəyərlər kifayət qədər qorunmasa, qeyri-təkmil olan insan cəmiyyəti anarxiyanın qurbanı ola bilər. Belə dəyərlərə söykənən baxışlar sistemi Azərbaycan gerçəkliyi üçün ideoloji fenomen rolunu oynaya bilər. Mətbuatda irəli sürülən mühüm bir fikrə görə, «Azərbaycanda mühafizəkar – liberal sistem tamamilə tarazlaşdırılmışdır, o, bir tərəfdən, güclü dövlət hakimiyyətini və hüquq qaydasını, digər tərəfdən isə, iqtisadi fəaliyyət sərbəstliyini dəstəkləyir». («Respublika» qəzeti, 18,19 yanvar 2002-ci il) Gerçəkliyimizə belə konseptual nəzəri yanaşma təqdirəlayiqdir və bizə elə gəlir ki, cəmiyyətşünaslar bu ideoloji cərəyanı daha dərindən araşdırmalıdırlar. Hər halda, belə bir yanlışlığa yol verilməməlidir ki, neokonservatizm, yaxud neoliberalizm Qərb gerçəkliyinin nəzəri-intellektual məhsulu olduğundan Azərbaycan reallığına uyğun gələ bilməz. Bəşər tarixində ideyalar varisliyi həmişə mühüm rol oynamışdır. Qərbin intellektualları öz cəmiyyətlərinin, sosial elmlərin inkişafında Şərqin zəngin mədəniyyətindən əxz edilmiş ideyaların rolunu səmimi olaraq etiraf edirlər. Başlıca şərt budur ki, rasional ideyanı həyata

keçirmək mexanizmini işləyib hazırlamaq vacibdir. Hər halda, belə bir mülahizə nəzərdən qaçırılmamalıdır ki, XX əsrin 70-ci illərindən başlayaraq neoliberalizmi ideologiya səhnəsindən sıxışdıran məhz «neokonservatizm» olmuşdur. Və hər bir nəzəriyyə kimi «xalis» neokonservatizm də mövcud deyildir. Başlıca məsələ isə neokonservatizmin konstruktiv ideyalarının reallıqlarımıza uyğun gəlməsidir. Ona görə də Prezident Heydər Əliyevin dövlət idarəçiliyi dövründə yeritdiyi siyasətin başqa bir üstün tərkib hissəsinin liberal ideologiya olması əsla təsadüfi deyildir. Bu ideologiya, sadəcə, mücərrəd azadlığın bərqərar edilməsi olmayıb, həm də bir sıra xüsusi şərtlər – vətəndaşa məxsus olan «təbii» siyasi hüquqları və mülkiyyətçi hüquqlarını nəzərdə tutur.

Lakin etiraf edilməlidir ki, müdrik siyasətçi Heydər Əliyevin ölkəyə başçılığa qayıdışından sonra respublikanın ictimai həyatının bütün sahələrində danılmaz uğurlar qazanılsa da, milli ideologiya axtarışları davam etməkdədir və bu da təbii sosial prosesdir, çünki dinamik dəyişən həyat özünə münasibət formalarını da dəyişməyə vadar edir, ortaya yeni alternativlər atır. Minillikdə dövlətçiliyin inkişafının milli siyasət fəlsəfəsinin güclü, hüquqi və demokratik dövlət quruculuğunun tərkib hissələrini təşkil edən üç determinant – milli ideya, şəxsiyyət və millətin məqsədyönlülüyü mühüm konseptual mahiyyət kəsb edir. Real məntiqə söykənmiş bu dialektik triadanın hər hansı bir elementindən bəhs etmək, əslində, hər üç element barədə söhbət açmaq deməkdir.

Görkəmli dövlət başçısı Heydər Əliyevin milli mənafelərə söykənən məqsədyönlü siyasəti sayəsində cəmiyyətin ideoloji strukturları canlanmış, milli ideyanın zəruriliyi, düşüncə tərzinin yeniləşməsi aktuallıq kəsb etmişdir.

Zəngin Azərbaycan mədəniyyətinin reallığı və Heydər Əliyev fəlsəfəsinin qaynağı olan fəlsəfi irsimiz həmişə milli ruhun, onun mənəvi dəyər kimi saxlanmasının təbii mənbəyi olmuşdur. Bu gün milli ideya fəlsəfəsini fəlsəfi irsimizdən, bütövlükdə milli inkişafımızdan ayırmaq mümkün deyildir. Milli ideyanın tarixi reallıqlardan qidalandığından söhbət gedirsə,



deyilməlidir ki, etnik özünüreallaşdırmaya nəzəri maraq bütün görkəmli simaları, o cümlədən XIX əsr Azərbaycan elitasını da, hər şeydən əvvəl, etnomədəni özünümüəyyənləşdirmə məcrasında düşündürmüşdür. Milli elita da ictimai həyatımızda siyasi mənəvi hadisə kimi islamın ideya fəlsəfi ənənəsindən əlavə, Azərbaycan İntibahının fikir dühaları Nizaminin, Bəhmənyarın, Tusinin, Nəsiminin, Füzulinin humanist fəlsəfi-əxlaqi irsinə müraciət etmiş, onların ideya potensialından daim bəhrələnmişlər. Bunu milli mentalitemizin inkişafının intibah dövrü adlandırmaq mümkündür.

Azərbaycançılıq ideyası da milli düşüncəmizin nüvəsi kimi Azərbaycan maarifçiliyinin son dövründə və yenicə yaranmaqda olan liberal-demokratik hərəkatda meydana gəlmişdir. Azərbaycanda siyasi elitanın idealı maarifçi xarakter daşımışdır. XX əsrin əvvəllərində türk dünyasının görkəmli simaları Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Əfqani türkçülük, islamçılıq və müasirlik fikirləri ilə milli ideyanın formalaşmasına mühüm ideoloji-fəlsəfi töhfə vermişlər. Lakin Şərqdə ilk demokratik dövlət olan ADR-in dövründə yeni intişar tapan milli ideya sovet rejimi gerçəkliyində keyfiyyət dəyərini itirərək mənəvi milli mentalitemizi mütləq kommunist ideologiyasında əritmişdir.

İmperiyanın dağılması ilə yeni demokratlarda, o cümlədən Azərbaycanda milli ideyaya maraq artmış, şüur intibahına şərait yaranmışdır.

Xoşbəxtlikdən milli inkişafımız tarixi zərurəti olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə çaşqınlıq psixologiyası və hərc-mərclik mühitində milli şüuru zədələnmiş xalqın özünün dövlətçiliyinə olan ümidi artdı, azərbaycançılıq ideyasının mənəvi-fəlsəfi dəyərini tədricən dərkinə normal sosial-psixoloji mühit, xalqın mentalitetinin pozitiv keyfiyyətlər kəsb etməsi üçün imkanlar yarandı. Xalq başa düşürdü ki, millətin formalaşması və millətin özünü formalaşdırması– tarixən permanent xarakter daşıyan bu prosesdə başlıca rol yaradıcı şəxsiyyətlərin, siyasətçilərin üzərinə düşür. Milli varlığımızın, yaşadığımız reallığımızın xüsusiyyətlərindən, tarixi

şəraitdən, dəyişən ictimai, geosiyasi amillərdən asılı olaraq bu və ya digər ideoloji dəstəyə ehtiyac duyan və millətin potensialını saxlamaq, dəyişmək, təkrar istehsal etmək vəzifəsini həll etmək, onun millət yaradan keyfiyyətlərini hifz etmək üçün zəruri olan milli tələbat ilk plana çəkilir. Milli ideyada reallaşan bu şərtlər və tələbatların əsasında dil və doğma torpaq, dövlətçilik və mədəniyyət, tarixi vəzifə, ləyaqət və dünyada layiqli yer tutmaq kimi sosial etnik dəyərlər və dünyagörüşü məsələlər, durur.

Ona görə də Heydər Əliyevin düzgün və məqsədyönlü siyasəti nəticəsində mənlik şüurumuza milli ideyanın cövhəri kimi daxil olmuş azərbaycançılıq konsepsiyası üzərində geniş dayanmaq, onun yeni fəlsəfi-siyasi problem kimi aktuallığını konseptual əsasda araşdırmaqla biz milli mentalitetin mahiyyətinə də aydınlıq gətirə bilərik. Problemə kompleks yanaşmaqla, «azərbaycançılıq» ideyasının sosial-fəlsəfi mahiyyətini təşkil edən mühüm komponentlərin analitik təhlili, bu fenomeni bir neçə cəhətdən – antropologiya, etnoqrafiya, sosial psixologiya, linqvistika çərçivəsində nəzərdən keçirmək son dərəcə vacibdir.

Əgər müasir siyasət fəlsəfəsinə insan amili meyarları ilə yanaşsaq, demək mümkündür ki, sadalanan hər bir elm sahəsi vahid və bölünməz Azərbaycanı qoruyub saxlamaq, möhkəmləndirmək naminə, yeni azərbaycançılıq ideyasının cəmiyyətdə bərqərar olması xatirinə öz funksional borcunu yerinə yetirmiş və yetirməkdədir. Azərbaycançılıq milli varlığımızın və düşüncə tərzimizin fəlsəfəsidir.

Öz ləyaqətini itirməmək, sağlam düşüncə fəlsəfəsi, vətənpərvərlik, dövlətçilik milli varlığın, həyat tərzinin, tarixi yaddaşımızın dayaqlarıdır. Bu baxımdan neokonservatizm və azərbaycançılıq ideyaları müxtəlif etnomədəni reallıqların məhsulu olsalar da, bir-birilərini praktik reallaşmasına görə tamamlayır, vəhdət təşkil edirlər.

Böyük tarixi qismətdir ki, Heydər Əliyevin ikinci qayıdışı ilə vətən naminə qurub-yaradan və dünyaya tanıdılmaq fəlsəfəsi olan azərbaycançılıq xalqımıza qaytarıldı. Ölkə Prezidenti



Heydər Əliyev milli varlığımızın ideya təməli olan azərbaycançılıq haqqında belə demişdir: **«Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə, mentalitetinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq».**

Azərbaycançılıq elə bir meyardır ki, hər bir azərbaycanlı bunun vasitəsilə özünüqavrayışını, identikliyini qiymətləndirir, öz tarixi yaddaşına hörmətlə yanaşır, Vətən amalını uca tutur. Orteqa-de-Qasset «Don Kixot haqqında düşüncələr» əsərində göstərir ki, insan «Mən» ilə onun ətraf mühitinin məcmusundan ibarətdir. İnsan ona görə şüur və idrak subyektidir ki, şəraitə söykənərək, o, ətraf aləmi müəyyən fərdi perspektivə çevirir. Azərbaycançılıq ideyası özünüidentifikasiya üçün fəlsəfi örnəkdir, dövlətçilik, müstəqillik ideyalarını ehtiva edən mentalitetimizi saflaşdıran ideologiyadır, millətin mənlik şüuruna uyğun sağlam sosial mühitini yaratmaq ideologiyasının nüvəsidir.

Prezident Heydər Əliyevin xalqına müstəqillik, tarixi yaddaşı unutmamaq, vətən amalı, həmrəylik, azərbaycançılıq kimi müqəddəs ideyalar aşılayan siyasət məktəbi yeni formasiyada fəaliyyət göstərəcək milli siyasətçilərimiz üçün örnəkdir. Prezidentin bütün diplomatik görüşləri ilə dünya siyasətçilərinə bir daha göstərdi ki, ölkəsinin milli mənafelərini üstün tutan dövlət başçısı, həmçinin xalqının sivil obrazını yaratmaq, onu müasir dünyagörüşlü millət kimi tanıtmaq üçün nəhəng enerji sərf etməklə bəzən də siyasi riskə getməli olur.

Böyük siyasətə öz səsi ilə gələn İlham Əliyevlə bağlı cəmiyyətimizdə çox istedadlı siyasətçi imici formalaşmışdır. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Heydər Əliyevin siyasət məktəbi İlham Əliyevin simasında təkcə mükəmməl savada malik deyil, həmçinin XXI əsr Azərbaycan siyasəti və diplomatiyasında özünə mühüm yer tutan, qloballaşma əsrində iqtisadi strategiyamızı yüksək professionallıqla həyata keçirən

istedadlı siyasətçi yetişmişdir. Bir misal: İlham Əliyev hələ 1998-ci il martın 31-də San-Fransiskoda Stenford Universitetində məzmunlu çıxışı ilə özünü istedadlı diplomat kimi təqdim edə bilmişdir. Onun çıxışından sonra ABŞ-ın keçmiş dövlət katibi Ç.Şults demişdir: «Cənab İlham Əliyev, Sizin öz qüvvənizə arxalanmağınız, işlərinizi uğurla irəli aparmağınız məndə böyük rəğbət doğurur. Mən inanıram ki, müstəqil Azərbaycan Respublikası görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə yaxın illərdə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir». Fəaliyyətində demokratik liberalizm dəyərlərinə söykənən gənc siyasətçi islahatların uğurla həyata keçirilməsində fəal iştirak edir. Onun AŞPA-nın işində diplomatik fəaliyyəti isə xüsusi mövzudur. İlham Əliyev ümummilli mənafelərin təmin edilməsi naminə qısa müddət ərzində mühüm uğurlar qazana bilmişdir.

İlham Əliyevin fəaliyyəti həm də gənc milli elitanın formalaşması prosesinə sağlam impuls verir. Sivilizasiya tarixi göstərir ki, elitası olmayan ölkə normal inkişaf etmir, inkişaf etmiş ölkələrin çoxunda normal siyasi elita fəaliyyət göstərir. Elita millətin intellektini, iradəsini təkcə fövqəladə genetik təbiətə malik insanların deyil, həm də sadə təbəqələrdən çıxmış fitri istedadlı fərdlərin mənəvi-əxlaqi keyfiyyətlərini özündə ehtiva edir. Elita bayağı deyil, əxlaqi aristokratizmin daşıyıcısıdır. Orteqa-de-Qasset yaxşı demişdir: «Aristokratizmdən məhrum olan cəmiyyət məhvə məhkumdur». Milli elita hər şeydən əvvəl Azərbaycan xalqının dövlətçiliyini ardıcıl və ləyaqətlə həyata keçirən intellektual potensialıdır, inkişaf etmiş milli mənlik şüurunun daşıyıcısıdır.

Təbii ki, nəhəng siyasətçi və xalqımızın ozman oğlu Heydər Əliyevin şəxsiyyəti və titanik fəaliyyəti barədə arzu olunan bütün fikir və mülahizələri bir yazıda vermək mümkün deyil. Və biz əminik ki, tədqiqatçılarımız bu kitabda qoyulmuş nəzəri problemlərə maraq göstərəcəklər. Unutmayaq ki, cəmiyyətin həmişə fəlsəfi refleksiyaya ehtiyacı olmuşdur, yəni böhranlı anlarda özlərinin sosial-siyasi vəziyyətinə kənardan baxıb əxlaqi düşüncələrə dalmağı lazım bilir.



Bizim bu kitabımız da cəmiyyətimizdə Heydər Əliyevin başçılıq etdiyi milli siyasətimizə, milli varlığımıza, düşüncə tərzimizə, bir növ, fəlsəfi refleksiyadır, cəmiyyətimizin hazırkı durumu barədə fəlsəfi düşüncələrə dalmaq üçün bir imkandır.

Şübhə etmirik ki, Heydər Əliyevin müstəqillik, tarixi yaddaş, vətən amalı və milli həmrəylik barədə intellektual düşüncələrinin fəlsəfəsini öyrənməklə bu fəlsəfənin milli mentalitemizin saflaşdırıcı rolu sahəsində təqdirəlayiq əsərlər hələ bundan sonra yazılacaqdır.

Alman filosofu M.Veberin çox gözəl deyimi var: «Biz dünyaya ona görə gəlmişik ki, dünyaya, ətrafımıza məna kəsb etdirək».

Bu gün iftixar hissi ilə deyə bilərik ki, yüksək amallı azərbaycanlı Heydər Əliyev yorulmaz və ləyaqətli fəaliyyəti ilə xalqımızın müstəqilliyini mənalandırır, milli mənliyimizi nurlandırır, düşüncə tərzimizi saflaşdırır.

## NƏTİCƏ

Bu gün mənlik şüurumuzun zənginləşməsi, düşüncə tərzimizin yeniləşməsi və mentalitetimizin yeni sosial-əxlaqi keyfiyyətlər kəsb etməsi soydaşlarımızı çox mühüm bir məqam ətrafında düşünüb - daşınmasını vacib edir. Cəmiyyətimizin hazırki inkişaf mərhələsində çox mühüm sosial-psixoloji faktor - Heydər Əliyevin fəlsəfəsindən irəli gələn özünütənqid ruhu, nədənsə, milli həyatımızın tam zəruri dəyərinə çevrilməməsidir. Ölkə Prezidentinin bir təcrübəli dövlət başçısı kimi milli inkişafımıza əngəl olan qüsurları ifşa etmək barədə dəfələrlə söylədiyi tövsiyələrə baxmayaraq, əməli-praktik işdə biz bunu bəzən həyata keçirə bilmirik: çox qəribə bir psixoloji vəziyyətin şahidi oluruq, biz ya öz fəaliyyətimizi, düşüncə potensialımızı gerçəkliyimizdəki proseslərdə üzə çıxan neqativ halların tənqidi təhlilinə ya yönəltmək istəmirik, ya da bunu bacarmırıq. Əgər biz həqiqətən də Prezidentin ətrafında sıx birləşməyimizi deyilişi xoş səslənən şüara çevirmək istəmiriksə, müstəqilliyimizin təkmilləşməsinə mane olan nöqsanlarımıza qarşı amansız olmalıyıq. Bu gün bacarmamaq ovqatına mübtəla olmaq sabahı aydın görməmək deməkdir, gələcək nəsillər qarşısında məsuliyyət hissini itirmək, yaxud bunun əxlaqi mahiyyətini dərk etməmək deməkdir. Bu gün bacarmamaq ab-havası mentalitetimizə hoparsa, deməli, əsrin çağırışlarına, qloballaşmanın meydana atdığı planetar əhəmiyyətli problemlərin həlli qarşısında aciz qala bilərik. Bu o



deməkdir ki, mentaliteti tarixən sülhsevər siyasət məcrasında formalaşmış, «özgə torpaqlarında gözümüz yoxdur» əxlaqi ruhunda tərbiyə almış xalq böyük siyasi oyunlara cəlb oluna bilər, həyata saf dünyagörüşü ilə baxan millət məkrli siyasətbazlar tərəfindən tez-tez aldadıla bilər.

Təəsüf ki, hələ də böhranlı keçid dövrünün mentalitetimizin saflaşmasına mane olan sosial-psixoloji konfliktlərinin təsirindən azad ola bilməmişik. Bu gün yaradılmış və mənlik şüurumuzun inkişafı üçün vacib olan dəyərlərin cəmiyyətimizin bütün üzvləri tərəfindən hələ dəyərincə, adekvat qavranılmaması bizi düşündürməyə bilməz, çünki gerçəkliyimizdə mənəvi boşluğu, qeyri-müəyyənliyi yaradan, çaşqınlıq psixologiyasının şüurlardan təmizlənməsinə mane olan başlıca amillərdən biri məhz budur. Milli varlığımıza vurulan ən böyük siyasi-mənəvi ziyan budur ki, sözdə xalqımızın şərəf və ləyaqətini qorumaqdan dəm vuranlar, işdə isə ölkə Prezidentinin pak ideyalarına bağışlanmaz biganəlik göstərən səbatsız və əqidəsiz qüvvələr bu mənəvi boşluqdan öz miskin maraqları üçün insaniyyətdən uzaq metodlarla istifadə edirlər. Məhz buna görə bu gün qəlbində azərbaycançılıq amalını daşıyan hər bir vətəndaşımıza sağlam əqidə aşılamaq həmişəkindən daha çox gərəkdir.

Biz Heydər Əliyevin mentalitemizi yeni ideyalarla zənginləşdirən həyat fəlsəfəsinin ruhundan çıxış edərək özümüzə bir vətəndaş sualını ünvanlayırıq: «Xalqımızın şərəf və ləyaqətini qorumaq, mənlik şüurunu inkişaf etdirmək, onun milli düşüncəsini saf ideyalar məcrasına yönəltmək üçün dəyərincə iş görə bilmişikmi?» Bizcə, bu ritorik sual deyil, tarixi

yaddaşına ehtiram edən və Vətən amalı ideyasına sədaqətli olan hər bir kəsi düşündürməlidir. Doğrudur, biz belə bir çətin həyati sualın bir mənalı cavabının olmasını düşüncəmizdə mütləqləşdirmək fikrində deyilik. Yalnız bunu demək istərdik ki, primitiv siyasətbazlıqla məşğul olanlar, düşüncəsini yalnız öz cılız maraqları ilə buxovlayan «millət qəhrəmanları» Heydər Əliyevin tutduğu haqq yolun üstündə durmasınlar. Həyatımızın qüsurlarından müxənnətcəsinə istifadə edib milli inkişafımıza mane olmasınlar, onlar bilməlidirlər ki, tarix özü onları gec-tez haqq yoluna qaytaracaqdır.

Heydər Əliyev fəlsəfəsi milli düşüncəmizin fenomenidir. Xalq onun müdrik kəlamlarına, milli həmrəylik fəlsəfəsinin milli təfəkkürmüzü mənalandıran mülahizələrinə dəfələrlə müraciət edəcəkdir. Ölkə Prezidenti həyati müdrikliyilə zəhmətkeş bağbanı xatırladır: o bilir ki, bu gün əkdiklərindən sonraki nəsillər də bəhrələnəcəklər. Şübhə etmirik ki, xalqının qeyrətli oğlu Heydər Əliyevin milli müstəqilliyimizin ruhundan mayalanmış həyat fəlsəfəsi, onun milli düşüncəmizin inkişafı naminə tövsiyə etdiyi mütərəqqi ideyalar bir çox nəsillərin qəlbinə yol tapacaq və azərbaycanlıların əməli fəaliyyətində real təcəssümünü tapacaqdır.

Bəşəri siyasi liderlər daima gəldi-gedər olurlar, onlar özlərindən sonra xalqının tarixində ya acı xatirə dolu bir boşluq, ya da zəngin siyasi təcrübəyə əsaslanan yenilikçi ruhunda olan mütərəqqi fikirlər və ölməz ideyalar qoyub gedirlər. Bu mütərəqqi fikirlər, nəcib işlər və ölməz ideyalar xalqının sosial və tarixi yaddaşında yaşamaqda davam edir. Onların xoşbəxtliyi də bundadır! Əgər bu ideya və fikirlər xalqın ümüd



və arzu şamlarını yandırırsa, xalqın şərəfi, ləyaqəti, mənəvi sağlamlığı və mentaliteti barədə qayğılanırsa, onda bunlar milyonlarla insanın qəlbinə və zəkasına hoparaq dərin əqidəyə çevriləcəkdir.

Prezident Heydər Əliyev xalqının ləyaqət və mentalitetinin qorunması və formalaşmasını bacarıqla, tarixi borc hissi və məsuliyyətlə həyata keçirir. O bu nəcib fəaliyyətə başqalarını da öyrədir, onları dəyərli ideyalarla, məsləhətlərlə, müdrik nəsihətləri silahlandırır.

Məhz bu məntiq baxımından Heydər Əliyevin Azərbaycan xalqının tarixində rolu əvəzsizdir. Onun ideya və fikirləri soydaşlarımızın düşüncəsinə hakim kəsilərək qüdrətli yönümləndirici amilə çevrilmişdir.

Əziz oxucu, o, bizləri öz tariximizə, milli mentalitimizin köklərinə, mənşəyinə yeni nəzərlə baxmağı, tarixən itirdiklərimizi və nailiyyətlərimizi yenidən dərk etməyə, milli özünüdərkin bütün imkanlarını və parametrlərini hərəkətə gətirməyə öyrədir və hamımızı buna çağırır.

Xalqların milli inkişaf taleyi elədir ki, öz müasir tarixinin sərt dönüşlərində, sosial fəlakətlə üzləşdikdə özlərinə vaxtilə Franklin Delano Ruzveltin sualını verirlər: «Üfüqdə T.Cefferson görünürmü?» «Cefferson həmişə olduğu kimi, bu gün də bizə lazımdır».

Biz şübhə etmirik ki, gələcək nəsillər milli müstəqilliyimizi, ilk günlərdən üzləşdiyi ziddiyyətlərin və çətinliklərin mahiyyətini, öz dövrünün təlatümlü hadisələrini dərk edərkən, bir sözlə, keçmişini və gələcəyini öyrənəcək və deyəcəkdir: «Heydər Əliyev həmişə olduğu kimi, bu gün də bizə gərəkdir».

# MÜNDƏRİCAT

**Giriş** ........................................................................... 5

**I Fəsil.** *Milli mentalitet sosiomədəni fenomendir* ................. 8

**II Fəsil.** *Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» konsepsiyası xalqın mentalitetinin fəlsəfi qaynağıdır* ........................................................ 45

**III Fəsil.** *Tarixi yaddaş və mentalitet* ...................................75

**IV Fəsil.** *Mentalitet: Vətən amalı və azərbaycançılıq məsələləri* ............................................................. 108

**V Fəsil.** *Xalqın mentaliteti milli həmrəylik müstəvisində* ......................................................... 146

**VI Fəsil.** *Dövlətçilik və siyasi mentalitet* ................................. 176

**VII Fəsil.** *Milli mentalitetin inkişaf oriyentirləri* ....................... 231

**Nəticə** ........................................................................ 242



Nəşriyyat redaktoru: H.Dayızadə
Korrektor: Z.Əhmədov

Yığılmağa verilmişdir 01.04.2003.
Çapa imzalanmışdır 25.04.2003.
Şərti çap vərəqi 15,5.
Formatı 60x90 1/16
Ofset kağızı №1.
Tirajı 2000 nüsxə.

"Qismət" məətbəsi tərəfindən
ofset üsulu ilə çap olunmuşdur.

Qoşqar Cəlal oğlu Əliyev

**Heydər Əliyev**
**və milli mentalitet fəlsəfəsi**
*(Azərbaycan dilində)*

Bakı-Qismət-2003